# QƏDİM DİYAR

Beynəlxalq onlayn elmi jurnal

## ANCIENT LAND

International online scientific journal

aem.az

AEM

ISSN: 2706-6185
e-ISSN: 2709-4197

**AZƏRBAYCAN RESPUBLİKASI**

**THE REPUBLIC OF AZERBAIJAN**

# QƏDİM DİYAR

**Beynəlxalq onlayn elmi jurnal**

**Cild: 5 Sayı: 4**

# ANCIENT LAND

**International online scientific journal**

**Volume: 5 Issue: 4**

**Bakı – Baku**
**2023**

Jurnal 31.01.2012-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir
Reyestr №3534

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
31.01.2012.
Registration No. 3534

# Beynəlxalq indekslər / International indices

**ISSN: 2706-6185**
**e-ISSN: 2709-4197**
**DOI: 10.36719**

**Redaksiyanın ünvanı**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
Az1073, Baku,
Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 806 67 68
+994 12 510 63 99

**e-mail**
qedim.2012@aem.az

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

## Təsisçi və baş redaktor

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

## Redaktor

**Assoc. Prof. Dr. Pərvanə PAŞAYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
p.parvana84@gmail.com

## Editor

**Assoc. Prof. Dr. Parvana PASHAYEVA**, Baku State University / Azerbaijan
p.parvana84@gmail.com

## Redaktor köməkçisi

**Magistrant Gülşən ATAKİŞİYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
a_gulsen00@mail.ru

## Assistant editor

**Master Gulshan ATAKISHIYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
a_gulsen00@mail.ru

## Redaktor köməkçisi

**Tədqiqatçı Nəhayət HÜSEYİNLİ**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
nehayet.huseynli@gmail.com

## Assistant editor

**Researcher Nahayat HUSEYINLI**, Azerbaijan Science Center / Azerbaijan
nehayet.huseynli@gmail.com

## Dillər üzrə redaktorlar

**Prof. Dr. Abbas ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan

## Language editors

**Prof. Dr. Abbas ABBASOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV**, ANAS Institute of Linguistics / Azerbaijan

## Elmi sahələr üzrə redaktorlar

**Prof. Dr. Firuzə ABBASOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Rafail HƏSƏNOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zərövşən BABAYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Fazil BAXŞƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Ələmdar ŞAHVERDİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Vüsalə AĞABƏYLİ**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Salatın HACIYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

## Editors in scientific fields

**Prof. Dr. Firuza ABBASOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Rafail HASANOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Zarovshan BABAYEVA**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Fazil BAKHSHALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Alamdar SHAHVERDIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Vusala AGABAYLI**, Azerbaijan University of Languages / Azerbaijan
**Assoc. Prof. Dr. Salatin HAJIYEVA**, Nakhchivan State University / Azerbaijan

## REDAKSİYA HEYƏTİ

**Prof. Dr. Nailə VƏLİXANLI**, Tarix muzeyi / Azərbaycan
**Prof. Dr. Abdulkadir GÜL**, Ərzincan Binalı Yıldırım Universiteti / Türkiyə
**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Vaqif SOLTANLI**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Adil BAXŞƏLİYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Seyfəddin RZASOY,** AMEA Folklor İnstitutu / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Mübariz SÜLEYMANOV**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Sərvər ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mönsüm ALIŞOV**, "İdrak" liseyi / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Nasiba SABİROVA**, Urgenc Dövlət Universiteti / Özbəkistan
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülçöhrə ƏLİYEVA**, Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Taleh XƏLİLOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Fərqanə ƏLİYEVA**, DİN-nin Polis Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Lyudmila CAVADOVA**, İqtisadiyyat və Hüquq üzrə Pedaqoji Kollec / Rusiya, Dağıstan Respublikası
**Assoc. Prof. Dr. Şəhla ƏHMƏDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Rəşad SADIQOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramis HƏŞİMOV**, Dağıstan Dövlət Universitetinin Dərbənd filialı / Rusiya, Dağıstan Respublikası

## EDITORIAL BOARD

**Prof. Dr. Naila VALIKHANLI**, The museum of History / Azerbaijan
**Prof. Dr. Abdulkadir GUL**, The University of Arzinjan Binali Yildirim / Turkey
**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Vagif SOLTANLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Adil BAKHSHALIYEV**, Sumgait State University / Azerbaijan
**Prof. Dr. Seyfaddin RZASOY**, ANAS Institute of Folklore / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Mubariz SULEYMANOV**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Sarvar ABBASOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Monsum ALISHOV**, Idrak Lyceum / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, The Institute of History of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Nasiba SABIROVA**, Urgench State University / Uzbekistan
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulchora ALIYEVA**, Azerbaijan State Marine Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Taleh KHALILOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**Assoc. Prof. Dr. Fargana ALIYEVA**, Police Academy of the Ministry of Internal Affairs / Azerbaijan
**Assoc. Prof. Dr. Lyudmila JAVADOVA**, Pedagogical College on Economy and Law / Russia, The Dagestan Republic
**Assoc. Prof. Dr. Shahla AHMADOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Astrakhan State University / Russia
**Assoc. Prof. Dr. Rashad SADIGOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramis HASHIMOV**, Derbend branch of Dagestan State University / Russia, the Dagestan Republic

DOI: https://doi.org/10.36719/2706-6185/22/6-10

**Hacı Həsənov**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
hacihasanov@mail.ru

# GÜNEY QAFQAZ ƏHALİSİNİN MİLLİ-ETNİK TƏRKİBİ HAQQINDA (1897-Cİ İL RUSİYA İMPERİYA ƏHALİSİNİN BİRİNCİ ÜMUMİ SİYAHIYA ALMASININ MATERİALLARI ƏSASINDA)

**Xülasə**

1897-ci ildə Rusiya imperiyası əhalisinin ilk ümumi siyahıyaalınmasının materialları əsasında hazırlanan bu məqalədə yerli əhalinin milli-etnik tərkibində dəyişikliklər sahəsində Romanov Rusiyasının mürtəce müstəmləkəçilik siyasətinin nəticələri araşdırılır. İstinad edilən materiallar inandırıcı şəkildə göstərir ki, çar Rusiyası yeni müstəmləkə hakimiyyətlərinə etnik dayaq yaratmaq məqsədilə 19-cu əsrin əvvəllərindən Cənubi Qafqazda Avropa Rusiyasından, xüsusən də ərazilərdən əsasən xristian etnik elementlərinin kütləvi köçləri həyata keçirmişdir. Qacar və Osmanlı imperiyalarının rus-fars və rus-osmanlı müharibələri nəticəsində fəth edilmişdir.

***Açar sözlər:*** *Bakı, İrəvan, Dərbənd, quberniya, statistika*

**Haji Hasanov**
ANAS Institute of History named after A.A.Bakikhanov
Ph.D in History
hacihasanov@mail.ru

## On the national and ethnic composition of the population of the South Caucasus (Based on the materials of the first general census of the Russian Empire of 1897)

**Abstract**

In this article, based on the materials of the first general census of the Russian Empire of 1897, the results of the reactionary colonial policy of Romanov's Russia in the field of changes in the national and ethnic composition of the local population are examined. These materials convincingly show that tsarist Russia, with the aim of creating an ethnic support for the new colonial authorities, since the beginning of the XIX century in the South Caucasus, carried out mass resettlement of mostly Christian ethnic elements from European Russia, especially from the territories defeated as a result of Russian-Persian and Russian-Ottoman wars of the Qajar and Ottoman empires. As a result of this policy, by the end of the XIX century, significant national and ethnic changes had occurred in many regions of Northern Azerbaijan, especially in the native Muslim-Turkic lands of Irevan, Nakhchivan and Karabakh. In Irevan, the Turkic-Muslim majority turned into a national-ethnic minority, and a rather significant Christian community was formed in Karabakh.

***Keywords:*** *Baku, Irevan, Darband, governatore, statistics*

## Giriş

Məlumdur ki, Güney Qafqaz XVIII əsrin sonlarından etibarən romanovlar Rusiyasının çox fəal surətdə geniş işğallar həyata keçirdiyi bir bölgəyə çevrilmişdir. 1783-cü il Georgiyevsk müqaviləsinin imzalanması, 1796-1797-ci illərdə Quzey Azərbaycana general V.Zubovun başçılığı altında çoxminlik rus işğal korpusunun yeridilməsi Peterburq dairələrinin bu bölgədəki genişmiqyaslı işğalçılıq məqsədlərindən xəbər verən ilk siqnallar idi. 1801-ci ildə Şərqi Gürcüstanın Rusiya imperiyasına birləşdirilməsi, bundan dərhal sonra Rusiya ordularının Quzey Azərbaycanda işğalçı müharibələrə başlaması çox tezliklə bu bölgədə tammiqyaslı Rusiya-Qacar və Rusiya-Osmanlı müharibələrinə gətirib çıxardı və öz şərqli müsəlman rəqiblərinə enə bilmiş bilmiş romanovlar Rusiyası Buxarest, Gülüstan,

Türkmənçay və Ədirnə müqavilələrinə əsasən Güney Qafqazı qamarlanmasını Tehran və İstanbula qəbul etdirməyə nail ola bildi (Azərbaycan tarixi 3 clddə, 1960; Azərbaycan tarixi 3 cilddə, 1963; İbragimbeyli, 1969).

Peterburqun hakim dairələri çox yaxşı başa düşürdü ki, əksəriyyəti müsəlman əhalisi ilə məskunlaşmış bu meqabölgəni itaətdə saxlamağın ən başlıca şərtlərindən biri də burada qeyri-müsəlman, ilk növbədə də xristian etnik elementlərini himayə etmək və hər bir cəhdlə bölgənin hər bir yerində bu elementləri mümkün qədər gücləndirmək lazımdır. Bu, həm də cənubdakı müsəlman qonşu dövlətlərlə sərhədlər üzərində Rusiya nəzarətinin sabitliyini təmin etmək baxımından da Rusiyanın dövlət mənafelərinə müvafiq bir şərt idi. XIX əsrin ilk sülsündə Peterburq hakim dairələrinin Qacarlar və Osmanlı ərazilərindən həyata keçirdiyi erməni köçürmələri, habelə Rusiya imperiyasının daxili quberniyalarından əvvəlcə təriqətçilərin, sonra isə bütövlükdə hər hansı xristian əhalisinin Güney Qafqaza, ilk növbədə də Quzey Azərbaycana köçürülməsi məhz həmin işğalçı məqsədlərə xidmət edirdi.

Yeni işğal edilmiş ərazilərdə Rusiya imperiyasının ağalığının təmin edilib möhkəmləndirilməsinə yönəldilmiş bu genişmiqyaslı və uzaqməqsədli köçürmə siyasəti nəticəsində bölgənin, demək olar ki, hər bir yerində əhalinin milli-etnik tərkibində çox ciddi dəyişikliklər baş verdi.

Haqqında danışdığımız demoqrafik dəyişiklikləri, əhalinin milli-etnik tərkibinin təkamülünü istər rus hakimiyyət orqanlarının hələ işğalların gedişi dövründən keçirməyə başladıqları kameral təsvirlərdən, həm 1886-cı ilin ailə siyahılarından, habelə digər qaynaqlar və ədəbiyyatdan görmək mümkün olsa da XIX əsrdə baş vermiş demoqrafik dəyişikliklərin ən dəqiq mənzərəsini məhz Rusiya imperiyası əhalisinin 1897-ci il yanvarın 15-də keçirilmiş ilk ümumi siyahiyaalmanın məlumatları əsasında yaratmaq mümkündür.

Beləliklə, 1897-ci il əhali sayımının nəticələrinə görə:

Ərazisi 34.410,2 kv. verst olan Bakı quberniyasında (4) 826.716 nəfər əhali yaşayırdı. Bu əhalinin içərisində xarici vətəndaşların sayı cəmisi 25.334 nəfər (bütün əhlinin 3,06 %-i) idi ki, bunlardan da yarısından çoxu - 13174 nəfəri quberniyanın şəhərləri və qəza mərkəzlərində cəmləşmişdi. Elə təkcə Bakı şəhərində 10.554 nəfər xarici təbəə qeydə alınmışdı.

Quberniya əhalisinin 683148 nəfərini və ya 82,63 %-ni müsəlmanlar təşkil edirdilər. Əhali içərisində 77.681 nəfər rus, ukraynalı və belarus, 1439 nəfər polyak, 3430 nəfər alman, 52233 nəfər erməni, 8172 nəfər yəhudi dininə sitayiş edən, habelə 4029 nəfər başqa milli-etnik qrupların nümayəndələri var idi. Onu da qeyd edək ki, Bakı quberniyasının müsəlman əhalisi içərisində Azərbaycan türklərinin sayı 495690 nəfər və ya 72,56 % təşkil edirdi.

Göründüyü kimi, Quzey Azərbaycanın əsasən şərq hissəsini (qismən də şimali-şərq hisssəsini) təşkil edən Bakı quberniyasında ciddi demokratik dəyişikliklərə gətirib çıxarmış məqsədəyönümlü tədbirlərə baxmayaraq türk-müsəlman toplumu hələ ki, öz mütləq say üstünlüyünü qoruyub saxlaya bilmişdi.

Yelisavetpol quberniyası üzrə (5):

1868-ci ildə mərkəzi tarixi Gəncənin 1804-cü ildən bəri adlandırıldığı Yelisavetpol şəhəri ilə eyniadlı bu quberniyanın ümumi ərazisi 38.782, 5 kv. verst idi. 8 qəzaya bölünmüş bu quberniyada 787415 nəfər əhali içərisində türk-müsəlmanların sayı 551631 nəfər idi ki, bu da bütün quberniya əhalisinin cəmisi 62,8 %-ni təşkil edirdi. 1897-ci ilin siyahıyaalmasının nəticələri göstərir ki, Rusiya hakim dairələrinin müstəmləkəçi köçürmə siyasəti bu quberniyada daha ağır nəticələrə gətirib çıxarmışdı.

Məsələn, quberniya üzrə təkcə erməni əhalisinin ümumi sayı 292188 nəfərə çatmışdı ki, bu da bütün quberniya əhalisinin 33,26 %-ni, quberniyanın xristian əhalisinin (320297) isə 91,22 %-ni təşkil edirdi. Bütövlükdə götürdükdə xristianların quberniya əhalisi içərisindəki xüsusi çəkisi 36,46 % təşkil eidirdi. Ermənilərdən başqa Yelisavetpol quberniyasında 17875 nəfər rus, ukraynalı və belarus, 3194 nəfər alman, habelə 7040 nəfər udin qeydə alınmışdır. Adları çəkilən millət və etnik qruplardan başqa qalanlarının ümumi sayı 6487 nəfərə bərabər idi.

İrəvan quberniyası üzrə (6):

Əsası 1849-cu ildə qoyulmuş, mərkəzi ulu Çuxuryurdun ürəyində yerləşən tarixi türk yurdu - İrəvan şəhəri olan, Araz çayının quzey (İrəvan, Aleksandropol -Gümrü, Naxçıvan, Yeni Bəyazid,

Şərur-Dərələyəz və Üçmüəzzin) və güney (Sürməli) tayında yerləşən 7 qəzadan ibarət olub Vətənimizin quzeyinin qərb torpaqlarının xeyli hissəsini əhatə edən bu quberniyada əhalinin ümumi sayı, 1897-ci ilin məlumatlarına görə, 441889 nəfər idi. Quberniyanın ümumi ərazisi 23.226,4 kv. verstə çatırdı. 1827-ci il işğallarından sonra çarzimin ən intensiv köçürmə aktlarına məruz qalmış Azərbaycan torpaqlarından biri də Qarabağ və Naxçıvanla yanaşı İrəvan bölgələlərimiz idi. Məsələn, 1897-ci ildə İrəvan qəzasında ermənilərin ümumi sayı (58.148) buradakı əhalinin (150879 nəfər) 38,54 %-ni, İrəvan şəhərində isə 43,17 %-ni (29006 nəfərdən 12523 nəfəri) təşkil edirdi.

Bütün bunlara baxmayaraq türk-müsəlman əhalisi (362565 nəfər) hələ də ümumquberniya əhalisinin (829556 nəfər) 43,71 %-ni təşkil edirdi. Bununla yanaşı çarizmin mürtəce köçürmə siyasətinin ağır nəticələri göz qabağında idi: ulu türk yurdu olan İrəvanda türk-müsəlman əhalisi azlığa çevrilmişdi. Əvəzində büsbütün gəlmələr – ermənilər (44100 nəfər), ruslar, ukraynalılar və belaruslar (15937), yəhudilər (850), aysorlar (2862) və başqaları (6342) çoxluğa yiyələnmişdilər. Bütün xristianlar (456937 nəfər) quberniya əhalisinin 55,08 %-ni, ermənilər (44100 nəfər) isə 53,16 %-ni təşkil edirdilər.

Bu quberniyanın qəzaları içərisində əhalinin milli-etnik tərkibində çox ciddi dəyişikliklər getdiyi qəzalardan biri də Arazın sağ sahilində, Güney Azərbaycanda yerləşən, ərazisi cəmisi 32,41 kv. verst olan Sürməli qəzası idi. 1897-ci ildə burada qeydə alınmış 89055 nəfər əhalidən ancaq 41417 nəfəri, yəni 46,5 %-i Azərbaycan türklərinin payına düşürdü. Əvəzində ermənilərin sayı 27075, kürdlərin sayı 19099, rus, ukraylanı və belarusların sayı 1361 nəfər çatmışdır.

Tiflis quberniyası üzrə (7):

Məlumdur ki, çar Rusiyasının müstəmləkə əsarəti dövründə Quzey Azərbaycanın bir çox qərb və şimali-qərb bölgləri Tiflis quberniyasının tərkibinə daxil edilmişdir. Ümumi ərazisi 35577,7 kv. verst olan, 9 qəzaya bölünmüş bu quberniyada 1897-ci ildə 996808 nəfər yaşayırdı. Bu əhalidən ancaq 80893 nəfəri (quberniya əhalisinin cəmi 8,11 %-i) türk-müsəlman əhalisinin payına düşürdü. Əvəzində buraya köçürülmüş ermənilər (194089 nəfər) bütün quberniya əhalisinin az qala 20 %-ni (19,47 %) təşkil edirdilər. Bu quberniyanın 9 qəzasında 85,3 min nəfər rus, ukraynalı və belorus, 67,3 min nəfər osetin və b. yaşayırdı. Quberniyanın ən böyük etnik toplumunu gürcülər (453 min nəfər) təşkil edirdilər. Ümumquberniya əhalisinin təxminən 45,5 %-i onların payına düşürdü.

Dağıstan vilayəti (8) üzrə:

Güney Qafqazın türk-müsəlman əhalisinin kompakt yaşadığı bölgələrdən biri də Quzey Azərbaycan torpaqlarının bir hissəsinin daxil olduğu Dağıstan vilayəti idi. Doqquz dairəyə (Teymurxanşura, Avar, Andi, Qunib, Dargin, Qazıqumuk, Qaytaq-Tabarasan, Kürə və Samur) bölünmüş bu vilayətdə 1897-ci il siyahıyaalması zamanı yarım milyondan çox – 571.154 nəfər əhalinin sakin olduğu müəyyən edilmişdi. Bu dairələrin içərisində ən çoxsaylı əhalisi olan dairələr Teymurxanşura (97848 nəfər) və Azərbaycan türklərinin tarixi Dərbənd bölgəsinin də daxil olduğu Qaytaq-Tabarasan (91021 nəfər) dairələri idi. Vilayətin müsəlman əhalisinin sayı 547749 nəfərə bərabər idi. Bu da bütün vilayət əhalisinin 95,9 %-ni təşkil edirdi. Xristian (16044) və yəhudi (7361nəfər) əhalisinin xüsusi çəkisi (4.1 %) kifayət qədər az idi. Vilayətin müsəlman əhalisi içərisində türklər (Azərbaycan türkləri, qazıkumuklar və kumuklar), demək olar ki, vilayətin bütün dairələrində yaşayırdılar. Sayları 32143 nəfərə çatan Azərbaycan türkləri bütün dairələrdə yaşasalar da, onların daha kompakt cəmləşdikləri bölgə, təbii ki, Qaytaq-Tabasaran dairəsi idi.

Bu dairədə onların sayı 28975 nəfərə çatırdı. Bunlardan da 9767 nəfəri Dərbənd şəhərinin payına düşürdü. Dərbənd şəhər əhalisinin 66,67 %-i Azərbaycan türklərindən ibarət idi. Halbuki 1806-ci ildə baş vermiş Rusiya işğalı zamanı bu xüsusi çəki təxminən 90 % civarında idi. Vilayətdə habelə çoxsaylı qazıqumuklar (76381 nəfər) və kumuklar (51209 nəfər) yaşayırdılar. Bütövlükdə bu vilayətdə türklərin ümumi sayı 159733 nəfər idi ki, bu da bütün vilayət əhalisinin təxminən 28%-nə bərabər idi.

1897-ci ilin məlumatı sübut edir ki, çar hökümətinin köçürmə siysəti burada da böyük uğur qazana bilməmişdi. Burada onların xüsusi çəkisi heç 3 %-ə də çatmırdı: 2,8%.

Zaqatala dairəsi üzrə:

1897-ci ilin məlumatlarına görə, ərazisi cəmisi 3544,3 kv. verst olan bu dairədə bütövlükdə 84224 nəfər əhali məskunlaşsa da bu əhalinin milli-etnik tərkibi kifayət qədər rəngarəng olub özünəməxsus xüsusiyyətlərə malik idi. Zaqatala dairəsi hərbi-strateji cəhətdən rəsmi hökumət

dairələri üçün çox böyük əhəmiyyətə malik olsa da 1803-cü il işğalından sonra keçən az qala bir əsr ərzində Rusiya buraya cəmisi 2534 nəfər xristian (2100 nəfər erməni və 434 nəfər rus, ukraynalı və belorus) köçürüb məskunlaşdıra bilmişdi. Dairə əhalisinin çox böyük əksəriyyətini avar türkləri (31670 nəfər), Azərbaycan türkləri (28950 nəfər) və ingiloylar (12389 nəfər) təşkil edirdilər.

Beləliklə, yuxarıda gətirdiyimiz məlumatlar, apardığımız hesablamalar bir daha sübut edir ki, romanovlar Rusiyasının XIX əsrin əvvəllərində Güney Qafqazda apardığı işğalçı müharibələrin gedişi və bu müharibələrin başa çatmasından sonrakı dövrlərdə həyata keçirdiyi mürtəce, müstəmləkəçi köçürmə siyasəti nəticəsində bu diyarın milli-etnik mənzərəsində ciddi, köklü dəyişikliklər baş vermiş, bir çox, ilk növbədə də türk-müsəlman bölgələrində aparılmış məqsədyönlü məskunlaşdırmalar nəticəsində (mexaniki demoqrafiya prosesləri hesabına) əhalinin tərkibində xristianların xüsusi çəkisi sürətlə artmış, İrəvan quberniyası, Qarabağ torpaqları kimi bölgələrdə isə buranın avtoxton əhalisi olan Azərbaycan türkləri mütləq əksəriyyət təşkil edən toplumdan milli-etnik azlığa çevrilmişdilər.

Aparılmış hesablamalar göstərdi ki, Güney Qafqazın 5 quberniyası, Zaqatala dairəsi və Dağıstan vilayətində 1897-ci ildə cəmi 5245114 nəfər əhali yaşayırdı. Bundan təxminən 2355247 nəfəri türk-müsəlman əhalinin payına düşürdü ki, bu da bütün Güney Qafqaz əhalisinin təxminən 44,9 %-ni təşkil edirdi.

Ayrı-ayrı quberniya, dairə və vilayətlər üzrə əhalinin ümumi sayı, müsəlman-türk əhalisinin sayı və xüsusi çəkisi aşağıdakı cədvəldə öz əksinin tapmışdır:

| | Əhalinin ümumi sayı | Müsəlman türk əhalisinin | |
|---|---|---|---|
| | | Sayı | Xüsusi çəkisi (faizlə) |
| Bakı quberniyası | 826716 | 683148 | 82,63 |
| Yelisavetpol quberniyası | 878415 | 551631 | 62,8 |
| İrəvan quberniyası | 829556 | 362565 | 43,71 |
| Tiflis quberniyası | 996808 | 80893 | 8,11 |
| Kutaisi quberniyası | 1058241 | 47571 | 4,5 |
| Dağıstan vilayəti | 571154 | 547749 | 95,9 |
| Zaqatala dairəsi | 84224 | 81690 | 96,99 |
| Cəmi: | 5.245.114 | 2.355.247 | 44,9 |

## Nəticə

Beləliklə, yuxarıdakı cədvəldən də göründüyü kimi XIX yüzilliyin sonlarında da Güney Qafqazda türk-müsəlman toplumu yenə də bu diyarın aparıcı milli-etnik qüvvəsi olaraq qalırdı. Lakin çarizmin mürtəce, müstəmləkəçi köçürmə siyasəti nəticəsində İrəvan, Yelizavetpol və b. bölgələrimizdə türk-müsəlman toplumunun xüsusi çəkisi kifayət qədər azalmış, ərazilərimizə yüz minlərlə kənardan buraya köçürülmüş erməni, rus, alman və b. yerləşdirilimişdir ki, bunun da çox uzaqgedən mürtəce məqsədləri var idi.

## Ədəbiyyat

1. Azərbaycan tarixi 3 cilddə. (1960). I cild. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı.
2. Azərbaycan tarixi 3 cilddə. (1963). II cild. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı.
3. Ibragimbeyli, G. (1969). Rossiya i Azerbaydzhan v pervoy treti KHKH veka. Moskva.
4. Pervaya vseobshchaya perepisnaseleniya Rossiyskoy imperii 1897 g., t. LKHI. (1905). Bakinskaya guberniya. Spb. Sentral'nyy statisticheskiy komitet, MVD.
5. Pervaya vseobshaya perepis naseleniya Rossiyckoy imperii 1897 g., t. LXIII. (1905). Elisavetpolskaya guberniya. SPb. Sentralniy statisticheskiy komitet, MVD.
6. Pervaya vseobsaya perepis naseleniya Rossiyskoy imperii 1897 g., t. LKSI. (1905). Erivanskaya guberniya. Spb. Sentral'nyy statisticheskiy komitet, MVD.

7. Pervaya vseobshaya perepis naseleniya Rossiyskoy imperii 1897 g., t. LXIX. (1905). Tifliskaya guberniya. SPb. Tsentralniy statisticheskiy komitet, MVD.
8. Pervaya vseobshaya perepis naseleniya Rossiyskoy imperii 1897 g., t. LXII. (1905). Dagenstanskaya oblast. SPb. Tsentralniy statisticheskiy komitet, MVD.

Göndərilib: 21.02.2023 Qəbul edilib: 19.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/11-15

**Arzu Babayeva**
Gəncə Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
ar_sb1@hotmail.com

# XARİCİ DİL DƏRSLƏRİNDƏ İQTİSADİ MƏTNLƏRLƏ İŞLƏMƏYİN METODLARI

**Xülasə**

Məqalə xarici dil dərslərində iqtisadi mətnlərlə işləməyin metodlarından bəhs edir. Qeyd edilir ki, elmin və innovativ texnologiyaların müasir inkişafı, dünya iqtisadiyyatının qloballaşması universitet məzunlarının peşə bacarıq və səriştələrinin inkişafına yeni bir yanaşma müəyyənləşdirir. Akademik biliklərin praktikada uğurla həyata keçirilməsi üçün tələbələr xarici dillərdə işgüzar və mədəniyyətlərarası ünsiyyət bacarıqlarına yiyələnməyə ehtiyac duyurlar. Bu halda bir və ya bir neçə xarici dil bilmək uğurlu bir karyeranın başlanğıcı ola bilər.

Bu gün universitetlərdə xarici dildə oxunu öyrətmək üçün müxtəlif üsullar və texnikalar mövcuddur. Hər bir metod və texnikanın özünün xarakterik xüsusiyyətləri var. Bu məqalədə xarici dil dərslərində iqtisadi mətnlərlə işləməyin metodları nəzərdən keçirilir.

***Açar sözlər:*** *peşəkar yönümlük, tərcümə texnologiyaları, autentik iqtisadi mətnlər, interaktiv təlim, tədrisə kommunikativ yanaşma*

**Arzu Babayeva**
Ganja State University
Ph.D in Pedagogy
ar_sb1@hotmail.com

## Methods of working with economic texts in foreign language classes

**Abstract**

The article deals with the methods used in foreign language teaching in non-language universities. It is noted that the modern development of science and innovative technologies, the globalization of the world economy determines a new approach to the development of professional skills and competencies of university graduates. In order to successfully implement academic knowledge in practice, students need to acquire business and intercultural communication skills in foreign languages. In this case, knowing one or more foreign languages can be the beginning of a successful career.

Today, there are various methods and techniques for teaching reading in a foreign language in universities. Each method and technique has its own characteristics. This article reviews the methods of working with economic texts in foreign language classes.

***Keywords:*** *professional orientation, technologies of translation, authentic economic texts, interactive training, communicative approach to teaching*

## Giriş

Yeni texnologiyalardan istifadə, bütövlükdə cəmiyyətdə və iqtisadiyyatda baş verən dəyişikliklər iqtisadiyyat və biznes sahəsində gələcək mütəxəssislərin formalaşmasına yeni yanaşmalar tələb edir.

Sürətlə inkişaf edən müasir cəmiyyətdə, sosial təcrübənin daim genişlənməsi şəraitində, yaxşı dil hazırlığı olan yüksək ixtisaslı və peşəkar səriştəli texniki profilli mütəxəssislərə ehtiyac getdikcə artır. Qeyri-dil universitetlərində xarici dilin tədrisinin peşəkar yönümlü olması tələbələrdən öz ixtisasları üzrə sistemləşdirilmiş biliklərə malik olmağı tələb edir. Lakin nəzərə alsaq ki, hazırkı təhsil standartına uyğun olaraq universitetlərdə, xüsusilə də qeyri-dil universitetlərində, xarici dil

yalnız birinci və ikinci kurslarda keçirilir, tələbələrin belə bir tələbi yerinə yetirmələri mümkünsüzdür.

Qeyri-dil universitetlərində xarici dilin tədrisi ilk iki il üçün nəzərdə tutulur və demək olar ki, tələbələr öz ixtisasları üzrə peşəkar biliklərə yiyələnmədən öncə xarici dilin tədrisi başa çatır (Nikolayeva, 2007: 82). Ona görə də qeyri-dil universitetlərində xarici dili tədris edərkən müəllimdə, ümumi dil hazırlığından birbaşa ixtisas yönümlü tədrisi təmin etmək üçün yollar axtarmaq zərurəti yaranır. Çünki, tələbələri xarici dili öyrənməyə həvəsləndirmək və onu peşə baxımından əhəmiyyətli bir mövzu kimi təqdim etmək son dərəcə vacibdir. Bu baxımdan xarici dilin tədrisini mərhələlərə bölmək məsləhətdir.

Birinci mərhələ əsasdır, yəni bazadır. Bu mərhələ tələbələrin gündəlik mövzularla bağlı müzakirələrdə iştirak etməsi üçün xarici dildə kifayət qədər qrammatik və leksik biliklərə malik olmasını nəzərdə tutur. İkinci mərhələ - xarici dildə praktik biliklərə yiyələnməkdir. Tələbələrin seçdikləri ixtisas çərçivəsində, zəngin söz ehtiyatına malik olmalarını və xarici dildə ifadə qurma bacarığını nəzərdə tutur.

İqtisad yönümlü tələbələr tədris prosesində əldə etdikləri xarici dil biliklərinin, onların gələcək iş imkanlarını necə genişləndirə biləcəyini və əmək bazarında daha çox tələbat olan peşəkar yönümlü təhsilə ehtiyac olduğunu getdikcə daha çox dərk edirlər. Tələbələrin peşəkar yönümlü fəaliyyətə cəlb edilməsi, xarici dili öyrənmək üçün onlarda sabit motivasiyanın formalaşması, tədris prosesinin şərtləri və məzmunu ilə əlaqəli şəkildə həyata keçirilir. Tələbələr xarici dili öyrənərkən, dildən informasiya, peşəkar ünsiyyət vasitəsi kimi istifadə edərlərsə, bu onları gələcəkdə həqiqi peşə fəaliyyətinə mümkün qədər yaxınlaşdırar (Plujnikova, 2006: 94-95).

Xarici dilin tədrisində peşəkar yönümlülük prinsipininin həyata keçirilməsinin əsas yollarından biri texnologiyalardısa, digər yolu isə tələbələrin ixtisas üzrə mətnlərin oxunması və tərcüməsi qaydaları haqqında biliklərə yiyələnməsidir. Tələbələrin tərcümə edəcəyi mətnlər kiçik ölçülü, ardıcıl məzmunlu və ixtisasa uyğun olmalıdır. Mətnləri tərcümə edə bilmək üçün tələbələrdə ilkin bacarıqların formalaşdırılması vacibdir. Buraya ilkin olaraq dil baryerinin aradan qaldırılması, mətnlərin tərcüməsi zamanı baş verən qrammatik, leksik və üslub səhvlərinin ətraflı təhlili, adekvat tərcümə variantının seçilməsi daxildir. Eyni zamanda tələbələrə iqtisadiyyat və biznes sahəsi ilə bağlı lüğətlərlə işləmək yollarını da öyrətmək vacibdir.

Mətnlərin tərcüməsi zamanı, öncəliklə mətni oxuyub başa düşmək lazımdı. Mətnin dərindən mənimsənilməsi üçün mətn üzərində sxem üzrə aşağıdakı mərhələlər aparılmalıdır (Rogova, Robinovich, Sakharova, 1991: 28):

1. Mətndən əvvəlki mərhələ
2. Mətnə giriş mərhələsi
3. Mətn üzərində intensiv iş mərhələsi
4. Reproduktiv mərhələ
5. Produktiv (Məhsuldar) mərhələ

Mətndən əvvəlki mərhələdə iki növ tapşırıqdan istifadə edilir. Birinci qrupa aid olan tapşırıqlar mətnin məzmununa aid edilmir. Bu tapşırıqların məqsədi, mətni oxuyarkən dil biliklərinin müəyyənləşdirilməsidir. Belə ki, mövzu ilə bağlı tələbələrə suallar vermək olar.

İkinci qrupa, dil materialı ilə bilavasitə işləməyə yönəlmiş tapşırıqlar daxildir. Bu şəkillər, cədvəllər, diaqramlar üzrə olan tapşırıqlardır. Tapşırıqlar aşağıdakı formada ola bilər: şəkildə aydın formada təqdim olunan məlumatı mətndə tapıb altından xətt çəkin; mətndəki boşluqları doldurun; açar sözlərdən istifadə edərək şəkilə münasibət bildirin və s (Shastri, 2010: 197).

Mətnə giriş mərhələsi - mətnlə səhti tanışlıqdan birbaşa mətnin oxunub mənasının tam dərk edilməsi mərhələsinə keçiddir. Bu mərhələdə aşağıdakı tapşırıqlar yerinə yetirilir: mətndə buraxılmış sözləri yerinə qoyun; açar sözlərdən istifadə edərək mətnə münasibət bildirin; hadisələrin məntiqi gedişatını əks etdirən diaqramları doldurun, mətnin hissələrinə uyğun olan başlıqları seçin və s (Wilkins, 1972: 243).

Mətn üzərində intensiv iş mərhələsi üçün aşağıdakı tapşırıqlar təqdim olunur: mətnə suallar verin; mətnin məzmununa uyğun olaraq hər bir abzasda verilmiş səhvləri tapın; mətnə uyğun verilmiş

şəkilləri təsvir edin; mətni tərcümə edin və hər iki dildə müqayisəsini aparın; yazdığınız mətni kitabda verilmiş mətn ilə müqayisə edin.

Reproduktiv iş mərhələsində vacib dil strukturları sabitləşir və lüğət bazasının genişlənməsi tələb olunur. Bu mərhələdə təklif olunan tapşırıqlar bunlardır: mətni parafraz edərək yenidən qurun; mətnin annotasiyasını tərtib edin; verilmiş açar sözlərdən istifadə edərək yüz sözdən ibarət mətn qurun; verilmiş mətni qrafika, diaqram şəklində təqdim edin və s. (Lewis, 1993: 102).

Mətn üzərində işin produktiv (məhsuldar) mərhələsində sərbəst danışıq və yazmağı stimullaşdıran tapşırıqlar gözlənilir. Burada rol oyunları, iş sənədlərinin və reklamların hazırlanması əsas əhəmiyyət kəsb edir (Hadfield, 2009:56).

Bu gün xarici dilin tədrisi üçün xeyli sayda metodların olmasına baxmayaraq, yeni metodların müntəzəm inkişafı davam edir. Məhz bunun sayəsində hər bir müəllim özü üçün ən yaxşı iş metodunu seçmək imkanı əldə edir. Bu metodlardan-klassik, qrammatik-tərcümə, audiovizual və audiolinqual, interaktiv və s. göstərmək olar. Bu gün ən çox istifadə olunan metod klassik və ya qrammatik - tərcümə metodudur (Nation, 2001: 770).

Qrammatik - tərcümə metodu Yunan və Latın dilinin tədrisinin klassik metodundan irəli gələn xarici dillərin tədrisi metodudur. Qrammatika və tərcümə dərslərində tələbələr qrammatika qaydalarını öyrənir və sonra cümlələri mənbə dildən hədəf dilə tərcümə edərək bu qaydaları tətbiq edirlər. Qrammatik-tərcümə metodunun məqsədi qrammatik qaydalardan istifadə edərək oxumaq və tərcümə etmək bacarığına yiyələnməkdir. Bu metod oxumağa və yazmağa yönəlmişdir.

Audiovizual metod adətən slaydlar və ya video və qeydə alınmış nitq və ya musiqi şəklində olan həm səsə, həm də şəkillərə əsaslanan bir metoddur. Bunların hamısı müəllimin tələbələrə göstərdiyi vizual təqdimatlardır.

Audiolinqual metod - xüsusən danışıq və dinləmə zamanı qrammatik və fonoloji quruluşun öyrənilməsinə yönələn xarici dilin tədrisi metodudur. Davranışa əsaslanan bu metod, çox sayda mexaniki təkrarlama yolu ilə xarici dili öyrənmək üçün əsas kimi formalaşa bilər. Hər iki metodun mahiyyəti dilin audio və video yazılardan istifadə edərək öyrədilməsidir. Metodların məqsədi canlı, danışıq dilini öyrətməkdir (Motorina, 2006:12).

Bu, müəllimə dərsi effektiv şəkildə təqdim etməyə kömək edir və tələbələr anlayışları daha yaxşı, daha uzun müddət mənimsəyib yaddaşda saxlaya bilirlər. Audiovizual vasitələrin istifadəsi tələbələrin tənqidi və analitik düşüncəsini yaxşılaşdırır.

Hal-hazırda müəllimlərin əksəriyyəti xarici dilin tədrisində kommunikativ metoddan istifadə edirlər. Bu metodun obyekti nitqin özüdür. Buna görə bu metod əvvəlcə ünsiyyət qurmağı öyrədir və eyni zamanda tələbənin fəal olmasını tələb edir. Bu zaman müəllimin vəzifəsi auditoriyada olan hər kəsi söhbətə cəlb etməkdir. Metodun mahiyyəti real ünsiyyət vəziyyətlərinin yaradılmasıdır. Dialoq yaratmaqla tələbə əldə etdiyi bütün bilikləri praktikada tətbiq etmək imkanı əldə edir. Kommunikativ metodun çox vacib bir üstünlüyü, rol oyunu, dialoq, həqiqi ünsiyyətin simulyasiyası kimi müxtəlif tapşırıqların olmasıdır (Derkach, Shcherbak, 1991:197).

Xarici dilin tədrisində kommunikativ yanaşma, tədris prosesində dil (aspekt), nitq və ünsiyyətə bölünə bilən təhsil oyunları da daxil olmaqla qrup formalarının tətbiqinə kömək edir (Passov, 1991: 23). Kommunikativ yanaşmadan istifadə auditoriyada əlverişli psixoloji ab-hava yaradır, işgüzar və rollu oyunlarda fəal iştirak edən tələbələrin motivasiyasını artırır. Praktik və ünsiyyət xarakterli məşğələlərdə, iştirak etməklə tədris materialının mənimsənilməsi prosesində tələbələr peşəkar sahədə çox vacib olan ünsiyyət bacarıqlarını inkişaf etdirirlər.

Xarici dilin peşəkar yönümlü tədrisində interaktiv təlim metodu da təhsil prosesində tələbələrin fəaliyyətinə töhfə verə biləcək qədər effektivdir. İnteraktiv təlimdə diqqət ünsiyyət prosesinin özünə və auditoriyadakı təlimin vəziyyətinə yönəldilir (Bagramova, 2005: 25). Bu metoda aşağıdakılar daxildir:

- müzakirə (dialoq, "beyin hücumu", "dəyirmi masa", evristik söhbət);
- oyun (işgüzar oyun, rol oyunu, layihə oyunu, simulyasiya oyunu, təşkilati - fəaliyyət oyunu);
- təlim (kommunikativ təlim);
- elmi-praktik konfrans.

İnteraktiv metodun mahiyyəti həm müəllimi, həm də tələbələri birgə axtarış fəaliyyətinə sövq edir, tələbələr yeni qarşılıqlı əlaqə və ünsiyyət təcrübəsi əldə edirlər. Bütün dərslər tamamilə xarici dildə keçirilir, müəllim xarici ədəbiyyatdan istifadə edərək yeni mövzuları izah edir (Harold, 1923: 47).

Xarici dilin tədrisinin iqtisadi yönümlü olması tələbələrin sosial-mədəni səriştələrini stimullaşdırır, dilini öyrəndikləri ölkələrin maliyyə sisteminin xüsusiyyətləri, iqtisad elminin yenilikləri, sahibkarlığın inkişafı haqqında məlumatlarla zənginləşdirir, gələcək mütəxəssisləri xarici tərəfdaşlarla iqtisadi dialoqa hazırlayır.

Xarici dilin tədrisində iqtisad yönümlü mənimsəniləcək leksik materiallar aşağıdakı mövzuları əhatə edir: Economics, Advertising, Brands, Money, Finance, Recruitment, Companies, Marketing, Bank and Banking, Management, Products and Services, İnternational Trade, Competition, Leadership, Working abroad və s (Bolshakova, Ivanova, 2007: 353).

Tələbələrin digər ölkələrin iqtisadi həyatı ilə tanış olduğu autentik mətnlər xüsusi dəyərə malikdir. Belə ki, bu materiallar tələbələrin iqtisadi dünyagörüşünün və iqtisadi mədəniyyətinin formalaşmasına, müasir iqtisadi hadisələrin mahiyyətini dərk etməyə, praktiki fəaliyyətlə bağlı situasiyalarda ən qənaətcil və səhvsiz həll yollarını tapmaq bacarığına kömək edir; iqtisadi anlayışlar və mülahizələrlə işləmək, həyati vacib iqtisadi problemləri həll etmək üçün təhlildən istifadə etmək bacarığına əsaslanaraq nitq-təfəkkür fəaliyyətinin və iqtisadi düşüncə tərzinin inkişafına töhfə verir; müqayisə, sintez və ümumiləşdirmə; nitq-yaradıcılıq fəaliyyətinin inkişafına və tədqiqat bacarıqlarının formalaşmasına kömək edir; iqtisadiyyat və maliyyə sahəsi ilə bağlı gələcək peşəkar fəaliyyətə hazırlığa töhfə verir.

## Nəticə

Müxtəlif üsulların, texnikanın və tədris metodlarının tətbiqi, xarici dil dərslərinin məzmununun peşəkar yönümlü olması gələcək iqtisadi yönümlü mütəxəssislərin hazırlanmasına, şəxsiyyətinin formalaşmasına, eyni zamanda xarici dil tədrisinin səmərəliliyinin artırılmasına kömək edir.

Gələcək iqtisadçılar yuxarıda göstərilən metodologiyaya əsasən xarici dildə sərbəst danışır, işgüzar yazışmaları öyrənir, şifahi və yazılı tərcümə bacarıqlarına yiyələnir, həmsöhbətinin nitq davranışını düzgün təhlil edə bilir. Eyni zamanda iqtisadi mətnlər üzərində təklif olunan iş sistemi tələbələrə oxu növlərini mənimsəməyə və oxuduqlarını daha dərindən dərk etməyə kömək edir.

## Ədəbiyyat

1. Nikolayeva, E. (2007). Problemy obucheniya professionalnoy kommunikatchyy vd inostrannom yazike. Inostranny yaziki v obrazovatelnom prostranstve tekhnicheskogo vuza: sb. statey. Novocherkasks: YURGTU (NPİ), 82 s.
2. Plujnikova, Yu. (2006). O problemakh professionalno-orientirovannogo obucheniya inostrannym yazikam studentov neyazikovogo vuza. Aktualnye problemı inostrannogo yazyka delovogo i professionalnogo obsheniya: sb. statey., M.: RUDN, s.94-95.
3. Rogova, G., Robinovich, F., Sakharova, T. (1991). Methods of teaching foreign languages in high school. M.: Education, 287 p.
4. Shastri, P. (2010). Communicative approach to the teaching of English as a second language. Mumbai: Himalaya Publishing House, 197 p.
5. Wilkins, D. (1972). Linguistics in language teaching. University College London, 243 p.
6. Lewis, M. (1993). The lexical approach: the state of ELT and a way forward. Hove: Language Teaching Publications, 200 p.
7. Hadfield, J. (2009). Basics introduction to teaching English. Oxford: Oxford University Press, 176 p.
8. Nation, I. (2001). Learning vocabulary in another language. Cambridge; New York: Cambridge University Press, 770 p.
9. Motorina, S. (2006). Formirovany inoyazıchnoy gotovnosti k professionalnoy deyatelnosti u studentov gumanitarnikh spechialnostey: avtoreferat dis.kand.ped. Nauk. Chita: CHGY, 25 s.

10. Derkach, A., Scherbak, S. (1991). Pedagogicheskaya evristika, M.: Pedagogika, 224 s.
11. Passov, E. (1991). Communicative method of teaching foreign speaking., 2-d ed. M.: Prosveshhenie, 236 p.
12. Bagramova, N. (2005). Interaktivniy podkhod v obuchenii inostrannim yazikam. M.: Akademiya, 157 s.
13. Harold, E., Palmer. (1923). The oral method of teaching languages. Cambridge, 134 p.
14. Bolshakova, A., Ivanova, E. (2007). Theory and methodology of teaching foreign languages: reader: in 2 parts, ed. N.V.Yazykova. M., 353 p.

Göndərilib: 21.03.2023 Qəbul edilib: 20.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/16-21

**Pərvin Qafarova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
parvin.gafarova@gmail.com
ORCID ID 0009-0002-9696-3540

# ÜMUMTƏHSİL MƏKTƏB BİOLOGİYASININ TƏDRİSİNDƏ ŞAGİRDLƏRƏ EKOLOJİ BİLİK VƏ BACARIQLARIN AŞILANMASI

**Xülasə**

Məqalədə ümumtəhsil məktəblərində biologiya fənninin tədrisində şagirdlərə ekoloji bilik və bacarıqların aşılanmasının imkanları araşdırılır. VI-XI sinif dərsliklərində problemin həlli imkanları siniflər üzrə verilir. Biologiyanın məzmun xətləri canlıların quruluşu və müxtəlifliyi, Bioloji proseslər, İnsan və onun sağlamlığı, Canlılar və ətraf mühit üzrə ekoloji bilik və bacarıqların aşılanması imkanları ümumiləşdirilir. Göstərilir ki, hər bir məzmun xəttinə dair mövzuların tədrisində ekoloji bilik və bacarıqların aşılanması imkanları mövcuddur. Lakin "Canlılar və ətraf mühit" məzmun xəttinin mövzularında imkanların daha geniş olduğu qeyd edilir. Məzmun xəttinin mövzuları üzrə imkanlar nümunələrlə izah edilir. Mövzuların tədrisində nəzərə alınacaq ekoloji bilik və bacarıqların aşılanması imkanları onlardan dərslərdə səmərəli istifadə olunmasını tələb edir və problemin aktuallığını təsdiq edir.

Tədqiqatda biologiya mövzularının ekoloji bilik və bacarıqların aşılanması imkanları baxımından onun tədrisi yolları müəyyən edilir, metodikası əsaslandırılır. Biologiyanın tədrisində ekoloji bilik və bacarıqların aşılanmasında müşahidə, müsahibə, tədqiqat, təqdimat, əqli hücum, müzakirə, eksperiment, təlim xarakterli oyunlar kimi metodların tətbiqi metodikası məsləhət görülür. Aşağı siniflərdə ekologiyaya dair sadə anlayışlar, problemləri şagirdlərin yaşadığı ərazinin ekoloji problemləri öyrədilir. Yuxarı siniflərdə isə şagirdlərin diqqəti daha ciddi, böyük, qlobal problemlərə cəlb edilir. Problemin həllinin ekoloji bilik və bacarıqların şagirdlərin vərdişlərinə, bioetik davranışlarına çevrilməsi baxımından yanaşılır. Ona görə də bu sahədə şagirdlərin müstəqil yaradıcı işlərinin: tədqiqat, təqdimat, esse, layihələrin hazırlanmasına daha geniş yer verilməsi mühüm hesab edilir. Şagird təqdimatlarına, slaydlarla işə daha çox yer verilməsi məsləhət bilinir. Biologiyanın tədrisində şagirdlərə müntəzəm ekoloji bilik və bacarıqların, davranışların aşılanması təlimin keyfiyyətini artırdığı, şagirdlərin ətraf mühitə bioetik münasibətinin yaxşılaşdığı, onların hər yerdə ekoloji mədəniyyət nümayiş etdirdiyi məlum olur. Bu isə nəinki ekoloji mühiti yaxşılaşdırır, həm də pozulmuş ekoloji tarazlığın bərpasına müvafiq töhfələrini verir. Ekoloji mədəniyyətə, bioetik davranışlara malik olan şagird yaşadığı ərazidə, evdə, həyətdə, məktəbdə, küçədə və digər ictimai yerlərdə ətraf mühitin, suyun, torpağın, havanın, canlıların təmizliyinə daim qayğıkeşliklə yanaşır. Onlar ekologiyanın qorunmasında və bərpasında məsuliyyətlərini dərk edir. Şüurlu olaraq ekologiyanı qoruyur, başqalarından da ətraf mühitə ziyan vurmamasını tələb edir. Eyni zamanda zərərli vərdişlərin insan orqanizmi ilə yanaşı ekologiyaya, ətraf mühitin çirklənməsinə, antropogen amillərin artmasına t.əsir göstərdiyini dərk edirlər.

***Açar sözlər:*** *ekologiya, biologiya, cansız təbiət, müşahidə, bitkilər, heyvanlar, ekoloji problem, dərslik*

**Parvin Gafarova**
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Pedagogy
parvin.gafarova@gmail.com
ORCID ID 0009-0002-9696-3540

## Imparting students the ecological knowledge and skills in teaching the biology of the school providinggeneral education

### Abstract

The article examines the possibilities of imparting environmental knowledge and skills to students in the teaching of biology in secondary schools. In VI-XI textbooks, problem solving opportunities are given by class. The content lines of biology summarize the possibilities of imparting ecological knowledge and skills on the structure and diversity of living things, Biological processes, Man and his health, Living things and the environment. It is shown that there are opportunities for inculcating environmental knowledge and skills in the teaching of subjects related to each content line. However, it is noted that the possibilities are wider in the topics of the "Animals and environment" content line. The possibilities for the topics of the content line are explained with examples. Possibilities of inculcating environmental knowledge and skills to be taken into account in the teaching of subjects require their effective use in lessons and confirm the relevance of the problem.

In the study, the ways of teaching biology are determined and its methodology is justified in terms of the possibilities of imparting environmental knowledge and skills. In the teaching of biology, the method of application of methods such as observation, interview, research, presentation, brainstorming, discussion, experiment, educational games is recommended for inculcating environmental knowledge and skills. In the lower classes, simple concepts of ecology, environmental problems of the area where the students live are taught. In the upper classes, students' attention is drawn to more serious, big, global problems. The solution to the problem is approached from the point of view of turning environmental knowledge and skills into students' habits and bioethical behavior. Therefore, it is considered important to give more space to the independent creative work of students in this field: research, presentation, essay, preparation of projects. It is recommended to give more space to student presentations, work with slides. In the teaching of biology, it is known that instilling regular environmental knowledge and skills and behaviors to students increases the quality of education, improves the bioethical attitude of students to the environment, and demonstrates ecological culture everywhere. This not only improves the ecological environment, but also contributes to the restoration of the disturbed ecological balance. A student with ecological culture and bioethical behavior always cares for the cleanliness of the environment, water, soil, air, and living things in his home, yard, school, street and other public places. They understand their responsibility in protecting and restoring the environment. Consciously protects the environment and requires others not to damage the environment. At the same time, they realize that harmful habits affect the ecology, environmental pollution, and the increase of anthropogenic factors along with the human body.

***Keywords:*** *ecology, biology, inanimate nature, observation, plants, animals, ecological problem, textbook*

### Giriş

Bəşəriyyətin qarşısında qlobal problemlərdən biri ekoloji tənzimlənmənin nizamlanması durur. Cəmiyyətin inkişafı, əhalinin artması ekoloji tarazlığı pozmuş, bəşəriyyətin qarşısına onun qaydaya salınması problemini çıxarmışdır. Bu vəziyyətdən çıxış yolunun bir istiqaməti gənc nəslin, orta məktəb şagirdlərinin ekoloji təlim və tərbiyəsinə daha çox yer verilməsidir. Gələcək cəmiyyət qurucuları təbiət fənlərini daha dərindən öyrənməklə ekoloji biliklərə dərindən yiyələnərsə,

problemin həllinə kömək etmiş olarıq. Bu baxımdan məktəblərdə keçilən fənlərin tədrisində ekoloji bilik və bacarıqların aşılanması imkanları araşdırıldı (İsmixanov, 2011). Təbiət fənlərinin, xüsusilə biologiyanın tədrisində ekoloji bilik və bacarıqların aşılanması imkanlarının daha geniş olduğu müəyyən edildi. Biologiyanın tədrisində şagirdlər canlılarla mühit amilləri arasındakı qarşılıqlı əlaqələri öyrənmək imkanlarına malikdirlər. Onlara cansız təbiət komponentləri (su, hava, torpaq, və s.), mühit amilləri (temperatur, rütubət, qida və s.) ilə canlıların qarşılıqlı əlaqələrini, canlıların yaşamasında əsas amillər olan biotik və abiotik amillərin, canlıların, o cümlədən bitki və heyvanların nəslinin qorunması kimi məsələlərin şagirdlərə müvafiq mövzuların tədrisində öyrədilməsi mümkündür (Hacıyeva, 2018).

Aşağı siniflərdə canlıların qidalanmasına görə avtotrof və heterotroflara bölünməsi, avtotrofların havanı təmizləməsi, heterotrofların təmizlənmiş havanın oksigenindən istifadə etməsi prosesi şagirdlərə öyrədilir. Göstərilir ki, təbiətdə tək, təcrid olunmuş halda heç bir obyekt, cansız və ya canlı tapmaq mümkün deyildir. Təbiət sanki bir tordan ibarətdir. Torun sapları mühit amilini və ya canlıların müxtəlif növ, cins və ya fərdini birləşdirir, əlaqələndirir. Həmin torun hər hansı bir sapı qırılarsa, təbiətdə tarazlığın pozulması halları baş verir. Həmin torlar müxtəlif nankorların, təbiəti, canlıları, xüsusilə insanlığı sevməyənlərin, faşistlərin, terrorçuların, qaniçənlərin vasitəsilə demək olar ki, bir çox yerindən düzəldilməsi mümkün olmayan şəkildə qırılmışdır. Ona görə də onlara "dur", "dayan" demək, onların əməllərinə qarşı çıxmaq, hətta ekoloji mühiti korlayan əllərini, qollarını bağlamaq zamanı çatmışdır (Hacıyeva, 2014).

Problemin həlli baxımından biologiya proqramı (kurikulumu) təhlil edildi. Müəyyən olundu ki, biologiya fənn kurikulumunda və məzmun standartlarında şagirdlərin ekoloji bilik və bacarıqlarının artırılması tələbləri böyükdür. Belə ki, biologiya fənn kurikulumunda dördüncü məzmun xətti "Canlılar və ətraf mühit" kimi verilmişdir. Məzmun xəttini əhatə edən əsas və alt standartların reallaşması ekoloji təlim və tərbiyənin aşılanmasına əsaslanır (Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün biologiya fənn kurikulumu, 2013: 12). Bu baxımdan problemin məktəblərdə həlli aktuallıq kəsb edir.

**İşlənmə səviyyəsi.** Siniflər üzrə (VI-XI) biologiya dərsliklərinin problem baxımından imkanları təhlil edildi. Məlum oldu ki, siniflər üzrə dərsliklərdə şagirdlərin yaş xüsusiyyəti nəzərə alınmaqla ekologiyanın bərbad halını əks etdirən və bu vəziyyətdən çıxış yollarını göstərən mövzular kifayət qədər verilmişdir. Məsələn, 6-cı sinif dərsliyində "Orqanizm və mühit" tədris vahidinin (Seyidli, Əhmədbəyli, Əliyeva, 2017: 136) mövzularında ətraf mühit, orada baş verən proseslər, bu proseslərin səbəbləri, canlı təbiətlə cansız təbiət arasındakı əlaqələr, bu əlaqələrin nizamlanması əks olunmuşdur.

7-ci sinif dərsliyində (Seyidli, Əhmədbəyli, Əliyeva, 2017) hər bir bitkinin şöbələri, sinifləri, fəsilələrinin, heyvan tipinin, sinfinin tədrisində onların təbiətdə, insan həyatında rolunu aydınlaşdıran mövzular verilmişdir. Mövzuların tədrisində şagirdlərin aşağı siniflərdən aldığı ekoloji biliklər daha da inkişaf etdirilir. Şagirdlərə izah olunur ki, təbiət bitki və heyvanlarsız təsəvvür edilə bilməz. Onların bəzilərinin zərərli, digərlərinin faydalı olmasına baxmayaraq biri digərlərinin yaşaması üçün vacibdir. Onların hər hansı birinin məhv edilməsi digər heyvanın, o da digər bitki və ya canlının məhvinə səbəb olur (Məmmədov, Xəlilov, 2003). Qida zəncirinin halqalarının pozulması isə nəticədə zənciri təşkil edən canlıların məhvi ilə ekologiyanın bərbad hala düşməsinə, nəticədə təbii fəlakətlərin artması ilə insanların zədələnməsi və kütləvi qırılması baş verir. Bunların qarşısı əhalinin, xüsusilə gənclərin ekoloji bilik və bacarıqları əsasında ekoloji davranışlar nümayiş etdirməsi ilə alınar. Məsələn, "Zərərli vərdişlərə yox deyək!" mövzusunun tədrisində şagirdlərə zərərli vərdişlərin siqaret, alkoqol və narkotiklərin orqanizm üçün zərərləri açıqlanır, onlardan uzaq olmağın yolları izah edilir. Eyni zamanda zərərli və zəhərli nikotin, alkoqol və narkotik maddələr ekoloji baxımdan təhlil edilir. Göstərilir ki, hər çəkilən siqaretin tüstüsü havanı çirkləndirir. Siqaretin kötükləri ətraf mühiti zibilləyir, söndürülməmiş kötüklər yanğınlar törədir. Alkoqollu içki qəbul etmiş sərxoş insanlar ekoloji problemlər yaradırlar. Belə problemlər nəqliyyat qəzalarına səbəb olur, sərxoş insanlar bir sıra təhlükələr (yanğın, qaz partlayışı, içməli suya, qidaya və digər vəsaitlərə israfçılıq və s.) törədir. Narkotik maddələrin əkilməsi, saxlanması,

onlardan istifadə edilməsi də ekoloji mühiti çirkləndirir. Narkotik maddələrin insanlarda yaddaşı, düşünmə qabiliyyətini pozduğundan insanlararası münaqişələr, ekoloji cinayətlər baş verir.

Təbiətin, ətraf mühitin, ekoloji tarazlığın qorunmasına dair mövzuların tədrisində də şagirdlərə ekoloji bilik və bacarıqlar aşılanır.

8-ci sinfin dərsliyində (Məmmədova, 2019) insan orqanizminin, o cümlədən orqanlar sisteminin quruluşu, funksiyası ilə yanaşı onların xəstəlikləri və onlardan qorunma yollarına dair material, verilmişdir. Dərsliyin sonunda konkret olaraq "Zərərli vərdişlərə yox deyək!", "Ətraf mühiti qoruyaq", "Ətraf mühit və orqanizm" kimi mövzular (Məmmədova, 2019: 162) yer almışdır. Belə ki, canlılarla ətraf mühitin qarşılıqlı əlaqələrinə dair 5, insan sağlamlığına ətraf mühitin təsirinə həsr olunan 7 mövzu verilmişdir.

9-cu sinfin dərsliyində "Ekoloji sistemlər. İnsan və ətraf mühit" bölməsində (Seyidli, Əliyeva, Əhmədbəyli, 2017: 145) ekoloji bilik və bacarıqların aşılanmasına xidmət edən 12 mövzu, ümumiləşdirici tapşırıqlar, layihələr üçün mövzuların verilməsi təqdirəlayiqdir.

Mövzuların tədrisində şagirdlərə ümumiləşdirici tapşırıqlar, layihələr kimi müstəqil işlərin hazırlanması tapşırılır. Artıq şagirdlərə ekoloji problemləri həll edəcək bir qüvvə kimi baxılır. Bu da onlarda ekologiyanın qorunması məsuliyyətini artırır.

10-cu sinfin dərsliyinin mətnində "Ətraf mühitin qorunması və bərpası" tədris vahidində (Məmmədova, 2019: 186) 5 mövzu, 1 təqdimata yer verilmişdir. Burada verilən mövzularda əvvəlcə ekoloji vəziyyət əks olunur. Sonra təqdimat mövzuları ilə şagirdlərin ekoloji vəziyyətə münasibətləri, ekoloji problemlərin həlli, bu prosesdə gənclərin vəzifələri öyrədilir.

11-ci sinif dərsliyində (Məmmədova, 2019) ekoloji problemlər ayrıca tədris vahidində və dərs ilinin sonuna təsadüf edilən mövzularda deyil, hər bir tədris vahidində öz əksini tapır. "Biosfer" adlı tədris vahidinə dair mövzuların tədrisindən sonra ekoloji pozulmaların bərpasına dair layihə və təqdimat mövzuları verilir. Onların işlənməsi şagirdlərə həvalə olunur.

Təhlilin nəticələri onu deməyə imkan verdi ki, ekoloji vəziyyət, ekologiyanın korlanmasına və onun bərpasına dair mövzularda şagirdlərə ekoloji bilik, bacarıq aşılanmasına, onlarda ekoloji məsuliyyətin formalaşdırılmasına imkanlar kifayət qədərdir. Lakin onun həyata keçirilməsi müəllimlərin fəaliyyətindən asılıdır. Problem ekoloji mədəniyyəti yüksək olan müəllimlər tərəfindən daha effektli həll olunur. Eyni zamanda müəllim ekoloji bilik və bacarıqların şagirdlərə aşılanmasının metodikasına və onun səmərəli yollarına bələd olmalıdır. Problemin həllində müşahidə, müzakirə, tədqiqat, rollu və əyləncəli oyun, təqdimat metodlarının tətbiqi çox faydalıdır.

**Əsas hissə.** Problemin səmərəli həlli yollarına:

- Ekoloji problemlərə dair resursların dərslərə gətirilməsi;
- Şagirdlərə ekoloji problemlərə dair sual və tapşırıqların verilməsi;
- Ekoloji tarazlığın normallaşdırılmasına xidmət edən tədqiqatlara şagirdlərin cəlb edilməsi;
- Problemin həlli yollarına dair təqdimatların, layihələrin və digər müstəqil işlərin təşkili;
- Şagirdlərin ölkədə gedən ekoloji tarazlığın qorunması işlərinə cəlb edilməsi və başqaları daxildir (Hüseynov, Hacıyeva, 2015).

Ekoloji bilik və bacarıqların aşılanması baxımından geniş imkanlı mövzulardan biri 8-ci sinifdə "Ətraf mühiti qoruyaq" adlanır (Zakharova, 2014: 164). Mövzunun tədrisində əsas məqsəd ətraf mühiti çirkləndirən mənbələr və bu istiqamətdə görülən tədbirlərin şərh edilməsi və ətraf mühitin mühafizəsinə dair təqdimat hazırlanmasıdır. Mövzunun kimya, coğrafiya, həyat bilgisi fənləri və həyatla inteqrasiya edilməsi mümkündür. Mövzu beyin həmləsi, müzakirə, cədvəllərlə iş, şəkil üzrə iş, müşahidə, tədqiqat, təqdimat metodlarının tətbiqi ilə tədris edilir. Kollektiv və qruplarla iş formasından istifadə olunması səmərəli olur.

Tədqiqat sualı olaraq "Ətraf mühiti çirkləndirən mənbələr və bu istiqamətdə görülən tədbirləri necə şərh etmək və ətraf mühitin mühafizəsinə dair təqdimatları necə hazırlamaq olar? kimi müəyyən edilir (İbrahimov, Hüseynzadə, 2012).

Tədqiqatın aparılması mərhələsində şagirdlər qruplara bölünür, onlara tədqiqat xarakterli tapşırıqlar yazılmış iş vərəqləri verilir. Qiymətləndirmə meyarı və vaxta qənaət haqqında şagirdlər məlumatlandırır.

İnformasiya mübadiləsi mərhələsində şagirdlər informasiyanın təqdimatını həyata keçirirlər.

İnformasiya müzakirəsində müəllim təqdimatdan alınan cavablara əsasən şagirdlərə suallarla müraciət edərək onların mülahizələrini əsaslandırmağa şərait yaradır. Şagirdlərə əsasən aşağıdakı suallar verilir və cavablar alınır (Putyukov, 2001).

- Ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün hansı tədbirlər görülməlidir?
- Torpağın çirklənməsi insan həyatına necə təsir göstərir?
- Havanın çirklənməsi insan həyatına necə təsir göstərir?

Suallar cavablandırıldıqdan sonra material sxem, şəkil, cədvəllərlə ümumiləşdirilir.

Yaradıcı tətbiqetmədə şagirdlərə ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair qruplar üzrə təqdimat hazırlanması tapşırılır. Birinci qrupa "Havanın çirklənməsinin qarşısını almaq üçün görülən tədbirlər" mövzusunda, ikinci qrupa "Suyun çirklənməsinin qarşısının alınması tədbirləri", üçüncü qrupa "Torpağın çirklənməsinin qarşısını alan tədbirlər" mövzusunda təqdimatın hazırlanması tapşırılır.

Şagird qrupları slaydlarla mövzularına uyğun təqdimat hazırlayır və sinif qarşısında təqdim edirlər.

Qiymətləndirmə mərhələsində şagirdlərin qruplar üzrə fəaliyyəti meyarlar və səviyyələr üzrə qiymətləndirilir.

Birinci qrupun təqdimatı

Havanın çirklənməsinin qarşısının alınması tədbirlərinə:
- Neft, daş kömür, torf, təbii qazdan alınan enerji mümkün qədər Günəş, külək və su enerjisi ilə əvəzlənməsi;
- Zavodlardan buraxılan tüstülər zərərli qalıqlardan təmizlənib havaya çıxarılması;
- Sənaye obyektlərinin ətrafında yaşllıqlar salınması;
- Avtomobillərin buraxdığı zərərli qazların azaldılması;
- Meşələrin qorunması, yeni meşə zolaqlarının salınması, yaşıllıqların sahəsinin artırılması;
- Ozon qatını dağıdan maddələrin istehsalı dayandırılmalı;
- Zibillər, tarlaların bitki qalıqlarının yenidən istifadəyə verilməsi;
- Müharibələrə, işğalçılığa son qoyulması aiddir.

İkinci qrupun təqdimatı

Suyun çirklənməsinin qarşısını almaq üçün:
- Sənaye qalıqları suya axıdılmır;
- Sənaye qalıqları suya təmizləyici qurğulardan keçdikdən sonra buraxılır;
- İçməli təbii su mənbələri ciddi şəkildə qorunur;
- Çirkab suları təmizləndikdən sonra su mənbələrinə axıdılır;
- Su canlılarına zərər verən maddələrin su nəqliyyatı ilə daşınmasına diqqətlə yanaşılır, düzgün qərarlar verilir;
- Təbii surətdə parçalanması çətin olan yuyucu vasitələrdən istifadə azaldılır;
- Suya qənaət edilir, onun boş-boşuna axıdılmasına yol verilmir:
- Su heyvanlarının ovlanmasında kimyəvi, zərərli maddələrdən istifadəyə yer verilmir;
- Plastik qablardan su və digər qidaların saxlanmasında istifadə edilmir.

Üçüncü qrupun təqdimatı

Torpağın çirklənməsinin:
- Məişət qalıqlarını toplanmaqla, onları yaşayış yerlərindən kənarlaşdırmaqla;
- Torpaqlardan təyinatı üzrə istifadə etməklə;
- Sənaye tullantılarını təmizləməklə;
- Dərman və gübrələrdən yerində və düzgün istifadə etməklə;
- Torpağa normada su verməklə:
- Çəmənlik və meşələri qorumaqla, meşə sahələrini artırmaqla;
- Torpaqdan müvafiq təyinatlar üzrə istifadə etməklə;
- Torpaqları təyinat üzrə, vacib olduqda qazmaqla qarşısını almaq lazımdır.

## Nəticə

Mövzunun göstərilən metodika ilə tədrisi şagirdləri ekologiyanın korlanması, onun səbəbləri, təbiətin qorunması, ekoloji tarazlığın normallığı haqqında düşünməyə vadar edir. Onlar ekologiyanın qorunmasındakı vəzifələrini dərk edərək həyata keçirilməsinə nail olurlar. Ekoloji tarazlığın bərpası işlərinə qoşulmanın vacibliyini müəyyənləşdirirlər. Beləliklə, onlara aşılanan ekoloji bilik və bacarıqlar tədrisin keyfiyyətini yüksəldir, təbiətdə, cəmiyyətdə, məişətdə onların bioetik davranışlarını formalaşdırır.

## Ədəbiyyat

1. İsmixanov, M. (2011). Pedaqogikanın əsasları. Bakı.
2. Hacıyeva, G. (2018). Biologiyanın tədrisi metodikası. Bakı.
3. Hacıyeva, H. (2014). Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası. Bakı.
4. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün biologiya fənn kurikulumu. (2013). Bakı.
5. Seyidli, Y., Əhmədbəyli, X., Əliyeva, N. (2017). Biologiya 6. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı.
6. Seyidli, Y., Əhmədbəyli, X., Əliyeva, N. (2017). Biologiya 7. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı.
7. Məmmədov, Q., Xəlilov, M. (2003). Ekoloqların məlumat kitabı. Bakı.
8. Məmmədova, N. (2019). Biologiya. Dərslik 10-cu sinif. Bakı.
9. Məmmədova, N. (2019). Biologiya. Dərslik 8-ci sinif. Bakı.
10. Seyidli, Y., Əliyeva, N., Əhmədbəyli, X. (2017). Biologiya 9. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik. Bakı.
11. Məmmədova, N. (2019). Biologiya. Dərslik 11-ci sinif. Bakı.
12. Hüseynov, Ə., Hacıyeva, H. (2015). Ümumtəhsil məktəblərində biologiyanın tədrisində kurikulumun tətbiqi. Bakı.
13. Zakharova, T. (2014). Vneklassnaya rabota po biologii na sovremennom etape. M.
14. İbrahimov, F., Hüseynzadə, R. (2012). Pedaqogika. I cild. Bakı.
15. Putyukov, YU. (2001). Osnovy pedagogicheskoy tekhnologii. M: Prosveshcheniye.

Göndərilib: 10.02.2023 Qəbul edilib: 05.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/22-27

**Səfurə Cəfərova**
Azərbaycan Dillər Universiteti
filologiya üzrə fəlsəfə doktoru
safurajafarova@yahoo.com

# AZƏRBAYCAN AUDİTORİYASINDA İLKİN MƏRHƏLƏDƏ İNGİLİS DİLİ TƏLƏFFÜZ VƏRDİŞLƏRİNİN AŞILANMASI YOLLARI

**Xülasə**

İlkin mərhələdə ingilis dili tələffüz vərdişlərinin aşılanması üçün hər iki dildə oxşar samitlərin tələffüz məxrəcinin izah edilməsi çox vacibdir. Belə ki, Bütün insanlarda nitq orqanları eyni olsa da, ingilis və Azərbaycan dillərinin daşıyıcıları eyni samit səsləri fərqli şəkildə tələffüz edirlər. Ona görə də Azərbaycan auditoriyasında ingilis dilinin öyrədilməsinin ilkin mərhələsində samitlərin tələffüzünə xüsusi diqqət yetirilməlidir. Bu məqalədə Azərbaycan dili daşıyıcılarının ingilis samitlərini tələffüz edərkən ortaya çıxan fərqlər müəyyənləşdirilir, onlarda bu tələffüz fərqlərinin aradan qaldırılması və müvafiq vərdişlərin aşılanması yolları göstərilir. Məqsədlə yanaşı, nitq səslərinin əmələ gəlməsində müxtəlif artikulyasiya üsulları müşahidə olunur. İngilis dilində samit səslərin artikulyasiyasının öyrədilməsi metodlarına xüsusi diqqət yetirilir.

***Açar sözlər:*** *fəal danışıq üzvləri, samit səslər, dilönü samitlər, dorsal samitlər, dişarası samitlər, dodaq-diş samitləri, burun samitləri*

**Safura Jafarova**
Azerbaijan University of Languages
Ph.D in Philology
safurajafarova@yahoo.com

## Methods of teaching pronunciation abilities at the earlier stage

**Abstract**

At the earlier stage of teaching the English language in the Azerbaijani auditorium it is necessary to take into consideration the articulatory process of the English consonants. Though there are similar articulatory work of the organs of speech of the English and the Azerbaijani languages, there are differences in producing consonants. Therefore, special attention should be paid to the pronunciation of consonants at the earlier stage of teaching English in the Azerbaijani auditorium. In this article the differences that appear when the speakers of the Azerbaijani language pronounce the English consonants are determined, they show the ways of eliminating these pronunciation differences and inculcating the relevant habits. Alongside the purpose of different manner of articulating is observed in the production of speech sounds. Special attention is paid to methods of teaching of articulation of consonant sounds in English.

***Keywords:*** *active speech organs, consonant sounds, forelingual consonants, dorsal consonants, apical consonants, labio-dental consonants, nasal consonants*

### Giriş

Hər bir dilin özünəməxsus fonetik quruluşu vardır. Buna görə də ingilis dilini öyrənmək üçün bu dilin fonemlərinin tələffüz xüsusiyyətlərini mükəmməl bilmək lazımdır. Azərbaycan dilli auditoriyada ingilis dilinin tədrisi zamanı dil daşıyıcılarının ana dili səslərinin tələffüz xüsusiyyətlərini bilmələrinin çox vacib əhəmiyyəti vardır. İlkin mərhələdə ingilis dilinin tədrisi zamanı nitq səsləri müqayisəli şəkildə tədris edilməlidir. İngilis dili samit səslərinin Azərbaycan dilindəki oxşarları kimi tələffüz edilməsi xarici aksentin yaranmasına gətirib çıxardır. Odur ki, ingilis dili samit səslərinin artikulyator xüsusiyyətləri ətraflı şəkildə dil öyrənənlərə təlqin edilməlidir.

Etiraf etmək lazımdır ki, son illər ingilis dilinin tədris edilməsində tələffüz vərdişlərinin aşılanmasına kifayət qədər əhəmiyyət verilmir. Bunun da nəticəsində tələbələrin tələffüzündə böyük xətalara yol verilir və ingilis dilində olan nitq səslərinin əksəriyyəti Azərbaycan dilindəki oxşarları kimi tələffüz edilir. Məsələn, ingilis dilindəki [t], [d], [r], [f], [v], [□], [l], [n], [ŋ], [θ], [ð], [w] səsləri təhrif olunmuş formada tələffüz edilir. Belə ki, ingilis dilində tell [tel], sell [sel], man [mæn] və s. sözlər Azərbaycan dilindəki oxşarları kimi tələffüz edilir.

İngilis dilinin tədrisi zamanı ilkin mərhələdə nitq (danışıq) üzvləri haqqında ətraflı məlumat verilməlidir. Tələbələrin əksəriyyəti ingilis dilindəki səslərin Azərbaycan dilindəki oxşarları kimi tələffüz etdiklərindən tələffüz xətalarının yaranmasına səbəb olur. Azərbaycan dilinin fonetikası ilə məşğul olan dilçilərdən Ə.Dəmirçizadə, A.Qurbanov, A.Axundov və başqaları nitq səslərinin yaranması və tələffüz edilməsi haqqında kifayət qədər fikir söyləmişlər.

Lakin ilk dəfə olaraq, görkəmli Azərbaycan fonetisti A.Axundov elektro-akustik cihazlar vasitəsilə Azərbaycan dilinə məxsus nitq səslərinin tələffüz xüsusiyyətlərini tədqiq etmişdir. Bunun da nəticəsində ingilis və Azərbaycan dillərindəki fonemlərin tələffüzündə mövcud olan fərqləri müəyyənləşdirmişdir.

İngilis dilinin tədrisində önəmli məsələlərdən biri şifahi nitqdə tələffüz vərdişlərinin aşılanmasıdır. Belə ki, kifayət qədər söz ehtiyatına malik olan və qrammatik qanunları bilən şəxs üçün nitq səslərinin tələffüz edilməsi qaydalarını yaxşı mənimsəməyən tələbənin və ya dil öyrənənin nitqi anlaşılmaz ola bilər. Odur ki, hər bir dil öyrənən ingilis dili səslərinin tələffüz edilməsi mexanizmini düzgün mənimsəməlidir (Cəfərov, 2019: 48).

İngilis dilinin tədris edilməsinin ilkin mərhələsində müəllim nitq səslərinin yaranmasında iştirak edən danışıq orqanları və onların işi haqqında kifayət qədər məlumat verməlidir. Bunun üçün xüsusi diaqramlardan, tablolardan istifadə olunmalıdır. Nitq səslərinin yaranmasında iştirak edən danışıq orqanları aşağıdakılardır: ağ ciyərlər, nəfəs borusu, udlaq, udlağın arxa divarı, səs telləri, ağız boşluğu, ağız boşluğunda yerləşən dil, dilin kökü, dilin arxası, dilin ortası, dilin yanları, dilin önü, dilin ucu, yumşaq damaq, dilçək, sərt damaq, dişlər (alt və üst dişlər), dişin kökü (yuvaqlar), dişin arxası, dodaqlar (alt və üst dodaq), alt çənə və burun boşluğu.

Dilin ön hissəsinin fəal iştirakı ilə yaranan samitlərə dilönü samitlər deyilir (Qurbanov, 2010: 79). Azərbaycan dilindəki [t], [d] dilönü samitlərinin tələffüz edilməsində dilin ucu üst dişlərin arxası ilə tam maneə əmələ gətirir. Bu halda dilin ucu dorsal vəziyyət alır. İngilis dilinə məxsus [t], [d] samit səslərinin tələffüz edilməsində isə dilin ucu üst dişlərin kökü ilə (yuvaqlarla) tam maneə əmələ gətirir.

Odur ki, tələbələr ingilis dilindəki [t], [d] samit səslərini tələffüz edərkən dilin ucu dişlərin kökünə deyil, dişlərin arxası ilə maneə əmələ gətirdiyindən ingilis dilindəki sözlər Azərbycan dilinə məxsus [t], [d] samit səsləri ilə əvəz edilir və xarici aksentin yaranmasına səbəb olur. Məsələn, ingilis dilindəki take [teɪk], tea [ti:], date [deɪt], day [deɪ] və s. sözlər Azərbaycan dili aksenti ilə tələffüz edilir.

| İngilis dilində | Azərbaycan dilində |
|---|---|
| dɪ□ | Diş |
| dɔ: | Don |
| ten | tən |
| tɪp | Tip |

Azərbaycanlı tələbələr ingilis dilindəki [r] samit səsini tələffüz edərkən çətinliklə üzləşir və ingilis dilində olan sözləri Azərbaycan dilindəki sözlərlə əvəz edirlər. Yadda saxlamaq lazımdır ki, ingilis dilindəki [r] samit səsini tələffüz edərkən dilin ucu üst dişlərin kökünə doğru qalxır və tam maneə əmələ gətirmir, dilin ortası aşağı düşərək kakuminal vəziyyət, yəni "qaşıq içi" vəziyyətini alır.

| İngilis dilində | Azərbaycan dilində |
|---|---|
| red | rədd |
| dri:m | Diri |
| draı | Quru |
| 'verı | Vergi |
| raıt | Rayon |
| traı | Tar |

İngilis dilindəki dodaq-diş, sürtünən samitləri [f], [v] işarələri ilə qeyd olunur, onların birinci əsas xüsusiyyəti əzələ gərginliyində təzahür edir (Trakhterov, 1976: 59). İlk mərhələdə tələbələr ingilis dilindəki [f], [v] samit səslərini Azərbaycan dilindəki oxşarları kimi tələffüz edir, yəni üst dişlər alt dodağın iç nahiyəsi ilə maneə əmələ gətirir. Əslində isə ingilis dilində üst dişlər alt dodağın çöl nahiyəsi ilə maneə əmələ gətirir.

| İngilis dilində | Azərbaycan dilində |
|---|---|
| fılm | Film |
| fæn | fənn |
| 'fæktərı | Fabrik |
| gıv | Ver |
| hæv | Var |
| lʌv | Sevgi |

İngilis dilindəki [□] samit səsini tələffüz edərkən dilin önü sərt damağın ön hissəsinə doğru qalxır və natamam maneə əmələ gətirməklə incə tələffüz edilir. Lakin azərbaycanlı tələbələr bu səsi Azərbaycan dilindəki oxşarlarının arxa sira sait səslərdən əvvəl səsləndiyi kimi, yəni qalın tələffüz edirlər. Məsələn, “shock” sözündəki [□] səsini “şor” sözündəki [ş] səsi kimi, “shark” sözündəki [□] səsini “şar” sözündəki [ş] səsi kimi tələffüz edirlər.

| İngilis dilində | Azərbaycan dilində |
|---|---|
| □ɔ: | Şor |
| □ɑ:k | Şar |
| □eım | Şey |
| □aın | Şahin |
| 'mı□ən | qəşəng |

İngilis dilindəki [l] samit səsi əksər hallarda Azərbaycan dilində olan [l] samit səsi kimi tələffüz edilir, lakin bu səslərin tələffüz məxrəcində fərqli cəhətlər olduğundan onların səslənməsində də fərq özünü biruzə verir.

Azərbaycan dilindəki [l] samit səsinin tələffüz edilməsində dilin ucu alt və üst dişlərin qarşılaşdığı mövqedə olduğu halda ingilis dilində olan [l] samit səsinin tələffüz edilməsində dilin önü üst dişlərin kökü ilə maneə əmələ gətirir, dilin yanları isə aşağı düşür və səs yaranmış keçiddən süzülməklə xaric olur. Azərbaycan və ingilis dillərindəki sözlərdə [l] samit səsi artikulyator cəhətdən fərqli tələffüz edilir.

| İngilis dilində | Azərbaycan dilində |
|---|---|
| 'lıtl | Dil |
| læmp | Lampa |
| 'teıbl | ləpir |
| leık | lələk |
| tel | Tel |
| sel | Sel |

| | |
|---|---|
| bel | Bel |
| dʌl | Bal |
| bɔ:l | Bol |

Görkəmli Azərbaycan fonetisti Ağamusa Axundov yazır: “n samiti t və d samitlərindən ağız üzvlərinin iştirakına görə, demək olar ki, fərqlənmir. Fizioloji fərq yalnız yumşaq damaq pərdəsinin vəziyyətinə görədir. Belə ki, n samitinin tələffüzü zamanı yumşaq damaq pərdəsi burun boşluğunun yolunu tutmur” (Axundov, 1984: 128). İngilis dilindəki [n] samit səsinin tələffüz edilməsində isə dilin ucu alviollarla (üst dişlərin kökü ilə) tam maneə əmələ gətirir və səs burun boşluğundan xaric olur (Babayev, Qarayeva, 2005: 57).

| İngilis dilində | Azərbaycan dilində |
|---|---|
| toun | Ton |
| nʌn | Nar |
| 'menı | nənə |
| sʌn | sən |
| mæn | mən |
| lænd | kənd |
| gɒn | On |

Azərbaycan dilində qarşılığı olmayan ingilis dili samitləri istər fizioloji, istərsə də akustik cəhətdən Azərbaycan dilində danışanlar üçün ciddi çətinliklər törədir. Belə ki, onların bəzisini tələffüz etmək üçün azərbaycanlılarda heç bir məxrəc vərdişi yoxdur (Hidayətzadə, 1987: 13).

Azərbaycan dilli tələbələrin ən çox üzləşdiyi çətinlik ingilis dilindəki [ŋ] burun samit səsinin tələffüz edilməsindədir. Onlar, bir qayda olaraq, sözlərin sonunda [ŋ] səsindən sonra [q] səsini əlavə edirlər.

| İngilis dilində | Azərbaycan dilində |
|---|---|
| lɒŋ | lɒŋ(q) |
| rıŋ | rıŋ(q) |
| sıŋ | sıŋ(q) |
| sɒŋ | sɒŋ(q) |
| tʌŋ | tʌŋ(q) |
| rɒŋ | rɒŋ(q) |

[θ] kar, [ð] cingiltili samitlərdir; 2. Dilönü, apikal; 3. Sürtünən kar; 4. Ağız samit səsləridir. Rus dilində belə səslər mövcud deyil. Natamam maneənin yeri dil ucunun və dişlərin arasındadır. (Leontyeva, 1980: 80). Azərbaycanlı tələbələrin də ən çox rastlaşdığı çətinlik [θ], [ð] samit səslərinin tələffüz edilməsindədir. Belə ki, bu səslər diş arası tələffüz edilməli olduğu halda onlar bu səsləri [s], [z] və ya [t] samit səsləri ilə əvəz edirlər. Lakin qeyd etmək lazımdır ki, dildə olmayan bir səsi təqlid etmək yolu ilə daha asan tələffüz etmək olar.

| İngilis dilində | Azərbaycan dilində |
|---|---|
| ðeı | zeı |
| ðem | zem |
| θıŋk | sınk |
| mıθ | mıs |
| mæθ | mæs |
| θæŋk | sænk və ya tænk |

Azərbaycan dilli tələbələrin tələffüz vərdişlərinin aşılanmasında çətinlik yaradan amillərdən biri də sözlərdə [w] samit səsinin tələffüz edilməsidir. Tələbələr, bir qayda olaraq, [w] səsini [v] səsi ilə əvəz edirlər. Bu çətinliyi aradan qaldırmaq üçün bu səsin tələffüz mexanizmini əsaslı şəkildə izah etmək və xüsusi təmrinlərdən istifadə etmək məsləhətdir. [w] samit səsinin tələffüz edilməsində dodaqlar azacıq irəli çıxır və yanlara çəkilməklə ondan sonra gələn sait səsi tələffüz etmək lazımdır. [w] samit səsi, bir qayda olaraq, sait səslərdən əvvəl təzahür edir.

| İngilis dilində | Azərbaycan dilində |
|---|---|
| wi: | vi: |
| wen | ven |
| waɪ | vaɪ |
| wɪʧ | vɪʧ |
| wel | vel |

İngilis dilində tələffüz vərdişlərini aşılamaq üçün müvafiq fonetik çalışmalardan istifadə etmək lazımdır. Məsələn, [w], [ð] səslərinin düzgün tələffüzünü aşılamaq üçün belə bir fonetik çalışmadan istifadə etmək olar:

We wonder whether the wether will weather the weather,
[wi: ˏwʌndə│ 'weðə ðə 'weðə wɪl 'weðə ðə ˎweðə]
Or whether the weather the wether will kill.
[ɔ: 'weðə ðə ˏweðə│ ðə 'weðə wɪl ˎkɪl]

Father, mother, sister, brother
['fɑ:ðə│'mʌðə│'sɪstə│ˏbrʌðə]
hand in hand with one another.
['hænd ɪn 'hænd wɪð 'wʌn əˎnʌðə]

Xarici dilin səmərəli şəkildə tədris edilməsi üçün əyani vəsaitlərdən istifadə edilməsinin böyük əhəmiyyəti vardır. Orta və ali məktəblərdə xarici dilin tədrisində geniş istifadə edilən əyanilik, şagirdlərin və tələbələrin şifahi nitqinin inkişafına yaxşı təsir göstərir. Xarici dilin təlimi zamanı əyanilik prinsipi əsas götürülür (Tahirov, 1975: 23). Xüsusi texniki vasitə və əyani vəsaitlərdən istifadə etməklə Azərbaycan dilli tələbələrə ingilis dili tələffüz vərdişlərinin düzgün aşılanmasına nail olmaq mümkündür.

## Nəticə

İngilis dilinin mənimsənilməsi üçün onun Azərbaycan dili ilə müqayisəli şəkildə öyrənilməsinin böyük əhəmiyyəti vardır. Bu müqayisə dilin bütün sahələri, xüsusən, fonetika, yəni səs tərkibi üzrə aparılır. Müqayisə olunan dillərin quruluşları müxtəlif olduqda onların öyrənilməsində çətinliklər meydana çıxır.

Azərbaycan auditoriyasında tədris olunan ingilis dili dərsləri göstərir ki, bu dili öyrənərkən tələbələrin qarşısına çıxan ən böyük çətinlik ingilis dilinin səs tərkibi ilə əlaqədardır. Hər iki dilin özünəməxsus spesifik samit fonemləri olduğu kimi ümumi şəkildə bir-birinin eyni olan səslər də ciddi keyfiyyət fərqlərinə malikdir.

Tələbələr həmin dilin samitlərini xüsusilə çətin qavrayırlar, odur ki, Azərbaycan dilli auditoriyada ingilis dili samit səslərinin tələffüz vərdişlərini aşılatmaq üçün xüsusi təmrinlərdən və fonetik çalışmalardan istifadə etmək lazımdır.

## Ədəbiyyat

1. Cəfərov, Ə., Cəfərova, S. (2019). İngilis dili tələffüz xüsusiyyətlərinin aşılanması üsulları. Bakı: ADU, Dil və ədəbiyyat, 192 s.
2. Qurbanov, A. (2010). Müasir Azərbaycan dili. I cild. Bakı: Elm və Təhsil, 452 s.
3. Trakhterov, A. (1976). Prakticheskiy kurs fonetiki angliyskogo yazika. Moskva: Visshaya shkola, 312 s.
4. Axundov, A. (1984). Azərbaycan dilinin fonetikası. Bakı: Maarif, 392 s.
5. Babayev, S., Garayeva, M. (2005). English Phonetics. Baku: Nurlan, 320 p.
6. Hidayətzadə, T. (1987). İngilis dili Azərbaycan auditoriyasında. Bakı: Maarif, 104 s.
7. Leontyeva, S. (1980). A Theoretical Course of English Phonetics. Moscow: Graduate School, 271 p.
8. Tahirov, A. (1975) Şifahi nitqin inkişafında əyani vəsaitin və texniki vasitələrin rolu. Bakı: Maarif, 131 s.

Göndərilib: 30.01.2023 Qəbul edilib: 01.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/28-31

**Nigar Babayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
kimya üzrə fəlsəfə doktoru
babayevanigar1979@gmail.com
https://orcid.org/0000-0001-8954-7210
**Xədicə Qayıbova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
xediceqayibova@gmail.com
UOT 372.8:50

# İON RABİTƏSİNİN TƏDRİSİ ZAMANI STEAM TƏHSİL METODUNUN TƏTBİQİ

**Xülasə**

Məqalədə müasir dövr təhsilinin texnologiya ilə bağlılığından, STEAM dərs metodunun ümüumtəhsil məktəblərində tətbiqinin şagird səriştələrinin artırılmasında rolundan, XXI əsrin təhsilində vacib sayılan layihə əsaslı, öyrənmə əsaslı təhsildən danışılır. Müəlliflər kimyanın tədrisi zamanı STEAM əsaslı öyrənməni daha dərindən anlayıb tətbiq etmək üçün 7E modeli əsasında hazırlanmış "İon rabitəsi" mövzusunda dərs nümunəsinə diqqəti cəlb edərək yeni təlim üsullarının təhsildə rolunu əsaslandırır.

***Açar sözlər:*** *layihə əsaslı öyrənmə, STEAM dərsləri, ion texnologiyası, mikrobit və tinkerkartlar, bacarıq*

**Nigar Babayeva**
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Chemistry
babayevanigar1979@gmail.com
https://orcid.org/0000-0001-8954-7210
**Khadija Gayibova**
Azerbaijan State Pedagogical University
master student
xediceqayibova@gmail.com
UOT 372.8:50

# Application of the STEAM educational method during the teaching of Ion communication

**Abstract**

The article talks about the connection of modern education with technology, the role of the application of the STEAM teaching method in general education schools in increasing student competences, project-based, learning-based education, which is considered important in the education of the XXI century. The author justifies the role of new teaching methods in education by drawing attention to the example of a lesson on "Ion communication" developed on the basis of the 7E model in order to understand and apply STEAM-based learning in the teaching of chemistry.

***Keyvords:*** *project based learning, STEAM lessons, ion technology, microbit and tinkerkarts, skill*

## Giriş

Təlim prosesində məktəblilər bilik, bacarıq qazanmaqla bərabər, bacarığı vərdişə çevirə bilməli və yaradıcı bir şəxsiyyət kimi formalaşmalıdır.

Müasir dərsi texnologiyasız təsəvvür etmək çətindir. Hazırda təlimin uğurlu təşkili, müəllim və şagirdlərin keyfiyyətli performansına nail olmaq üçün kifayət qədər yeni təlim texnologiyaları mövcuddur. Bu texnikalar isə tədris prosesinə kortəbii daxil edilmir, xüsusi alqoritmə uyğun olaraq standartların reallaşdırılmasına və məzmunun dərk edilməsinə motivasiya olunur. Bu zaman nəzərə alınacaq məsələləri diqqətdə saxlamaq vacibdir: məqsəd, alqoritm, şərtlər, vasitələr, yarana biləcək çətinliklər.

Kimya eksperimental bir fəndir. Müasir kimya təlimi özündə layihə əsaslı, problem əsaslı öyrənməni daha çox ehtiva edir. Ənənəvi kimya dərsləri daha çox müəllimyönümlü, daha çox dinamikdir. Müasir kimya dərsləri isə şagirdyönümlü olub, əsasən problem situasiyalı, tədqiqat xarakterli, layihələrə söykənən, ən əsası təfəkküryönümlüdür.

XXI-ci əsrə xas olan öyrənmə bacarıqları (4K – kritik düşünmə, kreativ düşünmə, kommunikativlik, koorperativlik), savadlılıq bacarıqları (informasiya savadlılığı, mediasavadlılığı, texnoloji savadlılıq), həyati bacarıqlar (çeviklik, liderlik, təşəbbüskarlıq, produktivlik, sosiallıq) məhz kimyanın tədrisi zamanı şəxsiyyətin formalaşdırılmasına zəmin yaradır. Bu bacarıqlar dünyanın sürətlə dəyişdiyi bir zamanda insan kapitalının inkişafı üçün ömürboyu öyrənmə mədəniyyətinin formalaşdırılmasına təkan verir. Öyrənmə, savadlılıq və həyati bacarıqlar arasında xüsusilə tənqidi düşünmə və yaradıcılıq, texnoloji savadlılıq, təşəbbüskarlıq və produktivlik xüsusi olaraq kimyanın tədrisində inkişaf etdirilə və formalaşdırıla bilər. Bu məqsədlə yuxarıda qeyd olunan layihə əsaslı və problem əsaslı öyrənməni nəzərdən keçirmək yerinə düşər (Həyati bacarıqlara əsaslanan təhsil üzrə milli konsepsiya, 2007: 6).

Layihə əsaslı öyrənmə ilə problem əsaslı öyrənmə arasında cüzi fərq vardır. Layihə əsaslı öyrənmə şagirdlərin müəyyən edilmiş zaman çərçivəsində araşdırma aparmaqla problemi həll etmək yollarını axtarmağa yönəlir. Problem əsaslı öyrənmə isə problemin həlli zamanı konseptual yanaşmanı, nəticənin müəyyən olunmasına imkan yaradır. Layihə əsaslı öyrənmə modelləri çoxdur. Onlardan günümüzdə ən çox istifadə etdiyimiz, real həyati problemlərin həllinə yönəlmiş STEAM təhsil metodudur. STEAM əsaslı təhsil proqramı Azərbaycan təhsilində 2019-cu ildən tətbiq olunur. Bu gün bir çox ümumitəhsil məktəblərində, lisey və gimnaziyalarda STEAM dərsləri həyata keçirilir (2).

S – Science - elm: kimya, biologiya, fizika, astronomiya, coğrafiya, geologiya, tibb, ekologiya ilə bağlı elmlərin inteqrasiyası.

T – Tecnologies - texnologiya: insanın müəyyən ehtiyaclarını ödəmək, rahatlığını təmin etmək üçün elə insanın özü tərəfindən hazırlanan müxtəlif problem həlləri, sadə əşyalar, avadanlıq, qurğu və s.

E – Engineering - mühəndislik: çertyojlar, qurma-yapma (maker), modelləşdirmə, psixomotor fəaliyyətlər.

A – Art - incəsənət: hazırlanmış məmulatın, detalın və s. ekzotik, zövqlü görünüşü.

M – Mathematics - riyaziyyat: qrafiklər, düsturlar və hesablamalar, statistik nəticələri təhlil etmək (Big Data-ya hazırlıq) və s.

STEAM layihəni həyata keçirmək üçün şagirdlər bir neçə mərhələdən keçməlidirlər:

* Mövzunu düşünmək, müəyyənləşdirmək üçün vaxtın verilməsi. Mövzu şagirdin potensial imkanlarına yönəlməli, maraqlarına yönəlməlidir. Mövzu həyati situasiyaya uyğun olmalıdır.

* Layihə başlayan andan sonuna kimi müəllim şagirdlərin yanında olmalı, onlarla birgə işləməli, onları istiqamətləndirməlidir.

* Əməkdaşlıq mexanizmi tam gözlənilməlidir.

* Layihənin əsas məqsədi praktik olaraq sınaqdan keçirilməli, problem həlli üçün seçilmiş strategiyalar dəqiqləşdirilməlidir.

* Rəqəmsallıq vacibdir (3).

Kimyanın tədrisi zamanı STEAM əsaslı öyrənməni daha dərindən anlayıb tətbiq etmək üçün 7E modeli əsasında hazırlanmış bir dərs nümunəsinə diqqət etmək yerinə düşərdi:

**Mövzu: İon rabitəsi**

**Elicit - yadasalma mərhələsi.** Bu mərhələdə kimyəvi rabitə ilə bağlı sual verməklə şagirdlərin yaddaşını yeniləmək olar. Məsələn:

Hansı qeyri-metalları tanıyırsınız?

Metallarla qeyri-metalların fərqli xüsusiyyətləri?

Kimyəvi rabitənin hansı növlərini bilirsiniz?

Atomlar arasında hansı rabitələr yarana bilər?

Bəs ionlar arasında hansı rabitələr yarana bilər?

Beləliklə, bu mərhələ yeni biliklərin ötürülməsini asanlaşdırmaq üçün əvvəl qazanılmış bilik və anlayışları yada salmaq, diqqəti onlara yönəltmək və yeni bilikləri əvvəlki biliklər üzərində qurmaq üçün əlverişli mərhələ hesab olunur (Abbasov, 2019: 123).

**Engage - cəlbetmə mərhələsi.** Bu mərhələdə şagirdlərə mil-kürəciklər təqdim oluna bilər ki, onlar müxtəlif rabitə növlərinə dair molekul modelləri hazırlasınlar. Bu prosesi yapma, rəsm çəkmə və həmçinin də, rəqəmsal imkanlarından məsələn

3D qələmlərdən istifadə etməklə də həyata keçirmək olar. Deməli, şagirdlərin fikirlərini mövzuya cəlb etmək, bir neçə seçilmiş şagirdlərin deyil, sinifdəki bütün şagirdlərin ünsiyyəti üçün şərait yaratmaq məhz bu mərhələdə həyata keçirilir. Bu zaman müəllim şagirdlərə açıq-qapalı suallarla müraciət edə bilər, nisbətən sadə modellərin hazırlanmasını (NaCl, KJ, $Na_2S$ və s.) tapşıra və düşün-, cütləş-, bölüş, paylaş- texnikasından istifadə edərək öyrənmə mühiti yarada bilər.

**Explore - tədqiqat mərhələsi.** Bu mərhələ şagirdlərin mövzunu mənimsəməsi üçün vacib mərhələdir. Onlar prosesi müşahidə edə, məlumatların qeyd edə, təcrübə apara, qrafik və diaqramlar qura bilər və yekunda öyrəndiklərini şərh edərək və nəticə çıxara bilərlər. Bu mərhələ şagirdlərin anlayışlarını yoxlamaqla müşayiət olunan mərhələdir. Məsələn: $NH_4OH$, $Na_2SO_4$, $KMnO_4$, $K_2CO_3$, $KH_2PO_4$, KOH, Ca $(OH)_2$, $CaC_2$, $FeS_2$ və s. tipli mürəkkəb maddələrdə rabitənin növünü araşdırmağa yönəltməklə, şagirdləri daha dərin düşünməyə sövq etmək olar (Mustafa, Camalova, Lətifov, 2018: 208).

**Explain - izahat mərhələsi.** Bu mərhələ artıq yazılı və şifahi ünsiyyət, yekun və nəticələr, əsaslandırmalar üçün optimal şərait yaranır. Fikirlərin təsdiqi üçün arqumentlərin müəyyən edilməsi, izahatların qeyd edilməsi, müzakirə üçün əlverişlidir. Şifahi icmal və izahat, təcrübənin nəticələrinin şifahi şərhi, qeydlər və refleksiya jurnalı, icmal və yekun nəticələr daxil olan layihələr, məlumatın qəbul edilməsi, dəyərləndirilməsi və ötürülməsi, yeni informasiyaların verilməsi bu mərhələnin prosedur ardıcıllığıdır.

**Elaborate - təkmilləşdirmə mərhələsi.** Təkmilləşdirmə bir anlayışdan digərinə və ya bir mövzudan digərinə keçid, qazanılan biliklərin müxtəlif situasiyalara tətbiqi baş verir. Bu mərhələ şagirdlər üçün yaradıcı təfəkkürün inkişafına yol açan bir mərhələdir (6).

**Evaluate - dəyərləndirmə mərhələsi.** Şagirdlərin tənqidi təfəkkürü işə düşür, belə ki, onlar təcrübələrlə bağlı sualları və yeni biliklərin tətbiqini dəyərləndirirlər. Fəaliyyət tapşırıqlarının icrası zamanı şagirdlərin özlərinin və müəllimin şərhlərini diqqətə alır. Bu mərhələ refleksiya (Ticket-Out-The-Door strategiyası) üçün imkanlar açır: Bu zaman şagirdlərə aşağıdakı suallar verilir:

– Bu gün nələri öyrəndiniz?
– Hansı məsələlər sizin üçün aydın olmadı?
– Bugünkü dərsin üç əsas məqamını qeyd edin.
– Bugünkü dərsin əsas mənasını iki-üç cümlə ilə şərh edin.
– Mən (müəllim) sizə mövzunu anlamaqda hansı köməkliklər göstərə bildim?
– Mövzu ilə bağlı xoşunuza gələn iki məqamı qeyd edin.

Bu zaman həmçinin məqsədəuyğun olaraq qrup, cütlər, fərdi rubriklər qurula bilər.

**Extend - genişləndirmə mərhələsi.** Bu mərhələ isə sonuncudur və şagirdlərin mənimsədikləri zəruri biliklər üzərindən onların fəaliyyətlərinin genişləndirilməsi, sadədən mürəkkəbə olan

spiralvari inkişafa zəmin yaradır. Belə ki, şagirdlər yeni bilikləri müxtəlif fərqli situasiyalara tətbiq edə bilirlər (7).

Elmlərin inteqrativliyini tətbiq etməklə şagirdləri motivasiya edib, onlarda idrak fəallığı oyatmaq dərsin yarısının mənimsənilməsi üçün əvəzsiz imkandır. Əməkdaşlıq edən öyrənənlər və öyrədən eyni hüquqlu mövqedə dayanırlar, Təbii ki, müəllim öyrədən olaraq bələdçi, fasilitator, məsləhətçi funksiyasını yerinə yetirir. Şagirdlərin işlərinə müdaxilə etmədən problemləri qoyur, istiqamət verir, nəzarət edir, axtarış istiqamətlərini hazırlamağa kömək edir, amma təlim tapşırıqları üzərində uşaqlar öz aralarında tədqiqat apararaq, diskussiya edərək işləyirlər. Hər bir şagirdin öz fikri, ideyası olur. Mübadilə nəticəsində fikirlər dəyişir, ideyalar təzələnir. Qrupdakı zəif şagirdlər də müzakirədə fəal iştiraka qoşulurlar, məsələlərin müzakirəsi və kollektiv müzakirənin gedişində bir-birini dinləməyə alışırlar, hər bir təlim tapşırığının həlli vasitəsilə onlar idraki axtarıcılıq taktikalarını təkmilləşdirirlər. STEAM təhsili şagirdlərdən innovativ düşüncə tərzi tələb edir. Tədqiqatlar və təqdimatlar şagirdləri həm təşəbbüskar, həm də yaradıcı olmağa sövq edir (8).

Maddələrin insan orqanizmində ionlar şəklində olması, ionların orqanizmdə müxtəlif rol və vəzifələrə malik olması, bu mövzunun həyatla əlaqələndirilməsi şagirdlərdə xüsusi marağa səbəb olur. Bu məqsədlə şagirdlərə uyğun hekayə, illüstrasiya, video, audio materiallar nümayiş etdirmək olar. Şagirdlər ionların tək kimyada deyil, biologiyada, fizikada və coğrafiyada da rolu və əhəmiyyətini görür, nə üçün bu mövzunu öyrəndiklərini dərk edirlər (9).

## Nəticə

STEAM təhsil metodunun tətbiqi şagirdlərin səriştələrinin və öyrənməyi öyrənmə bacarıqlarının formalaşdırılmasına imkan yaradır. STEAM, problem və layihə əsaslı öyrənmənin şagirdlərdə tədqiqat bacarıqlarının formalaşdırılmasına təsiri böyükdür.

Nümayiş eksperimenti rabitələr haqqında şagirdlərin biliklərinin sistemləşdirilməsi və genişlənməsinə, həmçinin onların dərketmə fəallıqlarının inkişafına şərait yaradır. Mövzunun əsas ideyasının eksperiment vasitəsi ilə mənimsənilməsi, prosesdə şagirdlərdə elmi dünyagörüşü inkişaf edir. Dərsin yeni texnologiyalarla təşkili şagirdlərin meyl və maraqlarına müsbət edir, şagirdlərdə və müəllimlərdə tədqiqat aparmaq imkanları yaradır.

STEAM əsaslı dərslər inteqrasiyaya istinad edir. STEAM dərslərinin keçirilməsi müəllim və şagirdlərin əməkdaşlığı əsasında qurulduğundan elmlərin inteqrativliyini təmin etməklə şagirdləri motivasiya edib, onlarda idrak fəallığı oyadaraq keçilən mövzunun mənimsənilməsi üçün əvəzsiz imkanlar yaradır.

## Ədəbiyyat

1. Həyati bacarıqlara əsaslanan təhsil üzrə milli konsepsiya. (2007). Azərbaycan Respublikası Təhsil Nazirliyi. Bakı: Universal Servis MMC, 5 s.
2. https://www.steam.edu.az/content/10
3. Samples/Labdisc_MS_HS_How_Acidic_are_the_Things_we_Drink_Activity.pdf
4. Abbasov, M., Quliyeva, G., Abbaszadə, S., Əliyev, A. (2019). Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün kimya fənni üzrə metodik vəsait. Bakı: Aspoliqraf, 191 s.
5. Mustafa, Ş., Camalova, R., Lətifov, İ. (2018). Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün kimya fənni üzrə metodik vəsaiti. Bakı: 208 s.
6. https://pubs.rsc.org/en/content/articlelanding/2020/ta/c9ta12926j
7. file:///C:/Users/User/Downloads/Activity_plans_arranged_by_7e_model_of_c.pdf
8. https://www.tinkercad.com/dashboard
9. https://makecode.microbit.org/

Göndərilib: 02.02.2023 Qəbul edilib: 28.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/32-37

**Sevda Novruzəliyeva**
Azərbaycan Tibb Universiteti
filologiya üzrə fəlsəfə doktoru
sevda.novruzaliyeva@mail.ru

# KOMMUNİKASİYA VƏ GÖZƏL ƏXLAQ

**Xülasə**

Çağdaş dövrümüz üçün prioritet olan gözəl əxlaqın tədqiqinə həsr olunan bu məqalənin giriş və üç başlığı var.

Giriş bölümündə gözəl əxlaq sahiblərinin xeyirsevər, sadə, səbrli, eyib örtən, mülayim, nəzakətli, motivasiya edici, əfv edici, nikbin, üzügülər, şükürlü, namuslu və xoşbəxt olmaları əsaslandırılır.

"Filosof və yazarlar gözəl əxlaq haqda" başlığında dünyaca tanınan filosof və yazarların məna dolu sitatları gündəmə çıxarılır, kimsənin elmi rəyindən istifadə etməyən məqalə müəllifi onlara şərh və açıqlamalar yazır.

"Gözəl əxlaq və islam" başlığında gözəl əxlaq anlayışı islam prizmasından araşdırılır, Qurani-Kərimdən ayələr, Peyğəmbər və həzrət Əlidən kəlamlar, məqalə müəllifinin şəxsi izahları təqdim olunur.

"Gözəl əxlaq və atalar sözləri" başlığında gözəl əxlaqa dair 28 Azərbaycan atalar sözü yer alır. Onların hər biri gözəl əxlaqın ayrı-ayrı müstəvidən anlaşılmasına xidmət edir.

Məqalədə mövzunun aktuallığına üç baxışdan aydınlıq gətirilir, ədəbiyyat siyahısında türkcə və rusca olmaqla son altı ayda qeydiyyata alınan 22 internet resursu sadalanır.

***Açar sözlər:*** *kommunikasiya, gözəl əxlaq, filosof, yazar, insan davranışı, islam, atalar sözləri*

**Sevda Novruzaliyeva**
Azerbaijan Medical University
Ph.D in Philology
sevda.novruzaliyeva@mail.ru

## Communication and good morals

**Abstract**

This article, devoted to the study of good morals, which is a priority for our modern times, has an introduction and three headings.

In the introduction, it is argued that people of good character should be kind, simple, patient, forgiving, gentle, polite, motivating, forgiving, optimistic, grateful, honest and happy.

In the title "Philosophers and writers about good morals", meaningful quotes of world-famous philosophers and writers are brought to the agenda, and the author of the article, who does not use anyone's scientific opinion, writes comments and explanations on them.

In the title "Good morals and Islam", the concept of good morals is investigated from the perspective of Islam, verses from the Holy Quran, sayings of the Prophet and Hazrat Ali, personal explanations of the author of the article are presented.

The title "Good morals and proverbs" contains 28 Azerbaijani proverbs about good manners. Each of them serves to understand good morals from a different level.

The article clarifies the relevance of the topic from three points of view, the literature list lists 22 Internet resources registered in the last six months, including Turkish and Russian.

***Keywords:*** *communication, good morals, philosopher, writer, human behavior, Islam, proverbs*

*Əxlaq örtüsü olmayan kəsi*
*Baş örtüsü dindar edə bilməz.*

*Mevlana Rumi*

## Giriş

İnsan davranışını gözəl düzənə salan gözəl əxlaq kommunikativ prosesdə ali bir davranış formasıdır. Bütün dinlər, humanitar elmlər gözəl əxlaqdan üstün bir yaşam modelinin olmadığını vurğulayırlar. Bəşər var olunca gözəl əxlaq öz dəyərini, aktuallığını qoruyub saxlayacaq. Hər bir ağacın budaqları olduğu kimi, bir mənəvi ağac olan gözəl əxlaqın da öz budaqları (istiqamətləri) var. Daşıdığı önəminə görə onları belə sıraya düzürük:

*Xeyirsevər olurlar:* Nəcib bir insan olub, maddi və mənəvi yardıma ehtiyac duyanlara heç bir təmənna güdmədən, sırf Tanrı rizası üçün yardım edərlər və bunu reklam etməkdən çəkinərlər. Kommunikasiyada qadın xeyirxahlığı kişi xeyirxahlığından daha önəmlidir. Qadın anadır, ailə ocağıdır, bəsləyib tərbiyə edəndir, arxa durandır, övladı yolunda şam olub yanandır. Bonapart Napoleon haqlı olub deyəndə ki, *"Gözəl qadın gözlərə, xeyirxah qadın isə ürəyə xoş gəlir. Biri görüntü olaraq gözəldir, o biri xəzinə olaraq"* (Fromm, 2012: 143). Əlimizdə fakt olmasa da, bu qənaətdəyik ki, bütün dahiləri yalnız xeyirxah analar doğa bilər.

Təbiətin hər bir işində fayda, xeyir var. Günəşin işiğında, ayın nurunda, yağışın yağmasında, küləyin əsməsində, dan yerinin sökülməsində, axşamın gəlişində, gecənin çökməsində, kölgənin uzanıb qısalmasında – bunların hər birində insanlar üçün xeyirsevər olmanın danılmaz örnəkləri var. İnsanları xeyirxahlığa çağıran Cüneyd Bağdadi bulud və yağmur olmaqla təbiətin iki elementindən yararlanaraq vurğulayır ki, "*Bulud kimi hər kəsi kölgələndir, yağmur kimi sevdiyin və sevmədiyin hər kəsə fayda ver.*

*Eqodan uzaq olurlar:* Özünü böyük görüb başqalarını aşağılayan bir fərdi heç kim sevməz. Eqo ayrılıq salır, sevgini yox edir, barışa yer saxlamır, böyük-kiçikliyi ölgün duruma düşürür. Eqolu insana pozitiv düşüncə yaddır.

*Səbrli olurlar:* Səbr dünya həyatının çətin yollarından sağ-salamat qurtulmaq üçün mənəvi bir körpü, ağlın cövhəri, uğurlara qovuşduran, sarsıntıların acı sonluğunu reallaşmağa qoymayan, müdrüklüyün ilkin şərti olan, hər şeyi haqq sahibinin ayağına gətirən ilahi bir xəzinədir. Səbrin insan həyatında dominativ (aparıcı) rolunu qabartmaq üçün Mevlana Ruminin bu sitatı Yaradan ilə bağlılığı üzündən gözəl səslənir ki, *"Uca Yaradan üç yolla cavab verir. "Hə" deyir və sənin istədiyini verir. "Yox" deyir və daha yaxşısını verir. "Səbr elə" deyir və ən yaxşısını verir"* (Donald Uolsh, 2021: 269).

*Eyib örtən olurlar:* Başqasının eyib və nöqsanlarını örtmək yetkin bir iş olub, Tanrını razı salan, insanlar arası ünsiyyətə barış gətirən bir davranış örnəyidir.

*Mülayim olurlar:* Mülayim olan kəs kimsənin ürəyinə toxunmur, kimsənin üstünə qışqırmır, söylənən iradları xoş duyğularla qarşılayır, söylədiyi iradlarda aşağılayıcı ton olmur, qarşıdakının insan olmasına saygı ilə yanaşır. Mülayim insan özündən çıxmaz, kimsəni də özündən çıxarmaz.

*Nəzakətli olurlar:* Bir davranış çeşidi olan nəzakət hər insanın yox, yalnız mərifətli (qanacaqlı) insanların işidir. Nəzakəti olan birisi yaşlıya, cavana, uşağa fərq qoymadan hamıya hörmətlə yanaşır, kimsənin sözünü kəsmir, sözünün qabağına söz gətirmir, kimsəyə təpinmir, kimsəni incik salmır. Nəzakət insana mənəvi zinət verir, onun içində vicdan, həya, düzlük, ədalət, mərhəmət kimi əxlaqi motivlər var. Nəzakətli bir cütlüyün evliliyindən mələk xislətli bir insan dünyaya göz açar. Nə yazıq ki, gənclərin bir qismi nəzakətin önəmini boşanmalardan sonra anlayırlar.

*Motivasiya edici olurlar:* Motivasiya səmərəli, yaradıcı həyata çağırışdır, insana ümid, qol-qanad verməkdir, həvəsləndirməkdir, həvəsdən salmaq deyil. Hər gözəl əxlaqı olan birisi motivasiya edici bir şəxsdir, beləsinin hər sözü, təklifi, öyüdü, hətta iradı motivasiya edici yanaşmadır (Sinelnikov, 2019: 255).

*Əfv edici olurlar:* Əxlaqı gözəl olanlar əfv edici olurlar, başqalarının onlara qarşı etdiyi pislikləri unudaraq qarşılıq vermirlər, onları bağışlayırlar. Birisi bir başqasını bağışlamaqla iki yaxşı

işə imza atır – ürəyini kindən qurtarır, insanların gözündə ucalır. Hər sözü hikmət olan həzrət Əli buyurur ki, *"Bağışlamaqla kimsə alçalmaz, elə olsaydı, Allah bu qədər uca olmazdı"*. Başqa sözlə, bizə pislik edənə pislik ediriksə, onun tayı oluruq. Pislik edəni bağışlayırıqsa, ondan bir qat uca oluruq. Pislik edəni bağışlayıb, ona yaxşılıq ediriksə, ondan iki qat uca oluruq.

*Nikbin olurlar:* Nikbin düşünən insan gördüklərindən, duyduqlarından, düşündüklərindən pozitiv enerji alır, hər şeyin bir gün normal axara düşəcəyinə inandığına ya da özünü inandırdığına görə həyatın uğursuzluqları onu ruhdan salmır. Optimist olan insanın ömrü uzun olur, qazandığı pul-para artımlı olur, daima hüzür (qəlb rahatlığı) onu izləyir.

*Üzügülər olurlar:* Üzü gülər insan pozitiv olub, ətrafına xoş aura saçır, gözəl ovqat sərgiləyir, xoşməramlı kommunikasiya üçün real zəmin yaradır. Üzügülər olmaq yalandan gülmək deyil, özünü üzügülər göstərmək deyil, tam əksinə, ürəkdən alovlanan bir sevgidir. Belə insan hər yerdə xoş qarşılanır və xoş yola salınır (Kant, 2020: 96).

*Şükürlü olurlar*: Şükürlü olmaq olanına qane olmaqla yaşayıb çalışmaqdır, varlanmaq üçün dəridən-qabıqdan çıxmaq deyil. Şükür insani dəyərlərin artmasına, ruzinin çoxalmasına yol açır.

*Namuslu olurlar:* İnsanın təmiz, ləkəsiz ad-sanı (şərəfi) onun namuslu olmasına sıx bağlıdır. Namuslu bir fərd heç zaman başqasının namusuna nə toxunar, nə bir söz deyər, nə də bir iş görər.

*Xoşbəxt olurlar:* Xeyirsevər, eqodan uzaq, səbrli, eyib örtən, mülayim, nəzakətli, motivasiya edici, əfv edici, nikbin, şükürlü və namuslu bir insan sözün geniş anlamında dünyanın xoşbəxt insanlarından biridir. İnsanın verim əli olanda, kimsəni incitmədiyinə görə rahat vicdanı olanda o adam nə qədər ki yaşayır, xöşbəxt yaşayar, öləndə də həmişə xoş duyğularla alınacaq. Xoşbəxtliyin nə olduğunu açıqlayan Lev Tolstoy deyir, "*Bu iki arzu reallaşsa, insan həqiqi mənada xoşbəxt ola bilər – biri faydalı olmaq, biri də rahat vicdana sahib olmaqdır*".

**Filosof və yazarlar gözəl əxlaq haqda**. Ağıl insanı idarə edən, yaxşını pisdən ayırmağa yardım edən, həyat planlarını gerçəkləşdirməyə kömək edən bir xəzinədir. Ağlı olanın normal keçim üçün hər şeyi olur. Ağlı olmayan isə sıxıntılardan, çətinliklərdən qurtula bilmir. İnsan yalnız ağlı ilə bilir ki, nəyə, kimə harada güvənmək olar. Hər kəsin həyatında özünün güvəndiyi şeylər olur. İbn Sinaya görə bu siyahının başında ağıl, ardınca da gözəl əxlaq durur, "*Güvənə layiq ən böyük şey ağıl və gözəl əxlaqdır*" (Yalom, 2019: 304).

İnsana aid rütbələr çoxdur, ən böyüyündən ən kiçiyinə onların sayı yüzü aşır. Onların bir qismi dövlət məqamlarıdır (Prezident, baş nazir, nazir, deputat ... kimi), bir qismi elmi məqamlardır (akademik, professor, dosent... kimi), bir qismi sənət rütbələridir (xalq şairi, xalq yazıçısı, xalq artisti, xalq rəssamı .... kimi), bir qismi hərbi rütbələrdir (general, polkovnik...... kimi), bu siyahını artırmaq da olar. Şihabəddin Sührəvərdinin qənaətincə, "*Deyilmişdir ki, kimə gözəl əxlaq verilmişsə, ona rütbələrin ən böyüyü verilmişdir*".

Dünyanı yaradan Tanrı olsa da, onu saxlayan Tanrının yaratdığı gözəlliklərdir. Dünya gözəlliklər hesabına duruş gətirir. Peyğəmbər kəlamı, Nizami poeması, Fizuli poeması, Şekspir dramaturgiyası, böyük yazarların uca sözləri, nəhəng rəssamların tabloları, böyük heykəltəraşların monumental abidələri, Ruzvelt, Çörçil, de Qol, Tetçer, Mitteran, Heydər Əliyev .... kimi siyasət nəhəngləri bu gözəlliyin bulağından su içən şəxsiyyətlərdir. Fales doğru buyurub ki, "*Gözəllik hardan gəlir ? Üzlərdən gəlmir, gözəl davranışlardan gəlir"*.

Ədəbi olana ədəbli, tərbiyəsi olana tərbiyəli deyilir. Gözəl davranışda (gözəl əxlaqda) həm ədəb, həm də tərbiyə var. Bu ikisindən biri olmasa, gözəl davranış ərsəyə gəlməz. Belə ki, ədəblinin və tərbiyəlinin faydası özünədir, gözəl davranışlının isə özünə və başqalarınadır. Gözəl davranışdan doğan söhbət sadə kommunikasiya deyil, platonik (səmavi) bir kommunikasiyadır. Gözəl davranışın hökmran olduğu bir məclis sadə bir kommunikasiya deyil, ruhə sığal çəkən, onu pozitiv yöndə cuşa gətirən bir kommunikasiyadır. Bu sayaq incəlikləri nəzərdə tutan, ədəbi, tərbiyəni, gözəl davranışı ilahi nurdan bir tac sayan Sədi Şirazi buyurur ki, "*Ədəb, tərbiyə, gözəl davranış Allahın nurundan bir tacdır. Onu başına qoy, istədiyin yerə get. Hər yerdə etibar görərsən"*.

Gözəl əxlaq kommunikasiyanın ən faydalı qatıdır. O, hara yol açırsa, ora bahar kimi gül-çiçək açır, günəştək işıq saçır, təmiz dağ havası kimi aydınlıq səpir, qaranlıq gecədə ay kimi nur paylayır. Gözəl əxlaq bir nəzakət sərgisidir. Bu sərgiyə girən insanlıq dərsi alır, mənəviyyata yüklənir. Gözəl

əxlaq daş ürəklərə nüfüz edərək simicliyi, paxıllığı, xəyanəti silkələyir. Mari-Fransua Volter gözəl əxlaqı insanlar arasında bir nəzakət alış-verişinə bənzədərək yazır ki, "*Gözəl əxlaq insanlar arasında bir nəzakət alış-verişidir. Bu alış-verişdə yer almayan dəyərsizdir*" (Dürant, 2006: 576).

Gözəl əxlaq hər yerdə əxlaqsızlığa qarşı antaqonist (barışmaz) mövqedə dayanır. Birincinin olduğu yer gülüstan olur, ikincininki isə xaraba bir yer. Birinci həyat üçün stimul verici motivasiyadır, ikinci isə pozitiv motivasiyanı yox edən bir davranışdır. Birinci barışa, tərəqqiyə, dostluğa, birliyə, qarşılıqlı anlaşmaya, sevgi duyğularının yayılmasına, mərhəmət hislərinin artımına yol açır, ikincisi isə cəmiyyəti məhvə sürükləyir, insanlar arası şiddətə səbəb olur, ürək dincliyini aradan aparır, güvəni yox edir. Lev Tolstoy əxlaq qaydalarının önəmini göstərərək xəbərdar edirdi ki, "*Əxlaq qaydalarını çeynəməyin, zira tez qisas alar. Əxlaq bir dəfə pozulmağa üz tutdumu, cəmiyyətdə bir toqquşma, şiddət baş qaldırar, hüzür və güvən qalmaz*".

Ərəbcə dövrünün elmi kitablarını mütaliə edən, farsca sufi, əxlaqi poeziya yaradan Mevlana Rumi bütün cahanı araşdırdığını (bütün dünyada baş verənlərin elmi, əxlaqi analizini verə bildiyini), hadisələrə din, əxlaq, məntiq, fəlsəfə, elm prizmasından baxa bildiyini vurğulayır, amma gözəl əxlaqdan üstün bir ləyaqətin (insana yaraşan davranışın) olmadığını deyir. Deməк, gözəl əxlaq təkcə müsəlman Şərqində dominativ davranış deyil, irqindən, dinindən, dilindən, məzhəbindən, sosial-ictimai mövqeyindən asılı olmayaraq, bütün dünyada ən sevilən bir insani davranışdır. Şair fikrini belə tamamlayır ki, "*Bütün cahanı araşdırdım, gözəl əxlaqdan üstün ləyaqət tapa bilmədim*".

**Gözəl əxlaq və islam.** Bir insanı fayda vermək baxımından digərindən ayıran elm, mərifət, hünər, ədəb, ağıl və gözəl əxlaqdır. Bunların altısı da insana şərəf versə də, aralarında fərq vardır. Fərq budur ki, gözəl əxlaq qalan beşindən üstündür. Gözəl əxlaq insanlara ümid, barış, sevinc, pozitiv örnək, pozitiv motivasiya verir. Gözəl əxlaq daşıyıcısı işıq saçır, insan yaşamını maraq doğuran bir prosesə çevirir. On dörd əsr öncə Məhəmməd peyğəmbər doğru olaraq buyurdu ki, *"Ən xeyirliniz əxlaqı ən gözəl olanınızdır"*. Gördündüyü kimi, elm, mərifət, hünər, ədəb, ağıl, fayda verici faktorlardır, amma faydaları gözəl əxlaqın faydasına çatmır (Qrin, 2022: 463).

Allaha tapınan da, tapınmayan da Cənnət arzusundadır. Çünki ora ölümdən sonra ideal yaşam yeridir. Orada dünyadakı üzüntü, çətinlik, itki, sıxıntı, yaşlanma yoxdur. Hamı cavan yaşda olub əbədi olan Cənnət nemətlərindən yararlanacaq. Cənnətə girmək üçün Peyğəmbər təqva (Allaha qarşı gəlməkdən çəkinmək) və gözəl əxlaq olmaqla iki ən önəmli üstünlüyü şərt olaraq qoyur. Demək, insanı insan edən üstünlüklərin sayı yüzlərlədir, işə baxın ki, Peyğəmbərin siyahısında gözəl əxlaq 2-ci yerdədir. Bu həzrətin kəlamı belə səslənir, "*İnsanların Cənnətə girməsinə yol açan iki ən önəmli üstünlükdən biri təqva, biri də gözəl əxlaqdır*".

Gözəl əxlaqın Cənnət üçün önəmli, dominativ olmasını həzrət Peyğəmbər bir başqa hədisində də vurğulayıb. Bu hədisdən anlaşılır ki, Peyğəmbər əxlaqı ən gözəl olanı sevib və Qiyamət günü onu özünə ən yaxın sayıb. Demək, Cənnətə düşmək, Peyğəmbərin sevimlisinə çevrilmək, Qiyamət günü ona ən yaxın olmaq istəyən birisi mütləq gözəl əxlaqa sahib olmalıdır. Hədis belədir, "*İçinizdə ən çox sevdiyim və Qiyamət günü mənə ən yaxın məsafədə olacaq kimsələr gözəl əxlaq sahibi olanlarınızdır*".Gözəl əxlaq sahibi gözəl düşünüb gözəl davranan kəsdir. Gözəl davranmaq üçün insan gözəl düşünməlidir, gözəl düşünməsə, əsla gözəl davrana bilməz. Gözəl düşünüb gözəl davrananın iki mükafatı var. Birincisi, gözəl düşündüyünə görə, ikinicisi isə gözəl davrandığına görə. Hər kəs kainatın bu dəyişməz qanununu öz həyatında (kommunikativ prosesdə) minlərlə dəfə, bəlkə də milyonlarca dəfə görüb ya da eşidib. Gözəl düşünüb gözəl davranan öz qarşılığını (mükafatını) alacaq, səbr edərək alacaq. Qurani-Kərim buyurduğu kimi, "*Səbr et, Allah gözəl düşünüb gözəl davrananların mükafatını əsla zay etməz*".

Əxlaqı gözəl olmaq gözəl işlər etmək ya da gözəl işlərdə araçılıq (vasitəçilik) etməkdir. Qurana görə, bir gözəl iş edənin qarşısına on gözəl iş çıxar, bir pis iş edənin qarşısına isə bir pis iş çıxar. Demək, Tanrı gözəl işə (öyülən işə) birə on, pis işə (qınanan işə) isə birə bir qarşılıq verir. Tanrı hər şeyi saxlayıb qarşılığını verdiyi üçün bu balans dünya durduqca var olacaqdır. Başqa sözlə, "*Kim gözəl bir işdə araçılıq edərsə, ona ondan pay vardır. Kim pis bir işdə araçılıq edərsə, ona da ondan pay vardır. Allah hər şeyi saxlayıb qarşılığını verəndir*" (Osho, 2019: 240).

Hər bir insan fizioloji anlamda insandır, lakin mənəvi anlamda hər kəs insan deyil. İnsanoğlu yad birinin acısına acıyandır, yardımına qoşandır, gözəl düşünəndir, gözəl davranandır, dedi-qodu yaymayandır, eyib örtəndir, sirr saxlayandır, ata-ananı əziz tutandır, vətənin dar günündə oğul olaraq ona arxa durandır, bir sözlə, gözəl əxlaq daşıyıcısıdır. Dərin düşüncə sahibi həzrət Əli çox düzgün buyurur ki, "*İnsan gözəl əxlaqı ilə insandır, görüntüsü ilə yox"*.

Bir insan dünyasını dəyişəndə ona ən yaxınları ağlayır, sızlayır, üzülür. Bu insani itki yadları ürpətməz, duyğulandırmaz. Amma elə böyük insanlar var ki, onlar əbədi yurda köçəndə onlara bütün xalq ağlayır, yas saxlayır. Dahi bəstəkar Üzeyir Hacıbəyli, böyük şair Səməd Vurğun, iki dəfə Sovet İttifaqı Qəhrəmanı general Həzi Aslanov, dahi siyasətçi Heydər Əliyev, Milli Qəhrəman general Polad Həşimov son mənzilə yollananda Azərbaycan xalqı yasa batmışdı. Gözəl əxlaqı həmişə uca tutan həzrət Əli tapşırır ki, "*İnsanlarla elə gözəl davranın ki, düşmənləriniz də ölümünüzə ağlasınlar"*.İnsan fizioloji anlamda gözəl ola bilər. Amma o, yaşa dolduqca bu gözəllik aradan gedir, bir ara gözəllik saçan üz qırışlara bürünür, bədən get-gedə sustalır, görmə, eşitmə, anlayış bacarığı azalır. Tanrının təbiətdə olan varlıqlar üzərində bir dəyişilməz qanunu var, oda budur ki, yer üzündə olanların hamısı fanidir (öləridir). Bu qanunu təsdiqləyərək, gözəl əxlaqı gözəl üzə qarşı qoyaraq həzrət Əli vurğulayır ki, "*Gözəl əxlaq gözəl üzdən daha ömürlüdür"*. Sitatdan bu anlaşılır ki, insan həyatda ikən gözəl üz onu tərk edir, amma insan həyatda ikən gözəl əxlaq onu tərk etmir, yalnız ölməyi ilə gözəl əxlaq onu tərk edir.

Hüquqi anlamda yetim o kəsdir ki, ata-anası olmasın və yetkinlik yaşına çatmasın. Həzrət Əlinin duyumunca, "*Əsl yetimlər ata-anadan yox, elm və əxlaqdan məhrum olanlardır"*. Bu kəlamdan belə anlaşılır ki, ata-anası olmayan yetim cəmiyyəti poza bilməz, onun gələcəkdə kim olacağı da bəlli deyil, ola bilsin zamanın ən görkəmli bir şəxsi olsun. Necə ki Peyğəmbər dünyaya gəlməzdən öncə atası ölmüşdü, altı yaşa çatanda isə anası dünyasını dəyişərək yetim qalmışdı. Həzrət Əli doğru olaraq hesab edir ki, əsl yetim o kəsdir ki, onun elmi və əxlaqı olmasın. Məhz elm və əxlaqı olmayan kəs ailəsinə və ünsiyyətdə olduğu çevrəsinə qarşı neqativ fərd olub, pozucu və pozğun işlərə baş qatır. Bir insanın elmi və əxlaqı (özünü düzgün apara bilmək bacarığı) olsa, o kəs mütləq cəmiyyətə yararlı fərd olacaq. Elm və əxlaq mənəvi nikaha girəndə, başqa sözlə, birində elm və əxlaq toplananda, o adam təkcə fiziki yox, həm də mənəvi olaraq insandır. Maddi imkanı olub, yaxınlarına yardım etməyib simiclik edənlərin, bir zaman edilən yaxşılığa qarşı zamanı gələndə yaxşılıq etməyənlərin ürəyi paslıdır, beləri fiziki olaraq insandır, mənəvi olaraq onlara insan demək olmaz (Jean-Paul, 2019: 792).

İslam fəlsəfəsində həm gözəl əxlaq, həm də hicab (baş örtüsü) önəmlidir. Amma cəmiyyətə fayda baxımından, cəmiyyətdə təlim-tərbiyəni, böyük-kiçikliyi, ədəb-ərkanı yaymaq baxımından gözəl əxlaq baş örtüsündən daha önəmlidir. Belə ki, gözəl əxlaqı olmayanın baş örtüsü kimə lazımdır? Amma həm gözəl əxlaqı, həm də baş örtüsü olan bir qadın cəmiyyətə yararlı, örnək verici bir qadındır. Məhəmməd peyğəmbərin onlarla hədisində göstərilir ki, Qiyamət günü hər bir insana edilən ilk sorğu gözəl əxlaq və səxavət olacaq. O həzrət demir ki, ilk sorğu namaz ya oruc olacaq. Peyğəmbər hədislərinin birində deyir ki, "*Qiyamət günü hər kəsdən edilən ilk sorğu gözəl əxlaq və səxavət olacaqdır"*.

**Gözəl əxlaq və atalar sözləri.** Atalar sözü elə bir mənəvi bulaqdır ki, insan yaşamının bütün istiqamətlərinə aid orada qanadlı sözlər vardır. Onların bir qismi gözəl əxlaqın ehtiva etdiyi səbr, xeyirxahlıq, sadəlik, düzlük, ümid vericilik, motivasiya edicilik, əfv edicilik, mülayimlik, şükür, nikbinlik ilə sıx bağlıdır. Aşağıda gözəl əxlaqa dair Azərbaycan atalar sözlərinin bir qrupunu təqdim edirik:

- ✓ Abır harda, çörək də orda.
- ✓ Bir pislik qalar, bir də yaxşılıq.
- ✓ El sevəni aləm sevər.
- ✓ Əliaçığa Allah özü yetirir.
- ✓ Haqq nazilər, üzülməz.
- ✓ Halal mal heç yerə getməz.
- ✓ Hesabı düz olanın üzü ağ olar.

- ✓ Xalqın ağzı faldır.
- ✓ Xalqın sədası – haqqın nidası.
- ✓ Xeyir de, xeyir taparsan.
- ✓ Xeyir istə qonşuna, xeyir çıxsın qarşına.
- ✓ Xeyir iş yerdə qalmaz.
- ✓ Xeyirxah adam yaddan çıxmaz.
- ✓ İgid ağzını açmaz, əlini açar.
- ✓ Palaza bürün, elnən sürün.
- ✓ Səbr acıdır, meyvəsi şirin.
- ✓ Ürək yanmasa, gözdən yaş gəlməz.
- ✓ Ürəkdən-ürəyə yollar görünür.
- ✓ Üzünü xalqa çevirənin arxası möhkəm olar.
- ✓ Vəfalı dost yad olmaz, görməsə yüz il səni.
- ✓ Verən əl alan əlin üstündə olar.
- ✓ Yaxşı qızdan yaxşı gəlin olar.
- ✓ Yaxşı iş heykəl kimidir, hər yandan görünər.
- ✓ Yaxşılıq düşməni də dost edər.
- ✓ Yaxşılıq edib at dənizə, balıq bilməsə, Xalıq bilər.
- ✓ Yaxşılıq yerdə qalmaz.
- ✓ Yaxşılığa yaxşılıq hər kişinin işidir,
Yamanlığa yaxşılıq nər kişinin işidir.
- ✓ Yağış ilə yer göyərər, alqış ilə ər öyünər.

**Məqalənin aktuallığı.** Antik dövrlərdən bu günə kimi ideal davranış forması olan gözəl əxlaq kommunikativ prosesdə aktual olub, indi də aktualdır. Dünyanın qloballaşan indiki çağında, milli əxlaqi dəyərlərin azalmağa üz qoyduğu hazırkı dönəmdə məqalə müəllifi istəyir ki:

✓ Türkcə və ruscadan çevirdiyi dahi insanların dərin anlamlı sitatlarına, habelə özünün açıqlamalarına dayanaraq, insanlar arası ünsiyyətdə gözəl əxlaqın dominativ mövqeyini araşdırsın,

✓ Rezonans doğurmaq üçün alınan nəticəni alimlərin – dilçilərin, ədəbiyyatçıların və psixoloqların diqqətinə çatdırsın,

✓ Din olaraq islamın gözəl əxlaqla bağlılığını Quran və Peyğəmbər kəlamları prizmasından açıb göstərsin.

**Sitatları yazanlar.** Yunan filosofu Fales (milladan öncə VI əsr), Məhəmməd peyğəmbər (VII əsr), həzrət Əli (VII əsr), sufi ilahiyyatçısı Cüneyd Bağdadi (IX əsr), dahi filosof İbn Sina (X əsr), Azərbaycan filosofu Şihabəddin Sührəvərdi (XII əsr), dahi sufi şair Mevlana Rumi (XIII əsr), dahi fars şairi Sədi Şirazi (XIII əsr), fransız yazarı Mari-Fransua Volter (XVIII əsr), Fransa imperatoru Bonapart Napoelon (XIX əsr), dahi rus yazarı Lev Tolstoy (XX əsrin başlanğıcı) kimi dahi şəxslərdən, habelə Qurani-Kərimdən sitatlar yer alır.

## Ədəbiyyat

1. Fromm, E. (2012). Sevmək sənəti. Bakı: “Qanun”, 143 s.
2. Donald Uolsh, N. (2021). Tanrı ilə söhbət. Bakı: “Qanun”, 269 s.
3. Sinelnikov, V. (2019). Stresə qarşı peyvənd. Bakı: “Qanun”, 255 s.
4. Kant, İ. (2020). Təhsil haqqında. Bakı: “Mücrü”, 96 s.
5. Yalom, İ. (2019). Psixoterapiya. Bakı: “Qanun”, 304 s.
6. Dürant, U. (2006). Fəlsəfi hekayələr. Bakı: “Zəkioğlu”, 576 s.
7. Qrin, R. (2022). Ustalıq. Bakı: “Qanun”, 463 s.
8. Osho. (2019). Kişilərin kitabı. Bakı: “Qanun”, 240 s.
9. Jean-Paul, S. (2019). Varlıq və heçlik. Bakı: “Qanun”, 792 s.

Göndərilib: 26.01.2023 Qəbul edilib: 26.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/38-45

**Kamil Adıgözəlov**
A.A.Baxıxanov adına Tarix İnstitutu
dissertant
kamiladigozelov75@gmail.com

# ŞİMALİ AZƏRBAYCANIN RUSİYA TƏRƏFİNDƏN İŞĞAL DÖVRÜNDƏ AQRAR MÜNASİBƏTLƏRİN NİZAMLANMASI CƏHDLƏRİ

## Xülasə

Mövcud məqalədə XIX əsrin əvvəllərində Şimali Azərbaycanda aqrar münasibətlərin hüquqi bazası haqqında danışılır. Qaynaqlar göstərir ki, bu dövrdə aqrar sahədə mütəşəkkil hüquqi durum var idi. Yeni müstəmləkə rejimi bu mürəkkəb münasibətlərdən tamamilə bixəbər idi. Buna baxmayaraq çar administrasiyası bu sahəni də öz nəzarəti altına almağa çalışırdı. Lakin bu administrasiya yerli aqrar münasibətlərin incəliklərinə bələd deyildi. Çünki yeni rejimi əksər məmurların mülki həyata nabələd olan hərbçilər idi.

Odur ki, işğaldan dərhal sonra aqrar sahə üzrə verilmiş hüquqi aktların çoxu xeyli ziddiyyətli idi. Bu aktlar yerli münasibətlərə nabələdliyin bariz ifadəsi idi. Onlar təbii ki, yerli aqrar münasibətləri çarizmin istədiyi məcraya yönəltməyə qadir deyildi.

***Açar sözlər:*** *Azərbaycan, Rusiya, Qafqaz, aqrar münasibətlər, işğal, müstəmləkə, general, xəzinə*

**Kamil Adigozalov**
Institute of History named after A.A.Bakhikhanov
dissertatist
kamiladigozelov75@gmail.com

# Northern Azerbaijan during the Russian occupation attempts to regulate agrarian relations

## Abstract

The existing article discusses the legal basis for agricultural relations in northern Azerbaijan in the early 19th century. Sources indicate that at that time, there was an organized legal situation in the field. The new colonial regime was completely unaware of these complex relationships. Nevertheless, the Czech government was trying to take control of the area.

However, the administration did not know the details of the local agricultural relationship. Because the new regime was the military that most officials were imprisoned for civilian life.

***Keywords:*** *Azerbaijan, Russia, Caucasus, agrarian relations, occupation, colonialism, general, treasure*

## Giriş

XIX əsrin əvvəllərindən Rusiyanın Cənubi Qafqazda başladığı işğalçılıq siyasətinin ən başlıca məqsədlərindən biri də gələcəkdə bu diyarı qazanc mənbəyinə çevirmək idi. 1801-ci ildə Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi Azərbaycan ərazilərinin də çarizm tərəfindən ələ keçirilməsi üçün əlverişli şərait yaratdı. Qafqazın ən münbit torpaq sahələrinə malik olan Azərbaycan əraziləri gəlir mənbəyi olmaqla yanaşı, həm də böyük strateji əhəmiyyətə malik idi. Rusiyanın Cənubi Qafqazı, o cümlədən Şimali Azərbaycanı istila etmək üzrə böyük planları var idi. Çarizm ilk öncə işğal edildiyi ərazilərin yerüstü və yeraltı sərvətlərinə sahib çıxmaq, onların hesabına dövlət xəzinəsinin gəlirlərini artırmaq niyyətində idi. Bunun üçün çar məmurları işğal altına alınmış ərazilərin aqrar münasibətlərini öz arzu və məqsədlərini müvafiq şəkildə nizamlanmasına ilk vaxtlardan ciddi diqqət yetirirdilər.

İmperiya rəhbərliyi Cənubi Qafqazda Rusiyanın müstəmləkə siyasətini həyata keçirməklə işğal altına alınmış ərazilərdə Rusiya qaydalarına müvafiq şəkildə Ümumqafqaz inzibati idarəçiliyi təsis etməyə başladı. Çar I Aleksandr (1801-1825) Şərqi Gürcüstanının Rusiyaya birləşdirilməsi barədə 12 sentyabr 1801-ci il tarixli "Manifesti" elan etməklə bərabər buranın idarə edilməsi haqqında əsasnaməni təsdiq etdi (O ucrezhdeniii vnutrennego v Gruzii upravlenii, 2007: 781-786).

Şərqi Gürcüstanda Rusiya hakimiyyət rejiminin qurulması üçün Ali Gürcüstan hökuməti tərkibində dörd ekspedisiyanın təşkil edilməsi nəzərdə tutulurdu. Ekspedisiyaların fəaliyyəti Borçalı, Şəmşəddil, Qazax bölgələrini və habelə Pəmbək və Şörəyeli əhatə etməli idi.

Xəzinə və iqtisadi məsələlərin həlli üzrə fəaliyyət göstərən ekspedisiya digər məsələlərlə yanaşı Gürcüstan əhalisinin iqtisadi məişətini öyrənərək yeni vergiləri təyin etməli idi. Azərbaycanlıların yaşadıqları əraziləri gəzdikdən sonra "Qazax, Borçalı, Şəmşəddil və Şulaverin məhsuldar torpaqlara" malik olduğunu yazan rus məmuru vergilərin miqdarının artırılmasının tərəfdarı kimi çıxış edirdi. "Sursat vergisi" adlanan bu verginin üç ilə toplanılması nəzərdə tutulurdu. Sınıq körpüdən "yuxarı" ərazilərdə (Borçalıdan) yaşayan əhalidən 1 352, Qazaxdan 9 000, Şəmşəddildən 3 000, Şörəyeldən 2 000, Pəmbəkdən 1 500 kod (1 kod – 7 pud 10 funt) həcmində sursat (buğda və arpa olmaqla) vergisi müəyyən olunmuşdu (Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh], 1866).

Dövlət vergilərinin vaxtilə gürcü çarları tərəfindən müəyyən olunmuş qaydada yığılması davam etdirilirdi. Bunlar Ali Gürcüstan hökumətinin Xəzinə ekspedisiyası tərəfindən Qafqazdakı Rusiya qoşunlarının baş komandanı general-leytenant K.F.Knorrinqin imzaladığı 1 iyun 1802-ci il tarixli sərəncamında geniş əksini tapmışdı. Beş qəzaya bölünmüş Gürcüstan quberniyasında məskunlaşmış azərbaycanlıların demək olar ki, hamısı "xəzinə kəndliləri" kateqoriyasına şamil edilmişdi (Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh], 1866).

Vergi kənd icmaları ağsaqqallarının iştirakı ilə əvvəlcədən tərtib olunmuş siyahılar əsasında toplanmalı idi. Ayrı-ayrı icmalara daxil olan hər bir kənd və köç ailələr üzrə öz boynuna düşən sursat vergisini, iki kod buğda və bir kod arpanı vergi yığanlara təqdim etməli idi. Toplanmış vergi kəndlilər tərəfindən anbarlara daşınırdı. Vergi toplanılıb qurtardıqdan sonra vergini toplayan dövlət adamları həmin sursat vergisinin nəyə sərf olunduğu barədə kəndlilərə məlumat verməli idi (Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh], 1868: 7)

I Aleksandrın 8 sentyabr 1802-ci il tarixli reskripti ilə Qafqaza yeni ağa – P.D.Sisianov göndərildi. Reskriptin diqqət çəkən məsələlərdən biri də "Gürcüstanın gəlirlərinin buranın idarəçiliyinin saxlanmasına sərf olunması ilə bağlı məlumatın verilməsi" idi. I Aleksandr bununla da general P.D.Sisianova əhalidən toplanan vergilərə xüsusi diqqət ayırmağı və bunu nəzarətdə saxlamağı tapşırırdı (O merakh k umensheniyu gosudarstvennikh dolgov; o prekrashenii vipuska v oborot novikh summ assignasiyami, i o vozvishenii nekotorikh podatey i poshlin, 1830: 4).

Məlumdur ki, Azərbaycanın Car-Balakən torpaqları 1803-cü ilin yazında Rusiya qoşunları tərəfindən işğal olunmuşdu. Aprel ayının 12-də Tiflisdə Car-Balakən camaatlığının andlı öhdəliyi və Rusiya qarşısında təəhhüdləri barəsində xüsusi müqavilə imzalandı. Elə həmin 1803-cü ildə İlisu sultanlığı Rusiya "təbəəliyinə keçdik"dən sonra hər il Rusiya xəzinəsinə 4 400 gümüş rubl təzminat ödəməli idi. Bundan əlavə ilisulu Sultan Əhməd hökumətin xeyrinə bir sıra işlər də görməli idi (Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh], 1884: 160).

Yelisavetpol Dairəsi əhalisindən vergilərin toplanmasının qaydaya salınmasından bəhs edən P.D.Sisianov knyaz Volkonskiyə ünvanladığı məktubunda hərbi əməliyyatlar zamanı müflisləşmiş yerli əhalinin vəziyyəti nəzərə alınaraq, vergilərin bir il gec (1806-cı ildən) toplamağın mümkün olacağını göstərirdi. Bununla əlaqədar olaraq 1805-ci ilin mayın 13-də "12 sentyabr 1801-ci il Əsasnaməsi"nə bir sıra əlavələr edildi (O dopolnitelnikh pravilakh k polozheniyu, o upravlenii Gruzii 12 sentyabrya 1801 goda sostoyavshemusya, 1830: 1042-1044).

1804-cü ilin baharında üsyan qaldırıldığına görə baş komandan P.D.Sisianov Borçalı və Qazax əhalisini cəzalandırmaq qərarına gəldi. Bunun üçün o, mülki müşavir Tarasova ünvanlandığı 1805-ci il 9 fevral tarixli məktubunda öz təkliflərini bildirirdi (Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh], 1868: 564-565). Bu təkliflər Borçalı "tatarları"

(azərbaycanlılar – K.A.) üçün beş, Qazax üçün isə on bir bəndlik ayrı-ayrı qərarlarda əksini tapmışdı.

Şörəyel bəy və ağalarının, habelə kənd başçılarının 1805-ci il martın 30-da andlı öhdəliyi qəbul etmələrindən bir müddət sonra Şörəyel elinin bəyi Budaq sultan tərəfindən bir sıra öhdəliklərinin icra ediləcəyi haqqında xüsusi qətnamədə qəbul olundu. Həmin qətnaməyə görə Şörəyel camaatı imperiya "təbəəliyinə keçməsi" müqabilində Tiflisdəki çar xəzinəsinə hər il iki min gümüş rus rublu maxta vergisi və əvvəllər İrəvan xanına ödənilən sabalaxo (otlaq vergisi – K.A.), ödəməli idi. Şörəyeldə yerləşdirilmiş imperiya qoşun hissələrini yaşayış yerləri ilə təmin olunması və onların odunla, atlarını isə otla və digər vacib vasitələrlə təchiz edilməsi də Budaq sultanın öhdəsinə qoyulmuşdu (Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh], 1868: 577).

On bir bənddən ibarət olan Kürəkçay müqaviləsinin (14 may 1805-ci il) altıncı bəndində deyilirdi ki, Qarabağ xanı İbrahimxəlil xan "istər indi, istərsə də sonralar rus qoşununa lazım olan buğda və darı yarmasını Baş hakiminin müəyyən etdiyi qiymətlə tədarük" etməli, "qoşunun Şuşa qalasında yerləşməsi üçün qoşun rəisinin bəyəndiyi evləri" ayırmalı, onları "lazımi qədər odunla təmin" etməli idi. Bundan əlavə Qarabağ xanı çarın Tiflisdə yerləşən xəzinəsinə ildə səkkiz min çervon (çervon = 3,14 gümüş rubl) bac verməyi öhdəsinə götürürdü. 1805-ci ilin mayın 21-də Şəki xanı Səlim xanla bağlanmış "andlı öhdəliyə" görə Şəki xanı da ərazisində beş yüz nəfərlik rus qoşun hissəsini yerləşdirməli və gələcəkdə həmin hərbiçilər üçün yaşayış binaları tikiləcəyi təqdirdə canlı işçi qüvvə ilə yardım etməli idi. Bu müqavilənin altıncı bəndində rus hərbçilərinin saxlanılması üçün xanlıq tərəfindən ildə 595 xalvar (10 535 pud) un və 80,5 xalvar buğda və habelə tələb olunan qədər odun verilməsi nəzərdə tutulurdu. Səlim xan çar xəzinəsinə hər il yeddi min çervon məbləğində bac ödəməli idi (Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh], 1868: 707).

Çar hakimiyyət orqanları tərəfindən Dərbənd, Bakı və Quba xanlıqları ilə bağlı 1805-ci il iyulun 11-də və 1806-ci il noyabrın 14-də ayrı-ayrı fərmanlar verilmişdi. Bu fərmanların birincisində "həmin əyalətlərdən toplanılan vergilərin Gürcüstanın Baş hakiminin razılığı və rəhbərliyi altında xanların təqaüd təminatına, xalqın ehtiyacına və ictimai binaların təmirinə xərclənməsi" nəzərdə tutulurdu. İkincisində isə "Bakı və Dərbənd vilayətlərindən daxil olan gəlirlər Gürcüstanın Baş hakiminin yerlərdəki hərbi idarələri tərəfindən nəzarətdə saxlanılmalı idi. Vacib məsrəflər və fövqəladə xərclər isə ticarətin genişləndirilməsinə sərf olunmalı idi. Lakin belə əməliyyatlardan kənarda qalan Xəzinə ekspedisiyasının burada toplanılan və sərf olunan məbləğlər haqqındakı hesabatlardan xəbərsiz olması, hökuməti bir sıra tədbirləri görməyə vadar" edirdi (Akti, sobranny Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh], 1870: 28).

Bəzən Xəzinə ekspedisiyası mərkəzdən uzaqda olan Bakı və Dərbənd kimi ərazilərə gələrək bac və yaxud vergiləri tələb edə bilmirdi. Məhz buna görə də çar hökuməti 1810-cu il fevralın 2-də xüsusi fərman verməyi lazım bildi. Fərmanın doqquzuncu bəndi maliyyə sahəsində çalışan məmurlara bir növ xəbərdarlıq idi. Burada yazılırdı: "Ayrı-ayrı idarələrdən və ya da müxtəlif mənbələrdən xəzinəyə daxil olan gəlirlər xəzinəyə məxsusdur. Onun lazımi təyinatı və xərclənməsi maliyyə nazirliyinin xəzinədarlara göndərilən müəyyən göstərişdən sonra mümkündür" (O merakh k umensheniyu gosudarstvennikh dolgov; o prekrashenii vipuska v oborot novikh summ assignasiyami, i o vozvishenii nekotorikh podatey i poshlin, 1830: 53-60).

Qafqaz ordusunun baş komandanı general Tormasov hələ 1811-ci ildən belə tədbirlərdən imperiya mənafeyinə istifadə etməyə çalışırdı. Belə ki, o, Quba əyalətinin 218 ailənin yaşadığı Kovxanlı, Mirzəkənd, Xudat, Padar və digər xəzinə kəndləri də daxil olmaqla cəmisi 8 kəndin "Əlahəzrət imperatora yorulmadan xidmət göstərdiyinə görə" kollegiya asessoru Ağa bəy Sadıqova bağışlanması barədə göstəriş vermişdi (Vedomost o imushestve ostavshiysa posle begavshikh s sinom Shikh Ali khana bekov poselyanraznikh magalov Kubinskoy provinsii, 1-79). "Əlahəzrət imperatora yorulmadan xidmət göstərdiyinə görə" bağışlanan bu və ya digər torpaq sahələri Şeyxəli xana məxsus idi. Belə ki, Şeyxəli xanın oğlu xanlığı tərk edəndə ona 255 nəfər bəy qoşulmuşdu .

İlk belə "bəxşetmə fərman"ından biri 1810-cu il oktyabrın 31-də Quba komendantı polkovnik Lisaneviç tərəfindən yerli feodal qubalı Məmməd bəyin adına yazılmışdır. Sənəddə deyilirdi:

"Əlahəzrət hökmdarımızın şərəfinə göstərdiyiniz cəsarətli xidmətiniz müqabilində diyarın baş hakimi süvari generalı cənab Tormasov tərəfindən mənə verilən səlahiyyətlərdən istifadə edərək, Zərqova vəTələbi kəndlərin idarə olunmasını sizə verirəm" (Vedomost o imushestve ostavshiysa posle begavshikh s sinom Shikh Ali khana bekov poselyanraznikh magalov Kubinskoy provinsii, 1-79). Elə həmin ildə Lisaneviç tərəfindən Yəhya bəyə Xınalıqoba və Eynibulaq kəndlərini tiyul kimi bağışlaması haqqında sənəd, Xuluq kəndlisi Bayram bəyin adına verilən əmr (Ot general – mayora Lisanevicha, prikaz Bayram beku selenie Khulug, bez goda Gosudarstvennyy istoricheskiy arkhiv Azerbaydzhanskoy Respubliki: 14) və digər bəxşetmə ilə bağlı sənədlər arxivlərdə saxlanmaqdadır.

Şirvan komendantı 1822-ci ildə dörd kəndin Mustafa bəyin istifadəsinə verilməsi barəsində onun adına fərman imzalamışdı. 1828-ci ildə Lənkəran əyalətinin müvəqqəti idarəsi bir sıra kəndlərin Alxazov familiyalı bəyə bağışlanması barədə əmr vermişdi. Onu da qeyd etmək yerinə düşər ki, dövlət torpaq sahələrinin bölüşdürülərək bəylərin istifadəsinə verilməsi halları ən çox Quba əyalətində yayılmışdı. Bunu arxiv sənədləri də təsdiq edir . 1811-ci ildə Şeyxəli xanın başçılıq etdiyi üsyan bir qədər səngidildikdən sonra onun Dağıstanın içərilərinə çəkilməsi həm Dərbənddə və həm də Qubada müvəqqəti "sakitlik" yaratmış oldu. Bundan yararlanmağa çalışan Quba komendantı yerli əhalinin çar hökumətinə olan inamını artırmaq məqsədilə "Bəylərin və sakinlərin öz aralarında və həm dövlətlə olan münasibətləri haqqında" xüsusi "Əsasnamə" işləyib hazırlamışdı. Kəndlilərin ödəyəcəyi natural vergilərə toxunulmuş, 1812-ci ildə verilmiş təlimat xarakteri daşıyan bu əsasnamədə rəncbər və nökərlərin hüquqları müəyyənləşdirilmişdi. Lakin bu əsasnamə elə təlimat olaraq da qaldı, yerinə yetirilmədi və yalnız 1824-cü ildə ona yenidən baxıldı (Istoricheskaya zapiska ob upravlenii Kavkazom: [v 2 tomakh], 1907: 602).

Çar hökuməti 1814-cü il avqustun 30-da imzaladığı "ən mərhəmətli manifest" əsasında müharibənin başa çatması ilə "ümumi əfv" elan etdi. Bu fərmanda "vətəndən özbaşına uzaqlaşan bütün zümrələrdən olan şəxslərə iki il ərzində" geri qayıtmaq icazəsinin verilməsi, eyni zamanda hər yerdə həbsə alınıb sürgünə göndərilənlərin geri qaytarılması, müxtəlif səbəblərdən müsadirə edilən və nəzarət altına alınan mülk və digər əmlaklarının əvvəlki sahiblərinə qaytarılması, torpaq sahibləri üzərində məhkəmə işlərinin dayandırılması, onların əvvəlki sahiblərinə geri verilməsi nəzərdə tutulurdu (O uchrezhdenii krestov, dlya dukhovenstva, a dlya voinstva, dvoryansva i kupechestva msdaley i o raznikh lgotakh i milostyakh, 1874: 906-910).

Yermolov yeni qaydalar işləyib hazırlatdırdı. Bu qaydalar onun 1817-ci il 24 mart tarixli hesabatında da öz əksini tapmışdı. Yermolovun təklif etdiyi "Qaydalar"ın məqsədi məhsuldar qüvvələrin say tərkibini artırmaq və bununla da əldə etdiyi gəlirləri çoxaltmaqdan ibarət idi. Lakin onu da qeyd etmək yerinə düşərdi ki, bir müddət sonra Yermolovun tərtib etmiş olduğu "Qaydalar" əsasında on beş maddədən ibarət "Xaricdən köçüb gələnlərin Gürcüstanda mülkədarların tabeliyinə verilməsi və onların yerləşdirilməsi haqqında əsasnamə" adı ilə təsdiq olunaraq qanuniləşdirildi (Kolonialnaya politika Rossyskogo charizma v Azerbaydjane v 20-60 gg, 1935: 357-358).

Quba komendantı general Tixonovskinin 1817-ci il iyulun 18-də elan etdiyi "Qaydalar"da tiyuldar bəylərlə bilavasitə bəylərin tabeliyində olan kəndlilər arasındakı münasibətlərə aydınlıq gətirməsini nəzərdə tuturdu (Kolonialnaya politika Rossyskogo charizma v Azerbaydjane v 20-60 gg, 1935: 458-460; Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [в 12 tomakh], 1975: 103-105). "Qaydalar"a görə bəylərin torpaq sahələrində yaşayan hər bir kəndli ailəsi ildə bir dəfə onlara buğda, arpa, çəltik və digər taxıl bitkilərinin biçinindən əldə edilən məhsulun $^{1}/_{10}$-ini ödəməli idi. Bəylərin vəzifələri qısa şəkildə göstərilmiş bu qaydalara dəqiqliklə riayət olunmasının vacibliyini önə çəkən general Tixanovski yazırdı: "Mənə elə gəlir ki, sizin (yerli bəylərin – K.A.) rəislik qarşısında vəzifələriniz orada lazımi şəkildə göstərilmişdir. Rəislik tərəfindən sizə verilmiş kəndlərdən istifadə etmək və özünüzü qorumaq hüququnuz vardır" (Kolonialnaya politika Rossyskogo charizma v Azerbaydjane v 20-60 gg, 1935: 458-460; Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh], 1975: 460).

1817-ci ildə Yermolov icraedici ekspedisiyaya üç "Tatar (azərbaycanlı – K.A.) distansiya ağalarının" kəndlərin idarə olunması sahəsindəki hüquqlarına aid olan məlumatların toplanmasını tapşırdı. Ağaların vəzifələri və hüquqları haqqındakı əsasnamə məhz onların əldə etmiş olduğu

məlumatlar əsasında hazırlanmışdı. Ağalar tərəfindən böyük narazılıqla qarşılanan "Qazax, Şəmşəddil, Borçalı ağaları və onların yaxınlarının qorunması qaydaları və ağaların hökumət qarşısındakı vəzifələri haqqında əsasnamə" adlı sənəd nəhayət 1818-ci ilin martın 31-də Yermolov tərəfindən imzalandı. Bu əsasnamə üç hissədən ibarətdir. Bunlardan birincisi "Ağaların vəzifələri və onların qorunması haqqında", ikincisi "Ağaların yaxınları haqqında", üçüncüsü isə "Kovxa və yasavulların seçilməsi, vergilərin toplanılması və mükəlləfiyyətlərin yerinə yetirilməsi haqqında" adlandırılmışdır (Otnoshenie general – mayora Krabbe ispolnyashemu dolzhnost Kubinskogo komendata gospodinu mayoru Lozvinenko, 1824: 1-2).

Ağalar tabeliklərindəki kəndlərdə məhsuldarlığın yüksək olmasının da qayğısına qalmalı idilər. Əgər kəndlərdən birinin məhsuldarlığı, məsələn ipəyin istehsalı çoxalardısa, həmin kəndin torpaq sahələri artırılmalı və onlara daha əlverişli şərait yaratmalı idilər. Vergiləri ödəmək iqtidarında olmayan və həmişə cərimələr ödəyən tənbəllər və yaxud tənbəl yaşayışa öyrəncəli olanlar layiqincə cəzalandırılmalı idi. Əgər ağanın cəzalandırdığı adamlar pristava şikayət etsələr və onların şikayətləri həqiqəti əks etdirsəydi, onda ağa pristav tərəfindən tənbeh oluna bilərdi (Otnoshenie general – mayora Krabbe ispolnyashemu dolzhnost Kubinskogo komendata gospodinu mayoru Lozvinenko, 1824: 16).

Əsasnamə tətbiq edilməsindən etibarən ağalar idarəçiliklərindəki kəndlərdən aşağıdakı kimi yararlana bilərdilər: birincisi, əgər ağa köhnə evini təmir etmək və yaxud yenisini tikmək istəsə, idarəçiliyindəki kəndlilər ona kömək etməyə borclu idilər; bu zaman işçilərin yeməyi ağa tərəfindən verilməli idi. Belə işlərə kəndlilərin əkin və biçin işləri başa çatdırılandan sonra baş pristavın icazəsi ilə başlanıla bilərdi. İkincisi, kəndin hər bir ailəsi ildə bir dəfə ağanın təyinatı ilə bir qismi yazda, digər qismi payızda ağanın torpaq sahələrini şumlamalı və taxılını bişməli, həmçinin yığılan məhsul ağanın lazım bildiyi yerə daşımalı idi. Üçüncüsü, əhali ağalara siyahıda nəzərə tutulan qədər xidmətçi (nökər) verməyə borclu idi (Otnoshenie general – mayora Krabbe Kubinskomu komendata gospodinu polkovniku i kavalyeru Freyganu, 1827: 16). Xidmətçilər əvvəllər də belə işdə olmuş adamlar sırasından ayrılmalı idi. Dördüncüsü, ağa uzaq yerə getməli olsaydı, idarəciyindəki kəndlilər onu at və digər lazımi ləvazimatla təmin etməli idi. Əsasnamənin ikinci hissəsi "Ağaların yaxınları haqqında" adlandırılmışdır. Burada ağaların yaxınlarına verilən güzəştlər göstərilmişdir. Birincisi, ağaların yaxınları bütün vergi və mükəlləfiyyətlərdən azad edilirdilər. İkincisi, onların təsərrüfatlarının saxlanması üçün kəndlilər köməklik göstərməli idilər. Kəndlilər baş pristavın göstərişindən sonra ağaların yaxınlarına yalnız bir gün işləməyə gedə bilərdilər. Üçüncüsü, ağaların yaxınlarının evində işləməyə gedən xidmətçilər əvvəllər tərtib olunmuş siyahılar əsasında müəyyən olunurdu. Dördüncüsü, ağaların yaxınları üçün əkin sahələri kəndlilərin torpaq sahələrindən ayrılmalı idi (Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh], 1878: 1011).

Burada qeyd edilirdi ki, birincisi, ağaların vəzifələrinin yerinə yetirilməsi zamanı vergilərin toplanmasında və daşınmasında onlara yaxından kömək edən kovxalar əhalisi az olan kəndlərdən bir əhalisi çox olan kəndlərdən iki və yaxud üç nəfər olmaqla seçilməli idi.İkincisi, baş pristav tərəfindən verilən tapşırıqlar və vergilərin toplanması işi bütün kənd cəmiyyətin iştirakı ilə kəndlilərin heç birinə qərəzçilik edilmədən yerinə yetirilməli idi. Ağalar bu zaman öz xeyirlərinə vergilərə heç bir əlavələr etməməli idilər (Gasanov, 1957: 236).

Üçüncü, digər kəndlilər kimi ağaların tabeliyində olan kovxalar ağaların bütün göstərişlərini sözsüz yerinə yetirməli idilər. Bundan əlavə kovxalar baş pristavın təsdiq etmiş olduğu kənd cəmiyyətlərinin ağalarla razılaşdırılmış məbləğdə vergi və pulun toplanmasında yaxından iştirak etməli və habelə baş pristavın əmrlərini vaxtında icra etməli idilər.

Dördüncüsü, ağalar və onların yaxınlarından ötrü iş görən xidmətçilərin öhdəliklərinin və digər işlərin müəyyən edilməsi əhalinin ümumi razılığı və baş pristavın icazəsi ilə həyata keçirilməli idi.

Beşincisi, kovxa və kəndxudalar ağalardan və onların yaxınlarından seçilə bilməzdi (Otnoshenie general – mayora Krabbe ispolnyashemu dolzhnost Kubinskogo komendata gospodinu mayoru i kavalyeru Shnitnikovu, 1824: 32).

Altıncısı, ağaların bütün əmr və tapşırıqlarını yerinə yetirmək üçün kovxalara köməkçi kimi Qazax distansiyasının Salahlı və Şıxlı kəndlərinin ayrı-ayrılıqda hər birinə 3, Poylu və

Qıraqkəsəmən kəndlərinin hər birinə 2, digər kəndlərə 1 nəfər, Şəmşəddil distansiyasının Əmirli kəndinə 3, Göyçala, Xilxina, Yuxarı və Aşağı Ayıblı kəndlərinin ayrı-ayrılıqda hər birinə 2, digər kəndlərə 1 nəfər, Borçalı distansiyasının Dəmirçisalahlı kəndinə 7, Böyük Şilavar kəndinə 4, Ərəbli, Sarvanlı, Qaracalı, Qızılhacılı, Böyükmuğanlı, Şınıxlı, Uzunlar və Xaçın kəndlərinin ayri-ayrılıqda hər birinə 2, digər kəndlərə isə 1 nəfər olmaqla yasavullar secməli idi. Məlumdur ki, 1819-cu ildə Şəki, bir il sonra Şirvan və 1822-ci ildə Qarabağ xanlıqları ləğv edilmiş və imperiya əyalətlərinə çevrilmişdi (Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [в 12 tomakh], 1870: 957). Şəki xanı İsmayıl xanın ölümündən sonra general Yermolov bu xanlığın imperiyaya qatıldığını və xanlığın Şəki əyaləti adlandırıldığını bəyan etdi. Yermolovun 1819-cu il 31 iyul tarixli bəyannaməsində İsmayıl xanın ölümündən sonra, onun nəslindən xanlığı idarə edəcək varis qalmadığına görə xana çatacaq bütün vergilərin, imperiya xəzinəsinə daxil ediləcəyi göstərilirdi. Vergi və mükəlləfiyyətlər xanın təyin etmiş olduğu kimi qalırdı (Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [в 12 tomakh], 1870: 957). Hökumət tərəfindən elə məsələlər Şirvan və Qarabağ xanlıqları üçün də nəzərdə tutulmuşdu. Bunu imperatorun 1823-cü il 19 aprel tarixli ali fərmanından aydın görmək olur (Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh], 1870: 714).

Şəki, Şirvan, Qarabağ vilayətlərinin xanlıqlarının tamamilə ləğv edilməsinin başa çatması, İmeretiya və Dağıstanda müvəqqəti dincliyin bərpa edilməsi nəticəsində dövlət torpaq fondunun artması yeni tədbirlərin görülməsini tələb edirdi. A.P.Yermolov Rusiya imperiya Senatına raportunda bu məsələdən bəhs edərək yazırdı: "Bu torpaqlar haqqında heç bir yazılı məlumat qalmamışdır. Belə ərazilərdə ayrı-ayrı şəxslərə və kilsələrə məxsus torpaq sahələrinin sərhədləri bilinmir.

Bundan əlavə yerlərdə torpaq sahələrinin kimlərin olması üstündə mübahisələr yaranmış və bunun qarşısını almaq çətinləşibdir". Bunu nəzərə alan hökumətin 1825-ci ilin sentyabrın 28-də verdiyi olduğu fərmanla mərzləmə işinə baxanların sayı yeddi nəfərə qədər artırılmış və lazım gələrdisə yerli orqanlara əlavə olaraq səkkiz köməkçi götürmək səlahiyyəti də verilmişdi (Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh], 1870: 11).

Yermolov mülkədar və onun işçisi arasındakı münasibətlərinə aydınlıq gətirmək məqsədilə 1824-cü ildə "Quba əyalətində bəylərlə və onların kəndliləri arasında qarşılıqlı münasibətlərin nizamlanması haqqında" təlimat imzaladı. Bu təlimata görə bəy bütün əkinçilik məhsullarının $^{1}/_{10}$ hissəsini almalı idi.

Bundan əlavə hər bir kəndli ailəsi ona iki araba odun, hər iki ailə bir araba Ələf bəyə verməli idi. Habelə hər on kəndli ailəsi bəyin həyətində işləməyə bir işçi verməli idi. Bəy vergiləri kəndxudanın iştirakı ilə deyil, onun etibar etdiyi nökərlərlə toplasaydı, bunun məsuliyyəti bəyin üzərində qalırdı. Əgər kənddə su dingi olardısa, hər bir ailə üç rubl çəltiyi təmizləyib təmiz düyünü bəyə verməli idi. Hər bir bəy Qubaya taxılı tabeliyindəki kəndlilər vasitəsilə daşımalı idi və s (Dubrovin, 1866: 590-591).

## Nəticə

Beləliklə, Şimali Azərbaycanın bir qisminin Rusiya imperiyası tərəfindən işğal edilməsi ilə başa çatan istilanın lap əvvəlindən çarizmin aqrar siyasəti mülkədar hökmranlığının aləti kimi mütləqiyyətin sosial mahiyyətindən doğurdu. Təbii ki, Şimali Azərbaycanda çarizm özünün sosial dayağını kimi yalnız yerli feodalları görürdü və ona görə də bütün diqqətini məhz onlar üzərində cəmləşdirmişdi.

Lakin çar hökuməti bu siyasətini çox çətin xarici və daxili şəraitdə, yerli hakim təbəqənin bir hissəsinin əldə silah ölkəsinin Rusiya tərəfindən istilasına qarşı çıxdığı bir şəraitdə həyata keçirməli olurdu. Belə mürəkkəb vəziyyət Rusiyanı manevr etməyə, yerli elitanı çarizmə sədaqətlə qulluq göstərməyə məcbur etmək məqsədilə bu zümrəyə siyasi və iqtisadi təzyiqlərini artırmağa vadar edirdi.

## Ədəbiyyat

1. O ucrezhdenyyi vnutrennego v Gruzii upravlenyy. (2007). Polnoe Sobranye zakonov Rossiyskoy Imperii. Sobranye 1-oe: [v 45 tomakh]. Sankt-Peterburg: Tipografiya vtorogo otdeleniya sobstvennoy E.İ.V kanselyariyi. T.26, 1830, zakon, s.781-786.
2. Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh]. (1866). Tiflis Tipografiya Glavnogo upravleniya Namestnika Kavkazkogo. T. 1, 816 s.
3. Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh]. (1868). Tiflis Tipografiya Glavnogo upravleniya Namestnika Kavkazkogo. T.T. 2, 1238 s.
4. O merakh k umensheniyu gosudarstvennikh dolgov; o prekrashenii vipuska v oborot novikh summ assignasiyami, i o vozvishenii nekotorikh podatey i poshlin. (1830). Polnaya Polnoe Sobranie zakonov Rossiyskoy Imperii. Sobranie 1-oe: [v 45 tomakh]. Sankt-Peterburg: Tipografiya vtorogo otdeleniya sobstvennoy E.I.V kanselyariyi. T.31, zakon 24116, s.53-60.
5. Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh]. (1884). Tiflis Tipografiya Glavnogo upravleniya Namestnika Kavkazkogo, 979 s.
6. O dopolnitelnikh pravilakh k polozheniyu, o upravlenii Gruzii 12 sentyabrya 1801 goda sostoyavshemusya. (1830). Polnaya Polnoe Sobranie zakonov Rossiyskoy Imperii. Sobrany 1-oe: [v 45 tomakh]. Sankt-Peterburg: Tipografiya vtorogo otdeleniya sobstvennoy E.I.V kanselyariyi, T.28, zakon 21753, s.781-786.
7. Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh]. (1870). Tiflis Tipografiya Glavnogo upravleniya Namestnika Kavkazkogo, T. 4. 1019 s.
8. Vedomost o imushestve ostavshiysa posle begavshikh s sinom Shikh Ali Khanabekov poselyanraznikh magalov Kubinskoy provinsii. Gosudarstvennyy Istoricheskiy Arkhiv Azerbaydzhanskoy Respubliki, fond №75, opis №1, delo №12, l.d, s.1-79.
9. Ot general – mayora Lisanevicha, prikaz Bayram beku selenie Khulug, bez goda Gosudarstvennyy istoricheskiy arkhiv Azerbaydzhanskoy Respubliki. Fond № 75, opi' № 1, delo № 2, 14 s.
10. Istoricheskaya zapiska ob upravlenie Kavkazom: [v 2 tomakh]. (1907). Tiflis: Tipografiya “Guttenberg”, Tom 1, 616 s.
11. O uchrezhdenii krestov, dlya dukhovenstva, a dlya voinstva, dvoryansva i kupechestva msdaley i o raznikh lgotakh i milostyakh. (1874). Polnaya Polnoe Sobranie zakonov Rossiyskoy Imperii. Sobranie 1-oe: [v 45 tomakh]. Sankt-Peterburg: Tipografiya vtorogo otdeleniya sobstvennoy E.I.V kanselyariyi, T.32, s.906-910.
12. Kolonialnaya politika Rossiyskogo kharizma v Azerbaydzhane v 20-60 gg. (1935). KHKH v: yuv 2 chastyakhshch. Moskva-Leningrad: Izdatel'stvo AN SSSR, CH. 1, 463 s.
13. Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh]. (1975). Tiflis Tipografiya Glavnogo upravleniya Namestnika Kavkazkogo, T. 6. Ch.2. 954 s.
14. Otnoshenie general – mayora Krabbe ispolnyashemu dolzhnost Kubinskogo komendata gospodinu mayoru Lozvinenko. (1824). 17 marta. Gosudarstvennyy Istoricheskiy Arkhiv Azerbaydzhanskoy Respubliki, fond №75, opis №1, delo №6, l.d. s.1-2.
15. Otnoshenie general – mayora Krabbe ispolnyashemu dolzhnost Kubinskogo komendata gospodinu mayoru Lozvinenko. (1824). 4 sentyabrya. Gosudarstvennyy istoricheskiy arkhiv Azerbaydzhanskoy Respubliki, fond № 75, opis № 1, delo № 6, 16 s.
16. Otnoshenie general – mayora Krabbe Kubinskomu komendata gospodinu polkovniku i kavalyeru Freyganu. (1827). 4 dekabrya. Gosudarstvennyy istoricheskiy arkhiv Azerbaydzhanskoy Respubliki, fond № 75, opis № 1, delo № 6, 30 s.
17. Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh]. (1878). Tiflis Tipografiya Glavnogo upravleniya Namestnika Kavkazkogo, T. 7, 1011 s.
18. Gasanov, I. (1957). Chastnovladel'cheskiy krest'yane v Azerbaydzhanaye v pervoy polovine veka. Baku: Izd. AN Azerbaydzhansoy SSR, 236 s.
19. Otnoshenie general – mayora Krabbe ispolnyashemu dolzhnost Kubinskogo komendata gospodinu mayoru i kavalyeru Shnitnikovu. (1824). 4 sentyabrya. Gosudarstvennyy

istoricheskiy arkhiv Azerbaydzhanskoy Respubliki, fond № 75, opis' № 1, delo № 6, 32 s.
20. Akti, sobrannie Kavkazskoy arkheograficheskoy komissiey: [v 12 tomakh]. (1870). Tiflis Tipografiya Glavnogo upravleniya Namestnika Kavkazkogo, T. 6. Ch. I, 957 s.
21. Dubrovin, N. (1866). Zakavkazye ot 1803-1806 goda. Sankt-Peterburg: Tip: departamenta udelov, 542 s.

Göndərilib: 22.01.2023 Qəbul edilib: 29.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/46-53

**Aynurə Qurbanova**
Odlar Yurdu Universiteti
dissertant
aynuragurbanova84@gmail.com

# SÖYLƏMLƏRİN ÜST QATDA SEMANTİK ƏLAMƏTLƏRİ

## Xülasə

Formal feili xəbəri olmayan konstruksiyalar spontanlığın səciyyəvi olduğu danışıq dilində geniş yayılmışdır. Semantik strukturun elementlərindən biri üst qatda ifadə olunmadığı ellipsis hadisəsində ifadə olunmayan elementin yerinin doldurulmasının mənbəyi kimi dialoq və danışığın kontekstləri çıxış edir. Obyektiv gerçəklik situasiyasının hər hansı bir elementinin nominasiya vasitəsi kimi çıxış edən elliptik söyləmlərin formalaşmasında linqvistik kontekstlə müqayisədə konsituasiyanın təsiri daha qabarıqdır. Elliptik söyləmlərin səciyyəvi əlaməti kontekstdə xatırlanmayan, yəni semantik cəhətdən informasiyanın ötürülməsi üçün vacib olmayan feili xəbərin olmaması, konsituasiya və danışığın baş verdiyi situasiya ilə sıx bağlılığıdır ki, məhz bunun sayəsində bu tip söyləmlər kommunikativ cəhətdən funksionallıq əldə edə bilir. Bu tip söyləmlərdə emosiyanın və yaşantıların ifadəsində intonasiya xüsusi rol oynayır - emosionallığın gücü elliptik söyləmlərin struktur baxımdan natamamlığı ilə düz mütənasibdir, yəni söyləm qısa olduqca, onların intonasiyası bir o qədər qabarıq şəkildə ifadə olunur.

***Açar sözlər:*** *söyləm, üst qat, semantik struktur, elliptik söyləm, presuppozisiya hadisəsi*

**Aynura Gurbanova**
Odlar Yurdu University
dissertatist
aynuragurbanova84@gmail.com

## Semantic features of utterance at the upper layer

## Abstract

In colloquial speech, constructions without a formal verb are widespread, which are characterized by spontaneity. In the case of an ellipsis, when one of the elements of the semantic structure is not expressed in the upper layer, the source of diolization of the place of the unexpressed element is the contexts of dialogue and conversation. The influence of the constitution is more pronounced than the linguistic context in the formation of an elliptical expression, which acts as a means of nominating any element of the situation of objective reality. A characteristic feature of elliptic utterances is the absence of a verb that is not mentioned in the context, that is, semantically not important for conveying information, and closely related to the context and situation in which the conversation takes place, thanks to which this type of utterance can acquire communicative functionality. Intonation plays a special role in expressing emotions and experiences in these types of utterances. The strength of emotionality is directly proportional to the structural incompleteness of elliptical utterances, that is, the shorter the utterance, the more pronounced their intonation.

***Keywords:*** *utterance, superposition, semantic structure, ellipticalu utterance, presuppositional event*

## Giriş

Dil işarəsini təmsil edən cümlə ikitərəfli mahiyyətdir: onun substansional tərəfi kimi işarələyən (forma), digər tərəfi kimi isə işarələnən (məzmun) çıxış edir. Digər elm sahələri kimi, sintaksis elmi üçün də ifadə planı və məna planlarının fərqləndirilməsi mühüm məqamdır və təbiətinə görə fərqli hadisələrin qarışdırılması və eyniləşdirilməsi yolverilməzdir, çünki T.P.Lomtevin də qeyd etdiyi

kimi, *"işarələyən maddi, işarələnən isə ətraf aləmin hadisə və predmetlərin əks olunduğu əqli mühakimə"*ni əks etdirir (Lomtev,1979: 23).

Qeyd etdiyimiz kimi, N.Xomskinin qrammatik nəzəriyyəsi ilkin variantda bütövlükdə asemantik xarakter daşıyırdı. Bu nəzəriyyədə sintaksis, *"bir tərəfdən, fonologiya və morfologiyaya, digər tərəfdən, semantikaya qarşı qoyulurdu"* (Abdullayev, 1999: 412). N.Xomski öz nəzəriyyəsində semantikanı qrammatikanın hüdudlarından kənara çıxararaq qeyd edirdi ki, *qrammatika avtonomdur və əsla mənadan asılı deyildir* (Khomskiy, 1962: 412-527). Semantika və sintaksis arasındakı əlaqəni *"sintaktik strukturun müstəqil əsaslar üzərində qurulduğundan sonra"* araşdırmaq olar (Abullayev, 1999: 421).

Sintaktik təsvirdə siqnallarla semantik şərh arasında uyğunluğu izah etmək məqsədi güdən N.Xomski üst qatın üzvlənməsini aşağıdakı cümlə ilə belə şərh edir: /What disturbed John was being regarded as incompetent by everyone// (Conu narahat edən o idi ki, hamı onu səriştəsiz hesab edirdi): /What disturbed John/, /was/ və / being regarded as incompetent by everyone//. Bu cür bölgünü qəbul etməyən F.Y.Veysəllinin fikrincə, *"bu bölgüdə nə cümlənin informasiya yükü, nə də formal-semantik parametri nəzərə alınıb. Biz xəbəri təşkil edən / was being regarded/ tərkibini parçalayıb bir-birindən ayıra bilmərik. Bu, ağac şəkilndə verilsə belə, həmin tərkib bir feili söyləmin tərkibi kimi götürülməlidir"* (Veysəlli, 2017: 170).

N.Xomskinin fikrincə, *"üst qatdakı təmsilçilik semantik şərh üçün əsas götürülə bilməz"* (Abdullayev, 1999). Buna bariz nümunə ingilis dilindəki /What disturbed John was being regarded as incompetent by everyone // cümləsidir. Bu cümlə ikimənalı, yəni ambiqitivdir. Yuxarıda verdiyimiz semantik şərhdən başqa o həm də (Heç kəsin onu nəzərə almaması Conu narahat edirdi) kimi də şərh oluna bilər.

Cümlədə çoxmənalılq məhz alt qatda aşkar olur. Məsələn, ingilis dilindəki /The police were ordered to stop drinking after midnight// cümləsi bir neçə mənada başa düşülə bilər: 1) /Polisə əmr olunmuşdu ki, gecə yarısından sonra içkini dayandırsın//; 2) /Gecə yarısından sonra polisə əmr olunmuşdu ki, içkini dayandırsın//; 3) /Polisə əmr olunmuşdu ki, içənləri gecə yarısından sonra dayandırsın; 4)/Gecə yarısından sonra polisə əmr olunmuşdu ki, içkililəri dayandırsın//. Beləliklə, eyni üst qat alt qatda bir neçə cür şərh oluna bilər (Veysəlli, 2017: 171). İngilis dilindəki /Bill saw John// (Bill Conu gördü) ağac şəklində belə şərh etmək mümkündür:




**Sxem 1**

S.D.Katsnelsona görə, *"cümlənin məzmunu sözün mənasından onunla fərqlənir ki, o (cümlənin mənası - A.Q.), gerçəkliklə canlı əlaqəni qoruyub saxlayır"* (Katsnelson, 1972 : 141). Buradan belə nəticəyə gəlmək olar ki, gerçəklik-təfəkkür-dil üçlüyündə *"dilin gerçəkliyə münasibətini və gerçəkliyin təfəkkürdə inikasını" tam açmaq üçün yalnız leksik semantikaya, yəni sözə müraciət edilməsi yetərli deyildir"* (Katsnelson, 1972: 148). Başqa sözlə desək, söz formalarının kombinasiyası əsasında yaranan cümlə yalnız dünyada obyektiv şəkildə mövcud olan gerçək və təsəvvür olunan hadisələrin bütöv mənzərəsini yarada bilir.

Cümlənin üst qatından bəhs edən M.Y.Blox yazır ki, *cümlə kateqorial-mövqe ardıcıllığı, yəni ayrılıqda və kombinasiyada özünəmüvafiq yerlərdə sintaktik ifadə funksiyası yerinə yetirən ümumiləşmiş leksik vahidlərin zənciri kimi təsvir edilir* (Blokh, 1975: 16).

Əksər dilçilərin, məsələn, S.D.Katsnelson və Q.V.Kolşanskinin etiraf etdiyi kimi, cümlənin semantikası onun yarandığı sözlərin mənalarının əsla cəmi deyildir (Katsnelson, 1972: 100). Sözlərin cümlədə sintaqmatik ardıcıllıqla birləşməsində mənaların cəmlənməsinin daxili prosesi baş verir, yəni anlamı *"dilin fəal mənimsənilməsinin mühüm başlanğıcı"* (Shcherba, 1974: 77) hesab edən L.V.Şerbanın qeyd etdiyi kimi, *"cümlə mənaların cəmi kimi yox, yeni məna kimi formalaşaraq ortaya çıxır"* (Shcherba, 1974: 24). Deməli, cümlənin məzmunu üçün dominant sözlərin zəncirvari ardıcıllığının cəmlənməsi yox, ümumi mənadır.

Müasir linqvistik araşdırmalarda söyləmin semantik strukturu fərqli şəkillərdə şərh edilir. Cümlənin semantik strukturunun məntiqi-qrammatik aspektdən şərhi tədqiqatların baxış bucağını ya birtərərfli obyektik gerçəkliyə, ya da insanın təfəkkürünə, danışığa yönəltmiş oldu. Söyləmin semantik strukturunu tipikləşmiş elementlərinin abstrakt tərzdə dil sistemində möhkəmlənməsindən ibarət informativ məzmun kimi qəbul etmək mümkündür. "Semantik struktur" termini söyləmin anlamını adlandırmaq üçün işlədilir və bu, V.V.Boqdanov fikrincə, "*təqdirəlayiqdir, çünki o, məna elementlərinin mütəşəkkilliyini və nizamını göstərə bilir* (Bogdanov, 1977: 5).

Söyləmin semantik strukturunun yaradılması universal mahiyyətli olmalıdır və bu səbəbdən də konkret dilin yalnız üst qatının təsvir edilməsi sayəsində buna nail olmaq mümkün görünmür. Söyləmin semantik strukturu dilin əsas komponenti hesab edən U.L.Çeyf yazır ki, *"semantik strukturu bilmədən qrammatik cəhətdən düzgün söyləmlərin yaranmasına səbəb olan proseslər haqqında səhih bir şey bilə bilmərik, çünki bu proseslər semantik formalaşma proseslərini təmsil edir"* (Chafe, 1970: 90). Hər bir dil üçün xüsusi, unikal, fərdi mahiyyətli üst qatdan fərqli olaraq, semantik struktur universaldır, o hər hansı bir dilin konkret xüsusiyyətinə yönəlmiş deyildir, yəni o, abstraktlaşmış törəməni təmsil edir.

Hesab edirik ki, söyləmin semantik strukturu propozisiya, modal və tema-rema komponentlərinin üçlüyündən ibarət mürəkkəb törəmədir. Bu zaman propozisiya cümlənin semantik əsasında dayanır və digər iki sadalanan komponent onun üzərinə "qalaqlanır". Propozisiya, öz növbəsində, propozitiv adların, hadisə və obyektiv gerçəklik situasiyalarının nominasiya vasitəsi kimi çıxış edir. Başqa sözlə desək, propozisiya məntiqi-semantik səviyyədə obyektiv gerçəkliyin bəsit situasiyasını təcəssüm etdirir.

Qeyd etmək lazımdır ki, kommunikasiya aktının (dialoji və monoloji olmasından asılı olmadan - A.Q.) formalaşmasında presuppozisiya mühüm rol oynayır. Söyləmin semantik strukturunda presuppozisiya mühüm yer tutur, çünki o, söyləmin eksplisit semantik təqdiminin əsasını təmsil edir və bununla da onun (söyləmin – A.Q.) növbəti implisit semantik komponenti üçün bazanı təşkil edir. V.A.Zvegintsevin qeyd etdiyi kimi, *"presuppozisiyanın hakimiyyəti diskursun mütləq riayət etməli olduğu sərt qaydaları müəyyənləşdirir"* (Zvegintsev, 1976: 279).

Ş.Balli presuppozisiya hadisəsinin *"fikir və mühakimələrin yaranmasının psixoloji prosesini müşayiət etməsini"* (Balli, 2001: 112) vurğulayır və onu *"kommunikasiya iştirakçılarının "fon biliyinin məcmusu"* (Balli, 2001: 112) kimi dəyərləndirdiyi presuppozisiya anlayışı müxtəlif müəlliflər tərəfindən fərqli şəkildə şərh edilir ki, bu da, ilk növbədə, problemin fəlsəfi zəmində yaranması və sonradan linqvistik müstəviyə adlaması ilə izah oluna bilər. Məsələn, V.A.Zvegintsev presuppozisiyanın psixoloji və linqvistik təbiətinin tərəfdarlarının baxışlarını nəzərdən keçirdikdən sonra onun (presuppozisiyanın – A.Q.) linqvistik mahiyyətinin "şübhəli xarakterli" olmasına dair yekun nəticəyə gəlir.

V.Q.Qaka görə, *"... söyləmin formalaşmasında presuppozisiya - həmsöhbətlərin söyləmin situasiyadan məlum komponentlərini uzaqlaşdırmağa imkan verən danışıq predmeti haqqında əvvəlcədən qazandığı biliklərin məcmusu böyük və əvəzsiz rol oynayır"* (Gak, 1973: 367). Sitatdan göründüyü kimi, V.Q.Qak söyləmin məzmun strukturunu - alt qatı - situasiyaya izomorf leksik-semantik struktur kimi şərh edir (Gak, 1969: 78).

Presuppozisiya kommunikasiyanın uğurunu müəyyənləşdirən amildir. Bu amilin əhəmiyyəti isə danışığın anlaşıqlı olması, adresantın öz niyyətini reallaşdıra bilməli və ünsiyyət prosesində həmsöhbətinin biliyini nəzərə almalı olmasından ibarətdir. Presuppozisiyanın şərhində mədəniyyət-dil aspektindən çıxış edən Q.P.Poçeptsov onu (presuppozisiyanı – A.Q.) *"cümlədə aşkar şəkildə*

*ifadə olunmamış"mövcudluq, "cümlədən hasil edilmiş hökm"* kimi müəyyənləşdirməyi təklif edir (Pocheptsov, 1981: 260). Müəllif kateqorial presuppozisiya (semantik birləşmənin məhdudluğu), eksiztensional presuppozisiya (mövcudluq və vahidlik presuppozisiyası) və faktiv presuppozisiyaları fərqləndirir (Pocheptsov, 1981).

Cümlədə ifadə olunan fikrin aydın və adekvat başa düşülməsində dildaxili (intonasiya, söz sırası, semantik həmrəylik) və dilxarici (presuppozisiya) amillərin (Veysəlli, 2008: 237) vacibliyini qeyd edən F.Y.Veysəlliyə görə, *"sintaktik konstruksiyanın obyektiv gerçəkliyə uyğunluğu və onun konkret həyat gerçəkliyini nə dərəcədə əks etdirməsi presuppozisiyadan asılıdır"* (Veysəlli, 2008: 255). *"Presuppozisiya danışanın öz fikrini ifadə etmək üçün əsaslandığı dilxarici amildir"* (Veysəlli, 2017: 372) ideyasından çıxış edən müəllif onu aşağıdakı kimi izah etməyə çalışır: *"Məsələn, /İranın prezidenti keçəldir// cümləsinin presuppozisiyası odur ki, İranın prezidenti var və o keçəldir. İranın Kralı yoxdursa, deməli, onun keçəl olmasını demək də düzgün olmazdı, çünki olmayan şəxsin keçəlliyindən danışmaq məntiqsizdir"* (Veysəlli, 2008: 255).

Presuppozisiya üçün əsas amillər danışanın danışdığı dili həmsöhbətin bilməsi, onun fiziki durumu, danışanla dinləyənin eyni məkanda olması, dinləyənin deyilənə lazımi reaksiyası, onu qəbul etmək imkanının olması və digər sosial göstəricilər və s.-dir. Qeyd edək ki, sadalananların hamısı dilxarici amillərdir. Məsələn, biz belə bir fikir söyləyə bilərik: /Türkiyənin indiki prezidenti gəncdir//. Bu isə /Türkiyənin prezidenti vardır// deməkdir. Nümunəyə istinadən deyə bilərik ki, məntiqi olaraq 1-ci cümlə 2-ni gizli şəkildə ehtiva edir. Lakin bu, həmişə belə şəkildə olmur. Məsələn, bizə məlumdur ki, /Gəncə Azərbaycanın ikinci ən böyük şəhəridir//. Bu isə gerçəkliyi əks etdirən hökmə bərabərdir. Amma /Azərbaycan Gəncənin şəhəridir// cümləsi gerçəkliyi əks etdirmir və onun işlədilməsi qəbuledilməzdir. Deməli, presuppozisiya, bir qayda olaraq, mətnə və dildənkənar reallıqlara əsaslanmalıdır. F.Y.Veysəlli haqlı olaraq *"cümlənin mənaca düzgün və ya səhv olmasını semantika müəyyənləşdirir"* fikrini irəli sürür: */Zəhmət olmasa, pəncərəni bağlayın//cümləsində presuppozisiya hadisəsinin otaqda olması və pəncərənin açıq olması faktı ilə bağlıdır. Pəncərə həmin məqamda əmri yerinə yetirmək üçün obyekt rolunu oynayır* (Veysəlli, 2017: 408).

Beləliklə, presuppozisiyanı söyləmə birmənalı anlam verən ilkin, mətni və mətnxarici (ekstralinqvistik) biliklərin məcmusu kimi dəyərləndirmək mümkündür. Söyləmin semantik strukturunun iyerarxiya yaratması faktını nəzərə alsaq, onda söyləmin semantikasının formalaşmasında rolu və təsiri səbəbindən presuppozisiyaya ən yüksək səviyyədə linqvistik baxımdan dəyərləndirilə bilər. Bundan başqa, presuppozisiya söyləmin implisit məzmununa bərabər tutula bilməz, çünki presuppozisiyalar məlumat verilən informasiya statusuna malik deyildir, onlar eksplisit semantik komponent üçün bazis kimi xidmət edir və kompleks şəkildə isə implisit semantik komponentin əsasını təşkil edir.

**Qeyd edək ki, cümlənin semantik strukturunun formal-sintaktik konsepsiyasından savayı, digər konsepsiyalar da vardır. Məsələn, belə konsepsiyalardan biri – əsasən, cümlənin nominativ minimumunun komponentlərinin leksik mənasına əsaslanan və qrammatik formasının informativ məzmununa verdiyi qrammatik proyeksiyanı nəzərə almayan konsepsiya O.İ.Moskalskayanın tədqiqatlarında öz əksini tapır. Bu zaman semantik strukturlar struktur sxemlərin sərhədlərində deyil, onlardan ayrılıqda ayırd edilir, struktur sxemlər və semantik strukturlar paralel, kəsişməyən cərgələrə düzülür. O.İ.Moskalskayanın qeyd etdiyi kimi, *"semantik modelləşdirmənin vahidi cümlənin struktur sxemi deyil, cümlənin anlam strukturu olmalıdır (bu isə elə alt qatdır ... bu, fikrin məlum mərhələdə nitq vahidlərilə kodlaşdırılmasında qazandığı formanın özüdür"*** (Moskalskaya, 48).

**Q.A.Zolotovanın fikrincə, *"semantika öz-özlüyündə dildə və nitqdə verilməmişdir, çünki dil və nitqdə onun yalnız leksik dolumu mövcuddur. Sxemin məna komponentlərindən asılı olmaması məsələsinin qoyuluşu, ümumiyyətlə, əsassızdır"*** (Zolotova, 1977: 87). **Dil vahidlərinin semantikası dil daşıyıcısının yaddaşında gerçəklik fenomenləri haqqında əvvəlcədən qazanılmış fon bilikləri formasında mövcud olur.**

**İ.P.Susovun araşdırmalarında da cümlənin semantik strukturuna səviyyəvari yanaşma təqdim edilmişdir, lakin bu, qismən fərqli formada şərh edilir. O qeyd edir ki, *"... söyləmin mənası sadə abstrakt sxemin kommunikativ niyyəti təmin edənə qədər ona yeni əməliyyatlar və yeni kompo-***

***nentlərin əlavə edilməsi ilə tədricən "artması" nın formalaşması prosesidir"*** (Susov, 1982: 50). **İ.P.Susov törəməsini mürəkkəb çoxpilləli proses hesab etdiyi cümlənin semantik strukturunda predikasiya və relyasiya çərçivələrini fərqləndirir. Alt qatda (İ.P.Susovun şərhində "abstrakt cümlə" termini ilə adlandırılır – A.Q.) öz elementləri ilə "mərtəbələr" yaradan çərçivələr verilir, üst qatda isə (İ.P.Susovun şərhində "konkret cümlə" termini ilə verilmişdir – A.Q.) heç bir "mərtəbə" və ya səviyyələr ayırd edilmir, hər iki çərçivə eyni müstəvidə yerləşir və bunu əldə rəhbər tutan müəllif hesab edir ki, *cümlənin təhlilində relyasion və prediaksiya strukturlarının ifadəsinə münasibəti olan sintaktik faktlar əksər hallarda qarışıq salınır ki, bu da komponentlərin cümlə üzvləri terminləri ilə adekvat təsnifində xeyli çətinlik törədir*** (Susov, 1982: 52).

**Cümləni situasiyanın referenti kimi izah edən semantik strukturunun denotativ- referent konsepsiyasının, başqa sözlə desək, *"dil işarəsi kimi cümlənin denotatı dildənkənar gerçəklik hadisələrinin vəziyyətidir"* ideyasını irəli sürən V.Q.Qak da situasiyaya izomorf alt struktur mövcud olduğunu hesab edir:**

***"Cümlə üzvləri prosesdə əlamətlər və substansiyaların real funksiyalarına uyğun gəlir. Cümlə üzvləri arasındakı münasibətlər proseslərin elementləri arasındakı real münasibətləri ikonik şəkildə əks etdirir. Söyləm situasiyanın kəsiminə münasibətdə işarələyəndir"*** (Gak, 1969: 80).

V.Q.Qak tərəfindən sintaktik strukturların alt və üst qatları təsvir olunan situasiyanın (hadisənin) strukturu ilə müqayisə əsasında müəyyənləşdirilir. Onun fikrincə, *"semiotik sistemlərdə iki tip işarə: tam işarə (semiozisin bitkin məhsulunu təmsil edən, birbaşa və birmənalı şəkildə situasiyaya işarə edən) və natamam işarələr (tam işarələrin elementini təmsil edən) fərqləndirilməlidir. Dildə tam işarə söyləm, natamam işarə isə sözdür"* (Gak, 1967: 15).

Sitatdan göründüyü kimi, müəllifin anlamında **cümlə digər dil işarələrindən fərqli olaraq, tam işarədir, çünki o, dildənkənar bütöv situasiyanı işarələyir. Cümləni işarə kimi dəyərləndirməyən E.Benvenistin fikrini qəbul etməyən V.Q.Qak ortaya öz arqumentini qoyur: *"hər bir işarə kimi cümlə də fərqləndirici funksiyaya malikdir, çünki müxtəlif situasiyalara müxtəlif söyləmlər uyğun gəlir"*** (Gak, 1967: 15).

**Cümlənin semantik strukturuna özünəməxsus tərzdə yanaşan Y.V.Paduçeva rus dilindəki /Было бы сейчас лето// (İndi yay olsaydı) cümləsini (adətən, bu cümlə haqqında "danışan istəyir" deyirlər) müzakirə edərkən qeyd edir ki, "*aydın deyildir ki, bu cümlədə bu məna haradan götürülür, axı bu cümlədə hətta «я» sözü belə yoxdur"*** (Paducheva, 2005: 4). **Müəllifin fikrincə, bu paradoks bizə belə deməyə əsas verir ki, cümlənin semantikasının təsvirində onu *"danışıq aktı kontekstində, yani cümlənin semantikasını fəaliyyətdə olan söyləm kimi təsvir etmək vacibdir"*** (Paducheva, 1985 : 246).

**Cümlənin alt və üst qatlarına uyğun olaraq linqvistik müstəvidə alt və üst modellər də fərqləndirilir. Bu baxımdan "alt struktur" və "semantik struktur" anlayışlarına münasibət bildirmək istərdik. Bəzən dilçilikdə həmin anlayışların eyni bir siqnifikatı işarələdiyindən, cümlənin semantik strukturu bütövlükdə dərin sintaksisin hadisəsidir, *"o, birbaşa müşahidəyə gəlmir" ideyasından çıxış edərək onları eyniləşdirirlər.* Bu fikri bölüşdürən M.V.Nikitin yazır ki, *alt qat semantik struktur, üst qat isə formal, konstruktiv strukturdur*** (Nikitin 601). **Bu mövqe həm də P.Adamesin əsərlərində öz əksini tapmışdır. Onun fikrincə, *"üst qat tələffüz edilmiş və ya yazılmış cümlədir"*** (Adames, 43). **P.Adames öz araşdırmasında hər bir cümlənin alt qatı iki komponentdən ibarət olduğunu yazırdı: *1) leksik-semantik baza (faktın adlandırılması); 2) reallaşan indikatorlar. Leksik-semantik baza cümləyə daxil olan leksemlər haqqında informasiyanı və onlar arasında semantik qarşılıqlı münasibətləri özündə birləşdirir. Reallaşan indikatorlar isə predikativ kateqoriyalar (zaman, modallıq), subyekt-obyekt perspektivi və aktual üzvlənmə haqqında informasiyanı özündə birləşdirir"*** (Adames, 43).

**Cümlədə üst və alt semantik strukturların fərqləndirilməsinin vacibliyini V.Q.Qak belə izah edirdi: "*alt qatlar özlüyündə birbaşa nominasiyaları təmsil edir. Burada işarələyənin elementləri özlərinin birbaşa mənalarında və ilkin funksiyalarında, üst qatlar isə dolayı nominasiyalardır və***

***onların elementləri törəmə, ikinci funksiyada istifadə edilir. Bu səviyyələrin fərqləndirilməsi sintaksisdə məzmun və forma antinomiyalarını dəf etməyə imkan verir*** (Gak, 1969: 30).

**Cümlənin mənasının formalaşmasının relyasion, predikasion və modifikasion mərhələlərində** (Susov, 1973: 131-133) **baş verdiyini qeyd edən İ.P.Susov öz tədqiqatlarında alt və üst qatların fərqləndirilməsini də işıqlandırmağa çəhd etmişdir. Yuxarıda da qeyd etdiyimiz kimi, İ.P.Susov "abstrakt cümlə" və "konkret cümlə"ləri fərqləndirməyi təklif etmişdir. Onlardan birincisi alt qatın, ikincisi isə üst qatın faktıdır. Müəllifin fikrincə, *"abstrakt cümlə mövqelərin leksik dolumundan, morfoloji göstəricilərdən və intonasiya tərtibatından mücərrədləşmiş predikat və subyekt mövqeyinin varlığı xarakterik olan mövqe strukturudur. Abstrakt cümlə sxem, modeldir və o, yalnız sintaktik mənaya malikdir. Ondan fərqli olaraq, konkret cümlə isə "təkcə sintaktik deyil, həm də supersintaktik (*prosodik -A.Q.*) mənaya malikdir"*** (Susov, 1973: 12). **Müəllifin qənaətinə görə, *"konkret cümlə söyləmlər sırasına aiddir, yəni insanların informasiya mübadiləsi apardıqları kommunikativ vahidlərdir"*** (Susov, 1973: 12). **Sitatdan da göründüyü kimi, müəllif konkret cümlə dedikdə söyləmi, yəni onun konkret ünsiyyət aktında reallaşmasını, konsituasiyaya uyğunlaşmış formasını nəzərdə tutur. Müəllif həm də "konkret cümlə"ni seqment və supraseqment vasitələrin vəhdəti kimi təqdim edir. Daha sonra *"cümlə işarədir"* fikrindən çıxış edən İ.P.Susov göstərir ki, *"abstrakt cümlə alt sahənin işarəsi, konkret cümlə isə üst sahənin işarəsidir"*** (Susov, 1973:12). **Başqa sözlə desək, konkret cümlə (söyləm) fonetik reprezentasiyaya bərabər tutula bilər və əslində, tutulmalıdır.**

Predikat-arqument münasibətləri terminləri ilə formalaşdırılmış alt qat anlayışı linqvistik araşdırmalara cümlə semantikasını öyrənməyə imkanlar açır, çünki alt qat cümlənin prinsipcə müşahidə edilməyən anlamını aşkar etmə cəhdinin nəticəsidir. Məhz bu mövqedən çıxış edən Y.V.Paduçeva *"cümlə semantikasındakı bəzi hadisələri izah etmək üçün "alt qat" və ya "dərin sintaksis" anlayışlarından istifadə etmədən mümkün olmadığı"* faktını təkrar-təkrar qeyd edirdi (Paducheva, 1974: 127).

Söyləmin mənasının propozisional komponentini *"hər hansı bir situasiyanın, hər hansı bir gerçəklik fraqmentinin əks olunması kimi"* (Kobozeva, 2010: 226) izah edən İ.M.Kobozevanın bir fikri burada tam keçərlidir.

Cümlə konkret nüsxə, yəni söyləm kimi nəzərdən keçirilərkən onun ifadə planı (məzmunu) yalnız bu və ya digər dil vasitələrində kodlaşdırılmış informasiya deyil, İ.M.Kobozevanın qeyd etdiyi kimi, *"həm də onun ifadə edə biləcəyi bütün informasiyalar verilir və kommunikantların dünya, onların bir-biri, ünsiyyət situasiyası haqqında bilikləri, bir sözlə, qeyri-linqvistik bilikləri üzə çıxır"* (Kobozeva, 2010: 207).

Məzmun baxımından situasiyaya birbaşa aidiyyatı olan söyləm, hər şeydən əvvəl, intonasiya və aktual üzvlənmədə təzahür edən modal-kommunikativ aspektə malikdir. Bu zaman cümlədə propozisional məzmun sabit qalsa da, onun mənasında müəyyən dəyişmələr baş verir. Bu baxımdan K.Abdullayevin öz tədqiqatlarında gəldiyi qənaət, fikrimizcə, məhz transformasiya metodundan implisit şəkildə istifadə edərək cümlə strukturlarının müxtəlif variantlarını aşkar etməkdən ibarətdir. Bu məqsədlə həmin əsərdən gətirilmiş nümunələrə müraciət edək:

/Mən bilirəm ki, sən uşaqsan//;

/Mən onu bilirəm ki, sən uşaqsan//.

Bu cümlələrin şərhində onlarda müşahidə edilən struktur dəyişikliklə yanaşı, onların informativ müxtəlifliyini də qeyd etməyi unutmamaq vacib şərtdir. Bunu nəzərə alan müəllifə görə, "*bu cümlələrin ikincisində aktuallaşma, canlanma və konkretlik daha güclü ifadə olunub*" (Abdullayev, 1999: 164).

Söyləmin mənasının başa düşülməsində kontekst, yəni onun reallaşdığı linqvistik sahə xüsusi yer tutur. Söyləmin həqiqi mənasından onun işlənməsi qəti şəkildə kontekstlə müəyyənləşdiyindən söhbət gedə bilər. F.Y.Veysəlliyə görə, "*biz ilk dəfə tanış olanda həmsöhbətimizdən soruşuruq: ¿Sən nə işlə məşğulsan? və ya ¿Nə iş görürsən? Bu ifadələr yalnız tanış olmaq istədiyimiz adamın məşğuliyyətilə bağlı müəyyən məlumat almaq istəyimizdən yaranır. ... Bu cür ifadələr həmin situasiyalardan kənarda mənasız görünür"* (Veysəlli, 2017: 293).

## Nəticə

Söyləmin mənasının başa düşülməsi üçün həmin məqamdan əvvəl olanlar haqqında kommunikantların, yəni danışan və dinləyənin müəyyən fon bilgisinin olması vacib şərtdir. Danışanla dinləyənin mənsub olduqları dil kollektivinin üzvləri mövcud vəziyyətdən əvvəl olanın şərtlərini dərindən bilməlidirlər.

## Ədəbiyyat

1. Lomtev, T. (1979). Struktura predlozheniya v sovremennom russkom yazyke. Moskva: Izd-vo Moskovskogo Universiteta, 198 s.
2. Abdullayev, K. (1999). Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 284 s.
3. Khomskiy, N. (1962). Sintaksicheskiye struktury. Novoye v lingvistike. Vyp. II. Moskva: Izd-vo inostrannoy literatury, s.412-527.
4. Veysəlli, F. (2017). Dilçiliyə giriş: Dərs vəsaiti. Bakı: Mütərcim, 456 s.
5. Katsnelson, S. (1972). Tipologiya yazyka i rechevoye myshleniye. Leningrad: Nauka, 216 s.
6. Blokh, M. (1975). O razlichenii tak nazyvayemykh glubinnoy i poverkhnostnoy struktur predlozheniya. Teoreticheskiye problemy sintaksisa sovremennykh indoyevropeyskikh yazykov. Leningrad: Nauka, s.16-18.
7. Shcherba, L. (1974). Yazykovaya sistema i rechevaya deyatelnost. Leningrad: Prosveshcheniye, 428 s.
8. Bogdanov, V. (1977). Semantiko-sintaksicheskaya struktura predlozheniya. Leningrad: Izd-vo Leningradskogo gosudarstvennogo universiteta, 204 s.
9. Chafe, W. (1970). Meaning and the Structure of Language. Chicago: Chicago University Press, 127 p.
10. Zvegintsev, V. (1976). Predlozheniye i yego otnosheniye k yazyku i rechi. Moskva: Progress, 307 s.
11. Balli, Sh. (2001). Obshchaya lingvistika i voprosy frantsuzskogo yazyka. Moskva: Yeditorial URSS, 383 s.
12. Gak, V. (1973). Vyskazyvaniye i situatsiya. Problemy strukturnoy lingvistiki. Moskva: Nauka, s.349-372.
13. Gak, V. (1969). K probleme sintaksicheskoy semantiki: semanticheskaya interpretatsiya «glubinnykh» i «poverkhnostnykh» struktur. Invariantnyye sintaksicheskiye znacheniya i struktura predlozheniya. Doklady na konferentsii po teoreticheskim problemam sintaksisa. Moskva: Nauka, s.77-85.
14. Pocheptsov, G. (1981). Predlozheniye. Teoreticheskaya grammatika sovremennogo angliyskogo yazyka. I.P.Ivanova, V.V.Burlakova. Moskva: Vysshaya shkola, s.164-282.
15. Veysəlli, F. (2008). Struktur dilçiliyin əsasları. Studia Philologica II: Morfemika, sintaqmatika. Bakı: Mütərcim, 308 s.
16. Moskalskaya, O. (1977). Voprosy sintaksicheskoy semantiki. Voprosy yazykoznaniya. №2, s.45-56.
17. Zolotova, G. (1982). Kommunikativnyye aspekty russkogo sintaksisa. Moskva: Nauka, 365 s.
18. Susov, I. (1973). Semanticheskaya struktura predlozheniya. Tula: Izd-vo Tulskogo Gosudarstvennogo Universiteta, 141 s.
19. Gak, G. (1967). O dvukh tipakh znakov v yazyke. Materialy k konferentsii "Yazyk kak znakovaya sistema osobogo roda". Moskva: Nauka, 196 s.
20. Paducheva, Ye. (1985). Vyskazyvaniye i yego sootnesennosts deystvitelnostyu. Moskva: Nauka, 272 s.
21. Nikitin, M. (2007). Kurs lingvisticheskoy semantiki: uchebnoye posobiye po napravleniyu «Filologicheskoye obrazovaniye». Sankt-Peterburg: Izd-vo RGPU im. A.I.Gertsena, 819 s.
22. Adamets, P. (1973). O semantiko-sintakticheskikh funktsiyakh deverbativnykh i adyektivnykh sushchestvitelnykh. Moskva: NDVSH. Filologicheskiye nauki, № 4, s.40-47.

23. Paducheva, Ye. (1974). O semantike sintaksisa. Materialy k transformatsionnoy grammatike russkogo yazyka. Moskva: Nauka, 292 s.
24. Kobozeva, I. (2010). Lingvisticheskaya semantika. Moskva: Yeditorial URSS, 352 s.

Göndərilib: 17.02.2023 Qəbul edilib: 12.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/54-58

**Kubra Quliyeva**
Naxçıvan Dövlət Universiteti
dissertant
k.guliyeva@yahoo.com

# ÖMƏR FAİQ NEMANZADƏ YARADICILIĞINDA ANA DİLİ MƏSƏLƏSİ

**Xülasə**

Məqalədə ana dili məsələsinin yazarın yaradıcılığının ana xəttini təşkil etməsi xüsusi vurğulanmışdır. Yazar doğma ana dilinə üstünlük verilməsini, dərslərin ana dilində keçirilməsi və uşaqların bu yolda istiqamətləndirilməsini diqqətə çatdırmışdır. O, ana dilinin inkişafının təməlini mətbuatda görürdü. Mətbuatı olmayan millətin gücləri olmadığı qənaətində idi. Digər dillərdən istifadə edərək ana dilini zənginləşdirmək və inkişaf etdiməyin vacibliyindən yazırdı. Lakin bu sözlər şüurlu şəkildə, əlaqələndirilərək daxil edilməsi başlıca şərtdir. Ö.F.Nemanzadə qəzetlərdə çap edilən yazıların da ana dilində olmasının vacibliyindən yazırdı. O, “Diləklərimiz” məqaləsində məktəb, maarif, müəllim məsələləri ilə yanaşı dil məsələsinə də xüsusi diqqət yetirmişdir. Məqalədə fransız dili və türk dilinin qarşılıqlı müqayisəsi də həmçinin öz əksini tapmışdır. Yazarın “Pişik” adlı felyetonunda milli dil, milli mətbuat məsələrinə də nümunə gətirilmişdir. Böyük ədib Cəlil Məmmədquluzadə ilə olan əməkdaşlığından məqalədə bəhs edilmişdir.

***Açar sözlər:*** *ana dili, məqalə, milli mətbuat, türk dili, maarif*

**Kubra Guliyeva**
Nakhchivan State University
dissertatist
k.guliyeva@yahoo.com

## Mother tongue issue in Omar Faik Nemanzade's creativity

**Abstract**

The article emphasizes that the issue of mother tongue is the main line of the author's work. The author stressed the preference for the native language, conducting classes in the native language and guiding children in this direction. He saw in the press the basis for the development of the mother tongue. He believed that a nation without a press had no power. He wrote about the importance of enriching and developing the mother tongue using other languages. However, the main condition is that these words are included consciously and coherently. O.F. Nemanzadeh wrote about the importance of newspaper articles in the native language. In his article "Our Wishes", he paid special attention to the issues of school, education, teachers, as well as language. The article also compares the French and Turkish languages. The author's column "Cat" also provides examples of national language and national press. His collaboration with the great writer Jalil Mammadguluzadeh was discussed in the article.

***Keywords:*** *mother tongue, article, national press, turkish, education*

## Giriş

**Tədqiqatda problemin qoyuluşu**. Maarifpərvər, ziyalı Ö.F.Nemanzadə yaradıcılığını, məqalələrini tədqiqata cəlb etməklə ana dilində yazmağın, danışmağın faydaları haqqında bilikləri xalqa, gənc nəsilə çatdırmaqdan ibarətdir.

**Tədqiqatın metodologiyası və metodları:** Tədqiqata cəlb olunan mövzulara və arxiv sənədlərinə müraciət, dövr üçün lazımi olan məsələləri araşdırıb üzə çıxarmaq tədqiqatın metodologiyasını təşkil edir. Və məqalə hazırlanarkən əsasən müşahidə, yazarın həyat təcrübələrinə, qeydlərinə əsaslanılmışdır.

**Tədqiqat:** Maarifpərvər, ziyalı Ö.F.Nemanzadə məqalələrində ana dilinə üstünlük vermiş, doğma dildə dərslərin keçirilməsi, uşaqları bu yolda istiqamətləndirməyin əsas xüsusiyyət olduğunu diqqətə çatdırmışdır. Ana dili onun uğrunda mübarizənin aparılması, inkişaf etdirilməsi haqqında "Milli məsələlərimizin vaxtımı?", "Eşq və məhəbbət", "Diləklərimiz" və s. məqalələrində xüsusi vurğulamışdır. Milli, doğma ana dili məsələlərinə olduqca həssasiyyətlə yanaşmışdır. Ö.F.Nemanzadə maarif, elm, ana dili məsələlərini ölüm dirim məsələsi hesab etmişdir. O, ana dilinin təkcə məktəblərdə tədrisi ilə kifayətlənməli olduğumuzu deyil, mətbuatda, qəzetdə və jurnallarda nəşrinə nail olmağı üstün tuturdu. Nəinki öz dövrünün gələcək nəsillərində öz doğma dillərini inkişaf etdiliməsi yollarını mətbuatda görürdü. O, ana dilli mətbuatın az və ya heç olmayan millətlərin güclərinin yoxluğu qənaitində idi (Əhmədov, 2014).

Türklər, türk dilli xalqlar qədim dövrlərdən bugünümüzədək böyük, əzəmətli bir tarixin təməlini qoymuşlar. Lakin bu tarixi tikilinin, əzəmətin istifadə etdiyi dil doğma, ana dilindən uzaqlarda idi. Onlar ərəb və fars ədəbiyyatının əsirinə çevrildi, ana dillərini yaddan çıxardılar. Ö.F.Nemanzadə bunun haqqında yazır: Türklər nə qədər ki, türklükdən, Türküstandan uzaq düşüb, əsrlərcə ərəb höküməti və dini , fars ədəbiyyatı, nüfuzu altında qaldılar, o qədər türklərini və türk dilini itirdilər (Qurbanov, 1992: 187). Yazar digər xalqların öz dillərinə olan münasibəti müqayisə etmişdir. Ana dilinin özəyini təşkil edən, yazı mədəniyyətin imla yazmaq mədəniyyətinin zəifliyindən çox təəsüflənirdi. İmlalarımızın müəyyən bir üsullarla ümumiləşdirildiyini, yalnız müəlman türklərinin deyil, müsəlman aləminin yazılı imladan xəbərsiz olduğunu deyir və əlifbanın dəyişdirilməsi, yenilənməsi tərəfdarı olduğunu qeyd edirdi. Əlifbanın dəyişdirilməsi və doğma türkcəyə çevrilməsi mənaların daha sadə və anlaşıqlı olacağı qənaitində idi. Ona görə artıq keçmişdən əl çəkib gələcəyi fikirləşməyin vaxtı idi. Çox təəsüf ki, əcdadlarımız, ata-babalarımız ərəb dilinin, ərəb hərflərinin öyrənilməsinin üstün tutublar. "Düşün sonra iman gətir" qaydasından kənara çıxıb, gözünü yum, qulağını tut ərəb dili ilə ərəbə iman gətir üsulunu mənimsəmişlər. Bizlər qarşımıza çıxan maneələri görüb, onlardan uzaqlaşmağı ədəbiyyatımıza, dilimizə, imlamıza elə əsas müddəalar, şərtlər qoyaq ki, gələcəyimizi, xalqın gələcəyini məhv etməyək (Orucov, 2012):

Ö.F.Nemanzadə başqa dillərdən doğma dilə sözlərin keçməsini biliyi zənginləşdirməyin ən başlıca yolu hesab edirdi. Lakin başqa dillərdən olan sözləri şüurlu şəkildə əlaqələndirərək daxil etmək başlıca şərtdir. Digər xalqlar onlara lazım və ehtiyacları oolan sözləri dillərinə daxil etmişlər və öz danışıq tərzlərinə uyğunlaşdırmışlar. Amma bizlər isə öz doğma ana dilindən uzaqlaşaraq min illərdir işlətdiyimiz sadə türk sözlərimizi tərk edib, yerinə ərəb və fars sözlərindən istifadə etmişik. Yazarların, ediblərin çoxu öz yazılarında, əsərlərində bu sözlər daha çox öz əksini tapmışdır. Onların zənnincə bu avamlıqdan, cahil düşüncəli insanlardan fərqlənmək, alim kimi görünməyin başlıca cəhəti idi. O, tanrı, ana, ata, qardaş, yoldaş, çörək, su, duz, ot, göy, yer, eşik, sevgi, yaşıl, qırmızı və s. kimi türk dilli sözlərin 4-5 yaşlı uşaqların bildiyi halda yazarkan və tələffüz edərkən çətinlik törədəcək həqqi təala, həmşirə, astanə, səbz, xüzrə, surx kimi sözlərdən istifadə etməyin məyusluğundan söhbət açırdı. Bəs bir millət ki, öz dilindən uzaqlaşa, başqa dilləri özünə doğma bilə , o millətin dili və orjinallığından əsas varmıdır deyə deyə xalqa səslənirdi. "Savadsız" ifadəsindən qurtulmaq üçün rus təmaüllu məktəbi öz dilində danışmaqla bəarabər ərəb dili və qaydalarının da mənimsənilməsi vacib idi. Tərifat, dərəcat, kutub, qəlman, sur, həqaiq, məkatib, müslimeyi, bəndəkan, şagirdan və qeyri bu kimi sözləri ərəb və fars qaydası ilə yazmağa nədən möhtacıq? Əcaba bunlar türk qaydası ilə təriflər, dərəcələr, kitablar, qulamlar, surətlər, həqiqətlər, məktəblər, müsəlmanlar, bəndələr, şagirdlər yazılsa idi, bunları bir dərəcəyə qədər avamımız da qansa idi, nə olardı (Qurbanov, 1992: 196)?

Ömər Faiq Nemanzadə "Dilimiz və imlamız" adlı məqaləsində də ana dili məsələsinə xüsusi diqqət yetirmişdir. Pedaqoq yazırdı: "Ədəbiyyatı olmayan bir millətin, dilsiz insanə oxşuyacağım söyləmək üçün dəlilə, təfsile hacət yox sanıram. Çünki ən böyük şahid keçmiş hallar, indiki vüquatlardır. Bundan ötrü örnək, misal axtarmaq üçün də uzaqlara getməyək: iştə başda çərkəz, ləzgi… dilləri, sonra da bizim türkcəmiz. Mədənilik ləzgilər, çərkeslər arasında yayıldıqca öz dilləri de yoxluğa doğru yayılacaq. Bir vaxt olacaq ki, o kimi dillərin tarixdə ancaq adlan qalacaq. Neyçün? Çünki yazısı, imlası, ədəbiyyatı yox. Bu bir həqiqətdir; çaxotkaya, vərəmə tutulmuş bir

bəxtsiz adamın öləcəyi qədər bəllidir. Türkcəmiz, hər nə qədər tez-gec, həqq rəhmətinə gedəcək olan o dillər kimi deyildir. Amma bugünkü qaydasızlıq naxoşluğuna vaxtilə dərman etmək çarəsini axtarmazsaq, onun bu yaman halının da çox uzanacağından qorxulur” (4).

Qəzetlərə, jurnallara verilən çap etdirilən yazılarında ana dilində olması ümumi xalqın biliklənməsinin əsas şərti idi. Buna görədə müəyyən bir dərəcəyə qədər çoxu insanların anlayacağı üslubda, tərzdə yazmaq gərəkdir. Qəzetlərə verilən yazılarda müəyyənləşdirilmiş tərzlər gözlənilməlidir. Türk dilində yazmağa çalışanları aşağı görüb avam adlandırır, ərəb və fars sözlərindən ibarət mətnləri ədəbiyyat dili adlandırıb bununla fəxr edirdilər. İnsanları bu fikirdən düçüncədən uzaqlaşdırmağın vaxtı idi. Xalqı günahlandırmaq yerinə ruhlandırmaq ana dilindəki sözlərin sadəliyinə, anlaşıqlı olduğuna inandırmaq lazımdır. Gənc həvəskar yazıçılarında digər dillərə üstünlük verdiyindənda yazar söz açmışdır. O, “Tərəqqi” jurnalında bir yazıya rast gəlmiş, yazını Osmanlı türkcəsindən Azərbaycan dilinə tərcümə edən iranlı bir yazar olmuşdur. Əsərin tərcümə edən hissəsi yerinə “Mübəddili Mir Abbas” yazıldığını deyir. Bu çətin sözün yerinə tərcümə edən, çevirən ifadələrinin işlədilməsinin daha yaxşı səslənəcəyi qənaitində idi (5).

Yazar “Eşq və məhəbbət” adlı məqaləsində ana dilini ön plana çəkmiş, öz doğma dilini sevməyi, ona məhəbbətlə bağlanmağın vacibliyini qeyd etmişdir. "Eşq və məhəbbət" məqaləsində Ömər Faiq qeyd edir: "Dilimiz dünyadakı asan və gözəl dillərdən biridir". Ana dilimiz haqqında belə dəyərli fikir söyləyən Ömər Faiq həm dil, həm millət, həm də mətbuat fədaisi olub (Azərbaycan ədəbi dili tarix dörd cilddə, 2007). Millətin yaşaması, var olması onun ana dili ilə sıx bağlıdır. Dilin millətpərvərliklə bağlılığı haqqında yazmışdır. Lakin təkcə öz dilində danışmaqla millətpərvərlik hiss olunmaz, o gərək ürəkdə, hər kəliməni sevərək işlədilməsində olsun. Nə üçün bizlər öz ana dilimzi sevməyək?! Təkcə ana dili, mədəniyyət maariflənmə məsələləri dildə ifadə olunmur. Həyatın bütün sahələrinə təsir edir, özünü göstərir. Ö.F.Nemanzadə məqalədə onu da qeyd edir ki, milliləşməkdən daha çox insanlarımız özgələşməyi üstün tutur. Bu özgəlik qoyulan adlarda, adətlərdə, hətta tərbiyə prosesində də özünü büruzə verir. Özünüə hörmət ilk növbədə öz millətinə, dilinə vətəninə olan sevgidən, hörmətdən başlayır. Bəzən kiçik bir ölkənin necə ön planda, irəlidə olduğunun da fərqinə varırsan. Bu hünər bu sevgi bizlərdə də formalaşmalı, dilimizin bütün rənglərini, gözəlliklərinin yayılmasına şərait yaratmalıyıq.

Ö.F.Nemanzadə “Diləklərimiz” məqaləsində də dil məsələsinə xüsusi diqqət yetirmişdir. O, məktəblərin hüquq, idarə təşkilat cəhətlərinin milli əsaslar üzərində qurulmasının tərəfdarı idi. Və yazar əsas üç diləklərini dilə gətirmişdir (Kemaloğlu, 2015):

1. Təlim dilinin mütləq öz Azərbaycan türkcəmizdə olması.
2. Diləklərimiz üçün diri elmlərin təlimi.
3. Türkcə bilməyənlərin milli məktəblərimizdə türkcə öyrənmələri idi.

Ö.F.Nemanzadə Azərbaycan türkcəsinin öyrənilməsinin və eləcə də uşaqların təlimlərində bu dilə üstünlük verilməsinin xalqın inkişafı üçün əvəzedilməz rol oynayacağını deyirdi. O, diri elm dedikdə dünyəvi biliklərin tədrisinin faydalılığı üzərində dayanırdı. Tədrisdə əsas məqsəd ana dilinin öyrədilməsi, dünyəvi biliklərin öyrədilməsi, şəriət dərslərinin sıxışdırılıb aradan çıxardılması idi. Xalqın çoxu türkcəyə, Azərbaycan türkcəsinə yad idi və bu dilin doğmalaşdırılmasında başlıca təməli milli məktəblərimizdən qaynaqlanırdı. Buna görə Ö.F.Nemanzadə hər yerdə məktəblərin, xüsusilə ana dilli məktəblərin açılması tərəfdarı idi.

Tarixi faktlar bizə göstərir ki, xalqların çoxu adət-ənənələrindən, yaşayış tərzlərindən uzaqlaşsa da öz doğma dillərindən heç vaxt imtina etməmişlər. Dünyada əsirlik təkcə silah, güc yolu ilə deyil, dilin, ədəbiyyatın əldən alınması əsirliyidir. Dilin varlığı, tarixi də özü qədər minillikləri əhatə edir. Və çox qədimdir. Zamanın tələblərinə əsasən dilin ön sıralarda dayanmasıda başlıca vasitədir. Təcrübələrdən də bu aydın olmuşdur ki, insanı zülmətdən işıqlığa çıxaran onun tarixi köklərini, mədəniyyətinin formalaşmasına köməklik edən onun ana dili və ədəbiyyatıdır. “Bu səbəblə idi ki, müstəbid və zalım padşahlar keyfi idarələrinin vəqayi-davamı üçün ən ziyadə müraciət etdikləri tədbir ədəbiyyatı qısmaq, hürr mətbuatı yox etməkdi” (Qurbanov, 1992: 276).

Yazar qeyd edir ki, milli dilin mühafizə və tərəqqisi uğrunda çalışanlar əsas olaraq sosialistlərdir. Bu hal da onlar üçün ən böyük nemətdir, hikmətdir. Dil məsələlərində ön planda

gedənlərin ruslar, polyaklar, gürcülər olduğunu yazar deyirdi. Unutmaq olmaz ki, fransız dili qərbdə nəyi ifadə edirsə, Yaxın Şərqdə də türk dili o dərəcə əhəmiyyətlidir. Fransız dili qərbdə necə ümumi dil qəbul edilir, türk dili də Şərq ölkələrinin hamısında eyni mənanı ifadə edir. Lakin Şərqdə bu qədər əsas, doğma dil olan türk dili yazı və mətbuat aləmində o qədər də böyük nüfuz qazana bilməyib. Başqa dillərin xalqın həyat tərzinə, düşüncəsinə nüfuz etməsi dilin təsirini azaltmışdır. Yazar bu vasitəsilə xalqı savadlandırmağı asanlıqla bilik və maarif qapılarını açmağın vacibliyini qeyd edirdi. Zaman və həyatın bu gün bizlərdən çox şeylər gözlədiyini, daha düzgün elmi, xeyirli yolda çalışmağımızı tələb edirdi. Milli ədəbiyyatın xalqaların əlində parlayan bir məşəl olduğunu yazır və ancaq bu məşəl ilə xalq, millət irəliyə doğru gedə bilərdi.

Ö.F.Nemanzadə "Pişik" adlı felyatonunda milli dil, milli mətbuat məsələlərinə kiçik bir örnək verərək izahlar gətirmişdir. Bu hissəyə diqqət yetirək:

- Ay əmələlər, niyə tətil elədiniz, siz də zalımsız?

-Biz heç zalım deyiliz. Bizim zəhmətimiz çox, məvacibimiz az, xərcimiz çatmır: Qəzetçilər zalımdırlar ki, məvacibimizi artırmırlar.

-Ay qəzetçilər, siz nə zalımsız, niyə əmələlərin məvacibini artırmısınız?

- Biz zalım deyilik, zalım millətimizdir. Əgər millətimizin yüzdən biri qəzet oxusa, Qafqazda yarım milyon müştərimiz olardı. Onda bizdə əmələyə nə qədər məvacib istəsəydilər verə bilərdik.

- A millət, siz nə zalımsınız niyə qəzet oxumursuz?

-Biz zalım deyilik, bizim savadımız yoxdur ki, qəzet oxuyaq!!!

-Bəs niyə uşaqlıqdan məktəbə getmədiniz ki savadsız olduz

-Getmişik!... Beş-altı il də əlif-zəbər demişik. Bununla belə indi yenə heş zad bilmirik.

-Bəs niyə özgə millətlərin uşaqlarının hansı biri üç gün məktəblərinə gedirsə, öz dilində hər cür yazmaq-oxumaq bilir?

-Onların öz dilinə görə asanca əlifbaları var, məktəbə getməmiş elə evdə də öz-özündən hərfləri tanıyırlar, zalım bizim əlifbamızdır!!!" (Qurbanov, 1992: 333).

Ana dili məsələsi qeyd etdiyimiz kimi Ö.F.Nemanzadə yaradıcılığının ana xətti, özəyidir. Ana dilində yeni üsullu məktəblərin açılması, dünyəvi biliklərin verilməsi onun yaradıcılığının qayəsini təşkil etmişdir. Ö.F.Nemanzadə görkəmli ədib Cəlil Məmmədquluzadə ilə sıx əməkdaşlıq etmiş dostluq münasibətləri qurmuş, Molla Nəsrəddin satirik jurnalının təşkilində birgə çalışmışlar. Ö.F.Nemanzadə jurnalda çalışdığı müddətdə ana dili məsələlərinə toxunmuşdur. Ö.F.Nemanzadə "Qeyrət" mətbəəsinin yanında açılan "Leyli" məktəbində dərs demişdir. Məktəbin müdiri, Molla Nəsrəddin jurnalının redaktoru Cəlil Məmmədquluzadə idi. Cəlil Məmmədquluzadə öz xatirələrində yazır.: "Həmin müəssiləri təsis etmək icazəsini o əsrin höküməti bəlkə ancaq mənə verərdi və Ömər Faiqə verməzdi. Bu cəhətdən ki, mən hökümət darülmüəllimini bitirmiş bir cavan idim, amma Ömər Faiq Türkiyədə təhsil tapmış bir cavan idi və zənn edirəm ki, mətləb burada aşkar olur" (Hüseynov, 1986: 132).

"Qeyrət" mətbəəsində kitabçalar, şagirdlərə lazım olacaq bəzi təlim materialları da çap olunmuşdur. Ö.F.Nemanzadənin "Dəvət" adlı məqaləsi də burada çapdan çıxan ilk kitabça idi. Ö.F.Nemanzadə Türkiyədə təhsil alıb, azadlıq, maarifləndirmə ideyalarını yaydığına görə yerli idarəçilərin, hökümətin gözündə günahkar, etibarsız adam hesab edirdi. Yazdığı, çap etdirdiyi məqalələri, dərs dediyi müddətdə müəllimliyi də hər zaman müfəttiş tərəfindən hər zaman izlənilmişdir. Dil məsələlərinə olan münasibətlərini də qələm yoldaşı Cəlil Məmmədquluzadə sonuna qədər dəstəkləmişdir.

## Nəticə

Yekun olaraq qeyd edə bilərik ki, Ö.F.Nemanzadənin məqalələrinin bir çoxunda ana dili və onu ictimaiyyətə çatdırılması, aşılanması prosesləri başlıca yer tutmuşdur. O. uşaqlara əlifbanı öyrədərkən üsul-savdiyyə sistemindən istifadə etmişdir. Bu sistem hərflər və səslərlə tanışlıq, onların həqiqi sözlər işərisində oxunuşu və yazıların da oxudulduğu sistemdir. O, təlim prosesində dərslərin türkcə keçirilməsi tərəfdarı idi. Onun fikrincə digər dillər uşaqların dünyagörüşünün inkişaf etdirilməsi üçün əsas vasitə idi. Digər dillər tədris oluna bilər, sadəcə təlim dilinin türkcə

olması qənaitində idi. Ö.F.Nemanzadə 1916-cı ildə "Açıq söz" qəzetində yazdığı bir yazıda fikrini bu cür ifadə etmişdir "Rus dili rəsmi dilimiz olmasından ötrü, sadəcə böyük məktəblərimizdə deyil kiçik məktəblərimizdə belə oxudulmaldır. Bunu çoxumuz qəbul edilmiş bir aşikar bir məsələ olaraq bilirik. Lakin bilmədiyimiz daha aşikar bir məsələ, bir cəhət var ki, o da Rus dilini bilmənin lüzumu nə qədər aşikar isə, milli məktəblərimizdə təlim dilinin öz Azərbaycan türkcəsiylə olması lüzumu da daha çox aşikar olmalıdır... Ərəbcəyə gəlincə böyük məktəblərimizdə, mədrəsələrimizdə bunu da öyrənməliyik. Lakin bu dil nə məktəblərimizdə nə də mədrəslərimizdə heç bir vaxt təlim dili olmamalıdır".

Beləliklə Ö.F.Nemanzadə yaradıcılığı boyu ana dilində danışmağın, dərsləri tədris etməyin həsədini çəkdiyini deyirdi. Dilimizi sevərək, can-başla yaymağın tərəfdarı idi. O, deyirdi ki, gərək bizlər Məmmədləri-Mişa, İsgəndərləri-Saşa, Gülüsümləri-Gülya və s. kimi adları dəyişdirməkdən utanaq. Dil məhəbbəti millət məhəbbətinin başlanğıcı olduğunu qeyd edirdi. Millət düşüncəsinin milli dil ilə ürəklərə həkk olunacağına inanırdı.

## Ədəbiyyat

1. Əhmədov, H. (2014). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil.
2. Qurbanov, Ş. (1992). Ömər Faiq Nemanzadə. Bakı: Yazıçı s.
3. Orucov, Ə. (2012). Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu - XX əsrin əvvəlləri (tarixi-fəlsəfi aspekt). Bakı: Avropa nəşriyyatı.
4. https://omarfaig.info/dilimiz-ve-imlamiz/
5. http://www.anl.az/down/meqale/baki_xeber/2015/iyul/449289.htm
6. Azərbaycan ədəbi dili tarix dörd cilddə (IV cild). (2007). Bakı: Şərq-Qərb.
7. Kamaloğlu, Y. (2015). Ömər Faiq Nemanzadənin siyasət, din və təhsilə dair görüşləri. İstanbul.
8. Hüseynov, F. (1986). Molla Nəsrəddin və Mollanəsrəddinçilər. Bakı: Yazıçı, s.

Göndərilib: 01.03.2023 Qəbul edilib: 14.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/59-63

**Xatirə Məmmədova**
Bakı Dövlət Universiteti
magistrant
mammadovaxatire999@gmail.com

# BEYNƏLXALQ TURİZM KONSEPSİYASI VƏ ONUN NÖVLƏRİ

**Xülasə**

Beynəlxalq turizm, istirahət, iş və ya hər hansı digər fəaliyyət məqsədi ilə bir ölkədən digərinə səyahət təcrübəsinə aiddir. Beynəlxalq turizm bir çox ölkələr üçün gəlir gətirən və məşğulluq imkanları yaradan mühüm sənaye sahəsinə çevrilib. Bu, həm də müxtəlif xalqlar arasında mədəni mübadiləni və anlaşmanı təşviq etmək üçün vacib bir yoldur, çünki turistlər müxtəlif mədəniyyətləri, adət-ənənələri və həyat tərzini yaşamaq imkanı əldə edirlər. Beynəlxalq turizm bir çox formada ola bilər, o cümlədən ekoturizm, macəra turizmi, mədəni turizm, dini turizm və müalicə turizmi və başqaları. Beynəlxalq turistləri cəlb edən istiqamətlər müxtəlifdir və onlara çimərliklər, şəhərlər, dağlar, tarixi yerlər və vəhşi təbiət parkları daxil ola bilər. Bununla belə, beynəlxalq turizmin təbii ehtiyatların həddindən artıq istifadəsi, mədəni deqradasiya və ətraf mühitin çirklənməsi kimi bəzi mənfi təsirləri də var. Buna görə də, iqtisadi, sosial və ekoloji amilləri balanslaşdıran davamlı turizm təcrübələri getdikcə daha çox əhəmiyyət kəsb edir.

***Açar sözlər:*** *beynelxalq turizm, turizm növləri, turizm hüququ, səyahətçi, ekoloji turizm, macəra turizmi*

**Khatira Mammadov**
Baku State University
master student
mammadovaxatire999@gmail.com

## International tourism concept and its types

**Abstract**

International tourism refers to the experience of traveling from one country to another for leisure, business or any other activity. International tourism has become an important industry generating income and employment opportunities for many countries. It is also an important way to promote cultural exchange and understanding between different peoples, as tourists have the opportunity to experience different cultures, traditions and lifestyles. International tourism can take many forms, including ecotourism, adventure tourism, cultural tourism, religious tourism, and medical tourism, among others. Destinations that attract international tourists are diverse and may include beaches, cities, mountains, historical sites, and wildlife parks. However, international tourism also has some negative effects such as overexploitation of natural resources, cultural degradation and environmental pollution. Therefore, sustainable tourism practices that balance economic, social and environmental factors are increasingly important.

***Keywords:*** *international tourism, types of tourism, tourism law, traveler, ecological tourism, adventure tourism*

## Giriş

Beynəlxalq turizm anlayışı barədə mövcud baxışların tədqiq olunması 3 əsas yanaşmanı ayırmağa imkan verir. Birincisi, beynəlxalq turizm insanların daimi yaşadıqları yerdən (ərazidən) əmək haqqının alınması və peşə fəaliyyəti ilə məşğul olmasına aid edilməyən azad yerdəyişmə sistemi sayılır. Bundan əlavə, göstərilir ki, beynəlxalq tıırizm həm də insanların transsərhəd yerdəyişməsi hesab olunur. İkincisi, beynəlxalq turizm belə yerdəyişmə nəticəsində yaranan

ehtiyacların təmin olunması üçün yaradılmış əmtəə və xidmətlərin geniş sferası, dünya iqtisadiyyatının sahəsidir. Bu daha çox onun beynəlxalq iqtisadi münasibətlər sahəsini əhatə etməsi ilə xarakterizə olunur. Üçüncüsü, beynəlxalq turizm fəaliyyəti beynəlxalq turizm sənayesi subyektlərinin xarici iqtisadi fəaliyyəti kimi nəzərdən keçirilir (Gubenko, Pisarevskiy, 2003: 12). Bəzi tədqiqatçılar turizmi aşağıdakı kateqoriyalar kontekstində təhlil edir: sosial praktika; asudə vaxt sferası; tələbatın forması; mədəni fenomen; iqtisadiyyatın sahəsi.

Turizm haqqında Azərbay Respublikasının qanunun birinci madəsində turizmin anlayışı belə verilmişdir: “ turizm – fiziki şəxslərin getdiyi ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, mədəni, tarixi və təbii irslə tanışlıq, sağlamlıq, bərpa və digər məqsədlərlə daimi yaşadığı ölkənin (yerin) hüdudlarından kənara müvəqqəti səyahəti” (2).

Beynəlxalq turizmin müxtəlif növləri var, hər biri səyahətçilərin müxtəlif maraqlarına və motivasiyalarına cavab verir. Beynəlxalq turizmin ən çox yayılmış növlərindən bəziləri bunlardır:

İstirahət turizmi - bu beynəlxalq turizmin ən geniş yayılmış növüdür və zövq, istirahət və istirahət üçün səyahətləri əhatə edir. Buraya görməli yerləri gəzmək, çimərlik tətilləri və macəra idmanı kimi fəaliyyətlər daxildir (Yarcan, 2021: 43). İstirahət və ya tətil turizmi kimi də tanınan istirahət turizmi, fərdlərin və ya qrupların əsasən zövq, istirahət və istirahət üçün bir təyinat yerinə getdiyi beynəlxalq turizm növünə aiddir. Turizmin bu forması çox vaxt çimərlikdə günəş vannası qəbul etmək, görməli yerləri gəzmək, alış-veriş etmək və ya mədəni tədbirlərdə iştirak etmək kimi istirahət fəaliyyəti ilə əlaqələndirilir. İstirahət turizmi beynəlxalq turizmin ən geniş yayılmış növüdür və qlobal iqtisadiyyata mühüm töhfə verir. İstirahət üçün səyahət edənlər adətən səyahət agentləri, tur operatorları və ya onlayn sifariş platformalarının köməyi ilə səyahətlərini əvvəlcədən planlaşdırırlar. Onlar büdcə və üstünlüklərindən asılı olaraq otellərdə, kurortlarda, tətil icarələrində və ya digər yaşayış yerlərində qalmağı seçə bilərlər. İstirahət edən turistlər həmçinin təşkil edilmiş turlarda və ya fəaliyyətlərdə iştirak edə və ya təyinat məntəqəsini təkbaşına kəşf edə bilərlər. Populyar istirahət turizmi istiqamətlərinə Karib dənizi, Havay və Aralıq dənizi kimi çimərlik istiqamətləri, həmçinin Paris, Roma və Tokio kimi mədəni görməli yerləri olan şəhərlər daxildir. İstirahət üçün turistlər tez-tez açıq havada istirahət, mədəni attraksionlar, alış-veriş və yemək də daxil olmaqla bir sıra fəaliyyətlər və təcrübələr təklif edən istiqamətlər axtarırlar. Bütövlükdə, istirahət turizmi beynəlxalq turizmin mühüm formasıdır, insanlara istirahət etmək, yeni yerlər kəşf etmək və ömürlük xatirələr yaratmaq üçün imkanlar yaradır.

İşgüzar turizm - bu, konfranslarda, görüşlərdə, ticarət sərgilərində və sərgilərdə iştirak etmək kimi işgüzar məqsədlərlə səyahət etməyi əhatə edir. İşgüzar səyahət edənlər tez-tez yüksək sürətli internet, görüş otaqları və nəqliyyat kimi xüsusi şərait və xidmətlərə ehtiyac duyurlar. Korporativ və ya peşəkar turizm kimi də tanınan biznes turizmi, fərdlərin və ya qrupların əsasən işgüzar məqsədlər üçün bir istiqamətə səyahət etdiyi beynəlxalq turizm növünə aiddir. Turizmin bu forması konfranslara, görüşlərə, ticarət şoularına və sərgilərə, eləcə də bizneslə bağlı digər fəaliyyətlərə qatılmağı əhatə edir. İşgüzar turizm qlobal iqtisadiyyata əhəmiyyətli töhfə verir və bizneslərin beynəlxalq tərəfdaşlar, müştərilər və təchizatçılarla əlaqə qurması üçün vacib bir yoldur. İşgüzar səyahət edənlərin tez-tez yüksək sürətli internet, görüş otaqları və nəqliyyat kimi xüsusi ehtiyacları və tələbləri olur. Onlar tək və ya qrup halında səyahət edə bilərlər və adətən riayət etmək üçün sıx bir cədvələ sahibdirlər. İşgüzar turizm müxtəlif şəraitlərdə, o cümlədən otellər, konfrans mərkəzləri və sərgi salonlarında baş verə bilər. Populyar işgüzar turizm istiqamətlərinə Nyu York, London və Tokio kimi güclü iqtisadi və kommersiya fəaliyyəti olan böyük şəhərlər daxildir. Biznes səyahətçiləri yeni iş imkanları axtarışında inkişaf etməkdə olan bazarlara da baş çəkə bilərlər. Bütövlükdə, biznes turizmi beynəlxalq turizmin mühüm formasıdır və biznesə şəbəkələrini genişləndirmək və əməliyyatlarını inkişaf etdirmək üçün imkanlar yaradır. O, qlobal iqtisadiyyatın mühüm bir hissəsidir və sənayenin geniş spektrində artım və innovasiyaları idarə etməyə kömək edir.

Mədəni turizm - bu turizm növü müxtəlif mədəniyyətləri, adət-ənənələri və həyat tərzini yaşamaq üçün səyahət etməyi əhatə edir. Buraya tez-tez muzeylərə, tarixi yerlərə və mədəni tədbirlərə səfərlər daxildir. Mədəni turizm, ayrı-ayrı şəxslərin və ya qrupların ilk növbədə həmin

destinasiyanın mədəni görməli yerlərini və fəaliyyətlərini yaşamaq üçün getdiyi beynəlxalq turizm növünə aiddir. Turizmin bu forması çox vaxt tarixi yerlərə, muzeylərə, incəsənət qalereyalarına və digər mədəniyyət müəssisələrinə baş çəkməklə əlaqələndirilir. Mədəni turizm səyahət edənlərə destinasiyanın tarixini, adət-ənənələrini və həyat tərzini öyrənmək, habelə onun yeməkləri, musiqisi, incəsənəti və digər mədəni ifadələrini yaşamaq imkanı verir. Mədəni turizm müxtəlif formalarda ola bilər, o cümlədən qədim xarabalıqları və arxeoloji yerləri ziyarət etmək, festivallarda və mədəni tədbirlərdə iştirak etmək, ənənəvi məhəllələri və kəndləri kəşf etmək. Səyahətçilər bələdçili turlarda iştirak etməyi və ya özləri kəşf etməyi seçə bilərlər. Mədəni turizm həmçinin ənənəvi sənətkarlığı öyrənmək, yerli mətbəxi bişirmək və ya dil dərsləri keçmək kimi fəaliyyətləri əhatə edə bilər. Populyar mədəni turizm istiqamətlərinə Paris, Roma və Kyoto kimi güclü mədəni ənənələrə malik şəhərlər, həmçinin Marrakech, Bali və Havana kimi unikal mədəni ifadələrə malik olan istiqamətlər daxildir (Guard, 2015: 63). Ümumiyyətlə, mədəni turizm beynəlxalq turizmin mühüm formasıdır və səyahət edənlərə dünyanın mədəni müxtəlifliyini öyrənmək və qiymətləndirmək üçün imkanlar yaradır. Bu, həmçinin yerli icmalara və iqtisadiyyatlara müsbət təsir göstərə, mədəni irsin qorunmasını təşviq edə və məşğulluq imkanlarını təmin edə bilər.

Təhsil turizmi - bu, dil, tarix və ya mədəniyyət kimi müəyyən bir mövzu haqqında öyrənmək üçün səyahət etməyi əhatə edir. Buraya xaricdə təhsil proqramları, dil kursları və təhsil turları daxil ola bilər. Təhsil turizmi, ayrı-ayrı şəxslərin və ya qrupların, ilk növbədə, müəyyən bir mövzu və ya maraq sahəsi haqqında öyrənmək üçün bir istiqamətə səyahət etdiyi beynəlxalq turizm növünə aiddir. Turizmin bu forması tez-tez dil immersion proqramları, xaricdə təhsil proqramları, təhsil turları və digər təhsil imkanları ilə əlaqələndirilir. Səyahətçilərin yerli ailə ilə yaşayarkən və ya dil dərslərində iştirak edərkən yeni dil öyrəndikləri dilə daldırma proqramları da daxil olmaqla, təhsil turizmi bir çox formada ola bilər; xaricdə təhsil proqramları, burada tələbələr müəyyən bir fənni öyrənmək üçün başqa ölkədəki məktəb və ya universitetdə oxuyurlar; və səyahətçilərin müəyyən bir mövzu və ya maraq sahəsi haqqında öyrənmək üçün tarixi yerlərə, muzeylərə və digər mədəniyyət müəssisələrinə baş çəkdikləri təhsil turları. Populyar təhsil turizmi istiqamətlərinə Kembric, Oksford və Boston kimi nüfuzlu universitet və məktəbləri olan şəhərlər, həmçinin Parisdə dil immersion proqramları, İtaliyada kulinariya məktəbləri və Yunanıstanda tarixi turlar kimi unikal təhsil imkanları olan istiqamətlər daxildir. Bütövlükdə, təhsil turizmi beynəlxalq turizmin mühüm formasıdır, fərdlərə başqa mədəniyyətləri öyrənmək və onlarla ünsiyyət qurmaq, yeni bacarıq və biliklər əldə etmək və üfüqlərini genişləndirmək üçün imkanlar yaradır. O, həmçinin yerli icmalara və iqtisadiyyatlara müsbət təsir göstərə bilər, mədəni mübadiləni təşviq edir və məşğulluq imkanlarını təmin edə bilər.

Tibbi turizm - bu, çox vaxt səyahətçinin ölkəsində olduğundan daha aşağı qiymətə müalicə və ya əməliyyat almaq üçün səyahət etməyi nəzərdə tutur. Tibbi turizmə estetik cərrahiyyə, diş prosedurları və xüsusi müalicələr daxil ola bilər. Tibbi turizm fərdlərin müalicə və ya prosedurlar üçün başqa ölkəyə getdiyi beynəlxalq turizm növünə aiddir. Turizmin bu forması çox vaxt öz ölkəsində mövcud olmayan və ya münasib olmayan tibbi xidmət axtarmaq və ya daha qısa gözləmə siyahıları və ya daha qabaqcıl texnologiyaya malik müalicələrə müraciət etmək ilə əlaqələndirilir. Tibbi turizm estetik cərrahiyyə, diş prosedurları, məhsuldarlıq müalicəsi və ürək əməliyyatları, oynaqların dəyişdirilməsi və orqan transplantasiyası kimi böyük əməliyyatlar da daxil olmaqla bir çox formada ola bilər (Kozak, Kozak, Akoglan, 2019: 255). Tibbi turistlər adətən səyahətlərini, yaşayış yerlərini və tibbi görüşləri koordinasiya etməyə kömək edən tibbi turizm yardımçılarının köməyi ilə səyahətlərini əvvəlcədən planlaşdırırlar. Populyar tibbi turizm istiqamətləri arasında inkişaf etmiş ölkələrlə müqayisədə daha aşağı qiymətə keyfiyyətli tibbi xidmət göstərmək üçün nüfuz qazanmış Tayland, Hindistan, Meksika və Kosta Rika kimi ölkələr daxildir. Ümumilikdə, tibbi turizm beynəlxalq turizmin mühüm formasıdır və fərdlərə öz ölkələrində mövcud olmayan və ya münasib qiymətə tibbi xidmətə çıxış imkanları yaradır. O, həmçinin yerli icmalara və iqtisadiyyatlara müsbət təsir göstərə, səhiyyə sahəsində innovasiyaları təşviq edə, məşğulluq imkanlarını təmin edə və yerli bizneslər üçün gəlir əldə edə bilər.

Ekoturizm - bu turizm növü ətraf mühiti öyrənmək və qorumaq məqsədi ilə təbii ərazilərə səyahətləri əhatə edir. Bu, tez-tez gəzinti, vəhşi təbiəti izləmək və təbiət fotoşəkilləri kimi fəaliyyətləri əhatə edir. Ekoturizm ətraf mühitə təsirləri minimuma endirmək və təbiətin qorunmasını təşviq etmək məqsədi ilə təbii ərazilərə məsuliyyətli səyahətə yönəlmiş beynəlxalq turizm növünə aiddir. Turizmin bu forması çox vaxt gəzinti, vəhşi təbiəti seyr etmək və təbiət fotoşəkilləri çəkmək kimi fəaliyyətlərlə əlaqələndirilir. Ekoturizm bir çox formada ola bilər, o cümlədən milli parklara, vəhşi təbiət qoruqlarına və digər qorunan ərazilərə baş çəkmək, həmçinin quş müşahidəsi, kayak və şnorkellə üzgüçülük kimi ekoloji cəhətdən təmiz fəaliyyətlərdə iştirak etmək. Ekoturizm həmçinin ekoloji cəhətdən təmiz yaşayış yerlərində qalmağı, dayanıqlı nəqliyyatdan istifadə etməyi və yerli təbiətin mühafizəsi səylərini dəstəkləməyi əhatə edir (Dincher, Fidan, 2020: 234). Populyar ekoturizm istiqamətlərinə Amazon tropik meşələri, Böyük Sədd rifi və Serengeti Milli Parkı kimi müxtəlif canlı təbiəti və təbii gözəllikləri olan yerlər daxildir. Bütövlükdə, ekoturizm fərdlərə təbiətlə əlaqə yaratmaq, mühafizəni öyrənmək və davamlı turizm təcrübələrini dəstəkləmək üçün imkanlar yaradan beynəlxalq turizmin mühüm formasıdır. O, həmçinin yerli icmalara və iqtisadiyyatlara müsbət təsir göstərə, təbiəti mühafizə səylərini təşviq edə, məşğulluq imkanlarını təmin edə və yerli bizneslər üçün gəlir əldə edə bilər.

Macəra turizm - bu, bungee jumping, qayaya dırmaşma və ya ağ suda rafting kimi yüksək riskli fəaliyyətlərlə məşğul olmaq üçün səyahət etməyi əhatə edir. Macəra turizmi, fərdlərin fiziki və əqli cəhətdən çətin açıq hava fəaliyyəti axtardıqları və iştirak etdikləri beynəlxalq turizm növünə aiddir. Turizmin bu forması tez-tez trekkinq, dağa dırmaşma, bungee jumping, rafting və zip-lining kimi fəaliyyətlərlə əlaqələndirilir. Macəra turizmi bir çox formada ola bilər, o cümlədən ucqar ərazilərə bələdçili ekspedisiyalar, çox günlük treklər və gəzintilər, bazadan tullanma və ağ suda rafting kimi ekstremal idman növləri. Macəra turistləri tez-tez dağlar, meşələr və çaylar kimi unikal təbii xüsusiyyətləri və mənzərələri olan yerləri axtarırlar. Məşhur macəra turizmi istiqamətlərinə müxtəlif açıq hava fəaliyyətləri və heyrətamiz təbii gözəllikləri ilə tanınan Yeni Zelandiya, Nepal və Kosta Rika kimi yerlər daxildir. Bütövlükdə, macəra turizmi beynəlxalq turizmin mühüm formasıdır, fərdlərə fiziki və əqli cəhətdən özlərini itələmək, yeni yerləri kəşf etmək və macəra həyəcanını yaşamaq üçün imkanlar yaradır. O, həmçinin yerli icmalara və iqtisadiyyatlara müsbət təsir göstərə, davamlı turizm təcrübələrini təşviq edə, məşğulluq imkanlarını təmin edə və yerli bizneslər üçün gəlir əldə edə bilər. Bununla belə, macəra turistləri üçün məsuliyyətli turizm təcrübələri ilə məşğul olmaq və təbii mühitə və yerli icmalara hörmət etmək vacibdir.

Azərbaycan Respublikasının "Turizm haqqında" qanununda 2-ci maddədə turizmin turistlərin səyahət məqsədinə görə 10 növü fərqləndirilmişdir və aşağıdakı şəkildə hər bir növün anlayışı göstərilmişdir (Əliyev, Aslanov, 2011: 65):

1. mədəni turizm – səyahət edilən ölkənin (yerin) maddi və qeyri-maddi mədəni irsi ilə tanışlıq məqsədli turizm;

2. ekoloji turizm (ekoturizm) – təbiətə minimum təsir, ekoloji sistemin bütövlüyünün qorunması prinsipləri əsasında səyahət edilən ölkənin (yerin) təbiəti, təbii ekoloji sistemi, bioloji və mədəni müxtəlifliyi ilə tanışlığı özündə ehtiva edən turizm;

3. kənd (icma) turizmi – turistlərin kənd təsərrüfatı obyektlərində (ferma, əkin sahələri, bağ, bostan, üzümlük və s.) təsərrüfat fəaliyyətində iştirakı (aqroturizm), kənd həyat tərzi, yerli ərazinin təbii, tarixi və mədəni dəyərlərinin öyrənilməsi ilə bağlı xidmətlərin göstərilməsi ilə müşayiət olunan turizm;

4. macəra turizmi – turistlərin xüsusi coğrafi xüsusiyyətlərə malik ərazilərdə fiziki aktivlik, mədəni mübadilə, təbiətlə qarşılıqlı əlaqə ilə müşayiət olunan turizm;

5. sağlamlıq turizmi – turistlərə səyahət etdikləri ölkədə (yerdə) müalicə, profilaktika, diaqnostika və digər tibbi xidmətlərin (tibbi turizm), təbii müalicə ehtiyatları və müalicə-sağlamlaşdırma yerlərindən istifadə etməklə rekreasiya xidmətlərinin (rifah turizmi) göstərilməsini nəzərdə tutan turizm;

6. işgüzar turizm – işgüzar tədbirlərdə (görüşlər, seminarlar, konfranslar, konqreslər, sərgilər və s.) iştirak məqsədilə həyata keçirilən turizm;

7. qastronomiya turizmi – turistlərin səyahət edilən ölkənin (yerin) ənənəvi və (və ya) innovativ kulinariya nümunələri və ərzaq məhsulları, yerli ərzaq istehsalçıları ilə tanışlığı, kulinariya festivallarında və digər oxşar tədbirlərdə iştirakı ilə müşayiət olunan turizm;

8. sahil və su turizmi – turistlərin su obyektlərinin sahillərində və su nəqliyyat vasitələrində göstərilən xidmətlərdən istifadə və istirahətlərinin təşkili, su idman növləri ilə məşğul olmasını özündə ehtiva edən turizm;

9. dağ turizmi – özünəməxsus landşaft, topoqrafiya, iqlim, bioloji müxtəliflik (flora və fauna) xüsusiyyətləri olan dağlıq ərazilərdə həyata keçirilən turizm;

10. idman turizmi – idman yarışlarında iştirak etmək və ya idman yarışlarını izləmək məqsədli turizm (8).

## Nəticə

Ümumiyyətlə, səyahətçinin seçdiyi beynəlxalq turizm növü onların maraqlarından, motivasiyalarından və üstünlüklərindən asılı olacaq. Beynelxalq turizmin bir sıra əsasla təsnifatını aparsaq da bu təsnifat şərti xarakter daşıyır. Bu və ya digər turizm növü digər növlə tam mənada üst-üstə düşə bilər. Məsələn, xizək turizmi və ekoloji turizm tanışlıq turizmi və dini turizm və s.

## Ədəbiyyat

1. Gubenko, H., Pisarevskiy, Ye. (2003). Zakonodatelstvo v sfere turizma. Sostoyaniye i perspektivy. Turizm: pravo i ekonomika.
2. "Turizm haqqında" Azərbaycan Respublikasının 27 dekabr 2021-ci il tarixli 448-VIQ nömrəli Qanunu: [Elektron resurs]/https://e-qanun.az/framework/49162
3. Yarcan, S. (2021). "Tourism and Internationalization in Turkey". Istanbul: "Bogazici University Publications", 439 p.
4. Guard, I. (2015). "Accommodation Accounting". Isparta: "Suleyman Demirel University Publications", 467 p.
5. Kozak, M., Kozak, M., Akoglan, K. (2019). "General Tourism". Ankara: "Detail Publishing", 534 p.
6. Dincher, O., Fidan, Y. (2020). "Introduction to Business Management". Istanbul: "Alfa Press Publishing Distribution", 414 p.
7. Əliyev, Ə., Aslanov, E. (2011). Beynəlxalq turizm hüququ. Dərslik. Bakı, 474 s.
8. Turizmin qlobal etik kodeksi [Elektron resurs] https://webunwto.s3.eu-west-1.amazonaws.com

Göndərilib: 24.01.2023 Qəbul edilib: 23.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/64-70

**Nicat Həsənov**
Bakı Dövlət Universiteti
magistrant
nijat.hasanov@isrholdingltd.com

# ƏMTƏƏ NİŞANINDAN İSTİFADƏ EDİLMƏMƏSİ NƏTİCƏSİNDƏ ONA DAİR HÜQUQUN XİTAM OLUNMASI ƏSASLARI VƏ TƏCRÜBƏDƏ QARŞILAŞILAN PROBLEMLƏR

**Xülasə**

Ölkə ərazisində bazar iqtisadiyyatı çərçivəsində kommersiya subyektlərinin sayı durmadan artır. Təbi ki, belə artım hüquqi sferada da müəyyən münasibətlərin yaranmasına gətirib çıxarır. Kommersiya subyektləri tərəfindən öz fəaliyyəti istiqamətlərində onlara məxsus olan brendin, əmtəənin qorunması, geniş müştəri kütləsinə çatdırılması və az reklam xərci ilə yüksək gəlir əldə edilməsi üçün müxtəlif əqli mülkiyyət obyektlərinə müraciət edilir və bu istiqamətdə kommersiya subyektlərinə məxsus olan əmtəə və xidmətlərin digər subyektlərin əmtəə və xidmətlərindən fərqləndirilməsi üçün əmtəə nişanlarından istifadə edilir. Əmtəə nişanına dair hüququn qeydiyyata alınması və ona xitam verilməsi qaydaları konkret olaraq qanunvericilik aktlarında nəzərdə tutulsa da təcrübədə bu normaların tətbiqi ilə bağlı bir sıra problemlər yaranır və müxtəlif orqanlar tərəfindən normalar düzgün olaraq şərh edilməyərək qanun pozuntusuna yol verilir. Hazırkı araşdırmanın mövzusunu bu sahədə yerli qanunvericilik aktlarında mövcud olan normaların təhlili, həmin normaların tətbiqi ilə bağlı təcrübədə daha çox rast gəlinən problemlər və beynəlxalq təcrübədə, digər ölkələrin hüquq ədəbiyyatlarında əmtəə nişanına dair hüquqa xitam verilməsi qaydası və halları araşdırılmış, mövcud problemlərin aradan qaldırılması üçün təkliflər verilmişdir.

***Açar sözlər:*** *əqli mülkiyyət hüququ, əmtəə nişanı, istifadə hüququ, əmtəə nişanına dair qeydiyyata xitam verilməsi qaydası, əmtəə nişanı sahibinin hüquqlarının qorunması*

**Nijat Hasanov**
Baku State University
master student
nijat.hasanov@isrholdingltd.com

# Grounds for termination of trademark rights as a result of non-use and problems encountered in practice

**Abstract**

The number of commercial entities within the framework of the market economy in the country is constantly increasing. Of course, such an increase leads to the emergence of certain relations in the legal sphere. Various intellectual property objects are used by commercial entities in order to protect their brand and goods, deliver them to a wide customer base, and obtain high income with low advertising costs. İn this direction trademarks are used to distinguish goods and services belonging to commercial entities from goods and services of other entities. Although the rules for registering and terminating the right to a trademark are specifically provided for in legislative acts, in practice, a number of problems arise with the application of these norms, and violations of the law are committed by various authorities by not interpreting the norms correctly. The topic of the current article is the analysis of the existing norms in the local legislative acts in this field, the problems that are more common in practice related to the application of those norms, and in the international practice, in the legal literature of other countries, the procedure and cases of termination of the right to the trademark have been examined, and suggestions have been made to eliminate the existing problems.

***Keywords:*** *Intellectual property right, trademark, right of use, procedure for termination of trademark registration, protection of trademark owner's rights*

## Giriş

Əmtəə nişanı hazırkı dövrdə kommersiya subyektlərinin hüquqlarının qorunması, istehlakçılar və alıcılar tərəfindən istehsalçının əmtəəsinə münasibət bildirilməsi və son olaraq əmtəə barəsində insanların təsəvvüründə fikir formalaşması üçün mühüm rol oynayır. Bazar iqtisadiyyatının mövcud olduğu yerdə əsas subyektlər kimi çıxış edən istehsalçı, həmçinin istehlakçı və digər şəxslər üçün əmtəə nişanı çox böyük önəm kəsb edir. Belə ki, əmtəə nişanının əsas məqsədi istehlakçılar arasında yarana biləcək olan çaşqınlıqların aradan qaldırılması və istehsalçıya, digər şəxsə məxsus olan əmtəənin reputasiyasını qorumaqdan ibarətdir. Qanunvericilikdə əmtəə nişanı sahibinə bir çox hüquqlar verdiyi kimi, bu hüquqların realizə edilməməsi səbəbindən ona xitam verilməsi qaydaları nəzərdə tutulmuşdur. Bunun əsas səbəbi isə əmtəə nişanı sahibinə verilmiş hüquqlardan sui-istifadə edilməsinin və nişandan formal istifadə halının qarşısının alınması və digər bazar subyektlərinin hüquqlarının qorunmasıdır. Hazırkı məqalədə əmtəə nişanın nə olması, bu nişanın nə üçün kommersiya subyektləri üçün zəruri olmasını və hüquqları qeydiyyata alınmış şəxsin əmtəə nişanından istifadə hüququna xitam verilməsi qaydasından bəhs ediləcəkdir.

**Əmtəə nişanından istifadə edilməməsi nəticəsində ona dair hüququn xitam olunması əsasları və təcrübədə qarşılaşılan problemlər:**

"Əmtəə nişanı və Coğrafi Göstəricilər haqqında" Azərbaycan Respublikası Qanunun 1-ci maddəsinə əsasən əmtəə nişanı — sahibkarın əmtəələrini və ya xidmətlərini digər sahibkarın əmtəələrindən və ya xidmətlərindən fərqləndirən və qrafik təsvir edilən nişan və ya nişanların hər hansı bir uzlaşmasıdır (kombinasiyasıdır) (1).

Qanunun qeyd edilən normasından belə nəticəyə gəlmək olar ki, əmtəə nişanı bir şəxsə malik olan məhsulların, xidmətlərin-geniş mənada əmtəələrin digər şəxslərə məxsus olan əmtəələrdən fərqləndirilən unikal simvol, söz, ifadə, dizayn və ya bu elementlərin birləşməsindən əmələ gələn əqli mülkiyyət hüququnun obyektlərindən biridir.

20 mart 1883-cü il tarixli Sənaye Mülkiyyətinin Mühafizəsi Üzrə Paris Konvensiyasının 1-ci maddəsinin ikinci bəndinə əsasən "İxtira üzrə patentlər, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları, xidmət nişanları, firma adları və mənşə, yaxud mənşə yerinin adları göstəriciləri və həmçinin qeyri-səmimi rəqabət sənaye mülkiyyətinin mühafizəsi obyektləridir" (2).

Konvensiyaya əsasən qeyd edə bilərik ki, əmtəə nişanı- ixtiralar, faydalı modellər, sənaye nümunələri kimi insan şüuru tərəfindən yaradılan qeyri-maddi nemətlərə daxildir.

Əmtəə nişanı qeyd edildiyi kimi istehlakçılar həm də istehsalçılar üçün böyük rol oynayır. Əmtəə nişanı istehlakçılar üçün əmtəənin əsas mənbəyini bildirir və istehlakçının riskini azaldır, həmçinin istehlakçının əmtəəni axtarmaq üçün sərf etdiyi zamanı və vəsaiti minumuma endirir, əmtəə və ya xidmət istehsalçısı ilə istehlakçı arasında əlaqə yaradır və istehlakçıya əmtəənin keyfiyyəti barəsində zəmanət verir. Həmçinin əmtəə nişanları mövcud və potensial istehlakçılara, istehsalçı və yaxud satıcı haqqında məlumat verərək, istehlakçını şüurunda əmtəə barədə təsəvvürün fomalaşmasına yardım edir. İstehsalçılar üçün isə əmtəə nişanı mal və ya xidmətin rahat şəkildə izlənilməsi və əmtəələrə dair hüquqların qorunmasına kömək edir. Həmçinin əmtəə nişanı indiki dövrdə yalnız "nişan" olmamaqla birlikdə, istehlakçıların mal seçimləri zamanı onlara yol göstərən çox vacib bir ünsürdür. Əmtəə nişanının zəruriliyini aşağıdakı kimi sıralamaq olar:

Birincisi, əmtəə nişanı kommersiya subyektləri üçün identifikasiya və fərqləndirmə vasitəsidir. Çünki istehlakçılar artıq həmin nişanı gördükdə malın konkret olaraq hansı subyektə məxsus olduğunu bilərək, onun keyfiyyətinə güvənə bilirlər. Bu isə kommersiya subyektlərinə müştəri loyallığı yaratmağa və bazarda rəqabət üstünülüyünün mövcud olmsına və qorunmasına kömək edir.

İkincisi əmtəə nişanı kommersiya subyektinin əmtəəsinin nüfuzunu qoruyan əsas vasitələrdən biridir. Əgər rəqib subyektlər tərəfindən oxşar və ya eyni əmtəə nişanı istifadə edilərsə bu hal istehlakçılar arasında çaşqınlıqlar yaradacaq və bu da əmtəə nişanının əsas sahibinin reputasiyasına

ziyan vuracaqdır. Ona görə də subyektlərin öz hüquqlarını qoruya bilmələri üçün həmin nişanın qeydiyyat alınması tələb edilir ki, əks halda nişana dair hüquqlarını qeydiyyata aldırmayan subyektin nişana dair hüquqların müdafiə edilməsi imkanı istisna edilir.

Üçüncüsü əmtəə nişanları kommersiya subyekti üçün həmçinin dəyərli aktivdə ola bilər. Güclü əmtəə nişanı isə müəyyən məhsul və ya xidmətlə sinonim ola bilər və bu da kommersiya subyektinin əmtəəsinin dəyərini artıra bilər. “Nike” şirkəti tərəfindən istifadə edilən “Swoosh” nişanı buna misal ola bilər.

Qeyd edilənlərdən göründüyü kimi, əmtəə nişanı təsərrüfat subyektinin hüquqlarının qorunmasını təmin edən əsas üsul və vasitələrindən biridir.

Əmtəə nişanına hüququn əldə edilməsi və bu hüquqdan yaranan saəlahiyyətlərin istifadə edilməsi üçün iki əsas sistem vardır (Tekinalp, 1997: 467). Birincisi əmtəə nişanına dair hüququn nişanın faktiki istifadəsi ilə əldə edilməsi sistemi və ikincisi əmtəə nişanına dair hüququn qeydiyyata alınması və daha sonra ondan istifadə edilməsi sistemi.

Birinci halda əmtəə nişanı qanunvericiliyə uyğun olaraq istifadə edən birinci şəxs həmin əmtəə nişanına sahibi kimi tanınır.

İkinci halda əmtəə nişanına dair hüququ qeydiyyata alınan ilk şəxs onun sahibi kimi tanınır. Azərbaycan Respublikasının Qanunvericiliyində ikinci sistemdən istifadə olunur. Belə ki, “Əmtəə nişanı və Coğrafi göstəricilər” haqqında qanunun 10-cu maddəsinə əsasən əmtəə nişanının ilkinliyi bu Qanunun 9-cu maddəsinə uyğun olaraq iddia sənədinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi quruma daxil olduğu tarixdən müəyyənləşdirilir (1). “Əmtəə nişanı və Coğrafi göstəriilər haqqında” qanununda əmtəə nişanının istifadəsinə və əmtəə nişanı sahibinin hüququna dair imperativ qaydalar nəzərdə tutulmuşdur, lakin bu qaydalar yalnız qeydiyyata alınmış əmtəə nişanları üçün keçərlidir.

Əmtəə nişanının sahibi nişan üzərində müstəsna səlahiyyətə malik olsa da bu səlahiyyətlərin həcmi sərhədsiz deyildir. Belə ki, qeydiyyata alınmış olan əmtəə nişanına dair hüquqa qanunvericilikdə nəzərdə tutulmuş əsaslarla xitam verilə bilər. Belə əsaslardan biri də, “Əmtəə nişanı və Coğrafi göstəricilər haqqında” qanunun 30-cu maddəsində nəzərdə tutulmuşdur. Həmin maddənin tələbinə əsasən “Əmtəə nişanının qeydə alındığı tarixdən fasiləsiz olaraq 5 il və ya istənilən şəxsin ondan istifadə olunmaması barədə verdiyi ərizənin daxil olduğu tarixə qədər 5 il ərzində istifadə olunmadıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) Apellyasiya şurası qeydiyyata xitam verə bilər” (1). Göründüyü kimi qanunverici nişan sahibi tərəfindən qeydiyyata alınmış əmtəə nişanının istifadə edilməməsi nəticəsində ona xitam verilməsi qaydasını nəzərdə tutmuşdur. Qanunvericilikdə əmtəə nişanından istifadə qaydalarının nəzərdə tutulmasında məqsəd fikrimizcə bir tərəfdən əmtəə nişanı sahibinin geniş səlahiyyətini nəzərdə tutan mütləq hüquqların qorunması, digər tərəfdən də bu hüququn lazımsız, məqsədsiz və faydasız olaraq nişan sahibi tərəfindən saxlanılmasının qarşısını almaqdan ibarətdir. Qanunla qorunan əmtəə nişanın nişan sahibi tərəfindən istifadə edilməməsi ölkə iqtisadiyyatına və sahibin kommersiya faliyyətinə heç bir fayda verməməsinə səbəb olacaqdır. Əmtəə nişanından istifadə edilməməsi iqtisadiyyata və kommersiya fəaliyyətinə fayda verməməklə yanaşı həmçinin başqa şəxslərin də nişandan istifadəsinə mane olur. Göründüyü kimi kommersiya məqsədinə xidmət etməyən və iqtisadiyyat üçün heç bir faydası olmayan əmtəə nişanının, ondan istifadə edilməməsi nəticəsində nişana dair hüquqa xitam verilməsinin qanunvericiliyimizdə müəyyən edilməsi çox düzgün addımdır. Çünki əmtəə nişanı başqa subyektlərin istifadəsinə açıq olacaq və iqtisadi sahə üçün canlanma meydana gələcəkdir.

Yuxarıda qeyd edilənlərə əsasən əmtəə nişanından istifadə edilməsinin məcburiliyi, əmtəə nişanı sahibinin nişanı təyinatına uyğun şəkildə istifadə etməsini zəruri edir. Bu məqsədin həyata keçirilməsi heç və yaxud təyinatına uyğun istifadə edilməyən əmtəə nişanına dair hüququn qeydiyyatına xitam verilməsi ilə həyata keçirilir.

Əmtəə nişanının hər zaman sahibi tərəfindən istifadə edilməsi zəruri olmaya bilər (Cosgun, 2018: 47). Belə ki, Lisenziya, Sublisenziya, əmtəə nişanından istifadə edilməsini ehtiva edən françayzinq kimi müqavilələrlə əmtəə nişanından istifadə hüququnun başqa şəxslərə ötürülməsi də

mümkündür. Başqa sözlə desək, nişan sahibi tərəfindən əmtəə nişanın mal və ya xidmətlərdə istifadə edilməsi, bazara çıxarılması və ya satılması mütləq şərt olmayıb, müqavilələrlə nişan sahibi tərəfindən nişandan istifadə hüququnun üçüncü şəxslərə ötürülməsi mövcud ola bilər. "Əmtəə nişanı və Coğrafi göstəricilər haqqında" qanunun 30-cu maddəsinin 4-cü hissəsinə əsasən əmtəə nişanından istifadənin onun sahibi və ya bu Qanunun 26-ci maddəsinə uyğun olaraq lisenziya müqaviləsi əsasında istifadə hüququ olan şəxs tərəfindən həyata keçirilməsi əmtəə nişanından istifadə sayılır (1). Qanununda verilmiş olan hallara nəzər saldıqda görünür ki, "Əmtəə nişanının və coğrafi göstəricinin, bir qayda olaraq, onların aid edildiyi əmtəələrdə, əmtəə qablarında və göstərilən xidmətlərdə tətbiqi onlardan istifadə sayılır. Onların reklamlarda, mətbu nəşrlərdə, lövhələrdə, Azərbaycan Respublikasında keçirilən sərgilərin və yarmarkaların eksponatlarında və əmtəələrin bazara çıxarılması ilə bağlı digər sənədlərdə tətbiqi də istifadə sayılır.

Yuxarıda sadalanan hallarda istifadə məqsədilə əmtəənin istehsalı, anbara yığılması, bazara çıxarılması, idxalı, ixracı da nişandan istifadə sayılır. Əmtəənin satış üçün təklif olunması, satışı və ya xidmətin göstərilməsi qeydə alınmış nişanlardan istifadəni təsdiq edir. Əmtəə istehsalçısının və ya xidmət göstərənin əmtəə nişanı ilə yanaşı olaraq, aralarındakı müqaviləyə uyğun vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər özlərinə məxsus əmtəə nişanından da istifadə edə bilərlər. Əmtəə nişanın onların aid edildiyi əmtəələrdə, qablarda və göstərilən xidmətlərdə tətbiqinin ondan istifadə sayılması mübahisə doğurmayan haldır. Lakin qanunverici tərəfindən müəyyən edilmiş "əmtəənin anbara yığılması" fikrimizcə hər bir halda əmtəə nişanından istifadə edilməsinə dələlət etmir. Belə ki, ilk növbədə malların sırf istifadə məqsədilə ilə anbara yığılması faktı müəyyən ediləməlidir. Çünki ola bilər ki, nişan sahibi həqiqətən də anbarda ona məxsus olan əmtəə nişanın olduğu əmtəələri anbarında yığaraq saxlamışdır. Lakin nişan sahibi heç bir halda bu əmtəələri anbardan çıxararaq kommersiya məqsədilə ilə istifadə etməyəcək və yaxud qanunvericilikdə nəzərdə tutulmuş hər hansı bir əsasa görə həmin malların istehlakçıya təqdim edilməsi qadağan ediləcəkdir. Belə olan halda əmtəə nişanından istifadə edildiyi qənatinə gəlinə bilərmi? Qanunvericiliyimizdə əmtəənin anbara yığılmasının əmtəə nişanından istifadə edildiyi qənatinə gəlinsə də fikrimizcə heç bir halda bu əsasa dayanaraq əmtəə nişanından istifadə edildiyi qənatinə gəlinməməlidir.

Bu halı konkret misllarla izah edək:

2012-ci ildə "MMM" Əmtəə nişanına dair hüququnu qeydiyyata aldıran "A" şirkəti həmin ildən etibarən qeyd edilən nişan adı altında ölkə ərazisinə müxtəlif kosmetik məhsulları idxal edir. Məhsullar ölkə ərazisinə idxal edildikdən sonra "A" şirkətinə məxsus olan anbara yığılaraq saxlanılır. Həmin vaxtdan etibarən ölkə ərazisinə qeyd edilən əmtəə nişanı altında malların idaxlı dayandırılır və anbarda olan malların bəzi hissəsi bazara çıxarılaraq istehlakçılara təqdim edilir. Təxminən 2014-cü il tarixdən etibarən məhsulların istehlakçılara təqdim edilməsi və məhsulun bazarda satışı tam şəkildə dayandırılır. Həmin məhsulların üzərində olan yararlıq tarixinə görə məhsullardan istifadənin maksimum müddəti göstərilmiş və həmin müddət 3 ildən ibarət olmuşdur. Yəni malların 2012-ci ildən etibarən istehsal edildiyini nəzərə alarsaq, həmin malların son yararlılıq müddəti 2015-ci il olmuşdur. Daha sonra 2021-ci il tarixdə "B" şirkəti ərizə ilə müvafiq orqana müraciət edərək 2012-ci il tarixdə "A" şirkətinin adına qeydiyyata alınmış "MMM" əmtəə nişanınından 5 ildən uzun müddətdir ki, nişan sahibi tərəfindən istifadə edilmədiyi üçün onun qeydiyyatına xitam verilməsini tələb etmişdir. Hazırkı kazusda ilk sual ondan ibarətdir ki, nişan qeydiyyata alındığı tarixdən fasiləsiz olaraq 5 il istifadə edilmişdirmi və yaxud ərizəçi ərizə verdiyi tarixdən etibarən əvvəlki 5 il ərzində əmtəə nişanından istifadə olunmuşdurmu? İkinci sual ondan ibarətdir ki, əgər əmtəə nişanından istifadə halı müəyyən edilmişdirsə bu zaman müvafiq orqan Qanunun 26-cı maddəsinin hansı halına istinad edəcəkdir?

Birinci sualın cavabına gəldikdə qeyd etmək lazımdır ki, ərizəçinin 2021-ci il tarixdə ərizə verdiyini nəzərə alaraq həmin tarixdən etibarən 5 il müddət ərzində yəni 2016-ci il tarixdən 2021-ci il tarixədək əmtəə nişanından istifadə edildiyi müəyyən edilməlidir. Hazırkı kazusda göründüyü kimi nişan sahibi tərəfindən həmin nişanın olduğu əmtəələrin satışı tam şəkildə 2014-cü il tarixdə dayandırılmışdır. Yalnız idxal edilən məhsulların bir hissəsi anbarda saxlanılmışdır. Həmçinin qeyd

edilən kazusda nişan əmtəə qablarında başqa şəkildə istifadə edilməmiş, reklamlarda, mətbu nəşrlərdə, lövhələrdə, sərgilərdə və yarmarkaların eksponatlarında və əmtəələrin bazara çıxarılması ilə bağlı digər sənədlərdə tətbiq edilməmiş, qeyd edilən tarixdən etibarən isə idxalı və bazara çıxarılması dayandırılmışdır. Belə olan halda Qanunun 26-cı maddəsində nəzərdə tutulan hallardan yalnız "əmtəələrin anbağa yığılması" faktı mövcuddur. Bu zaman orqan tərəfindən müəyyən edilməlidir ki, qeyd edilən əmtəələrin anbarda saxlanılması həqiqətən də əmtəə nişanından istifadə məqsədinə xidmət edir və anbarda saxlanılmış olan mallardan istifadə edilməməsi (bazara çıxarılmaması və s.) nişan sahibindən asılı olmamışdır. Həmçinin kazus üzrə yuxarıda qeyd edildiyi kimi əmtəələrin son yararlıq müddəti 3 il olmuş və onlardan istifadənin son tarixi 2015-ci il olmuşdur. Belə olduğu təqdirdə nişan sahibi bu hala istinad edə bilərmi ki, ondan asılı olmayan səbəblərdən əmtəə nişanından istifadə edə bilməmiş və hal-hazırda anbarda saxlanılmış olan mallardan istifadə etməklə nişandan istifadə hüquqlarını həyata keçirəcəkdir? Təcrübədə bu halla bağlı olaraq nişan sahiblərinə bəzən əsassız üstünlük verilir, malların son istifadə və yararlıq tarixi müəyyən edilmir, əmtəə nişanın qeydiyyata alınmasına əsas məqsədin kommersiya fəaliyyətinin həyata keçirilməsi olduğu nəzərə alınmır və Qanunun 26-cı maddəsində göstərilən "əmtəənin anbara yığılması" əsasına istinad edilərək əmtəə nişanından istifadə edildiyi qənatinə gəlinir. Fikrimizcə qanununda nəzərdə tutulan "əmtəənin anbara yığılması" əsası yalnız yararlı mallara münasibətdə tətbiq edilən haldır. Lakin təcrübədə anbarda olan malların yararlılığı müddəti yoxlanılmadan və onların istehlakçıya təqdim edilə bilmə imkanı müəyyən edilmədən əmtəə nişanından istifadə edildiyi bildirilir və verilmiş olan ərizələr əsassız və qanunsuz olaraq rədd edilir.

Halbuki, "Yoxlama və digər nəzarət tədbirləri çərçivəsində yoxlayıcı orqanlar tərəfindən fiziki və hüquqi şəxslərdən malların (məhsulların) götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və ya məhv edilməsi Qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarının 2.1.1-ci bəndinə əsasən keyfiyyətsiz və təhlükəli mallar dedikdə - məqsədli istehlak təyinatına uyğun olmayan və ya texniki normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə cavab verməyən, mənşəyi məlum olmayan, üzərində saxlanma (yararlılıq) müddəti göstərilməyən və ya saxlanma (yararlılıq) müddəti bitmiş, məcburi sertifikatlaşdırılmalı olan, lakin sertifikatlaşdırılmadan istehsal edilən və ya satılan, qablaşdırılmasına və ya etiketlənməsinə dair məcburi tələblərə cavab verməyən mallar başa düşülür (5).

Həmçinin "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03 aprel 2014-cü il tarixli qərarında qeyd edilmişdir ki, saxlanma müddəti göstərilməmiş, yararlılıq müddəti ötmüş, habelə markalanması, qablaşdırılması, etiketlənməsi, əmtəə görünüşü pozulmuş, keyfiyyətini və təhlükəsizliyini təsdiq edən sənədləri olmayan və texniki normativ hüquqi aktların tələblərinə cavab verməyən malların satışı qadağandır (6).

Göründüyü kimi qanunvericilikdə yararlıq müddəti ötmüş olan mallar keyfiyyətsiz və təhlükəli mallar hesab edilir və həmin malların satışının qadağandır. Əgər nişan sahibi tərəfindən həqiqətən də mallar anbarda saxlanmış olsa belə onların yararlıq müddəti ötdüyü üçün satışı qadağan olunur və dolayısı ilə Qanun 26-cı maddəsində nəzərdə tutulan "Malların istifadə məqsədilə anbara yığılması" halı istisna olunur.

Fikrimizcə malların anbara yığılması heç bir halda əmtəə nişanından istifadə edilməsini halını təsdiq etmir. Belə ki, bir davranışın əmtəə nişanından istifadə kimi qəbul edilməsi üçün həmin davranış istehlakçıların gözündə müvafiq mal və xidmətlərlə əlaqə yaratmalı, beləliklə əmtəə nişanının fərqli funksiyalarına xidmət etməli və sahibinə iqtisadi fayda gətirməlidir. Başqa sözlə desək, əmtəə nişanının istifadəsində əsas meyar əmtəə nişanının qanunda nəzərdə tutulan funksiyasına, təyinatına uyğun istifadə edilməsidir. Əmtəə nişanının əsas funksiyası əmtəələr arasında fərqliliyi təmin etməkdir. Bu səbəbdən, Avropa Ədalət Məhkəməsinin qərarlarında əmtəə nişanının mal və ya xidmətləri bir-birindən fərqləndirmək üçün deyil, keyfiyyət göstəricisi kimi, məsələn, zəmanət markası kimi istifadəsini əmtəənin nişanının ilkin funksiyasına uyğun istifadəsi

kimi qəbul etməmişdir. Çünki zəmanət funksiyası və əmtəənin reklam funksiyası ikinci dərəcəli funksiyalardır (7).

Əmtəə və xidmətlər baxımından əmtəə nişanının "fərqləndirmə" xüsusiyyətinin həyata keçirilməsi və müəyyən bir bazarın yaradıla bilinməsi üçün, əmtəə nişanının bazarda, ticarətdə istifadə edildiyi (use in commerce) mütləq müəyyən edilməlidir (Dinwoodie, Graeme, Janis, Mark, 2011: 230). Malların anbarda saxlanılması ilə bağlı hüquq ədəbiyyatlarında qeyd edilmişdir ki, müəssisənin kağızlarında hələ istehsalına başlanmamış mallara aid əmtəə nişanın qeyd edilməsi və ya hələ bazara çıxarılmamış, anbarda olan malların üzərində əmtəə nişanın istifadəsi "istifadə" kimi qəbul edilmir (Ozarmagan, 2008: 39-40).

Fikrimizcə əmtəə nişanından istifadə edilməməsi nəticəsində ona dair hüququn qeydiyyatına xitam verilməsi ilə bağlı mübahisələrə baxılarkən yol verilən səhvlərin və qanunsuzluqların aradan qaldırılması üçün qanunun 26-cı maddəsində "əmtəənin ciddi şəkildə" istifadə edilməsi əsasları qeyd edilməli və qanunun 30-cu maddəsində əmtəə nişanından "ciddi və yaxud həqiqi şəkildə" istifadə edilməməsi nəticəsində qeydiyyatına xitam verilməsi qaydası müəyyən edilməlidir. Bundan əlavə fikrimizcə əmtəə nişanından istifadə edilməməsi nəticəsində nişana dair qeydiyyatın ləğvi məsələlərinə baxarkən, həmçinin nişanın istənilən şəkildə istifadəsi deyil, "Ciddi şəkildə istifadə edildiyi" halı müəyyən edilməlidir. Çünki Avropa Ədalət Məhkəməsinin qərarlarına və beynəlxalq təcrübəyə nəzər saldıqda görünür ki, "əmtəə nişanından istifadə edilməməsi nəticəsində ona dair qeydiyyata xitam verilməsi ilə bağlı mübahisələrə baxan zaman bütün növ "istifadə halları deyil", yalnız əmtəə nişanından "ciddi şəkildə" istifadə halı nəzərə alınır.

Avropa Ədalət Məhkəməsinin qərarlarına görə, ciddi istifadənin müəyyən edilməsində əmtəə nişanı sahibinin niyyəti və ya planları nəzərə alınmamalıdır. Qiymətləndirmə konkret və obyektiv meyarlar əsasında aparılmalıdır. Əmtəə nişanı sahibinin məqsədi öz əmtəə nişanından faktiki olaraq kommersiya həyatında istifadə etmək olsa belə, əmtəə bazara səmərəli şəkildə təqdim edilməmişsə, kifayət qədər vaxta baxmayaraq əmtəənin istehlakçının gözündə qalıcı olması təmin edilməmişdirsə və nəticədə nişan əmtəənin və ya xidmətlərin mənbəyini göstərmək funksiyasını yerinə yetirməyibsə, ciddi istifadə halı da mövcud olmayacaqdır (10).

Həmçinin qeyd etmək lazımdır ki, əmtəə nişanından istifadə, onun istifadəsinin ciddi olub-olmaması, istifadə müddəti, forması, müəssisənin ölçüsü, mal və ya xidmətlərin növü, satışın miqdarı, rəqib müəssisələrin münasibəti kimi müxtəlif obyektiv meyarlara görə aparılacaq qiymətləndirmə nəticəsində müəyyən edilir. Bu meyarlara görə istifadə yalnız görünüş xarakterli olduğu halda, nişanın ciddi şəkildə istifadə olunmadığı qəbul edilir.

Avropa Ədalət Məhkəməsi "Ansul və Ajax" işində "ciddi istifadə" üçün əsas meyarları müəyyən edir. Bu halda, məhkəmə qərara almışdır ki, nişandan istifadənin ciddi istifadə sayılması üçün bazarda mal və ya xidmətdən birbaşa və ya əlaqəli istifadə olmalıdır və istifadə konkret bazar yaratmaq və ya onun qorunmasına yönəldilməlidir. Nişandan istifadə etməklə nəzərdə tutulan odur ki, nişan qeydiyyatda olduğu xidmət və mallarda ciddi istifadəyə malik olmalıdır. Qanunda göstərilən "ciddi istifadə" nin izahı yoxdursa bu bazar yaradan və ya bazarda effektivliyini qoruyub saxlayacaq dərəcədə əmtəə nişanının mal və xidmətlərdə istifadəsi kimi qiymətləndirilə bilər. Bu kontekstdə, məsələn, nişan sahibinin simvolik istehsalları və ya nişanın həmin mal və xidmətlərdə istifadə edildiyi təəssüratı yaratmaq üçün bu simvolik məhsulların öz kitablarında və qeydlərində işlənməsi, nişanın ciddi istifadəsi sayılmır (11).

Qeyd edilməlidir ki, əmtəə nişanından ciddi istifadənin mühüm göstəricilərindən biri də müəyyən coğrafi əraziyə yayılmış müxtəlif müştərilər tərəfindən mal və ya xidmətlərə olan tələbatdır. Bu səbəbdən əmtəə sahibinin öz nişanını tanıtmaq üçün çox dar ətraf mühitlə məhdudlaşdırmamalı və həmin mal və ya xidmətlə bağlı reklamlardan, afişalardan və ya xüsusi kanallardan istifadə etməklə (publicly and outwarty use) öz nişanından zahirən ictimaiyyət üçün istifadə etməlidir (12).

## Nəticə

Əmtəə nişanının anlayışının verilməsi, nişanın müxtəlif şəxslər kateqoriyası üçün əhəmiyyətinin müəyyən edilməsi, əmtəə nişanı ilə nişan sahibinə verilən hüquqların dairəsinin aydınlaşdırılması, əmtəə nişanına dair qeydiyyata alınmış hüquqa xitam verilməsi qaydasının araşdırılması, mövcud qanunvericiliyin və təcrübənin, beynəlxalq məhkəmə təcrübəsinin və qanunvericilik aktlarının kompeleks şəkildə təhil edilməsi ilə tərəfimizdən aşağıdakı nəticələrə gəlinmişdir:

- Əmtəə nişanına dair qeydiyyata alınmış hüquqa xitam verilməsi ilə bağlı qanunvericiliyə zəruri dəyişikliklər edilməlidir:
- Qanunvericiliyə dəyişikliklər edilərkən hal-hazırda olan və gələcəkdə yarana biləcək problemlərin aradan qaldırılması üçün Avropa Ədalət Məhkəməsinin təcrübəsindən geniş şəkildə istifadə edilməlidir;
- “Əmtəə nişanı və coğrafi göstəricilər haqqında qanunun” müvafiq maddəsində “əmtəənin anbara yığılması” ilə əmtəə nişanından istifadə edilməsi halı yalnız yararlı mallar üçün keçərli olmalıdır;
- Mövcud qanunvericilikdə nəzərdə tutulan 5 il müddət ərzində əmtəə nişanından istifadə edilməməsinə görə əmtəə nişanına dair hüquqa xitam verilməsi hissəsində istənilən şəkildə istifadə deyil “ciddi şəkildə istifadə və yaxud həqiqi istifadə” halı nəzərdə tutulmalıdır.

## Ədəbiyyat


1. https://e-qanun.az/framework/3293
2. https://e-qanun.az/framework/9393
3. Tekinalp, U. (1997). The principle of registration in the new trademark law and the legal status of unregistered signs. Gift of Kenan Tunçomaga. Ankara: Beta, 480 p.
4. Cosgun, G. (2018). Use of the trademark under industrial property law. Ankara, 165 p.
5. https://e-qanun.az/framework/37231
6. https://e-qanun.az/framework/27608
7. CJEU, W. Gozze Frottierwerberei GmbH, Wolfgang Gozze v. Verein Bremer Baumvollborse, C-689/15, 08.06.2018.
8. Dinwoodie, Graeme, B., Janis, Mark, D. (2011). Trademarks and Unfair Competition, Law and policy. Third edition. New York: Wolters Kluwer, 1080 p.
9. Ozarmagan, M. (2008). Termination of Trademark Right Due to Non-Use. Istanbul: Vedat, 107 p.
10. CJEU, Martin Osete v. European Union Intellectual Property Office, T-429/16, 29.06.2017.
11. CJEU, Ansul, B., v. Ajax Brandbeveiliging BV, C-40/01, 11.03.2003.
12. CJEU, Deutsche Rockwool Mineralwoll Gmb, H Co. OHG v. OHIM, T-215/13, 15.07.2015


Göndərilib: 14.02.2023 Qəbul edilib: 03.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/71-75

**Khazar Musayev**
Azerbaijan State Economic University
master student
xazar.musali22@gmail.com

# SUSTAINABLE ECONOMIC DEVELOPMENT AND ITS CHALLENGES

## Abstract

Sustainable economic development refers to economic growth that meets the needs of the present without compromising the ability of future generations to meet their own needs. It involves balancing economic growth with social progress and environmental protection. One of the biggest challenges of sustainable economic development is the tension between economic growth and environmental sustainability. Many economic activities, such as resource extraction and manufacturing, can have negative impacts on the environment, leading to issues like pollution and climate change.

Another challenge is balancing economic growth with social progress. Economic growth can create jobs and improve living standards, but it can also exacerbate inequality and lead to social unrest if not distributed fairly. In addition, sustainable economic development requires a long-term perspective, which can be difficult to achieve in a political environment that favors short-term gains.

To address these challenges, sustainable economic development requires a combination of policies and actions at the local, national, and international levels. This includes measures such as promoting green technologies and practices, investing in education and skills training, and ensuring that economic growth is inclusive and benefits all members of society.

***Keywords:*** *sustainable economic development, economic growth, social progress, environmental protection, inequality*

**Xəzər Musayev**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
xazar.musali22@gmail.com

# Davamlı iqtisadi inkişaf və onun problemləri

## Xülasə

Davamlı iqtisadi inkişaf gələcək nəsillərin öz ehtiyaclarını ödəmək imkanlarına xələl gətirmədən indiki dövrün ehtiyaclarını ödəyən iqtisadi artıma aiddir. O, iqtisadi inkişafın sosial tərəqqi və ətraf mühitin mühafizəsi ilə balanslaşdırılmasını nəzərdə tutur. Davamlı iqtisadi inkişafın ən böyük problemlərindən biri iqtisadi artım və ekoloji davamlılıq arasındakı gərginlikdir. Resurs hasilatı və istehsal kimi bir çox iqtisadi fəaliyyətlər ətraf mühitə mənfi təsir göstərərək, çirklənmə və iqlim dəyişikliyi kimi problemlərə səbəb ola bilər.

Digər bir problem iqtisadi inkişafın sosial tərəqqi ilə balanslaşdırılmasıdır. İqtisadi artım iş yerləri yarada və həyat standartlarını yaxşılaşdıra bilər, lakin ədalətli bölüşdürülmədikdə bərabərsizliyi daha da gücləndirə və sosial iğtişaşlara səbəb ola bilər. Bundan əlavə, davamlı iqtisadi inkişaf uzunmüddətli perspektiv tələb edir və qısamüddətli qazanclara üstünlük verən siyasi mühitdə buna nail olmaq çətin ola bilər.

Bu çağırışları həll etmək üçün davamlı iqtisadi inkişaf yerli, milli və beynəlxalq səviyyələrdə siyasət və fəaliyyətlərin birləşməsini tələb edir. Buraya yaşıl texnologiyaların və təcrübələrin təşviqi, təhsil və bacarıqların hazırlanmasına sərmayə qoyuluşu və iqtisadi inkişafın inklüziv olmasını və cəmiyyətin bütün üzvlərinə fayda verməsini təmin etmək kimi tədbirlər daxildir.

***Açar sözlər:*** *davamlı iqtisadi inkişaf, iqtisadi artım, sosial tərəqqi, ətraf mühitin mühafizəsi, bərabərsizlik*

## Introduction

Sustainable economic development has become a pressing global issue as societies around the world grapple with how to promote economic growth while also protecting the environment and ensuring social progress. The concept of sustainable development emerged in the 1980s as a response to concerns about the negative environmental and social impacts of traditional economic growth.

Sustainable economic development seeks to address these concerns by balancing economic growth with environmental protection and social progress. It aims to meet the needs of the present generation without compromising the ability of future generations to meet their own needs.

However, achieving sustainable economic development is not an easy task. It faces a number of challenges that require careful consideration and strategic planning. One of the biggest challenges is finding a balance between economic growth and environmental sustainability. Many economic activities, such as resource extraction and manufacturing, can have negative impacts on the environment, leading to issues like pollution and climate change.

In addition, sustainable economic development requires a long-term perspective, which can be difficult to achieve in a political environment that favors short-term gains. The focus on immediate economic growth can lead to neglect of environmental and social concerns, with negative consequences in the long run.

Another challenge is balancing economic growth with social progress. Economic growth can create jobs and improve living standards, but it can also exacerbate inequality and lead to social unrest if not distributed fairly. Ensuring that economic growth is inclusive and benefits all members of society is an important aspect of sustainable economic development.

To address these challenges, sustainable economic development requires a combination of policies and actions at the local, national, and international levels. This includes measures such as promoting green technologies and practices, investing in education and skills training, and ensuring that economic growth is inclusive and benefits all members of society.

In conclusion, sustainable economic development is a complex and challenging issue that requires careful consideration of economic, social, and environmental factors. Achieving sustainable economic development requires a long-term perspective, a commitment to environmental protection, and a focus on inclusive growth that benefits all members of society.

**Main part:** Economic development refers to the sustained and long-term increase in economic growth and the improvement of living standards within a society. It involves increasing productivity, creating jobs, and expanding economic opportunities for individuals and businesses.

Economic development is important for several reasons. Firstly, it can help to reduce poverty and increase the overall standard of living within a society. As economic growth and productivity increase, more jobs are created and more people are able to earn a living wage, which can help to reduce inequality and improve social outcomes.

Secondly, economic development can lead to increased investment in infrastructure, such as transportation, communication, and energy networks. This can help to improve access to services and resources, which can increase economic opportunities and improve the overall quality of life for individuals and communities.

Thirdly, economic development can promote innovation and entrepreneurship, which can lead to the creation of new businesses, industries, and technologies. This can drive economic growth and lead to the creation of new jobs and industries (United Nations Development Programme, 2020).

Fourthly, economic development can contribute to national and global competitiveness. As a society becomes more productive and innovative, it can become more competitive in the global marketplace, which can increase trade and investment opportunities and boost economic growth.

Overall, economic development is important for creating a strong and sustainable economy that benefits all members of society. It can help to reduce poverty, increase access to resources and services, promote innovation and entrepreneurship, and boost national and global competitiveness.

Sustainable economic development is a concept that seeks to achieve economic growth without compromising the ability of future generations to meet their own needs. It emphasizes the importance of balancing economic growth with environmental protection and social progress. However, achieving sustainable economic development is not an easy task, as it faces a number of challenges that require careful consideration and strategic planning.

Challenges:

The statement you have provided highlights three of the biggest challenges of sustainable economic development.

The first challenge is finding a balance between economic growth and environmental sustainability. Many economic activities, such as resource extraction and manufacturing, can have negative impacts on the environment, leading to issues like pollution and climate change. This is particularly challenging for developing countries that rely heavily on resource extraction and other activities that can have negative environmental impacts.

The second challenge is balancing economic growth with social progress. Economic growth is often viewed as a crucial factor for improving living standards and creating employment opportunities. However, if not distributed fairly, it can exacerbate inequality and lead to social unrest. Inclusive economic growth is an important aspect of sustainable economic development that aims to ensure that economic opportunities and benefits are shared equitably among all members of society.

One way to achieve inclusive economic growth is through policies that promote access to education, healthcare, and other basic services. Education and healthcare are critical components of human capital development and play a vital role in creating a more skilled and productive workforce. By investing in education and healthcare, individuals are better equipped to participate in the economy and take advantage of economic opportunities, which can help reduce poverty and inequality (Sahu, 2020).

Another way to achieve inclusive economic growth is through efforts to reduce inequality and address social exclusion. This requires policies that promote social inclusion and reduce inequality, such as progressive taxation, access to basic services, and social safety nets. These policies can help to ensure that economic growth benefits all members of society, not just the wealthy.

5. Bu qaydaların tətbiq dairəsi qadın və ya interseks idmançılardır;
6. İdmançı interseks olmamasına baxmayaraq, testosteron səviyyəsinin çox olması halında, idmançı bu qaydaların təsir dairəsinə daxil edilmir.

Lakin bu qaydaların ziddiyyət yaradan məqamları da mövcuddur. Belə ki, hiperandrogen qadınların kişi idmançıların malik olduğu səviyyədə testosteron hormonuna malik olması az hallarda rast gəlinir. Həmçinin Hiperandrogenizm Qaydalarında bu hormonun miqdarı 10 nmol/L miqdarında qeyd olunsa da, "Cinsi inkişafın müxtəliflikləri" qaydalarında 5 nmol/L kimi əks olunmuşdur. Bu səviyyə isə kişi idmançılar üçün müəyyən olunan minimum miqdardan az olduğuna görə idmançıların hormon miqdarını azaltmaq üçün dərman qəbul etməsi məqsədəuyğun hesab olunmur. Professor Holt orqanizm tərəfindən təbii olaraq istehsal olunan testosteron hormonunun idmançıya rəqibləri ilə müqayisədə üstünlük yaratdığını müəyyən etmək üçün müxtəlif idman sahələrində yarışan peşəkar idmançılar ilə təcrübə aparılmalı və yüksək nəticə əldə etmiş idmançıların nailiyyətlərinin səbəbinin testosteron hormonu olduğu göstərilməlidir. Lakin bu hal da nəticə-səbəb əlaqəsi kimi nəzərdə tutula bilməz.

Nəticə etibarə ilə testosteron hormonunun təbii olaraq orqanizmdə normadan yüksək miqdarda olması süni yolla testosteron hormonunun miqdarının artırılması ilə müxtəlif məqsədlər daşıyır. 2-ci hal antidopinq qaydalarının pozulması hesab olunmaqla, idmançının yarışlardan kənarlaşdırılması üçün əsas hesab olunur. Ancaq təbii olaraq hormon miqdarının çox olması idmançının yarışlardan disklifikasiya olunması üçün əsas hesab olunmamalıdır. Çünki bu xüsusiyyətlərə malik olan idmançıların hər zaman yarışlarda əhəmiyyətli üstünlük əldə etmələri tərcrübədə rast gəlinmir.

## Ədəbiyyat

1. Michele, K. (2016). To Be a Woman in the World of Sport. Global Regulation of the Gender Binary in Elite Athletics.
2. Dr. Hans, B. (2007). The beginning of the IAAF: a study of its background and foundation, Stockholm, Sweden.
3. https://www.olimpiyatkomitesi.org.tr/Upload/Menu/624923_ioc_antlasmasi.pdf
4. https://e-qanun.az/framework/18303
5. Serhat, O. (2021). Unfair Competition or Interphobia? A Review of the Caster Semenya Decision of the Court of Arbitration for Sport. Istanbul: Journal of the Faculty of Law.
6. Silver L. (2019). Problems of Proof for the Ban on Female Athletes with Endogenously High Testosterone Levels, Chikago: Chicago Journal of International Law.
7. https://www.tas-cas.org/fileadmin/user_upload/Bulletin_2015_2_internet_.pdf
8. https://unique-sportstime.de/site/wp-content/uploads/iaaf_policy_on_gender_verification.pdf

Göndərilib: 08.02.2023 Qəbul edilib: 01.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/86-90

**Fuad Əlizadə**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
alizade.fuad.1998@gmail.com

# BEYNƏLXALQ TƏCRÜBƏDƏ KRİPTOVALYUTALARIN HÜQUQİ TƏNZİMLƏNMƏ MEXANİZMİ

**Xülasə**

Müəllif öz elmi araşdırmasında kriptovalyutaların beynəlxalq təcrübədə hüquqi tənzimlənməsini tədqiq etmişdir. O, ayrı-ayrı ölkələrdə kriptovalyutaya bəslənən münasibəti təhlil etmiş və rəqəmsal pulun müasir dünyada geniş rəğbət qazandığını faktlarla göstərməyə çalışmışdır.

Araşdırmada kriptovalyutanın – virtual (rəqəmsal) valyutanın mahiyyəti, kriptovalyuta ilə aparılan virtual əməliyyatların məzmunu açıqlanmış, "çirkli pulların yuyulması" üçün istifadə edilə bilən virtual pul vahidləri ilə aparılan əməliyyatların eyni zamanda, vergiyə cəlb edilməli, vergitutma obyekti kimi vergi nəzarətinin təsiri altına düşməli olduğu halda, virtual pul bazarında iqtisadi və normativ-hüquqi tənzimlənmə olmadığından həm "çirkli pulların yuyulması" əməllərinin cinayət-hüquqi mühafizə edilməməsi, həm də bu əməliyyatların vergi nəzarətindən kənarda qalması məsələsinə diqqət cəlb edilmişdir. Eyni zamanda ayrı-ayrı dövlətlərin kriptovalyutanın nizamlanmasındakı təcrübələri də araşdırmada öz əksini tapmışdır.

***Açar sözlər:*** *kriptovalyuta, bitkoin, "b-money", blokçeyn, bit-gold*

**Fuad Alizade**
Azerbaijan State Economic University
master student
alizade.fuad.1998@gmail.com

## Mechanism of legal regulation of cryptocurrencies in international practice

**Abstract**

In his scientific research, the author studied the legal regulation of cryptocurrencies in international practice. He analyzed the attitude towards cryptocurrency in different countries and tried to show with facts that digital money has gained wide popularity in the modern world.

In the study, the essence of cryptocurrency - virtual (digital) currency, the content of virtual transactions conducted with cryptocurrency was disclosed, while the transactions conducted with virtual currency units that can be used for "laundering dirty money" should be taxed and subject to tax control as an object of taxation. , due to the lack of economic and normative-legal regulation in the virtual money market, attention was drawn to the issue of the lack of criminal-legal protection of "money laundering" acts, as well as the fact that these transactions are not subject to tax control. At the same time, the experience of individual states in the regulation of cryptocurrency was also reflected in the study.

***Keywords:*** *cryptocurrency, bitcoin, "b-money", blockchain, bit-gold*

## Giriş

Kriptovalyuta − virtual (rəqəmsal) valyutanın bir növü olmaqla bərabər elektron ödəniş şəbəkəsidir. İnternet şəbəkəsinin qlobal xarakter daşıdığı bir dövrdə kriptovalyuta maliyyə sistemində innovativ bir yenilikdir və ödəniş vasitəsi kimi yaxın gələcəkdə ən ideal valyuta olacağı qaçılmazdır.

Kriptovalyutanın yaradıcısı amerikalı kriptoqraf Devid Çom hesab olunur. O, 1983-cü ildə e-pul olaraq adlandırılan, anonim, kriptoqrafik pul barədə düşüncəsini Digicash vasitəsilə rellaşdırdı.

Bu valyuta növü fiziki formada mövcud deyil (kağız pul kimi) və hər hansısa bir mərkəzi hakimiyyət tərəfindən dövriyyəyə buraxılmır.

Kriptovalyutalar tipik olaraq mərkəzləşmiş rəqəmsal aktivlərin və mərkəz bankçılıq sistemlərinin əksinə, desentralizasiyadan istifadə edir. Desentralizasiyalaşdırılmış nəzarət prinsipi ilə tətbiq edilən hər bir kriptovalyuta bölüşdürülmüş ledcer vasitəsi ilə işləyir. Ən çox istifadə edilən ledcer vasitələrindən biri ictimai maliyyə əməliyyatı verilənləri olan blokçeyn texnologiyasıdır.

Bitkoin ilk dəfə 2009-cu ildə açıq mənbəli proqram təminatı kimi baxıldıqda ilk desentralizasiyalaşmış kriptovalyuta oldu. Bitkoin yaradıldıqdan sonra digər kriptovalyutalar da yaradıldı.

1996-cı ildə ABŞ Milli Təhlükəsizlik Agentliyi "Pulu necə zəbt etmək olar: Anonim elektronik pulun kriptoqrafiyası" başlıqlı məqalə nəşr etdi. Kriptovalyuta sistemini təsvir edən məqalə ilk dəfə Mit poçt siyahısında, daha sonra 1997-ci ildə ABŞ Qanun Yenilənməsində nəşr edildi.

1998-ci ildə Vey Day "b-money"-in təsviri anonim kimi xarakterizə edildi və təsvirdə elektron pul sisteminin necə bölüşdürüldüyü göstərildi. Az sonra, Nik Zabo "bit gold"-u təqdim etdi. Bitkoin və bitkoindən sonra yaranan digər kriptovalyutalar kimi "bit gold" da elektron valyuta sistemi kimi xarakterizə edildi. "Bilt-gold" istifadəçilərindən kriptoqrafik olaraq bir araya gətirilmiş və nəşr edilmiş həlləri olan iş sübutu funksiyasını tamamlamağı tələb edirdi (1).

ABŞ-da kriptovalyutaların tənzimlənməsi üçün yeni qanun layihəsi hazırlanıb. 2022-ci ilin may ayında kriptovalyutaların iflasından sonra bütün dünyada kriptovalyutanın tənzimlənməsi istiqamətində atılan addımlar sürətləndirildi. ABŞ senatında Respublikaçılar və Demokratlar partiyalarının birgə təşəbbüsü ABŞ hökümətinin kriptovalyutanı tənzimləmək üçün nə etməli olduğunu ortaya qoyur.

İki senator "Responsible Financial Innovation Act (RIFA)" – "Məsuliyyətli Maliyyə İnnovasiyası" adlı qanun layihəsini imzalayıb. Kriptovalyutalar da daxil olmaqla bütün rəqəmsal aktivləri əhatə edən bu layihə "kriptonu məhdudiyyət qoyulmadan mövcud qanunlara daxil etmək məqsədi daşıyır.

Qanun layihəsinin ilk ciddi təklifi bir neçə istisna olmaqla, rəqəmsal valyutaların ənənəvi qiymətli kağızlar kimi tanınmasıdır.

RİFA-nın hədəflərindən biri də stabilkoinlərin tənzimlənməsidir. Terra USD-nin çökməsi ilə kriptovalyuta bazarının alt-üst olduğunu vurğulayan senatorlar stabilkoinlərə ehtiyacın olub-olmadığını qiymətləndirəcəklər. Rəqəmsal dollardan başqa hansı tənzimlənmənin aparılacağı isə hələlik bəlli deyil.

Qanun layihəsində diqqət çəkən daha bir məsələ rəqəmsal aktivlərin vergiyə cəlb edilməsidir. Hesabatda qeyri-mərkəzi qurumların hamısının vergiyə cəlb edilməsinin zəruri olduğu göstərilir. Bu, ABŞ-da anonim kriptovalyuta biznesinin sonunu gətirə bilər. Bundan başqa kriptovalyuta birjaları üçün iflas şərtləri də yenidən gündəmə gətirilib. Yeni qanun layihəsinin həm Respublikaçılar, həm də Demokratlar tərəfindən imzalanması onun qəbul olunması imkanını artırıb (2).

Avropa Parlamenti kriptovalyuta bazarları haqqında MiCA adlı qanunu təsdiqləyib. Bu, Avropa Birliyinə bütün üzv ölkələrdə kripto sənayesini tənzimləməyə imkan verəcək.

MiCA qanunu çirkli pulların yuyulması, terrorizmin maliyyələşdirilməsi ilə mübarizə və istifadəçiləri və investorları qorumaq üçün Avropa kriptovalyuta sənayesini tənzimləyəcək. Avropa Parlamentinin 517 üzvü bu qanun layihəsinin lehinə, 38-i əleyhinə səs verib. Bu qanun layihəsinin 2023-cü ilin may ayında Avropa İttifaqı (Aİ) Şurası tərəfindən təsdiqlənməsi gözlənilir. Bu Avropa İttifaqı ölkələri hökümətlərinin kriptovalyuta bazarına belə miqyasda nəzarət etmək qərarına gəldiyi ilk haldır. Qanunun 2023-cü ilin iyulunda qüvvəyə minməsi gözlənilir.

Avropa Parlamentinin İqtisadi və Valyuta Məsələləri Komitəsi (ECON) Bitcoin-ə təsir edən "Poof of Work (PoW)" mədənçiliyinə qadağa qoyan əlavəsini ehtiva edən bu qanun əleyhinə səs verdi. Xoşbəxtlikdən Komitə qadağanın əleyhinə səs verdi, əvəzində alternativ təklif dəstək aldı. Qadağaya düzəliş layihəsini hazırlayan Stiven Berger bildirib ki, onun təklifini qəbul edən Aİ

Parlamentinin üzvləri kriptovalyutaların gələcəkdə tənzimlənməsinə yol açdı və bu, sektor üçün böyük bir rahatlamadır.

Kriptovalyutalar son dövrlərdə yarandığından bir çox ölkələrdə kriptovalyuta əməliyyatları vergidən yayınır. Lakin inkişaf etmiş ölkələrdə müəyyən tənzimləmələr həyata keçirilməkdədir. Misal üçün, ABŞ qanunvericiliyinə əsasən, kriptovalyuta əməliyyatları vergi qanunvericiliyində öz əksini tapır. Məsələn, əgər biz 20 dollar xərcləyərək kriptovalyuta alsaq, daha sonra həmin kriptovalyutanın dəyəri 150 dollara qədər artsa və biz bu kriptovalyuta ilə hər hansı alış həyata keçirsək, yaxud həmin kriptovalyutanı satsaq, qanunvericilik bizim 130 dollar qazandığımızı müəyyənləşdirir və bizdən bunun vergisini ödəməyi tələb edir.

Kanadada da kriptovalyuta ilə əməliyyatlar vergiyə cəlb olunur. Kanada qanunvericiliyinə əsasən, hər hansı əmtəənin alışı kriptovalyuta ilə həyata keçirilirsə, bu barter əməliyyatı hesab olunur. Barter əməliyyatlarından isə vergi tutma ilə bağlı xüsusi müddəalar mövcuddur və kriptovalyuta ilə aparılan əməliyyatlarda bu müddəalar tətbiq edilir.

Avropa Birliyi ölkələrində də dövri olaraq vergi qanunvericiliyinə kritovalyutalarla əməliyyatlara dair dəyişikliklər edilib. Avropada kriptovalyutalarla əməliyyatlardan əsasən 3 növ vergi tutulur:

− Kapital əldə etməyə görə vergi;
− Gəlir əldə etməyə görə vergi;
− Valyutadəyişmə üçün əlavə dəyər vergisi.

Lakin bu bütün Avropa ölkələrinə aid deyil. Hər bir Avropa ölkəsi üçün qanunlar fərqlidir (4).

Dünyada bitkoinə olan maraq getdikcə artmaqdadır. Mərkəzi Afrika Respublikası rəsmi olaraq dünyada bitkoini qanuni ödəniş vasitəsi kimi qəbul edən ikinci ölkədir.

2021-ci il sentyabrın 7-də Salvador bitkoini qanuni ödəniş vasitəsi kimi qəbul edən ilk ölkə oldu. Bundan sonra Beynəlxalq Valyuta Fondu (BVF) dərhal bu qərarın maliyyə sabitliyi, maliyyə bütövlüyü və istehlakçıların müdafiəsi üçün təhlükələri barədə xəbərdarlıq etdi.

Dünyanın və Avropanın bir hissəsi olan Azərbaycan Respublikası da dünyada gedən ictimai, siyasi, maliyyə proseslərindən kənarda qala bilməz. Odur ki, ölkəmizdə istənilən fiziki və ya hüquqi şəxs kriptovalyuta fəaliyyətinə başlamazdan əvvəl (blokçeyn texnologiyası, bitkoin mayninqi və s.) Azərbaycan Respublikasının kriptovalyuta qaydaları və qanunlarını təhlil etməlidir. Azərbaycan Kriptovalyuta Qaydalarına gəldikdə, istənilən yerli və ya xarici şəxs kriptovalyuta fəaliyyətinə, yəni bitkoin mayninqinə və ya kriptovalyuta alınmasına sadəcə olaraq qanunla qadağan olunmadığına görə cəlb edilə bilər. Bununla belə, Azərbaycanda qanuni ödəniş vasitəsi kimi qəbul edilmir.

“Blokçeyn texnologiyası və kriptovalyuta anlayışları hüquqi sahədə yenidir və bu baxımdan bu sahəni tənzimləyən birbaşa normativ akt (qanun, Nazirlər Kabinetinin qərarı, sərəncam və ya qaydalar) yoxdur. Bununla belə, kriptovalyuta anlayışı Azərbaycan Respublikasının qanunvericiliyinə tam yad deyildir. Belə ki, qanunvericilikdə bu anlayışa yalnız bir – Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edilmiş “Marja ticarət Qaydası” kimi müəyyən edilən qaydalarda istinad olunur. Bu qaydanın 7.2.-ci maddəsində göstərilir ki, investisiya şirkətinin fərq müqaviləsi üzrə müştərilərinə (institusional və peşəkar investorlar istisna olmaqla) təqdim etdiyi maksimum kredit həddi aşağıdakı qaydada müəyyən edilir: ...7.2.4. baza aktivi kriptovalyuta (rəqəmsal valyuta) olan fərq müqavilələri üzrə 2:1” (5).

Qonşu Gürcüstan Respublikasının hökuməti də rəqəmsal biznes və kriptovalyuta ticarəti sferasını tənzimləyən maliyyə sektoru üçün yenilənmiş qanunvericilik bazasını təsdiqləyib. Milli qanunvericiliyin Avropa İttifaqının üç mühüm direktiv- Vergi Xidmətləri (PSD2), Kapital Tələbləri Direktivi (CRD) və Virtual Aktiv Xidmət Provayderi (VASP) ilə uzlaşdırılmasını təmin edir. Sonuncu direktiv rəqəmsal aktivlərin ticarəti ilə məşğul olan şəxslərə hüquqi statusun verilməsini, habelə onların öhdəlik və hüquqlarının müəyyənləşdirilməsini nəzərdə tutur. Bu, kriptovalyutaların çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi üçün istifadəsini aradan qaldıracaq.

Kriptovalyutaların bazar kapitallaşması təkcə 2017-ci ilin oktyabrında www.coinmarketcap.com saytına istinadən 164 milyard ABŞ dollarını üstələmişdir. Bu, 2016-cı ilin noyabr ayında olan kapitallaşmadan 11,6 dəfə çoxdur.

Göründüyü kimi kriptovalyutaların dəyəri artmaqdadır. Buna baxmayaraq kriptovalyutaların hüquqi tənzimlənmə məsələləri hələ də qeyri-müəyyən olaraq qalır (Həsənli, 2017: 9).

Kriptovalyutaların hüquqi mahiyyəti məsələsi hüquqi tənzimləmənin məqsədlərindən asılıdır. Məsələn, vergiqoyma məqsədləri üçün kriptovalyuta gərək əmlak, əmtəə, birja aktivi qismində qəbul edilsin. Maliyyə bazarında innovasiyaların stimullaşdırılması üçün isə gərək ödəniş vasitəsi qismində qəbul edilsin.

Kriptovalyutaların hüquqi tənzimləmə vəzifələri aşağıdakılardır:

− Kriptovalyutaların əmlak dövriyyəsi obyekti kimi hüquqi rejimin təsis (təyin) edilməsi;
− Kriptovalyutaların dövriyyəsi iştirakçılarının hüquqi statusunun müəyyən edilməsi;
− Kriptovalyuta ilə tranzaksiyaların (əqdlərin) təhlükəsizliyinin təmin edilməsi;
− Əmlak dövriyyəsi ilə bağlı iştirakçıların hüquqlarının qorunması;
− Vergiqoyma modelinin (üsulun) seçimi və əsaslandırılması.

Kriptovalyutanın hüquqi tənzimlənməsi konsepsiyasının formalaşdırılması üçün xarici təcrübələrin təhlili və ümumiləşdirilməsi, tənzimləmə modellərinin tərtib edilməsi (formalaşdırılması) və hüquqi tənzimləmə modelinin seçimi və əsaslandırılması vacibdir.

Kriptovalyuta ilə aparılan əməliyyatlar görüntü etibarı ilə münasibətdir, virtual obyekti və virtual subyekti var, lakin qeyri-müəyyəndir, anonimdir, subyektlərin hüquqi vəziyyətinin və hüquqi məsuliyyətin nədən ibarət olduğundan danışmaq isə subyektiv tərkibin anonimliyi halında sadəcə mənasızdır.

Hər hansı rəsmi qurum, dövlətlə və ya onların qanunları ilə bağlılığı olmayan virtual valyutanın transfer edilməsi, ödəmə vasitəsi olması, həmin valyutaya cəlb edilən ayrı-ayrı dövlətlərin istifadə dairəsi müəyyən deyilsə, habelə xərc və gəlir kimi qeydə alınmırsa, yəni bütün baş verənlər qanunla tənzimlənmirsə, deməli pul vəsaitlərinin hərəkətindəki şəffaflıq bir nöqtədə kəsilir və sonrakı izi itirilir. Bu isə həqiqətən də "kölgə", daha dəqiq ifadə etsək "qaranlıq" iqtisadiyyat şəraitinin yaradılması üçün əlverişli mühit formalaşdırır (Kazımov, Cəfərli, 2018: 194).

Bizim istəklərimizdən asılı olmayaraq kriptovalyuta artıq həyatımıza daxil olub. Bu gün bitkoin haqqında məlumatı olmayan insana təsadüf etmək çətindir. Təbii haldır ki, bir çoxları bunun üzərində pul qazanmağı düşünür.

Artıq 9 ildir ki, blokçeyn sürətlə inkişaf edir. Blokçeyn sisteminin əsas valyutası olan bitkoin artıq beynəlxalq virtual valyutaya çevrilib ki, ona artıq rəqəmsal qızıl da deyilir. Onlayn alqı-satqı və maliyyə fəaliyyətləri artıq qeyri-müəyyənləşdirilmişdir. Belə ki, fəaliyyət iştirakçıları bir-biri ilə horizontal səviyyədə əlaqə yaradırlar. Bunun nəticəsində kriptovalyutalar ölkə sərhədlərindən kənarlara və bütün dünyaya yayılır.

Amerikada kriptovalyutalar mülkiyyət kimi nəzərdən keçirilir və əgər investisiya qısamüddətlidirsə, kapitalın artımı üzrə vergi tətbiq edilir. Uzunmüddətli investisiya zamanı vergi dərəcəsi bu aktivlərin əldə tutulma müddətinə görə müəyyən olunur.

İsveçrədə kriptovalyutalar "xarici valyuta" kimi qəbul edilir və gəlir əldə edildiyi halda gəlir vergisi tətbiq edilir. Yaponiyada kriptovalyuta əmtəə hesab olunur. 2017-ci ilin iyul ayından etibarən istehlakçılara vergi tətbiq ediblər. İstifadəçilər üç növ – gəlir, korporativ və kapital mənfəəti üzrə vergiyə cəlb olunurlar.

İtaliya və Rusiyada isə kriptovalyutalar üzrə ticarətə vergi tətbiq edilmir. Ölkəmizdə isə həm fiziki şəxslərin, həm də şirkətlərin kriptovalyutalar üzrə gəlirləri vergiyə cəlb olunacaq ki, hazırda qanunvericilik bu sahə üzrə təkmilləşdirilir" (Məmmədov, 2018: 40).

Hər bir dövlətin iqtisadiyyatı daxili siyasət ilə məhdudlaşmayan, xarici iqtisadi əlaqələrin inkişafından, eləcə də dünya iqtisadiyyatından bilavasitə asılı olan mürəkkəb mexanizmdir. Dünya iqtisadiyyatında baş verən proseslərin, o cümlədən əmtəə-pul bazarlarındakı vəziyyətin daimi izlənilməsi və nəzarət dairəsində saxlanılması iqtisadi inkişafı şərtləndirən meyarlar sırasında olaraq dövlətin iqtisadi və maliyyə qurumlarının mühüm vəzifələrindəndir.

## Nəticə

Azərbaycan cəmiyyəti üçün yeni anlayış olan kriptovalyuta bu məqalədə geniş araşdırılmışdır. Amma dünyada bu gün virtual transfer edilən ödəmə şəbəkəsinə aid olan, "kriptovalyuta" adlandırılan virtual pul maliyyə sistemində innovativ elektron ödəniş vasitəsi kimi populyarlıq qazanmışdır. Müəllifin araşdırması bir daha göstərir ki, kriptovalyuta hər hansı dövlətin siyasətindən, qanunlarından, pul vahidindən asılı deyil və heç bir qurum tərəfindən tənzimlənmir. Onun qiyməti virtual bazarda tələb-təklif əsasında müəyyən olunur, tələb artdıqda dəyəri artır, tələb azaldıqda dəyəri azalır. Bununla kriptovalyuta bazarı formalaşır və digər ölkələrin valyutası ilə mövcud bazar məzənnəsi üzrə mübadilə edilir.

## Ədəbiyyat

1. https://az.wikipedia.org>wiki
2. https://vergiler.az>news>international
3. https://apa.az>avropa>avropa-parlamenti-kriptovaly...
4. https://vergiler.az>news>economy
5. https://www.caspianlegalcenter.az>insights>more
6. Həsənli, Y. (2017). "UNEC EKSPERT" jurnalı, dekabr. № 02, 9 s.
7. Kazımov, M., Cəfərli, G. (2018). Azərbaycan MEA-nın xəbərləri, ictimai elmlər seriyası. № 02, 194 s.
8. Məmmədov, F. (2018). "UNEC EKSPERT" jurnalı, iyun. B01(05), 40 s.

Göndərilib: 13.02.2023 Qəbul edilib: 26.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/91-94

**İlkin Əliyev**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
aliyev.ilkin.2101@atmu.edu.az

# STRATEJİ PLANIN TƏTBİQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ YOLLARI

**Xülasə**

Strateji planlaşdırma məqsədə çatmaq üçün təyin olunmuş spesifik strategiyanın hazırlanmasına doğru aparan, rəhbərlik tərəfindən əvvəlcədən qəbul edilən qərar və ideyaların məcmusudur. Strateji planlaşdırma idarəetmə qərarların qəbul edilməsində istiqamətverici alətdir. Onun vəzifəsi – təşkilatda yenilikləri və dəyişiklikləri lazımi səviyyədə təmin etməkdir. Daha doğrusu, o, strateji planlaşdırma prosesi çərçivəsində idarəetmə fəaliyyətinin 4 əsas növünü özündə əks etdirir: ehtiyatların bölüşdürülməsi, ətraf mühitə uyğunlaşma, daxili əlaqələndirmə və təşkilati - strateji qabağıgörmə.

Bazar iqtisadiyyatı şəraitində strateji planlaşdırma və idarəetmə məsələləri böyük aktuallıq kəsb edir. Müəssisənin strateji inkişaf planlarının işlənib hazırlanması menecerlərin ən mühüm vəzifələrindən biridir.

Strateji planlaşdırma şirkətin məqsəd və vəzifələrinin konkretləşdirilməsi, onların vaxt baxımından icrası, resursların bölüşdürülməsi, perspektiv meyillərin müəyyənləşdirilməsi və fəaliyyətə səmərəli nəzarətin yaradılması kimi fəaliyyətin əsasını təşkil edir. Başqa yanaşmaya görə, strateji planlaşdırma təşkilatın missiyasının həyata keçirilməsinə zəmin yaratmaq üçün nəzərdə tutulan spesifik strategiyaların işlənilməsi və reallaşdırılmasını təmin edən qərarların və fəaliyyətlərin məcmusudur.

***Açar sözlər:*** *strategiya, planlaşdırma, iqtisadiyyat, şirkət, inkişaf, menecment*

**Ilkin Aliyev**
Azerbaijan University of Tourism and Management
master student
aliyev.ilkin.2101@atmu.edu.az

## Ways of implementing and evaluating the strategic plan

**Abstract**

Strategic planning is a set of decisions and ideas taken in advance by management leading to the development of a specific strategy set to achieve a goal. Strategic planning is a guiding tool in management decision-making. His task is to ensure the necessary level of innovations and changes in the organization. Rather, it includes 4 main types of management activities within the strategic planning process: resource allocation, environmental adaptation, internal coordination, and organizational-strategic foresight.

In the market economy, strategic planning and management issues are of great importance. Development of strategic development plans of the enterprise is one of the most important tasks of managers.

Strategic planning is the basis of activities such as concretization of the company's goals and objectives, their implementation in terms of time, allocation of resources, determination of prospective trends and creation of effective control of activities. According to another approach, strategic planning is a set of decisions and activities that ensure the development and implementation of specific strategies intended to create a foundation for the realization of the organization's mission.

***Keywords:*** *strategy, to plan, economy, company, development, management*

## Giriş

Şirkətin inkişaf strategiyası onun başlıca məqsədlərinin və həmin məqsədlərə nail olunmasının əsas üsullarının məcmusunu ifadə edir. Şirkətin inkişaf strategiyasının işlənib hazırlanması onun fəaliyyətinin ümumi istiqamətlərinin müəyyənləşdirilməsi deməkdir.

Strategiya arzu olunan məqsədlərin və onların yerinə yetirilməsi üsullarının sadəcə müəyyənləşdirilməsi deyil, o müəssisənin inkişafının real imkanlarına əsaslanmalıdır. Daha doğrusu, strategiya – müəssisənin öz fəaliyyətində obyektiv xarici və daxili şəraitə adekvat reaksiyasıdır (Məmmədov, Mirzəyev, 2001: 12).

Strateji planlaşdırma uzunmüddətli dövrə hədəflənir. Strategiya əslində vaxtı deyil, oriyentasiyanın funksiyasını əks etdirir. O, müəssisənin inkişafının qlobal ideyalarının məcmusunu ifadə edir. Strateji planlaşdırma çox böyük məsuliyyətli iş olub geniş miqyaslı fəaliyyətin həyata keçirilməsi və müəssisənin gələcəyi haqqında idarəetmə qərarlarının qəbulu ilə əlaqədardır (Vəliyev, 2002: 283).

Müəssisədə bütün planlaşdırma prosesi iki əsas mərhələyə bölünür: bazarda müəssisənin fəaliyyət strategiyasının işlənib hazırlanması (strateji planlaşdırma) və işlənilmiş (seçilmiş) strategiyanın reallaşdırılması taktikasının müəyyənləşdiril-məsi (operativ, taktiki planlaşdırma) (Axundov, 2001: 32).

Taktiki planlaşdırma strateji məqsədlərə nail olmaq üçün müəssisənin malik olduğu resursların bölgüsü haqqında qərarın qəbulu mexanizmidir. Bu növ planlaşdırma qısamüddətli və ortamüddətli dövrü əks etdirir. Əgər strateji planlaşdırma perspektiv dövrdə müəssisənin nəyi istədiyini müəyyənləşdirirsə, taktiki planlaşdırma isə buna necə nail olunmasına istiqamətlənmiş tədbirləri özündə əks etdirir. Strateji planlaşdırma ilə taktiki planlaşdırma arasında başlıca fərq məqsədlər və vasitələr arasındakı fərqlərdir (Butuner, 2014: 201).

Planlaşdırma prosesi bir sıra mərhələlər üzrə həyata keçirilir:

Birinci mərhələ - firmanın strateji məqsədinin müəyyənləşdirilməsidir. Bu mərhələdə bazar infrastrukturunun vəziyyəti, real və potensial malgöndərənlərin sayı, buraxılan məhsulun iqtisadi, elmi-texniki və keyfiyyət göstəriciləri, rəqib firmaların fəaliyyəti haqqında lazımi məlumatları özündə əks etdirən vahid informasiya bankının yaradılması problemi həll edilir.

İkinci mərhələ - firmanın maliyyə, material və əmək resurslarının mövcud vəziyyəti və perspektiv inkişafı üzrə məqsədlərin və real imkanların müəyyənləşdirilməsidir. Strateji planlaşdırmanın bu mərhələsində müəssisənin mövcud idarəetmə strukturunun, əmək kollektivində daxili mikroiqlimin, investorlarla qarşılıqlı əlaqələrin qurulması vəziyyətinin obyektiv qiymətləndirilməsi olduqca vacib məsələdir.

Üçüncü mərhələ - firmanın kommersiya sahəsində uğur qazanması üçün xarici mühit amillərinin biznesə təsir dərəcəsinin qiymətləndirilməsidir. Bu mərhələdə siyasi, iqtisadi, sosial və texnoloji amilləri nəzərə almaqla təchizat bazarının konyukturunun dəqiq proqnozlaşdırılması ilə bağlı məsələlər həll edilir.

Dördüncü mərhələdə firmanın strateji məqsədi və ona nail olmağın konkret yolları, inkişafının prioritet istiqamətləri, həm daxili və həm də xarici bazarlarda reallaşdırılması üsulları axırıncı dəfə müəyyənləşdirilir.

Beşinci (sonuncu) mərhələdə strateji planın reallaşdırılması və yerinə yetirilməsinə nəzarətin təşkili mexanizmlərindən düzgün istifadə olunması nəzərdə tutulur. Bu mərhələdə firmanın imicinin formalaşması, şöhrətlənməsi və cəmiyyətdə nüfuz qazanması ilə bağlı məsələlər də həll edilir. Bundan başqa firmanın bazarda mövqeyinin zəiflənməsi, vəziyyətinin pisləşməsi barədə qərar qəbul edilə, yəni müflisləşmə və iflas haqqında məsələyə baxıla bilər (Kuzik, Kushlin, Yakovech, 2010: 438).

Planlaşdırma prosesinin mürəkkəbliyi və çoxcəhətliliyi bütün planlar sisteminin kompleks xarakter daşımasını səciyyələndirir. Strateji plan gələcəkdə müəssisənin yerini müəyyənləşdirən ümumi məqsədini, missiyasını, seçilmiş fəaliyyət strategiyasını özündə əks etdirir. Strateji planın tərkib hissəsi müəssisənin siyasəti təşkil edir. Müəssisə tərəfindən reallaşdırılması nəzərdə tutulan qlobal proqramlar strateji plana daxil edilir (Biznesin əsasları, 2005: 386).

Strateji planlaşdırmanın, digər plan növlərindən başqa bir fərqi, ətraflı və ədədi planlar hazırlamağa yox, yeni ideya və baxışları axtarmağa yönələn bir planlaşdırma olmasıdır. Strateji planlaşdırmanın digər planlaşdırma növlərindən ayıran əsas fərqlərdən biri strateji planlarının daha uzun müddətli planlar olmasıdır. Ancaq hər uzun müddətli planlaşdırma, strateji planlaşdırmadır demək də düzgün deyil.

Qısa müddətli planlar strateji planlar kimi qəbul edilmədiyi halda hər uzun müddətli plan da strateji plan olma xüsusiyyəti yoxdur (Kuzik, Kushlin, Yakovech, 2010: 164).

Plan və planlaşdırma prosesi mütəmadi olaraq dəyişdir və araşdırsın.İdarəetmə strategiyasının müəyyən edilməsi, strateji idarəetmənin yerinə yetirməsi lazım olan zəruri vəzifələrdən biridir. Bunun yerinə yetirilməsi isə strateji planlaşdırmaqla yaxından bağlıdır. Strateji planlaşdırma, təşkilati dəyişmə sürəti ilə ictimai dəyişmə sürəti arasında bir tarazlıq yaradılması, müəssisənin ictimai dəyişmə sürəti ilə ayaqlaşmasından başqa, ona istiqamət verməsi, bütün bunların imkanının olmaması halında isə ən azından ictimai dəyişiklik sürətinin arxasında qalmamasının təmin olunması məqsədinə yönəlmişdir (Lamben, 2007: 15).

Xülasə, strateji planlaşdırma, fəal və səmərəli idarəetmə üçün sistematik bir yanaşmadır və strateji bir proses nəticəsində yaranır. Müəssisənin mövcud vəziyyəti, missiyası, pay sahibi gözləntiləri, ekoloji amillər əsasında, strateji məqsəd və vəzifələrlə perspektivə çatmaq üçün bir sıra prosesin həyata keçirilməsini lazım bilir (Marketinqdə 10 ölümcül qüsur, 2015: 128).

Şirkətlərdə strateji planlaşdırmanın prespektiv istiqamətlərindən biri şirkətlərin qarşılaşdığı strateji problemlərinin dəqiqləşdirilməsi və həmin problemlərin həlli hesab olunur. Eyni zamanda, strateji problemlərin dəqiqləşdirilməsi və o problemlərin mahiyyətinin dərk edilməsi yaxşı bir strategiyanın işlənib hazırlanmasl üçün olduqca vacib əhəmiyyət kəsb edir (Əlirzayev, 1997: 84).

Strateji planlaşdırma, istifadə etdiyi üsullar, baxış və məntiqi etibarilə ümumi planlaşdırmadan ayrılır. Yerli idarələrdə strateji planlaşdırma modeli ortaya qoymaq üçün hadisəyə bütün olaraq yanaşmaqda fayda var.

Əvvəlcə planlaşdırmayın əsası olan strategiyalara bütöv baxmaq lazımdır. Digər sözlə, strategiya bütün aspektləri müzakirə olunmalıdır. Strateji bütövlük, planlaşdırma gedişini və proseslərini bütün görməyi tələb edir. Strateji planlaşdırma modeli də bütöv bir yanaşmadan xırda detallara qədər təqib edir. Strategiya yaratmaq dinamik bir faktdır. Planlaşdırma isə, məlum olan bir gələcək üzərinə hazırlanır və statik mühitdə alınması gözlənilən nəticələr ilə bağlıdır (Butuner, 2014: 197).

## Nəticə

Müəssisələrin idarəetməsi zaman, uğurlu bir strateji planlaşdırma müəssisəni gələcəyə doğru istiqamətləndirir, həmin planlaşdırmada alınan qərarlar nəticəsində uzunmüddətli inkişaf istiqamətlərini və bazarda rəqiblərə nəzərən öz mövqeyini müəyyənləşdirməyə imkan verir. Strateji idarəetmənin aldığı nəticə daha çox müəssisənin(firmanın) fəaliyyət göstərdiyi bazarda qazandığı mövqeyində, rəqiblərlə rəqabətdə uduzmamaında və iqtisadi cəhətdən maliyyə göstəricilərinin daha uzunmüddətli olmasında özünü göstərir.

Çünki hər hansısa bir firmanın strateji idarəedilməsi firmanın məqsədlərini müəyyən etməklə yanaşı, planlaşdırmanı yerinə yetirən şəxsləri isə gələcəyə yönəlmiş ən kiçik təhlükəni belə əvvəlcədən görməyə məcbur edir. təımin edilməsinin əsasıdır. Strateji idarəetmə təşkilatın vəzifəsi, onun plan və proqnozlarının, məqsədlərinin, strategiyalarının təsərrüfatçılıq metodlarının və funksiyalarının yerinə yetirilməsi ilə bağlıdır.

Strateji planlaşdırmanın tətbiqi hissəsi mümkün olduğu qədər müəssisə rəhbərləri ilə birlikdə aparılmaldır. Ancaq müəssisə rəhbərlərinin strateji planlaşdırma və idarəetmə barəsində kifayət qədər məlumata sahib olmamaları, informasiya çatışmazlıqlarının anlaşılma xofu və müəssisə haqqında məlumat verməkdən qaçması tətbiq etməyi bir az çətinləşdirmişdir. Müəyyən edilən strateji plan rəhbər tərəfindən ona bağlı beş məntəqə məsuliyyətlərinə bildirilmişdir. Həmçinin mühasibat səbəbkarı tərəfindən orqanların vəzifə məsuliyyətləri yazılı olaraq müəyyən edərək çalışanlar bu barədə məlumatlandırılmışdır. Müəssisədə personal ya insan resursları vahidi olmadığı

üçün mühasibat səbəbkarı prosesi insan mənbələri səbəbkarı kimi rəhbərlik etmişdir. Çalışanların planı tətbiqi prosesi boyu motivasiyaları yüksək edilməyə çalışılacaqdır. Prosesin maliyyələşdirmə qismi əməliyyat sahibi tərəfindən dəqiqləşdiriləcəkdir. Çalışanların işə könüldən bağlı olmaları və iş şəraitinin ailə mühiti kimi olması strateji planlaşdırma prosesinin asan getməsindəki ən mühüm amillərdən olacaqdır.

## Ədəbiyyat


1. Məmmədov, X., Mirzəyev, S. (2001). Marketinqin əsasları. Bakı, QAPP-POLİQRAF.
2. Vəliyev, T., Qafarov, Ş. (2002). İqtisadi Nəzəriyyə. Dərslik. Bakı, 516 s.
3. Axundov, M. (2001). Strateji idarəetmə. Bakı, “Ağrıdağ”.
4. Butuner, H. (2014). “Sistemli strateji planlama”. İstanbul, 233 s.
5. Kuzik, B., Kushlin, V., Yakovech, V. (2010). Proqnozlaşdırma, strateji planlaşdırma, milli proqramlaşdırma. Dərslik. Bakı: “İqtisad Unversiteti” nəşriyyatı, 541 s.
6. Biznesin əsasları. (2005). Dərslik. Prof. A.B.Abbasovun ümumi redaktəsi ilə. Bakı: “Nurlan”, 656 s.
7. Lamben, J. (2007). Market-oriented management: strategic and operational marketing. Baku.
8. Marketinqdə 10 ölümcül qüsur. (2015). Philip Kotler. Tərcümə H.Həbiboğlu. Bakı: “Qanun Nəşriyyatı”, 160 s.
9. Əlirzayev, Ə. (1997). İqtisadi və sosial idarəetmə: bazar iqtisadiyyatı, metodoloji prinsiplər, qanunauyğunluqlar. Bakı: Diplomat, 208 s.


Göndərilib: 17.01.2023 Qəbul edilib: 26.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/95-99

**Jala Shahveranli**
The Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
master student
jaleshahveren@gmail.com

# THE IMPORTANCE OF NATIONAL AND REGIONAL DEVELOPMENT POLICES IN THE ENVIRONMENTAL SUSTAINABILITY

## Abstract

One of the most important factors ensuring the sustainable and dynamic development of the Republic of Azerbaijan is the achievement of a balanced and proportional social and economic development of the regions. In international practice, the level of economic and social development of the country's regions is considered one of the most important indicators that determine the systematic, sustainable and balanced development of each country. Ensuring sustainable economic and social development of regions depends significantly on the regional economic policy, which acts as a component of the national economic policy implemented by the state.

***Keywords:*** *environmental sustainability, national and regional development, the role of development policies*

**Jalə Şahverənli**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
jaleshahveren@gmaail.com

## Ekoloji davamlılıqda milli və regional inkişaf siyasətlərinin rolu

## Xülasə

Azərbaycan Respublikasının davamlı və dinamik inkişafını təmin edən ən əsas faktorlardan biri regionların balanslı və proporsional sosial iqtisadi inkişafına nail olunmasıdır. Beynəlxalq təcrübədə də, hər bir ölkənin sistematik, davamlı və balanslı şəkildə inkişaf etməsini müəyyən edən ən vacib göstəricilərdən biri ölkə regionların iqtisadi və sosial inkişaf səviyyəsi hesab edilir. Regionların davamlı iqtisadi və sosial inkişafının təmin olunması bilavasitə dövlətin yerinə yetirdiyi milli iqtisadi siyasətin tərkib hissəsi kimi çıxış edən regional iqtisadi siyasətdən əhəmiyyətli dərəcədə asılıdır. Məqalədə ekoloji davamlılıqda milli və regional inkişaf siyasətlərinin rolu araşdırılaraq təhlil edilir.

***Açar sözlər:*** *ekoloji davamlılıq, milli və regional inkişaf, inkişaf siyasətlərinin rolu*

## Introduction

Sustainable, competitive and diversified development of the country's regions is one of the priority areas of the state's regional policy. The long-term economic policy founded by the great leader Heydar Aliyev created suitable conditions for macroeconomic stability and sustainable economic development in the country and in individual regions. As a result, a broad class of entrepreneurs was created, the role of the private sector in the economic and social development of the regions increased somewhat, and significant achievements were made in the field of integration of the country into the international economic system. The development of appropriate free market relations and a socially oriented, diversified national economy with the ability to create added value has been ensured. As a result of the economic policy measures, the macroeconomic situation has improved, the non-oil sector and in general, the complex development of the regions has been

strengthened, the mechanism of optimal use of strategic currency reserves has been provided, the state support for entrepreneurial activity has been intensified, an efficient investment environment has been created, and the social condition of the population has dynamically improved (Nuriyev, 2011: 280).

In order to reconcile with the new challenges created by the processes taking place in the international world and to minimize the impact of the global oil crisis on the country, the implementation of certain measures of a systematic nature in accordance with the main strategic goals of the economic programs, the short-term economic and social development of the country and individual regions, Developing a qualitatively new model of economic growth by forming the connection and mutual adaptation between the medium and long-term periods is one of the main priorities ahead.

The purpose of the article is to develop the theoretical basis for the study of the socio-economic development of the region and to give practical recommendations for the implementation of the identified priorities in order to form the sustainable socio-economic development of the region.

To achieve this goal, the following tasks have been defined:

- to determine the socio-economic development priorities of the region and implement them;
- to analyze the current situation of the agrarian sector as one of the priorities of socio-economic development of the region;
- analysis of measures to be implemented to reduce differences between regions;
- to give directions for the implementation of the cluster policy in the socio-economic development of the region

The development of more ecologically favorable areas of activity in the Karabakh region has been set as strategic goals. For this purpose, "green economy" parameters for the region the transfer of high technologies that enable application is required (Huseynova, 2011: 290). Clusters have mechanisms that reflect the interests of investments and technology companies. If we approach this logic, there are opportunities to use clusters productively in accelerating the economic revival of the region in the post-conflict situation due to the creation of such activity zones and institutions. Forms of clustering can meet the interests of activity participants in effectively benefiting from Karabakh's mineral resources, tourism-recreational potential, and natural and fascinating beauty. Thus, taking into account these strong potentials and factors, measures for the organization and acceleration of the activities of clusters in our country should be prepared, and a justified action strategy should be implemented:

✓ in order to ensure the efficiency of the use of clusters in the country's economic system and economic development processes, world experience should be actively applied, international cooperation in this field should be expanded, and the processes of applying cluster models in accordance with the national economic development characteristics of our country should be accelerated;

✓ In order to provide a comprehensive approach for the exploitation and processing of natural resources, it is proposed to create industrial clusters based on different groupings, taking into account the profiles of the mining industry and, in particular, the resources in the post-occupation areas, specific industrially important deposits (the main factors: investors in this cluster, industrial enterprises, state structures, private structures, universities, scientific-research institutions; resources are exploited, enterprises that create added value are created, stimulates the development of the area);

✓ A "construction boom" is expected in the Karabakh region and, in general, there is a constant need for construction materials, from the point of view of these factors, it is appropriate to create construction clusters, taking into account the wealth of construction materials reserves and industrial importance in those areas, grouping them in several construction materials directions, etc.

In order to reduce the negative impact of the post-oil economic crisis on the country's economy and the economy of individual regions, to assess the current state of the economy in order to ensure the sustainability of the economic and regional policy and reforms carried out in our country, and to

develop an economic development strategy suitable for the post-oil era, the President of the Republic of Azerbaijan, December 6, 2016- "The main directions of the strategic roadmap for the national economy and the main sectors of the economy" with the decree dated approved (Gasimov, Israfilov, Hajizadeh, Agayev, 2006).

Adopted Strategic Road Maps will create conditions for further improvement of the competitiveness, inclusiveness and social condition of the economic conjuncture against the background of sustainable economic development in our country. If investments are not attracted in response to international economic challenges, as a result of free competition environment, access to international and regional markets and development of human capital, our country will strengthen its position in the international economic environment and become one of the high-income countries.

In the regions of the Republic of Azerbaijan and in the country as a whole, it is important to ensure economic growth in which regions and which sectors in the future. As a result of the limitation of the potential of the "capital accumulation" model in the post-neft period to create additional value in the active form, there are two ways in front of the republic regarding the long-term economic growth approach:

- labor intensive growth approach
- productivity-efficiency-based growth approach (Mehdiyev, 2015: 280)

From the point of view of integration into the international value chain, the quality and sustainability of economic growth, the transformation to the productivity-efficiency-based economic growth approach can be evaluated as a strategic choice during the optimal time. However, the use of the adaptation of both models in the short and medium term could enable the transition period to the strategic selection approach to be implemented in a shorter period of time. In particular, it should be noted that the labor resources in the regions of the country are significantly cheaper than in the city of Baku, and as a result, it creates great opportunities for the development of labor-intensive clusters in the regions of the country. At the same time, the strategic choice is the formation of a productivity-based growth approach. To achieve this, a high-quality legal environment, efficient financing resources, proper sectorization and specialization of business, and most importantly, intensive training of highly professional labor resources are required (Ayyubov, Taghiyev, 2014).

It should be noted that it is necessary to develop the small and medium business activities in non-oil production spheres. Thus, the placement of small and medium-sized business entities in the regions, which basically provide the population with food products, will give a special impetus to the development of these regions and will accelerate sustainable economic development. Small and medium business activity is one of the issues that stand in the center of the state's attention, and the adoption of the "Strategic Roadmap for the production of consumer goods at the level of small and medium business in the Republic of Azerbaijan" proves this once again. In order to achieve the strategic goals defined in the Strategic Road Map regarding the development of small and medium entrepreneurship in the country and to ensure the maximum use of the existing economic potential, the following are defined as strategic goals:

❖ to increase the impact of small and medium entrepreneurship on the country's gross domestic product in the long term in Azerbaijan further improvement of the investment environment and legal framework;

❖ globalization of small and medium-sized business activities and increasing access to foreign markets with the aim of increasing the republic's strategic foreign exchange reserves and ensuring compliance of goods and services produced in the republic with international standards;

❖ providing efficient and optimal access to financing sources for the purpose of forming a stable mechanism of small and medium business entities;

❖ increasing the offer of quality products and services in the regional markets, paying special attention to the training of professional labor resources and the development of the skills of small and medium-sized business entities;

❖ promoting innovations in order to increase the competitiveness of small and medium-sized business entities, accelerating research and development activities related to this sector (Nuriyev, 2007).

The main direction of activity is to develop the regulatory and legal framework in relation to small and medium-sized enterprises in our country, strengthening the incentive effect of financial and tax policy, increasing accessibility to financial sources, strengthening the technical and information mechanism, and effective placement of small and medium-sized enterprises on the territory, protecting the national market, improvement of market infrastructures, implementation of the "one-stop" mechanism for obtaining important documents, strengthening of mutual economic relations between the subjects represented in this sector, etc. would be directed in such directions.

Thus, the main means of ensuring the self-development of regions and stimulating their economic activities is the implementation of appropriate tax and budget policy. It is more appropriate to improve the budget system by differentiating the income and expenses of different levels of budgets in the direction of protecting the profit balance of the state, regions and taxpayers, and providing their financial bases for them with legislation (Ahmadov, 2011). At the local level, the budget policy should be carried out in the direction of strengthening the financial independence of the regions, giving real spending powers to local authorities balanced with financial sources. Improving the investment environment in the regions requires the following (Mahmudov, Mahmudova, 2011: 270):

• formation of the regional investment-carrying infrastructure (as well as the infrastructure of the land and real estate market;

• strengthening the presentation of regional investment projects to domestic and foreign markets;

• investment compensation, tax benefits, preferential loans, etc. stimulating the attraction of private investors to the regions through;

• expansion of the priorities of application of investment tax advantages, state grants and guarantees to investors participating in the implementation of regional programs and investment in the assets of the main activities. Special attention should be paid to improving support for entrepreneurship by local government and self-government bodies in all regions. It is necessary to make wider use of the opportunities presented in the field of improving property relations. They bear special responsibility for the work of enterprises and organizations subject to communal ownership. These responsibilities include (Allahverdiyev, Gafarov, Ahmadov, 2006):

• preparation of programs for economic and social development, housing construction, greening, road construction, communal services and social and cultural services to the population, environmental protection, as well as monitoring and approval of reports on the implementation of these programs;

• in accordance with legislation, determination of profit tax rates for enterprises, organizations and other communal property objects at the disposal of primary-level administrative territorial units, as well as the application of local taxes, fees and charges within their powers;

• determination of the legal regime of the property in the communal ownership of the relevant administrative territorial unit (except for the districts in the city);

• adoption of decisions regarding the issues of privatization of state property in the established manner (except for the districts in the city);

• use and control of land, mineral resources, water, forests, hunting and fishing areas and other natural resources;

## Conclusion

At the same time, we can refer to the problem regions of our liberated regions that need to be reconstructed. Regardless of where they live, the following measures should be taken to further improve the quality of life and quality of life of the population in all regions: to ensure the development of social infrastructure and housing and communal services, housing construction, and

the efficient operation of the real sector of the economy; to create conditions for expanding the possibilities of realizing the needs and skills of each person in their places of residence, as well as the territorial and professional flexibility of the population. The main priority issues for the development of social areas in the regions should be the following: optimization of territorial distribution and development of the network of social service institutions, strengthening of the material and technical base; establishment of territorial social service centers of multi-functional character, social service centers in agro-cities; expanding the experience of visiting remote settlements by complex mobile field teams, including specialists of various services.

## Reference

1. Nuriyev, A. (2011). Basics of regional policy and management. Baku, 280 p.
2. Huseynova, K. (2011). Management of regional development in Azerbaijan problems" dissertation submitted for the degree of Doctor of Economic Sciences. Ganja, 290 p.
3. Gasimov, A., Israfilov, H., Hajizadeh, E., Agayev, E. (2006). Problems of social and economic development of regions. Baku, 290 p.
4. Mehdiyev, X. (2015) A retrospective review of the socio-economic development of Azerbaijan: a comparative analysis, 280 p.
5. Ayyubov, V., Taghiyev, A. (2014). Regulation of the national economy.
6. Nuriyev, A. (2007). Fundamentals of regional management, 350 p.
7. Ahmadov, M., Huseyn, F. (2011). Fundamentals of state regulation of the economy. 290 p.
8. Mahmudov, M., Mahmudova, I. (2011). Socio-economic of the regions regulation of development, 270 p.
9. Allahverdiyev, H., Gafarov, K., Ahmadov, A. (2006) "State regulation of the national economy". Baku, 290 p.

Received: 09.01.2023 Accepted: 22.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/100-104

**İsa Əlili**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
elili.isa.1999@gmail.com

# AZƏRBAYCANDA İŞSİZLİYİN AZALDILMASINDA DÖVLƏT SİYASƏTİNİN ROLU

## Xülasə

Bu məqalədə Azərbaycanın regionlarında işsizlik problemi və onun iqtisadi inkişafa mənfi təsirləri araşdırılmışdır. Tədqiqat işində regionlarda məşğulluğun müasir vəziyyətinin tədqiqi və işsizlik probleminin təhlil edilməsi tədqiqat işinin əsas məqsədlərindən hesab edilir. Tədqiqatın nəticəsində regionlarda məşğulluğun təmin edilməsi və bu sahədə dövlət siyasətinin və dövlət proqramlarının iqtisadi əhəmiyyəti izah edilmişdir. Bu sahədə dövlətin gördüyü işlər və gələcək inkişaf perspektivləri diqqətə çatdırılmışdır. Regionlarda məşğulluğun təmin edilməsi tədqiqat işinin arşdırılması zamanı qarşıya qoyulan hədəflərdəndir.

İşsizlik probleminin səmərəli qiymətləndirilməsinin aparılması vacibdir. Regionlar üzrə əmək bazarında bazar iqtisadiyyatı şəraitində məşğulluğun təmin edilməsində qarşıya çıxan problemlər tədqiq edilmişdir. Tədqiqat nəticəsində əldə olunmuş məlumatlar regionlarda işsizliyin azaldılmasında gələcək perspektiv üçün geniş imkanlar verəcəkdir.

***Açar sözlər:*** *işsizlik səviyyəsi, dövlət proqramları, məşğulluq problemi, əmək bazarı, kadr potensialı, layihələr, strategiya*

**Isa Alili**
The Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
master student
elili.isa.1999@gmail.com

## The role of public policy in reducing unemployment in Azerbaijan

## Abstract

This article examines the problem of unemployment in the regions of Azerbaijan and its negative effects on economic development. The main objectives of the study are to study the current state of employment in the regions and to analyze the problem of unemployment. As a result of the study, the employment of the regions and the economic importance of state policy and state programs in this area were explained. The work done by the state in this area and the prospects for future development were highlighted. Ensuring employment in the regions is one of the goals of the research. It is important to conduct an effective assessment of the unemployment problem. The problems encountered in providing employment in a market economy in the labor market by regions were studied. The data obtained from the study will provide ample opportunities for future prospects in reducing unemployment in the regions.

***Keywords:*** *unemployment rate, government programs, employment problem, labor market, human resources, projects, strategy*

## Giriş

İşsizlik sosial-iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, demək olar ki, hər bir ölkənin qarşılaşdığı ən mühüm problemi təşkil etməkdə davam edir. İşsizlik, İEOÖ-lərdə öz əhəmiyyətini saxladığı kimi, inkişaf etmiş sənaye ölkələrini də təhdid edərək sosial siyasətin əsas probleminə

çevrilmişdir. Son illərdə baş verən iqtisadi böhranlar və onların sosial təsirləri işsizliyin artmasına səbəb olmuşdur. Xüsusilə son üç-dörd ildir dünyanı bürüyən koronavirusun təsirindən əhalinin məşğulluğunun təmin edilməsində problemlər ortaya çıxmışdır.

"İşsizlik" termini ilk dəfə 19-cu əsrin sonlarında ingilisdilli ölkələrdə istifadə edilmişdir. Digər tərəfdən, Alfred Marshallın 1890-cı ildə "İqtisadiyyatın əsasları" adlı əsərinin ilk nəşrində işsizlik anlayışı əvəzinə "məşğulluğun qeyri-sabitliyi" anlayışından istifadə edilmişdir. Bazar münasibətləri dövründə işsizlik əsas etibarilə iş qüvvəsinin məşğulluqda iştirak edə bilməməsi səbəbindən əmək qabiliyyətinin reallaşdırılmaması kimi başa düşülür. İşsizlik, ümumiyyətlə, insan resurslarının qismən fəaliyyətsizliyini və onun inkişaf tempinin ləngimə meylini ifadə edir. Başqa bir tərifdə işsizlik, işləməyə hazır olanlarla hələ də işləyənlər arasındakı fərq kimi ifadə edilə bilər. İşsiz sayılmaq üçün "Beynəlxalq Əmək Təşkilatı"nın fikrincə aktiv olaraq iş axtarmaq lazımdır (Tecer, 2014: 4).

Azərbaycan Respublikasının qanunvericiliyinə görə "işsiz vətəndaş-işi və gəliri olmayan, işə başlamağa hazır olub, müvafiq icra hakimiyyəti orqanında işaxtaran kimi qeydiyyata alınan, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli şəxs" hesab edilir (Əmək və məşğulluq sahəsində dövlət siyasəti təhlil sənədi, 2014: 15).

İşsizlik təkcə iqtisadi problem deyil, həm də sosial və şəxsi təsirlərə malik, çoxşaxəli fenomendir. İşsizlik, işləyə bilən və fəal şəkildə iş axtaran, lakin iş tapa bilməyən şəxslərə aid bir termindir. Bu qrupa işçi qüvvəsində işləyən, lakin müvafiq işi olmayan şəxslər daxildir. Dünyada və Azərbaycanda baş verən bir çox iqtisadi, siyasi böhranlar işsizlik səviyyəsinin artmasına təsir edir.

Son illərdə ölkədə işsizlik probleminin aradan qaldırılması istiqamətində bir çox işlər görülür. Dövlətin bu sahədə apardığı siyasət regionların sosial-iqtisadi inkişafına müsbət təsir göstərir. Bazar münasibətləri dövründə işsizliyin meydana gəlməsi ilə əlaqədar Azərbaycanın regionlarında məşğulluq problemi ən aktual məsələlərdən birinə çevrilmişdir. Regionlarda əhalinin məşğulluq probleminin həlli işsizliyin azaldılması istiqamətində görülən tədbirlər dövlət siyasətinin əsasını təşkil edir (3).

Neft sektoru ilə yanaşı eyni zamanda qeyri-neft sektorunun inkişafı nəticəsində yeni iş yerləri açılır, regionlarda məşğulluq imkanları artmaqda davam edir. Dünyanın müxtəlif ölkələri ilə bərabər inkişaf etmiş ölkələrdə də işsizlik problemi kəskinləşməkdədir. Amma buna baxmayaraq, Azərbaycanda 2014-cü ildə işsizlik səviyyəsi sürətlə azalaraq 4,9 faizə enmişdir. Açılmış çoxsaylı iş yerlərinin 80 faizinin regionları əhatə etməsi də respublikanın bölgələri üzrə əmək bazarları arasında qeyri-bərabər vəziyyətin yaranmasına gətirib çıxarmış və məşğulluq üzrə təmərküzləşmə meyllərinin aradan qaldırılmasına imkan vermişdir (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2014-cü ildə görülmüş işlər barədə hesabat, 1).

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2022-ci ilin martında ölkədə fəal əhalinin sayı 5 milyon 307,1 min nəfər olub, onlardan 4 milyon 991,7 min nəfərini məşğul əhali təşkil edib. Mart ayında Azərbaycanda işsizlik səviyyəsi 5,94% təşkil edib. Fevralda isə bu rəqəm 5,95% idi (5).

Respublikada uğurlu şəkildə həyata keçirilən dövlət proqramlarının və layihələrin idarəedilməsi istiqamətində aparılan iqtisadi siyasət ölkənin iqtisadi gücünü daha da artırmaqla bərabər regionların sosial-iqtisadi tərəqqisinə güclü təsir göstərir.

Regionlarda məşğulluğun səmərəli təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər və yürüdülən dövlət siyasəti işsizliyin azaldılması istiqamətində mühüm rol oynayır. Azərbaycan Respublikasının Prezidenti tərəfindən bu məqsədlə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq strategiyası (2006-2015-ci illər)"-na əsasən qəbul edilmiş sosial-iqtisadi proqramlarda nəzərdə tutulan layihələrə əsaslanan işlə təmin olunma çərçivəsində bir çox tədbirlər həyata keçirilib. Ölkədə "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi"-nin məşğulluq orqanları tərəfindən həyata keçirilən tədbirlərin də miqyası da kifayət qədər genişdir və məşğulluğun təmin edilməsində böyük önəm daşıyır (Mahmudova, Mahmudov, 2011).

Hələ 1995-ci il 12 noyabr tarixində referendumla qəbul edilmiş ilk Konsitutsiyada əhalinin məşğulluğunun təmin edilməsi ilə bağlı hüquqi əsaslar mövcud olmuşdur. Həmin konsitutsiyanın müxtəlif müddəalarında ölkə vətəndaşlarının müstəqil və azad bir şəkildə öz məşğulluq sahəsini

seçə bilməsi qeyd edilmişdir. Həmçinin hüquqların ətraflı şəkildə əks etdirilmiş, məşğulluq və əməklə bağlı müxtəlif beynəlxalq təşkilatların normativ sənədləri əsasında 2001-ci il iyun ayında qəbul edilmiş "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanunu" və başqa bu kimi normativ hüquqi sənəd və qanunlar vətəndaşların məşğulluq təminatı sahəsində ilkin hüquqi bazası rolunu oynamışdır.

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli 1068 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın 2006-2010-cu illəri əhatə edən birinci mərhələsinin icrası olaraq işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azaldılmasına, işsizlərin, sosial həssas əhali təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə nail olunmuş, əmək bazarının təkmilləşdirilməsi, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşması, rəqabət gücünün artırılması, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması sahəsində müvafiq tədbirlər həyata keçirilmişdir (Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı: 2).

Regionlarda davamlı inkişafın təmin edilməsinin hüquqi bazasının ilkin addımları 2003-cü ildə Respublika Prezidenti tərəfindən atılmağa başlandı. Ölkə regionlarının inkişafı haqqında məsələlərə dövlət səviyyəsində 2004-cü ildən baxıldı.

Azərbaycan Respublikasının ali qanunvericiliyi olan Konstitusiyasındakı 35-ci maddəyə əsasən "Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir". Eyni maddənin digər bir müddəasına görə isə "İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır". Bununla yanaşı "Məşğulluq Haqqında" Azərbaycan Respublikası Qanununun 2001-ci ilin iyun ayında qəbul olunması, eyni zamanda 2006-2015-ci illərə dair "Azərbaycan Respublikasının məşğulluq strategiyası", 2007-2010-cu illər ərzində "Azərbaycan Respublikasının məşğulluq siyasətinin həyata keçirilməsi üzrə Dövlət Proqramı" və Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011- 2015-ci illər üçün Dövlət Proqramı" qəbul olunması dövlətin sosial-iqtisadi sahədə yerinə yetirdiyi işsizlik probleminin həll edilməsi üçün mühüm şərait yaradır. Bu dövlət proqramlarının qəbul olunmasında əsas və ilkin hədəf ölkədə işsizliyin azaldılması, hətta aradan qaldırılmasıdır (8).

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində əmək ehtiyatlarından səmərəli istifadə, əhalinin məşğulluq və sahibkarlıq imkanlarının genişləndirilməsi, layiqli əməyin dəstəklənməsi, işçi qüvvəsinin rəqabətqabiliyyətliliyinin artırılması və əmək məhsuldarlığının yüksəldilməsi hesabına iqtisadi inkişafı təmin etmək əsas məqsəd kimi qarşıya qoyulmuşdur (9).

Əmək ehtiyatlarından daha səmərəli istifadə yolu ilə əhalinin məşğulluğunu təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli 1068 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)" təsdiq edilmişdir (Azərbaycan Respublikasının Məşğulluq Strategiyası, 2019-2030: 1).

Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial- iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Bu dövlət proqramı əhalinin əmək bazarında fəallıq dərəcəsini artırmaqla bərabər ölkədə işsizliyin səviyyəsinin azaldılmasında müsbət amil kimi nəzərə çarpır (11).

Dövlətin sosialyönümlü iqtisadiyyat quruculuğu və insanların layiqli iş yerləri ilə təmin edilməsi istiqamətində apardığı siyasət öz müsbət tövhəsini vermiş, ölkənin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2004-2018-ci illər ərzində 1,5

milyonu daimi olmaqla, 2 milyondan artıq yeni iş yeri yaradılmışdır ki, bu iş yerlərinin də 75 faizi regionların payına düşmüşdür (12).

**Açılmış iş yerləri (2004-2018-ci illər)**
**Mənbə:** "*Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə Sosial-iqtisadi İnkişafı Dövlət Proqramı"* (12).




## Nəticə

Azərbaycan respublikasının dövlət siyasətinin düzgün istiqamətlənməsi sayəsində regionlarda işsizliyin azaldılması yönündə mühüm addımlar atılır Qəbul edilmiş dövlət proqramlarının və layihələrin əsas məqsədlərindən biri də regionlarda sosial-iqtisadi inkişaf meyllərini eyni səviyyəyə gətirmək və onların davamlı inkişafına nail olmaq idi. Regionlarda işsizliyin azaldılması məqsədilə dövlət proqramlarında ölkə iqtisadiyyatının neft sektorundan asılılığını azaltmaq buna paralel olaraq isə ölkənin mövcud iqtisadi potensialından səmərəli istifadəyə nail olunması üçün qeyri-neft sektorunun inkişafına şərait yaratmaq əsas hədəflərdən biridir. Buna görə də regionlardakı işsizliyin azaldılması istiqamətində yerinə yetiriləcək bir sıra tədbirlər nəzərdə tutulmuşdur. Onlara aşağıdakıları aid etmək olar

- sahibkarlığa dəstək üçün yaradılmış milli fondun hayat keçirdiyi fəaliyyətlərin genişləndirilməsi və sahibkarlığa dəstək verilməsi;
- regionların iqtisadi və sosial inkişafına istiqamətlənmiş tədbirlərin və regionlarda sosial infrastruktur sahələrinin maliyyə təminatının artırılması;
- işsiz yeni məzun olmuş gənclərə kömək məqsədilə ödənişli dövlət təcrübə proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi;

Məşğulluq və işsizliyin analizi göstərir ki, Azərbaycanın ayrı-ayrı regionları arasında kəskin iqtisadi fərqlər mövcuddur. Demoqrafik amillərdən yaranan iş qüvvəsi təklifi regionlar arasında o qədər də kəskin fərqlər yaratmır. Amma buna baxmayaraq burada ən kəskin fərqlər regional məhsul və investisiya həcmlərindədir. Bu fərqlərin mövcudluğu regionlarda işsizlik, məşğulluq və əhalinin gəlirlərində böyük fərqlər yaradır.

## Ədəbiyyat

1. Tecer, M. (2014). "İşsizlik, işsizliklə mübarizədə passiv məşğulluq siyasəti: Almaniya və Türkiyə nümunələri". Ankara, 226 s.
2. Əmək və məşğulluq sahəsində dövlət siyasəti təhlil sənədi. (2014). Bakı: "QHT Nəşriyyatı" mətbəəsi, 64 s.
3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2014-cü ildə görülmüş işlər barədə hesabat.
4. https://www.stat.gov.az/source/labour/Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

5. Mahmudova, İ., Mahmudov, M. (2011). Regionların sosoial-iqtisadi inkisafının tənzimlənməsi. Bakı.
6. "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı".
7. https://nk.gov.az/az/ "Azərbaycan Respublikasının Nazirlər Kabineti"nin rəsmi vebsayt.
8. Azərbaycan Respublikasının Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi". Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
9. Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2019-2030-cu illər).
10. https://e-qanun.az/framework/39846 Azərbaycan Respublikasının Qanunu (e-qanun)
11. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023).
12. Azərbaycan Respublikasının 2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə proqramı.

Göndərilib: 06.01.2023 Qəbul edilib: 30.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/105-110

**Elvin Şirinov**
Sussex Universiteti
magistrant
elvin.shirinov008@gmail.com

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ MÜASİR SİYASİ PROSESLƏRDƏ ROLU

**Xülasə**

Məqalədə Birləşmiş MİllƏtlər Təşkilatının (BMT) yarandığı gündən bəri fəaliyyəti araşdırılaraq obyektiv analiz edilmişdir. Müəllif öz araşdırmasında obyektiv şəkildə dünyada baş verən siyasi hadisələrdə BMT-nin oynadığı rolu yetərli hesab etməmişdir. BMT yaradılarkən ona böyük ümidlər bəsləndiyini qeyd edən müəllif, araşdırması ilə sübut edir ki, dünyada mövcud olan ikili standartlar bu təşkilatda da özünü göstərməkdə davam edir. Və müəllif fikrini Suriya, Rusiya-Ukrayna və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin fonunda əsaslandırır. Həmçinin bu qərara gəlir ki, artıq BMT dünyanın müxtəlif regionlarında meydana gələn münaqişələrin siyasi həllini tapa bilmir. Suriyada neçə illərdir ki, qan tökülür. Bu müddətdə BMT-nin təsirli addım atdığını görən olmayıb.

***Açar sözlər:*** *BMT, Təhlükəsizlik Şurası, Dördlər qrupu, Qlobal təhlükəsizlik, Sülhməramlı əməliyyatlar*

**Elvin Shirinov**
University of Sussex
master student
elvin.shirinov008@gmail.com

## The role of the United Nations organization in modern political processes

**Abstract**

The article examines and objectively analyzes the activities of the United Nations (UN) since its inception. In his research, the author objectively did not consider the role played by the UN in the world's political events to be sufficient. Noting that great hopes were placed on the UN when it was created, the author proves with his research that the double standards that exist in the world continue to manifest themselves in this organization as well. And the author bases his opinion on the background of Syria, Russia-Ukraine and Armenia-Azerbaijan, Nagorno-Karabakh conflict. It is also decided that the UN is no longer able to find a political solution to the conflicts occurring in different regions of the world. There has been bloodshed in Syria for many years. During this period, no one saw the UN taking an effective step.

***Keywords:*** *UN, Security Council, Group of Four, Global security, Peacekeeping operations*

## Giriş

"Birləşmiş Millətlər Təşkilatı (BMT) yaradılarkən onun dünyanın bütün siyasi, geosiyasi və təhlükəsizlik məsələlərini həll edə biləcəyinə inam çox idi. Çünki bu qurum dövlətlərarası münasibətlərin kollektiv formada tənzimlənməsinin yeni formatı kimi qəbul olunurdu. Bir müddət BMT səmərəli işləyə bildi. Lakin ötən əsrin 90-cı illərindən başlayaraq onun fəaliyyətində ciddi qüsurlar özünü göstərməyə başladı. Amma böyük dövlətlərin iradəsinə tabe olmaq ən ciddi nöqsan kimi qiymətləndirilə bilər. Xüsusilə ABŞ-ın təşkilatda əsas söz sahibi kimi öz iradəsinə uyğun qərarların qəbuluna nail olması getdikcə qurumu nüfuzdan saldı. Hazırda BMT-nin yeniləşməyə ehtiyacı olduğundan bəhs edirlər" (1).

Bunun fonunda müasir şərtlər daxilində BMT-nin rolunun nədən ibarət olduğu belə, tam aydın deyil. Müxtəlif fikirlər mövcuddur. Bu paradoksal vəziyyətin prizmasından BMT kimi beynəlxalq təşkilatın indiki durumu üzərində düşünməyə ehtiyac yaranıb. Çünki bəlkə də, dünyanın dəyişməsi BMT-nin struktur və funksional baxımdan yeniləşməsindən asılıdır.

BMT-nin 70 illik yubileyi təşkilatla bağlı fərqli fikirlərin mövcudluğu şəraitində keçirildi. Adətən universal adlandırılan bu mühüm beynəlxalq qurumun gələcək taleyi haqqında müxtəlif proqnozlar vardır. Bir qisim ekspertlər BMT-nin struktur-funksional özəlliklərinin dəyişməsinin əleyhinədir. Onlar əsas olaraq böyük dövlətlərin ədalətli mövqe tutmasını, dünya miqyasında geosiyasi nizamın normal hala gəlməsini yetərli sayırlar. Lakin böyük əksəriyyət artıq BMT-nin səmərəli fəaliyyət göstərə bilmədiyi qənaətindədir. Bu da təsadüfi deyil, çünki bu cür mövqe bir neçə ildir ki, qlobal miqyasda cərəyan edən hadisələrə BMT-nin kifayət qədər təsir göstərə bilməməsindən qaynaqlanır. Bunu təsdiq edən çoxlu sayda faktlar vardır.

BMT-nin yaranmasından 78 il ötsə də, mövcud problemlər hələ də aradan qaldırılmayıb. Hələ də bu mötəbər təşkilatın gələcəyi ilə bağlı ziddiyyətli fikirlər səslənməkdədir. O cümlədən BMT Təhlükəsizlik Şurasının (TŞ) tərkibinin genişlənməsini tələb edən ölkələr fəaliyyətlərini aktivləşdiriblər.

Söhbət, ilk növbədə Braziliya, Hindistan, Almaniya və Yaponiyadan gedir. Bu ölkələr şərti olaraq "dördlər qrupu"nu yaradıblar. Onlar BMT TŞ-yə daimi üzv olmaq uğrunda mübarizə aparırlar. Lakin müşahidələr onu göstərir ki, BMT-nin bu ali orqanının beş daimi üzvü "mətbəxə əlavə subyektləri" buraxmaq fikrində deyil.

BMT-nin real vəziyyətini xarakterizə edən başqa məqam dünyada insan hüquqlarının acınacaqlı olması ilə bağlıdır. İnsan hüquqlarına hörməti təmin etmək müasir dünyanın əsas qlobal problemlərinin önündə gəlməkdədir. Demokratik dünya qaydasının əsas məsələsi də insan hüquqlarına ümuməhatəli hörməti təmin etmək təşkil edir. "Fiziki şəxslərin beynəlxalq hüquqi prosedurlara buraxılması və ya ayrı-ayrı şəxslərin beynəlxalq hüquq normalarının pozulmasına görə beynəlxalq hüquqi prosedurlarda məsuliyyətə gətirilməsi Nürnberq Beynəlxalq Hərbi Tribunalı ilə mümkün olmuşdur. 1945-ci ildə Tribunalın Nizamnaməsi qəbul edildikdən sonra sülh əleyhinə cinayətlər, hərbi cinayətlər və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslər cəzalandırılmış olurlar" (Rəhimli, 2020: 27). Ancaq bununla belə yenə müasir dünyada insan hüquqları yenə pozulmaqda davam edir. Burada BMT kimi mötəbər bir təşkilatın da müəyyən qədər günahı vardır.

Bu gün BMT-nin gücləndirilməsi tərəfdarları daha çoxdur. Onlar bu təşkilatın "çoxqütüblü dünyanın mərkəzi orqanı" ola biləcəyinə inanırlar. Mütəxəssislərin əksəriyyətinin müdafiə etdiyi mövqe isə BMT-nin müasir dünyanın qlobal problemlərini həll edə biləcək əsas təşkilat olması ilə bağlıdır. Beləliklə, bu vacib beynəlxalq təşkilatın rolu barədə yekdil fikir olmasa da, onun saxlanılmasını lazım hesab edənlər əksəriyyət təşkil edirlər. O cümlədən Azərbaycan rəhbərliyi bu mötəbər təşkilatın rolunun gücləndirilməsini zəruri hesab edir.

Azərbaycan təşkilatda islahatların aparılmasının zəruriliyini daim bildirib. 2003-cü ilin sentyabrında Prezident İlham Əliyev BMT Baş Məclisinin 58-ci sessiyasında "BMT TŞ-nin şəraitə uyğun, çevik və adekvat münasibət göstərə bilməsinin vacibliyini qeyd edərək, mövcud BMT mexanizmlərinin zamanın tələblərinə cavab vermədiyini vurğulayıb və bununla bağlı təşkilat daxilində islahatların mühüm məsələyə çevrildiyini bildirib". O cümlədən Azərbaycan tərəfi Təhlükəsizlik Şurasının daimi üzvlərinin veto hüququna yenidən baxılmasını təklif edib.

Azərbaycan Prezidenti 2004-cü ilin sentyabrında BMT Baş Məclisinin 59-cu sessiyasında təşkilatda islahatların aparılması məsələsini yenidən gündəmə gətirərək bildirmişdi: "Təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniştərkibli, daha şəffaf olmalı, XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ cavab verilməlidir".

Azərbaycanın BMT-dəki bu fəallığı tamamilə təbiidir. Çünki rəsmi Bakı müstəqil siyasət yeridir və suverenliyin təmin olunması onun üçün çox vacibdir. Bunun fonunda Ermənistanın təşkilatda passiv qalması da başadüşüləndir. İrəvan Azərbaycan torpaqlarını işğal etdiyinə görə BMT kimi təşkilatların konkret addımlar atmasını və dünyada real təsirini qoruyub saxlamasını arzu etməz. Bu səbəbdən də Ermənistan BMT TŞ-nin genişlənməsinə qarşıdır. Onu ABŞ, Rusiya,

Fransa, Böyük Britaniya və Çinin tutduğu mövqe qane edir. Bu böyük ölkələr nəinki Ermənistana qarşı addımlar atır, əksinə hətta hər biri müxtəlif sahələr üzrə ona yardım da edirlər. O cümlədən BMT Nizamnaməsinə zidd olaraq Ermənistana silah satırlar. Təcavüzkar bir ölkənin silahlandırılması dolayısı ilə onu müdafiə etmək və etdiyi əməllərə haqq qazandırmaq anlamına gəlir.

"BMT hazırda nə dərəcədə səmərəli ola bilər? Bizə görə, vəziyyətin müsbətə doğru dəyişmə ehtimalı azdır. Bunun əsas səbəbi ondan ibarətdir ki, başda Amerika olmaqla, böyük dövlətlər dünyanı yenidən nüfuz dairəsinə sona qədər bölə bilməyiblər. Onlar heç bir beynəlxalq təşkilatın tövsiyəsinə fikir vermədən nüfuz uğrunda amansızcasına savaşırlar. Ulkrayna və Suriya hadisələri bunun son təsdiqidir" (3).

Dünyada siyasi, hərbi vəziyyət getdikcə dərinləşir. Bunu görmək üçün dünya iqtisadiyyatına nəzər salmaq kifayətdir. Rusiya-Ukrayna müharibəsi fonunda dünyada baş verən iqtisadi krizis, inflyasiya məchul bir dalana dirənmişdir. Rusiya-Ukrayna müharibəsi başladığı gündən Rusiyaya tətbiq edilən embarqolar Avropa İttifaqının özünə də təsir etməkdədir. Müharibənin başlamasının ardından dünyanın böyük və nüfuzlu şirkətləri bir-bir Rusiya bazarından çəkilməyə başladı. Hətta Çin Xalq Respublikasının sədri Si Cinpinlə Rusiya Prezidenti Vladimir Putin arasında hüdudsuz tərəfdaşlıq müqaviləsi imzalansa da, çinli şirkətlərdən bəziləri də Rusiya bazarından çəkilib. Artıq imzalanan sənədlər sadəcə kağız üzərində qalıb.

Baş verən hadisələr hələ Rusiyanın Gürcüstana hücumu zamanından başlayıb. BMT başda olmaqla dünya dövlətləri paytaxt Tiflisin bombalanmasına və Gürcüstanda separatçı qüvvələrin özlərinə dövlət qurmağına biganə yanaşmışdı. Bunun ardınca Rusiya Ukrayna ərazisinə göz dikdi. 2014-cü ildə Krımın ilhaqı və onun fonunda Donbas və Luqanskda separatçı qüvvələr tərəfindən rus meyilli oyuncaq "dövlət"lərin qurulması BMT-ni o qədər də narahat etmədi.

2022-ci ilin fevral ayında Rusiyanın Ukrayna ərazisinə girməsindən sonra isə vəziyyət nisbətən dəyişdi və BMT Təhlükəsizlik Şurasının üzvü olan ABŞ, Böyük Britaniya və Fransa BMT-nin ölməkdə olan nüfuzunu bərpa etmək üçün əməli fəaliyyətə keçdilər.

Rusiyanın "Ali İqtisadiyyat Məktəbi" Milli Tədqiqat Universitetinin hazırladığı elmi monoqrafiyada müəlliflər yazırlar: "XX-XXI əsrin qovşağında BMT qlobal çağırışlarla toqquşaraq, onlara cavab axtarmalı və geosiyasi, siyasi və iqtisadi kontekstdə prinsipial yeni fəaliyyət göstərməlidir". Burada BMT-nin yeniləşməsinin bir neçə səbəbi göstərilib. Onlar, əsasən, müasir dövrün geosiyasi, iqtisadi və siyasi özəllikləri ilə bağlıdır. Lakin bununla yanaşı, qlobal miqyasda təhdidlər meydana gəlib ki, onlara mütləq təsirli cavablar tapmaq lazım gəlir. Dolayısı ilə bu, indiki mərhələdə böyük dövlətlərin fəaliyyətlərində yol verdikləri prinsipial qüsurların mövcudluğuna işarədir. BMT-nin də əsas vəzifələrindən biri bəşəriyyətin bu cür təhdidlərdən xilas edilməsi olmalıdır.

BMT-nin dünyada baş verən siyasi proseslərə təsir edə bilməməsi insan itkisinə səbəb olur. Buna əyani misal kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini göstərmək olar. Bu münaqişənin həll edilməsi üçün BMT dörd qətnamə qəbul etdi. Həmin qətnamələrdə işğalçının zəbt etdiyi ərazilərdən dərhal çıxması tələb olunurdu. Amma işğalçı Ermənistan bu qətnamələri saymadı və işğal etdiyi Azərbaycan ərazilərindən 30 il çıxmadı. Nəhayət 2020-ci il, 27 sentyabrda başlanan əks hücum əməliyyatları ilə Azərbaycan öz ərazilərini işğalçı erməni qüvvələrindən təmizlədi.

BMT müasir dünyanın geosiyasi, siyasi, iqtisadi, mədəni və hərbi həyatında ciddi yer tutur. Beynəlxalq təhlükəsizlik konsepsiyaları yeniləşdikcə, BMT də müvafiq təşkilati struktur və funksional dəyişikliklər aparmalı olub. Lakin müasir mərhələdə meydana çıxan çoxsaylı amillər üzündən BMT öz funksiyalarını yerinə yetirməkdə ciddi çətinliklərlə üzləşir.

"Hazırda BMT qlobal məsələlərə aid 30 kompleks xarakterli mövzu müəyyənləşdirib. Onlardan 8-i prioritet istiqamət seçilib. Bunlara davamlı iqtisadi inkişafa yardım, beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, Afrikanın inkişafı, silahsızlaşdırma, beynəlxalq terrora qarşı mübarizə və s. daxildir. BMT insan haqlarının qorunması, narkotik maddələrin qanunsuz dövriyyəsi, beynəlxalq cinayətkarlıqla mübarizə məsələlərinə də xüsusi diqqət yetirir" (4).

Təhlükəsizlik Şurası məsələsinin aktuallaşması və islahatların mərkəzi elementi kimi götürülməsi müasir dünyada gedən proseslərin məntiqi və real mənzərəsi ilə bağlıdır. Məsələ burasındadır ki, XXI əsrin əvvəllərindən dünya miqyasında bir sıra mürəkkəb və ziddiyyətli hadisələr baş verir. Lakin onların həllində BMT acizlik göstərir. Bir növ ölkələr arasında ayrıseçkilik yaradılır.

XXI əsrin başlanğıcında Minilliyin Bəyannaməsinin qəbul edilməsindən sonra BMT-də islahatların aparılması daha kəskinliklə gündəmə gəldi. Təşkilatın 59-cu və 60-cı sessiyalarında bu məsələ geniş müzakirə edildi. 2004-cü ildə keçirilmiş 59-cu sessiyada 120 nümayəndə rəhbəri BMT-də islahatların aparılması tələbi ilə çıxış etdi.

2005-ci ildə keçirilmiş 60-cı sessiyada isə BMT-nin o zamankı Baş katibi Kofi Annanın TŞ üzvlərinin sayını 24-ə çatdırmaq haqqında verdiyi təklif geniş və gərgin müakirə edildi. Belə ki, K.Annan Braziliya, Almaniya, Hindistan və Yaponiyanın Təhlükəsizlik Şurasına daimi üzv seçilməsi məsələsini qaldırmışdı.

Ayrıca vurğulayaq ki, BMT-də, xüsusilə də Təhlükəsizlik Şurasında, islahatların aparılması zərurəti barədə bir çox siyasətçilər, dövlət rəhbərləri və ekspertlər də məsələ qaldırıblar. Bu mənada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın məşhur “Dünya 5-lərdən böyükdür” fikrini xatırlatmaq vacibdir.

Çox vacib beynəlxalq təşkilat olduğuna şübhə edilməyən BMT-nin qlobal siyasətdəki rolunun səmərəliliyinin yüksəldilməsi zərurəti ilə bağlı xeyli tədqiqatlar aparılır, kitablar və məqalələr dərc olunur, hətta bəzən bir-birinə zidd olan ideyalar da irəli sürülür.

Dünya üzrə müxtəlif növ münaqişələrin XX əsrin sonu-XXI əsrin əvvəllərində sürətlə artması beynəlxalq təşkilatların, o cümlədən BMT-nin situasiyaya müdaxilə etməsi zərurətini bir daha ortaya qoydu. Bəşəriyyətin təhlükəsizliyinə təhdid yaradan bütün hallara qarşı konkret addımların atılmasını hər kəs qəbul etdi. Lakin əsas məsələ fərqli səbəblərdən qaynaqlanan bu kimi olaylara hansı hüquqi mexanizmlər və strateji-taktiki özəlliklərlə müdaxilə etməkdən ibarət idi. Bu sırada ilk olaraq BMT-nin rolu önəm daşıyırdı. Çünki bu beynəlxalq təşkilat dünyanın taleyinə görə daha böyük məsuliyyət daşıyır.

“Hələ 1987-ci ildə “Sərhədsiz həkimlər” hərəkatının banisi, Fransanın keçmiş xarici işlər naziri Bernar Kuşner yazdığı “Le Devoir D‘ingerence” adlı kitabda vurğulayırdı ki, demokratik dövlətlər insan haqlarının müdafiəsi naminə başqa ölkələrin daxili işlərinə qarışmaldır. Təcrübə göstərdi ki, niyyəti yaxşı olan bu tezisdən müxtəlif dairələr öz maraqları naminə istifadə edərək, başqa ölkələrin daxili işlərinə demokratiya adı altında müdaxilə edir və qanuni seçilmiş iqtidarları, hətta konkret rəhbərləri belə devirmək üçün istifadə edirlər. Burada həm beynəlxalq hüququn pozulması, həm də geosiyasi ziddiyyətlərin yeni səviyyəyə yüksəlməsi kimi əlaməti özünü göstərir. Məhz bu məqam BMT kimi təşkilatın məsuliyyətini daha da artırır” (5).

Beynəlxalq aləmdə yaranmış bu cür mürəkkəb vəziyyətdən çıxış yollarının axtarılması normal haldır. Bu kontekstdə “BMT-nin yeni şərtlər çərçivəsində vəzifəsi nələrdən ibarət olmalıdır?” sualının aktuallaşması da təbiidir. 1994-cü ildə baş vermiş Ruanda hadisələri bu sualı daha da kəskin şəkildə beynəlxalq aləm qarşısında qaldırmışdı. O zaman həmin ölkədə 1 milyon civarında insan etniklərarası münaqişə səbəbindən həyatını itirmişdi. Ancaq o proseslərə beynəlxalq təşkilatlar lazımi müdaxiləni edə bilməmişdi.

“Soyuq müharibənin qurtarması bəşəriyyəti iki fövqəldövlətin qlobal müharibəsindən xilas etsə də, yeni tipli təhlükələr ortaya çıxdı: millətçilik, ekstremizm, etnik, dini, regionlararası münaqişələr, yeni əsrin bəlası olan beynəlxalq terrorizm, narkomaniya, qeyri-qanuni silah satışı, narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, cinayətkarlıq- bütün bunlar beynəlxalq sülhü təhlükədə qoyur.

90-cı illərdə meydana çıxan yeni qlobal problemlər BMT-nin əməliyyatlarının xarakterini dəyişdi. İki fövqəldövlətin qarşıdurmasından azad olan Təhlükəsizlik Şurası sülh və təhlükəsizliyi təmin etmək üçün BMT-nin daha iri və mürəkkəb missiyalarını təşkil etdi. Hazırda BMT nəinki münaqişələrin qarşısını almaq üçün sülhməramlı əməliyyatlarhəyata keçirir, həm də münaqişə regionuna humanitar yardım edir və BMT-nin sülhməramlı əməliyyatları əksər halda regional təşkilatlarla əməkdaşlıqda həyata keçirilir

Təhlükəsizlik Şurasının sülh və təhlükəsizliyi müdafiədə rolunun effektivliyini artırmaq barədə Təhlükəsizlik Şurası 2000-ci ildə 13 noyabr tarixli 1327 saylı qətnamə qəbul etdi. Qətnamədə həmçinin qeyd edilirdi ki, Təhlükəsizlik Şurası qətnamə qəbul etdikdən sonra 30 gün ərzində sülh və təhlükəsizlik əməliyyatlarını, 90 gün ərzində kompleks əməliyyatları həyata keçirməlidir.

"Təhlükəsizlik Şurasının aktiv fəaliyyət formalarından biri onun xüsusi missiyasının "qaynar nöqtəyə" göndərilməsidir. Belə missiya nəinki münaqişə tərəflərinə siyasi təsir edir, həmçinin missiya vəziyyəti əks etdirən xəritə tərtib edir və bu da Təhlükəsizlik Şurasının qərar qəbul etməsində vacib rol oynayır. Təhlükəsizlik Şurasının belə missiyası 1999-cu ildə Şərqi Timorda olmuşdu" (6).

BMT-də islahatların aparılması o zaman səmərəli ola bilər ki, bütövlükdə geosiyasi mühit sağlamlaşmış olsun. Bunun baş verməsi üçün isə ikili standartları ədalətli yanaşma əvəz etməlidir. Böyük dövlətlərin buna hazır olduğuna inanmaq çətindir. Əksinə, Suriya hadisələri göstərir ki, onlar yeni səviyyədə ikili standartlar siyasətini davam etdirməkdədirlər. Görünür, məhz həmin kursdan imtina etmədiklərinə görə nə BMT-də ümumi səviyyədə islahatlar aparılır, nə də vacib icraçı orqan olan Təhlükəsizlik Şurasında dəyişiklik edilir.

Bunların mənfi nəticəsi isə göz qabağındadır. Birincisi, qlobal təhlükəsizlik sistemini formalaşdırmaq mümkün olmur. Müxtəlif yerlərdə də baş qaldıran ixtilaflar bir-birini əvəz edir. İkincisi, ABŞ, Rusiya, Aİ və Çinin geosiyasi nüfuz uğrunda savaşı yeni məzmun çalarları alır. Yaxın Şərq, Şərqi Avropa, Qafqaz,

Mərkəzi Asiya, Asiya - Sakit Okean hövzəsi kimi regionlarda münaqişə ocaqları sönmür. Əvəzində nüfuz dairələrinin yeni geosiyasi bölgüsü uğrunda mübarizənin daha sərt elementlərinə rast gəlinir. "Dəqiq ifadə etsək, dünyanın istənilən güşəsində təhlükəsizlik planı Vaşinqtonun diqtəsi ilə hazırlana bilər. Belə yanaşmanın obyektiv və ədalətli sayılması mümkün deyildir. O, bəri başdan ayrı-seçkilik yaradır. Əsas çətinlik isə supergüclərin öz maraqlarından bəşəriyyətin xeyrinə imtina etmək istəməməsi ilə bağlıdır. Bu barədə çox az-az danışırlar, lakin bütün ziddiyyətli məqamların kökündə həmin faktlar dayanır" (7).

Qeyd olunan strateji maraqların və beynəlxalq təhlükəsizliyin təmin olunmasında əsas rol məsələsinə gəldikdə, burada əsas rol heç də BMT-yə aid edilmir. Qarşılıqlı təhlükəsizlik konsepsiyasının tərəfdarları, xüsusən onun "Kant qolu" beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasında BMT-nin fəaliyyətinin səmərəli olmadığını qeyd edir və təhlükəsizliyin dəyişən mühitində beynəlxalq hüquqi norma və prinsiplərin deyil, humanitar dəyər və ideallar əsasında fəaliyyət zərurəti dayandığını iddia edirlər. Bu modelin tərəfdarları təhlükəsizliyə nail olunmasının əsas vasitəsi qismində NATO-nun xüsusi rolunu qiymətləndirirlər.

"Sözün həqiqi mənasında BMT çərçivəsindən kənar sülhün və beynəlxalq təhlükəsizliyin qorunub saxlanmasında NATO-ya birtərəfli qaydada xüsusi səlahiyyətlərin verilməsi, hesab edirik ki, heç də mövcud problemin pozitiv həlli kimi qəbul edilə bilməz. Səbəb isə bu gün dünyanın bir sıra münaqişə ocaqlarında sülh və beynəlxalq təhlükəsizliyin təmin edilməsi, qorunması adı altında NATO qüvvələri tərəfindən çoxsaylı müharibə cinayətlərinin, insanlıq əleyhinə cinayətlərin törədilməsi faktları buna misal ola bilər" (8).

## Nəticə

Beləliklə, BMT-nin həm yeniləşməsi, həm də öz rolunu tam yerinə yetirməsi yolunda ciddi əngəllərdən biri supergüclərin dünya nüfuzu uğrunda savaşı davam etdirmələridir. Bunun fonunda onlar dünyanı yenidən nüfuz dairəsinə bölmək və liderlik uğrunda çarpışırlar. Təbii ki, onlara bu işdə BMT yalnız maneədir.

Belə təxmin etmək olar ki, yaxın perspektivdə bu vəziyyət dəyişməyəcək və BMT-nin yeniləşməsi arxa plana atılacaq. Yalnız münasibətlər tam aydınlaşandan sonra hansısa dəyişikliyə ümid etmək olar. Onun da konkret məzmunu barədə fikir söyləmək çətindir. Çünki məsələ hansı ölkənin liderliyi ələ alacağına bağlı olacaq.

## Ədəbiyyat

1. https://pia.az>BMT-nin_yeni_rolu_mwasir_150025...
2. Rəhimli, S.M. (2020). Şəxsi hüquqlar və insan hüquqları komitəsi. Bakı: "Elm təhsil", 27 s.
3. https://www.elibrary.az>>jurnal
4. https://www.anl.az>xalqqazeti>yanvar
5. https://newtimes.az>processestrends
6. https://www.academia.edu>Beynelxalq_mwnasibetlerin
7. https://www.anl.az>meqale>xalqqazeti>yanvar
8. https://lr.bsulawss.org>files>>vdume4>Issule1

Göndərilib: 27.01.2023 Qəbul edilib: 24.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/111-114

**Aqşin Ağazadə**
Bakı Biznes Universitet
magistrant
aqsinders@gmail.com

# KOMMERSİYA BANKLARININ AKTİVLƏRİNİN KEYFİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Bank sisteminin inkişafında aktivlərin həcmi və onun keyfiyyəti olduqca önəmlidir. Aktivlərdə ola biləcək hər hansı bir risk nəinki bank sektoruna, həm də ölkə iqtisadiyyatına təsir edir. Bu məqalədə aktivlərin keyfiyyətinin qiymətləndirilməsi üsullarından bəhs olunacaq. Kommersiya bankları üçün aktivlərin keyfiyyətinin və onların təhlil üsulları haqqında bəhs edilmişdir. Tədqiqat zamanı, yerli və xarici kitab və məqalələrdən istifadə edilmişdir.

***Açar sözlər:*** *bank, aktiv, keyfiyyət, kredit, gəlir, iqtisadiyyat*

**Agshin Aghazade**
Baku Business University
master student
aqsinders@gmail.com

## Assessment of asset quality of commercial banks

**Abstract**

The volume of assets and its quality are very important in the development of the banking system. Any risk in assets affects not only the banking sector, but also the country's economy. This article will discuss the methods of assessing the quality of assets. It was discussed about the quality of assets and their analysis methods for commercial banks. During the research, local and foreign books and articles were used.

***Keywords:*** *bank, asset, quality, credit, income, economy*

## Giriş

Bank işi maliyyə bazarlarının çox mühüm hissəsi olan və maliyyə əməliyyatlarının həyata keçirilməsini təmin edən iqtisadi vahiddir. Resursların bölüşdürülməsini müəyyən edən və maliyyə vasitəçiliyi vəzifəsini üzərinə götürən bank sektorunun səmərəli və səmərəli işləməsi digər sektorlardan fərqli olaraq iqtisadiyyatın inkişafında çox mühüm rola malikdir (Ertuğrul, Karakaşoğlu, 2008: 20). Banklar əmanətçilərin vəsaitlərini davamlı olaraq investisiyaların fondlarına yönəltməklə ölkələrin iqtisadi resurslarının bölüşdürülməsində mühüm rol oynayır (Ongore, Kusa, 2013: 237).

Bankların fəaliyyətinin nəticələrindən həm ölkə iqtisadiyyatının, həm də cəmiyyətin sosial vəziyyətinin inkişafı aslıdır. Şirzad Abdullayev bildirir ki, banklar iqtisadi münasibətlərin mühüm parçası olub, əmtəə-pul münasibətlərinin inkişaf dərəcəsi ilə müəyyən olunur (Abdullayev, Əsgərova, 2009: 16).

Aktivlərin keyfiyyəti bütün şirkətlər üçün mühüm əhəmiyyət kəsb etsə də, maliyyə bazarlarının mühüm komponentləri olan bankların gəlirliliyi və bank əməliyyatlarının düzgün aparılması prosesi ilə yanaşı, maliyyə sistemi və müvafiq olaraq milli iqtisadiyyat üçün mühüm əhəmiyyət kəsb edir.

Müasir dövrdə bazar münasibətləri inkişaf kontekstində bankların uğurlu fəaliyyətinin mühüm komponenti aktivlərin və cəlb edilmiş resursların səmərəli şəkildə idarə olunmasıdır (Henry, 2015: 141).

**Kommersiya bankının aktivləri anlayışı və onların strukturu**. Kommersiya bankının aktiv əməliyyatları, yəni öz borc və cəlb edilmiş bank resurslarını bazarda yerləşdirmək üzrə əməliyyatlar onun fəaliyyətinin mühüm və müəyyənedici hissəsini təşkil edir. Bu baxımdan qeyd etmək lazımdır ki, kommersiya bankına əsas gəliri gətirən aktiv əməliyyatlardır və buna görə də istənilən bank üçün belə əməliyyatların rolu çox böyükdür.

Bank aktivlərinin idarə edilməsi mənfəəti maksimuma çatdırmaq üçün bankın öz və borc vəsaitlərinin məqsədəuyğun şəkildə yerləşdirilməsindən ibarətdir. Bankın gəlirliliyi, likvidliyi və maliyyə sabitliyi aktiv əməliyyatların keyfiyyətlə idarə olunmasından asılıdır.

Aktivlərin keyfiyyəti bütün şirkətlər üçün mühüm əhəmiyyət kəsb etsə də, maliyyə bazarlarının mühüm komponentləri olan bankların gəlirliliyi və bank əməliyyatlarının düzgün aparılması prosesi ilə yanaşı, maliyyə sistemi və müvafiq olaraq milli iqtisadiyyat üçün mühüm əhəmiyyət kəsb edir.

Kommersiya bankları aktiv əməliyyatlar vasitəsilə iqtisadiyyatın ən perspektivli sahələrinə kapital axınını təmin edir, istehsala investisiyaların artmasına, innovasiyaların tətbiqinə, restrukturizasiyanın həyata keçirilməsinə və sənayenin sabit artımına kömək edir və s (Məmmədova, 2022: 11).

Qarayev Fərhad qeyd edir ki, Azərbaycanda fəaliyyət göstərən kommersiya banklarının əsas gəlir mənbəyi kredit əməliyyatlarıdır (Abışlı, Məhərrəmov, Qarayev, Sarıyev, Tağıyev, 2019: 284). Ümumilikdə isə, kommersiya banklarının aktiv əməliyyatları 5 qrupa bölünür.:

1) **Kredit əməliyyatları**
2) **Kassa əməliyyatları**
3) **İnvestisiya əməliyyatları**
4) **Hesablaşma əməliyyatları**
5) **Digər əməliyyatları**

Eyni zamanda, kommersiya bankının aktivlərinin keyfiyyəti onun aktivlərinin müvafiq strukturu ilə müəyyən edilir:

– likvidlik;
– aktiv əməliyyatların şaxələndirilməsi;
– gəlir gətirən aktivlərin həcmi;
– riskli aktivlərin həcmi;
– kritik və qüsurlu aktivlərin həcmi;
– aktivlərin dəyişkənliyi əlamətləri.

Bankın öz öhdəliklərini yerinə yetirmək üzrə gündəlik qabiliyyətini təmin etmək üçün kommersiya bankının aktivlərinin strukturu likvidliyin keyfiyyət tələblərinə uyğun olmalıdır.

**Kommersiya bankının aktivlərinin keyfiyyətinin qiymətləndirilməsi.** Aktiv əməliyyatların nəticələri bankın balansmın aktiv hissəsində əks etdirilir, bu göstəricilər əsasında bankm resurslarının yerləşdirilməsi xarakteri, onlardan istifadənin səmərəliliyi yoxlanılır və təhlil edilir.

Ona görə də aktivlərin keyfiyyətinin qiymətləndirilməsinin mahiyyəti yuxarıda göstərilən xüsusiyyətlərin hər biri onların strukturunu müəyyən etməkdir

*Likvidlik səviyyəsindən* asılı olaraq bütün bank aktivlərinin balansında yüksək likvidli, likvid aktivlərin və uzunmüddətli likvidlik aktivlərinin xüsusi çəkisi hesablanır və qiymətləndirilir. Bir sıra müəlliflər sadalanan aktiv növləri ilə yanaşı, binalar, tikililər və digər əsas vəsaitlər, habelə şübhəli kimi təsnif edilən borclar daxil olmaqla qeyri-likvid aktivlər kateqoriyasını da ayırırlar.

*Aktivlərin şaxələndirilmə dərəcəsi* bankın resurslarının müxtəlif yerləşdirmə sahələri üzrə bölüşdürülməsindən, o cümlədən iqtisadiyyatın sektorlarının aktiv əməliyyatlarına cəlb olunan investisiyaların həcmindən, kredit proqramlarının növlərinin sayından, hər borcalana kapitalın konsentrasiyasından, və s. aslıdır.

*Risklilik səviyyəsinə*, yəni itki ehtimalına görə bütün aktivlər Aktivlər kredit riskinin dərəcəsindən asılı olaraq yeddi qrupa bölünür (Məmmədov, 2021: 65) risk dərəcəsi 0% olan birinci qrup, ikinci qrup - 20%, üçüncü qrup - 35%, dördüncü qrup - 50%, beşinci qrup - 75%, altıncı qrup - 100%, yeddinci qrup - 150%. Sadalanan aktiv qruplarının hər birinin payının hesablanması

kommersiya bankının həyata keçirdiyi kredit siyasətinin risklilik səviyyəsini və nəticədə onun likvidlik potensialını göstərir.

*Gəlir səviyyəsindən* asılı olaraq aktivlərin qruplar üzrə təhlili kommersiya bankının öz resurslarını ən gəlirli aktivlərdə yerləşdirmək qabiliyyətini qiymətləndirməyə imkan verir.

Yuxarıda təsvir olunan aktivlərin keyfiyyətinin əlamətlərini nəzərə alaraq, praktiki qiymətləndirmə prosesində aşağıdakı göstəricilərdən istifadə edilə bilər (Chebotareva, 2018: 43):

**1. Aktivlərin sağlamlıq əmsalı.** Ümumi aktivlərin hansı hissəsinin gəlir gətirən aktivlər olduğunu göstərir və (1.1) düsturuna,əsasən hesablanır. Əmsalın 80-85 faiz dərəcəsindən olması bankın fəaliyyəti üçün müsbət tendensiya olunur ki, bu da aktivlərin tərkibində səmərəsiz aktivlərin həcminin az olduğunu göstərir. Gəlirli aktivlər deyiləndə isə, qiymətli kağızlar, banklar və digər maliyyə institutlarına edilən depozitlər, müştərilərə verilmiş xalis kreditlər, banklar və digər maliyyə institutlarına verilən kreditlər nəzərdə tutulur. Gəlirli aktivlərin azalması, bankın investisiya fəaliyyətinin səmərəsiz olduğunu göstərir (Shershneva, Kondyukova, 2017: 116).

*1.1* $ASF = \frac{A_1}{A} * 100\ \%$

***A-aktivlər***

$A1$ ***- gəlir gətirən aktivlər.***

**2. Aktivlərin diversikasiya əmsalı-** ***Aktivlərin diversifikasiyası nisbəti-*** Bu əmsal aktivlərin diversifikasiya səviyyəsini göstərir və (1.2) düsturu ilə hesab alınır. Bu əmsal nə qədər yüksək hesab olunursa, bankın aktivlərinin itirmək riskinin bir o qədər aşağı olduğunu göstərir.

*1.2* $ADN = (1 - \frac{A_2}{A_1} * 100\ \%$

$A2$= ***Homogen aktivlər( qiymətli kağızlar və müştərilərə verilmiş kreditlər*).**

**3. İnvestisiya aktivliyi nisbəti-** Gəlir gətirən aktivlərin ümumi məbləğində müştərilərə verilmiş kreditlərin payını göstərir. Əmsalın yüksək səviyyəsi bankın ölkənin milli iqtisadiyyatına investisiyaların yönəldilməsini xarakterizə edir.

*1.3* $İAN = \frac{K}{A_1} * 100\ \%$

***K - kommersiya bankının müştərilərinə verilən kreditlər***

**4. Kreditlərin keyfiyyət nisbəti-** Kommersiya bankı tərəfindən verilən bütün kreditlərin keyfiyyətini xarakterizə edir. Əmsalın aşağı qiyməti onu göstərir ki, verilən kreditlərdə vaxtı keçmiş kreditlər mühüm yer tutur.

1.4 $KKN = \frac{K - K_1}{K} * 100\ \%$

***K1 - vaxtı keçmiş borcun məbləği***

Bu əmsallar sayəsində bankın mövcud aktivlərinin keyfiyyətinin qiymətləndirilməsini aparmaq olacaqdır (Məmmədov, 2021: 208).

## Nəticə

Aparılan tədqiqat zamanı məlum olur ki, aktivlərin keyfiyyətinin yüksək olması kommersiya banklarının inkişafında mühüm rol oynayır. Kommersiya banklarının aktiv şəkildə inkişafı ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Qeyd olunan əmsallar da olan dəyişikliklər bankın fəaliyyəti haqqında ilkin məlumatların verilməsinə kömək edir.

## Ədəbiyyat

1. Ertuğrul, İ., Karakaşoğlu, N. (2008). Bank filiallarının fəaliyyətinin VIKOR üsulu ilə qiymətləndirilməsi (Xüsusi buraxılış). Sənaye Mühəndisliyi Jurnalı, 20(1), s.19-28.
2. Ongore, V., Kusa, G. (2013). Determinants of Financial Performance of Commercial Banks in Kenya. International Journal of Economics and Financial Issues, 3, 237 s.
3. Abdullayev, Ş., Əsgərova, R. (2009). Bank işi. Bakı, 470 s.
4. Herry, A. (2015). Banking Intermediation, Operational Efficiency And Credit Risk In The Banking Profitability Proceeding. Kuala Lumpur International Business, Economics and Law Conference 7, № 2, p.141-142.

5. Məmmədova, N. (2022). "Kommersiya banklarında qiymətli kağızlarla bağlı aktiv və passiv əməliyyatların uçotunun müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi". Audit №2, s.11-12.
6. Abışlı, L., Məhərrəmov, A., Qarayev, F., Sarıyev, K., Tağıyev, M. (2019). "Bank işi"s, 284-285, 688 s.
7. Məmmədov, İ. (2021). "Banklarda risk menecmenti". Monoqrafiya, 208 s.
8. Chebotareva, G. (2018). "Organizatsiya deyatel'nosti kommercheskogo banka, 124 s.
9. Shershneva, Ye., Kondyukova, Ye. (2017). "Bankovskiy Menedzhment", 116 s.

Göndərilib: 04.02.2023 Qəbul edilib: 16.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/115-120

**Ayxan Alıbəyli**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
aykhanalieeff@gmail.com

# AZƏRBAYCAN-ALMANİYA TİCARƏT ƏMƏKDAŞLIĞININ ƏSASLANDIRILMASI

**Xülasə**

Azərbaycan ilə Almaniya arasında iqtisadi və ticarət sahələrində uzunmüddətli əməkdaşlıq iki ölkə arasında ticarət dövriyyəsini təxminən 2 milyard avroya çatdırıb. İki ölkənin ticarət tərəfdaşları siyahısına nəzər saldıqda görürük ki, hər iki ölkənin bir-birinin xarici ticarətində mühüm yerləri var. Konsensus ondan ibarətdir ki, potensial bundan daha çoxunu mümkün edəcək səviyyədədir. İkitərəfli ticarət əlaqələri kontekstində hər iki ölkənin mövcud potensialının aktivləşdirilməsinin ən mühüm şansı, şübhəsiz ki, iqtisadi və kommersiya əlaqələrinin möhkəm təməlinin olmasıdır. Azərbaycan son illər coğrafi, siyasi, iqtisadi və mədəni çoxölçülü geosiyasi mövqeyinə görə Almaniya üçün mühüm ölkə olmaq imkanı əldə edib. Əgər Azərbaycan bu potensialdan istifadə edə bilsə, bu, yaxın illərdə enerji idxalını şaxələndirməyə çalışan Almaniya üçün daha böyük əhəmiyyət kəsb edəcək. Bu araşdırmada Azərbaycanın xarici ticarətinin ümumi qiymətləndirilməsi, iki ölkənin xarici ticarətdəki qarşılıqlı yeri müzakirə edilir və Azərbaycan və Almaniya arasında iqtisadi və ticarət əlaqələri göstərilir.

***Açar sözlər:*** *Azərbaycan, iqtisadi müxtəliflik, xarici ticarət, Almaniya, ixrac*

**Aykhan Alibeyli**
Azerbaijan State Economic University
master student
aykhanalieeff@gmail.com

## Establishment of Azerbaijan-Germany trade cooperation

**Abstract**

The long-term cooperation between Azerbaijan and Germany in the economic and trade spheres has increased the trade turnover between the two countries to about 2 billion euros. Looking at the list of trading partners of the two countries, we see that both countries have important positions in each other's foreign trade. The consensus is that the potential is at a level that will make more than that possible. In the context of bilateral trade relations, the most important chance of activating the existing potential of both countries is undoubtedly the existence of a solid foundation of economic and commercial relations. In recent years, Azerbaijan has had the opportunity to become an important country for Germany due to its geographical, political, economic and cultural multidimensional geopolitical position. If Azerbaijan can use this potential, it will be of greater importance for Germany, which is trying to diversify its energy imports in the coming years. This study discusses the general assessment of Azerbaijan's foreign trade, the mutual position of the two countries in foreign trade, and shows the economic and trade relations between Azerbaijan and Germany.

***Keywords:*** *Azerbaijan, economic diversity, foreign trade, Germany, export*

## Giriş

Azərbaycan iqtisadi imkanlarına görə beynəlxalq əlaqələr baxımından əhəmiyyəti artan bir ölkəyə çevrilmişdir. Ölkə üçün əsas determinant olan iqtisadi amillər neft və təbii qazdır. Enerji idxalında qaynaq müxtəlifliyini hədəfləyən Almaniyanın təbii qaz idxal payı artarkən, idxal az sayda ölkədən edildiyi üçün təchizat təhlükəsizliyi baxımından riskli bir vəziyyət yaranır. Xüsusilə

Rusiyadan asılılıq ciddidir. Azərbaycan Almaniya üçün bu kontekstdə xüsusi əhəmiyyət kəsb edən ölkədir ki, bu ölkə nüvə enerjisinin bərpa olunan mənbələrdən və digər alternativ mənbələrdən deaktivasiyası nəticəsində yaranan enerji defisitini ödəyəcək. Ölkənin enerji baxımından xarici enerjidən asılılığı səbəbindən Almaniya hökuməti iqtisadiyyatı fasiləsiz enerji resursları ilə təmin etmək üçün idxalını idxal olunan ölkələr və xammal baxımından diversifikasiya etməyə çalışır. Azərbaycan enerji sahəsində həm istehsalçı, həm də daşıyıcı ölkədir. "Şahdəniz" hövzəsi kəşf ediləndən bəri hasilatçı olan ölkənin Qazaxıstan və Türkmənistan qazının nəql olunduğu tranzit ölkə olması da planlaşdırılır. XX əsrin sonlarında Almaniyanın neftə olan tələbatının 20%-ni Azərbaycan ödəyirdi. Bu gün Azərbaycan Almaniyanın ən çox neft idxal etdiyi 7 ölkədən biri olduğu halda, Almaniya Rusiya və Türkiyədən sonra Azərbaycanın ən çox neft idxal etdiyi üçüncü ölkə olub.

Son illər iqtisadiyyatı nisbətən yüksək templə inkişaf edən Azərbaycan qeyri-neft sahələrinin inkişafında qabaqcıl texnologiyalardan istifadə etmək məqsədilə Almaniya ilə əlaqələrin inkişafına xüsusi önəm verib. İqtisadiyyatı ixraca əsaslanan Almaniya da iqtisadi və kommersiya təsir dairəsini genişləndirmək üçün Azərbaycanla münasibətlərini yaxşılaşdırmağa səy göstərib. İki ölkənin bir-biri üçün artan əhəmiyyəti bu araşdırmanı unikal edir. Tədqiqat 1991-ci ildə müstəqillik əldə etmiş, 1990-cı illərdə Sovet İttifaqının dağılması ilə Azərbaycan və Almaniya arasında iqtisadi əlaqələrin hansı miqyasda olduğunu və onların hansı əsas problemlərlə üzləşdiyini araşdıraraq bu istiqamətdə həyata keçiriləcək tədbirləri müəyyən etmək məqsədi daşıyır (1).

**Almaniyanın xarici ticarətinin inkişafı və Azərbaycanın yeri.** Son dövrdə dünya ticarətində ən diqqətçəkən inkişaf istehsal və ticarətin inteqrasiyası və milli iqtisadiyyatların qarşılıqlı asılılığının artmasıdır. Bir ölkənin inkişafı həmin ölkənin daxili iqtisadi, sosial və institusional quruluşu ilə sıx bağlı olsa da, beynəlxalq ticarət əlaqələrinin həmin ölkənin inkişafı üçün böyük əhəmiyyəti vardır. İqtisadi qloballaşmanın son həddə çatdığı indiki kimi bir dünyada ölkələr qloballaşmadan kənarda qalmaqla deyil, onun üstünlüklərindən ən yaxşı şəkildə istifadə etməklə öz inkişaflarını sürətləndirməli olurlar. Bu kontekstdə kommersiya rəqabətinin iqtisadi sistem kimi qəbul edildiyi müasir cəmiyyətlərdə Almaniya və Azərbaycanın dünya xarici ticarətindəki payı artır.

Ümumdünya Ticarət Təşkilatının 2009-cu il məlumatına görə, dünya ixracının 8,9%-i, idxalın 7,2%-i Almaniyanın payına düşür. 2003-2008-ci illər arasında dünyanın ən böyük ixracatçı ölkəsi olan Almaniya, 2010-cu ildən etibarən ABŞ və Çindən sonra dünyanın üçüncü ən böyük ixracatçısı və idxalçısı oldu.

O, həm də ən yüksək xarici ticarət profisiti olan ilk ölkədir. Almaniyanın xarici ticarətində 2008-ci ilin son rübündə və 2009-cu ildə qlobal maliyyə-iqtisadi böhranın təsiri ilə ciddi azalma müşahidə edilsə də (ixracda 18,4%, idxalda 17,5%), Almaniyanın ixracı əvvəlki ilə nisbətən 19,4%, idxalı isə 21,3% artıb. Bu nəhəng xarici ticarət potensialının arxasında nəhəng avtomobil, kimya, maşınqayırma və s. kimi sənaye sahələri Digər tərəfdən bu vəziyyət Almaniya iqtisadiyyatını xarici dünyadan asılı vəziyyətə salır və Almaniyanın qlobal inkişaflardan birbaşa təsirlənməsinə səbəb olur (Muradov, 2012).

**Son altı ildə Almaniyanın xarici ticarətinin inkişafını aşağıdakı cədvəldən görmək olar:**

| İl | Ticarət həcmi | İxracat | İdxalat | Balans |
|---|---|---|---|---|
| 2006 | 1.627 | 893,0 | 733,9 | +159 |
| 2007 | 1.735,1 | 965,2 | 769,8 | +195,3 |
| 2008 | 1.813,4 | 994,8 | 818,6 | +176,2 |
| 2009 | 1.470,3 | 803,2 | 667,1 | +136,1 |
| 2010 | 1.765,7 | 959,5 | 806,2 | +153,3 |
| 2011 | 1.962,2 | 1.060,2 | 902 | +158,2 |

**Cədvəl 1. Almaniyanın xarici ticarətinin inkişafı (milyard avro)**
**Mənbə: Alman Statistika İnstitutu**

Almaniya ixrac yönümlü və ixracdan asılı iqtisadiyyata malikdir. Dünyada xarici ticarətin Ümumi Daxili Məhsula nisbəti 53,2 olduğu halda, bu rəqəm Almaniyada dünya ortalamasından yüksəkdir və 2008-ci ildə 72,1% təşkil etmişdir. Qlobal maliyyə-iqtisadi böhranın təsiri ilə bu rəqəm 2009-cu ildə 61,2 faiz azalmış, 2010-cu ildə böhrandan əvvəlki səviyyəyə (70,7) yüksəlmişdir. İxrac sektoru Almaniyada hər 5 iş yerindən birini təmin edir.

Almaniya xarici ticarətini inkişaf etdirmək üçün aşağıdakı alətlərdən istifadə edir (3):

**a) Əməkdaşlıq İnkişaf Proqramları**

Bu proqram vasitəsilə xüsusilə Almaniyanın KOM-ları üçün müxtəlif maarifləndirici seminarlar təşkil edilir və Almaniyanın ixrac potensialına malik ölkələrlə keçirilən “Menecerlərin Hazırlanması Proqramları” vasitəsilə alman KOM-larına xarici şirkətlərlə əməkdaşlığı inkişaf etdirmək imkanı verilir.

**b) Kredit Sığortaları**

Bu alət vasitəsilə inkişaf etməkdə olan ölkələrə ixrac edən alman şirkətləri müəyyən risklərdən Federal Hökumət tərəfindən sığortalanır.

**c) Xaricdə təşkil olunan yarmarkalarda iştirakın dəstəklənməsi**

Xaricdə keçirilən yarmarkalarda iştirak edən alman şirkətlərinin 90%-ni KOM-lar təşkil edir və dövlətin köməyi olmadan bu şirkətlərin xaricdəki yarmarkalarda iştirak etməsi asan olmaya bilər.

**d) İxrac edən şirkətlərə siyasi dəstəyin göstərilməsi**

Xaricdə fəaliyyət göstərən Almaniya səfirlikləri və Ticarət Palataları bu ölkələrdə alman şirkətlərinin lobbiçilik fəaliyyətini fəal şəkildə dəstəkləyir.

**e)İxrac edən Ölkənin Cari Bazarı haqqında İxrac edən Şirkətlərin məlumatlandırılması**

Almaniyada fəaliyyət göstərən bir sıra qurumlar vasitəsilə alman şirkətləri müxtəlif ölkələrin bazar analizləri, hüquqi infrastruktur və digər mühüm məsələlər haqqında məlumatlandırılır.

Yuxarıda qeyd edildiyi kimi, ixracdan asılı struktura malik Almaniya iqtisadiyyatının xaricə asılılığı diqqət çəkir. 2008-ci ildə daxili tələbatın 35 faizi idxal hesabına təmin edilib. Bu asılılıq xüsusilə enerji sektorunda özünü hiss etdirir. Almaniya Statistika İnstitutunun məlumatına görə, 2010-cu ildə Almaniya 93,3 milyon ton neft idxal edib. Azərbaycan Almaniyanın neft idxalına görə 7-ci yerdədir. 2010-cu ildə Azərbaycanla xarici ticarət Almaniyanın Qafqazla xarici ticarətinin 79 faizini, Mərkəzi Asiya və Qafqaz ölkələri ilə xarici ticarətinin 23 faizini təşkil etmişdir.

2010-cu ildə Almaniyadan Azərbaycana 117 milyon dollarlıq kənd təsərrüfatı məhsulları ixrac edilib. Azərbaycan Almaniyanın 100 milyon dollardan çox kənd təsərrüfatı məhsulu ixrac etdiyi Aİ üzvü olmayan 20 ölkədən birinə çevrilib.

**Azərbaycan xarici ticarətinin inkişafı və Almaniyanın yeri**. İqtisadiyyat ədəbiyyatında ən mühüm və əhatəli mövzulardan biri “sürətli və sabit iqtisadi inkişaf prosesini necə həyata keçirmək” haqqındadır. Başqa sözlə desək, “iqtisadi artım sürətini necə artırmaq olar”. Bu problemi həll etməyin ən mühüm yollarından biri ixracın artırılmasıdır. Çünki ixracın artması iqtisadiyyatda əmtəə və xidmət istehsalını da artırır. İxracın artmasının istehsalın artımına müsbət təsir göstərməsi fikri ədəbiyyatda İxraca əsaslanan artım hipotezi adlanır.

Keçmiş Sovet İttifaqının on iki ölkəsinin keçid iqtisadiyyatı nümunələrində ixrac və iqtisadi artım arasındakı əlaqəni araşdıran araşdırmanın nəticələri göstərdi ki, ixracın artımı iqtisadi artıma səbəb olmayıb, başqa sözlə, ixraca əsaslanan artım fərziyyəsi reallaşdırılmayıb. bu ölkələr üçün etibarlıdır. Bu nəticə tədqiqat və təkmilləşdirmə fəaliyyəti ilə məşğul olmayan və insan kapitalının toplanmasına töhfə verməyən, yalnız xammal və ya enerji təchizatçısı kimi xidmət edən ixrac sektoruna malik ölkələrdə ixracın artmasının iqtisadi artıma səbəb olmayacağı fikrini dəstəkləyir. çünki bu, məhsuldarlığın artmasına, xərclərin azalmasına və müsbət xarici təsirlərə səbəb olmayacaq (Aghayev, 2011).

Sovet İttifaqının dağılmasından sonra 1991-ci ildə müstəqilliyini elan edən Azərbaycan həm planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid dövründə həm də Ermənistanla müharibənin təsiri ilə ciddi çətinliklərlə üzləşdi.

Müstəqilliyinin ilk illərində ölkənin milli gəliri azaldı, inflyasiyanın səviyyəsi yüksək rəqəmlərə çatdı. Bütün bunların nəticəsidir ki, 1994-cü ildə 1990-cı illə müqayisədə Ümumi Daxili Məhsul 53

faiz, sənaye istehsalı 62 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 44 faiz azalmışdır. Azərbaycan iqtisadiyyatı 1994-cü ildə əldə olunan atəşkəsdən sonra canlanma prosesinə qədəm qoyub və 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin təsiri ilə yaşadığı iqtisadi çətinliklərdən çıxa bilib. Digər tərəfdən, 1996-cı ildən iqtisadi artım prosesinə qədəm qoyan və onu davam etdirən ölkə 2006-cı ildə 34,5% böyüyərək dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatlarından birinə çevrilib. İqtisadi artım sonrakı illərdə də davam edərək 2007-ci ildə 25 faiz, 2008-ci ildə 10,8 faiz, 2009-cu ildə 9,3 faiz, 2010-cu ildə 5 faiz təşkil etmişdir.

Neft və təbii qaz sektoruna qoyulan investisiyalar son illərdə Azərbaycanın iqtisadi yüksəlişində çox mühüm rol oynamışdır; Bundan əlavə, son dövrdə karbohidrogen qiymətlərinin yüksək artım tempi iqtisadi artım prosesini sürətləndirib. Xüsusilə 2005-ci ilin fevral ayından etibarən "Azəri-Çıraq-Günəşli" neft yataqlarından hasilat 2005-ci ildən bəri müşahidə olunan yüksək artımda çox mühüm rol oynayır. Qlobal maliyyə-iqtisadi böhranın təsiri ilə 2009-cu ildə iqtisadi kiçilmə və 2010-cu ildə yüksək iqtisadi artım bütün dünyada müşahidə edilmiş, 2010-cu ildə Azərbaycanda 2009-cu illə müqayisədə daha kiçik iqtisadi artım tempi qeydə alınmışdır. Azərbaycanda 2006-cı ildə 32,2 milyon ton, 2007-ci ildə 42,5 ton, 2008-ci ildə 44,4 ton, 2009-cu ildə 50,4 milyon ton, 2010-cu ildə 51 milyon ton neft hasil edildiyini nəzərə alsaq, Azərbaycanda neft hasilatı ilə iqtisadi artımın paralel olduğunu söyləmək olar. 2011-ci ildə qeyri-neft sektorlarında artım tempi 9,4 faiz olsa da, Ümumi Daxili Məhsulun artımı cəmi 0,1 faiz təşkil edib (5).

Azərbaycanın ixracında iqtisadi artımla yanaşı, neft sektorunun da xüsusi əhəmiyyəti olub. 2008-ci ildə Azərbaycanın ixracında müşahidə olunan əhəmiyyətli artımın səbəbi neftin qiymətinin və ixracın artması olub. 2008-ci ildə 78 milyon ton neft ixrac edən və 44 milyard dollar gəlir əldə edən Azərbaycan 2009-cu ildə ixrac etdiyi 28 milyon ton neftdən 12 milyard dollar gəlir əldə edib. Neft məhsulları 2010-cu ildə 92 faizlə Azərbaycanın əsas ixrac məhsulu olaraq qalmışdır. Neftlə yanaşı, təbii qazın da ölkə iqtisadiyyatına verdiyi töhfə son illərdə artmağa başlayıb. 2010-cu ildə Azərbaycanda təbii qaz hasilatı 27 milyard $m^3$ olub.

| İl | Ticarət həcmi | İxracat | İdxalat | Balans |
|---|---|---|---|---|
| **2006** | **11633,1** | **5265,1** | **6372,0** | **-1106,9** |
| **2007** | **11766,8** | **6058,3** | **5708,5** | **+349,8** |
| **2008** | **53400,0** | **47000,0** | **6400,0** | **+40600,0** |
| **2009** | **20818,2** | **14698,5** | **6119,7** | **+8578,8** |
| **2010** | **27 924.1** | **21 324,8** | **6 599,3** | **+14725,5** |
| **2011** | **36 326.9** | **26 570.9** | **9 756.0** | **+16814,9** |

**Cədvəl 2. Azərbaycanın xarici ticarətinin inkişafı (milyard avro)**
**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

2000-ci illərdən etibarən Müstəqil Dövlətlər Birliyindən (MDB) kənarda ixrac rəqəmlərinin çox sürətlə artdığı müşahidə edilmişdir.

Xüsusilə bu dövrdə ənənəvi ticarət şəbəkələrini təşkil edən MDB ölkələrinin əhəmiyyətinin azalması ticarətin aparıldığı ölkənin tərkibinin sürətlə inkişaf etməyə başladığını göstərir. Buna baxmayaraq, ənənəvi ticarət tərəfdaşları arasında, xüsusən də qeyri-rus ticarət rəqəmləri baxımından azalma tendensiyası yaranmışdır; Rusiya isə bu tendensiyadan kənarda qalmaqda davam edirdi. Xüsusilə əsas istehlak mallarının idxalında Rusiya ilə mövcud şəbəkələrin davam etməsi Rusiyanın bu ölkə üçün əvəzolunmaz ticarət tərəfdaşına çevrilməsinə səbəb olub. Qida, kimya, maşınqayırma və davamlı istehlak malları kimi geniş çeşiddə məhsul qruplarının olması digər ölkələrdən idxalda diqqət çəkir.

| Ölkələr | Ticarət həcmi | İdxal | İxrac | Balans |
|---|---|---|---|---|
| Ümumi | 27924 | 6599 | 21324 | 14725 |
| İtaliya | 7215 | 118 | 7097 | 6978 |
| Fransa | 1992 | 136 | 1856 | 1720 |
| Rusiya | 1918 | 1144 | 773 | -371 |
| İsrail | 1804 | 59 | 1744 | 1685 |
| ABŞ | 1744 | 206 | 1538 | 1332 |
| Ukrayna | 135 | 465 | 888 | 423 |
| Türkiyə | 942 | 771 | 170 | -600 |
| Çin | 926 | 587 | 338 | -248 |
| Xorvatiya | 789 | 1 | 787 | 785 |
| İndoneziya | 788 | 6 | 782 | 775 |
| Malayziya | 780 | 39 | 740 | 701 |
| Sinqapur | 684 | 173 | 510 | 336 |
| Almaniya | 617 | 607 | 9 | -597 |

**Cədvəl 3. Azərbaycanın ən çox ixrac və idxal etdiyi ölkələr (milyard avro)**
**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Qeyd edək ki, Avropa İttifaqına ixrac edilən neft məhsulları İtaliyanın Triest limanı vasitəsilə hazırlandığından, Aİ-yə ixrac edilən bütün neft məhsulları Azərbaycanın səlahiyyətli orqanları tərəfindən İtaliyaya ixrac kimi qeydiyyata alınır. Azərbaycan Statistika İnstitutunun məlumatına görə, 2010-cu ildə Azərbaycan Almaniyaya cəmi 9 milyon dollar ixrac edib. Almaniya Federal İqtisadiyyat və Texnologiya Nazirliyinin məlumatına görə, 2010-cu ildə Azərbaycanın Almaniyaya ixracı 1,3 milyard avro təşkil edib. 9 milyon dollarlıq ixraca yalnız qeyri-neft məhsulları daxildir.

| İl | Ticarət həcmi | İxrac | İdxal | Balans |
|---|---|---|---|---|
| 2006 | 1,1 | 0,6 | 0,5 | +0,1 |
| 2007 | 1,5 | 1,1 | 0,4 | +0,7 |
| 2008 | 2,4 | 1,9 | 0,5 | +1,4 |
| 2009 | 1,6 | 1,2 | 0,4 | +0,8 |
| 2010 | 2,0 | 1,3 | 0,7 | +0,6 |
| 2011 | 2,3 | 1,5 | 0,8 | +0,7 |

**Cədvəl 4. Azərbaycan-Almaniya xarici ticarətinin inkişafı (milyard avro ilə)**
**Mənbə: Almaniya Federal İqtisadiyyat və Texnologiya Nazirliyi**

Almaniya Federal İqtisadiyyat və Texnologiya Nazirliyinin məlumatlarını nəzərə alsaq, 2 milyard avroluq xarici ticarət həcmi ilə Almaniya hətta Azərbaycanın ikinci xarici ticarət həcminə malik Fransanı da geridə qoyur. Azərbaycan Almaniyaya demək olar ki, Fransaya ixrac etdiyi qədər ixrac etdiyi halda, Rusiya və Türkiyədən sonra ən çox idxalı da bu ölkə ilə edir. Başqa sözlə, Almaniya Azərbaycanın idxalında Rusiya (17,3%) və Türkiyədən (11,6%) sonra 9,1% ilə 3-cü yerdədir (Hüseynquluyev, 2011; Kocamaz, 2007).

Cədvəl 4-dən göründüyü kimi, iki ölkə arasında ticarət həcmi 2006-2008-ci illərdə sabit artım göstərmişdir. Lakin Almaniyanın Azərbaycana ixracında 2010-2011-ci illər istisna olmaqla, ciddi dəyişiklik olmadığı müşahidə edilir. 2009-cu ildə qlobal iqtisadi və maliyyə böhranı iki ölkə arasında ticarət dövriyyəsinin azalmasına təsir göstərmişdir. Lakin xarici ticarət həcminin dəyişməsinin ən böyük səbəbi dünya bazarında neftin qiymətinin dəyişməsi olub. Yəni Almaniya Federal İqtisadiyyat və Texnologiya Nazirliyinin məlumatları nəzərə alınarsa, Almaniya 2007-ci ildə 2,8 milyon ton, 2008-ci ildə 3,4 milyon ton, 2009-cu ildə 4,1 milyon ton, 2010-cu ildə 3,7 milyon ton neft alıb. idxal edilib. Almaniyanın Azərbaycandan idxal etdiyi məhsullarda neftin

xüsusi çəkisinin 95 faizdən çox olduğunu nəzərə alsaq, 2009-cu ildə neft ixracının əvvəlki ilə nisbətən artmasına baxmayaraq, ixrac gəlirləri azalmışdır (Nesirova, 2002).

## Nəticə

Azərbaycanın Almaniya ilə iqtisadi əlaqələrinin qiymətləndirilməsindən belə nəticə çıxarmaq olar: Dünyanın 5-ci ən böyük iqtisadiyyatı və daim inkişaf edən sənayesi ilə Azərbaycan Almaniya üçün enerji tələbatının ödənilməsi baxımından mühüm ölkədir. Ona görə də Almaniyanın Azərbaycanla münasibətlərində, xüsusən də enerji təhlükəsizliyi baxımından daha həssas olması, bu ölkədə effektivliyini artırması lazımdır. Bununla belə, Azərbaycanın əsas məqsədi qlobal iqtisadiyyata inteqrasiya edə bilən yüksək əlavə dəyərə və yüksək texnologiyaya malik müasir və çoxşaxəli iqtisadiyyat yaratmaqdır.

Bu kontekstdə Almaniya sənaye sektorunda əlavə dəyər və səmərəliliyin artırılmasına yönəlmiş innovativ təcrübələrin yayılmasında Azərbaycan üçün mühüm tərəfdaşlardan biridir. Qarşılıqlı investisiyalar indiyədək yüksək səviyyədə həyata keçirilməsə də, davamlı olaraq artmağa meylli olan xarici ticarət həcminin növbəti illərdə daha da artacağını proqnozlaşdırmaq olar. Azərbaycan bir tərəfdən iqtisadiyyatını şaxələndirməklə neft sektorundan asılılığını azaltmaq, digər tərəfdən isə qeyri-neft sektorları hesabına dünya ölkələrinə ixracını şaxələndirmək üçün lazımi addımlar atmalıdır və bunda Almaniya üçün kontekst. Digər tərəfdən, Azərbaycan və Almaniya arasında inkişaf etdiriləcək əlaqələr Almaniyanın balanslaşdırılmış regional inkişaf, bazar iqtisadiyyatı kimi məsələlərdə təcrübəsinin Azərbaycana ötürülməsinə kömək edəcək (Zeynal, 2011).

Azərbaycanın Avropaya inteqrasiya səylərini və Almaniyanın xüsusilə enerji sahəsində maraqlarını nəzərə alsaq, münasibətlərin perspektivi ilə bağlı nikbin qiymətlər vermək olar. Münasibətlərin gələcək inkişafı tərəflərin istəyi və qətiyyətindən asılı olacaq.

## Ədəbiyyat

1. Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycan Rəqəmləri 2011.
2. (http://www.azstat.org/statinfo/construction/en/index.shtml).
3. Muradov, E. (2012). "Azerbaijan-Germany economic relations: Problems and perspectives". Journal of central Asian and Caucasus studies, Vol: 7, No: 13.
4. Federal İqtisadiyyat və Texnologiya Nazirliyi. "Xarici Ticarətin Təşviqi Alətləri".
5. (http://www.bmwi.de/BMWi/Navigation/Aussenwirtschaft/Aussenwirtschaftsfoerderung/aussenwirtschaftsfoerderunginstrumente.html).
6. Aghayev, S. (2011). The Relationship Between Exports and Economic Growth: Panel Cointegration and Panel Causality Analysis in 12 Transition Economy Examples". Aegean Academic Perspective. Volume: 11, Issue: 2, p.241-254.
7. Azərbaycan Prezidenti İlham Əliyevin Nazirlər Şurasının iclasında çıxışı, 16 yanvar 2012-ci il.
8. (http://www.president.az/articles/4107).
9. Hüseynquluyev, E. (2011). "Azərbaycan Dövlət Neft Şirkəti İlə Almaniyanın "RWE" Şirkəti Arasında Qaz Sazişi İlin Sonunadək İmzalana Bilər". APA.
10. (http://az.apa.az/news.php?id=235045).
11. Kocamaz, S. (2007). "The Relations of the European Union with the Transcaucasian Countries in the Framework of the Neighborhood Policy". Journal of Central Asian and Caucasian Studies, Vol: 2, No: 4.
12. Nesirova, Z. (2002). "Sovet İttifaqının dağılmasından sonra Azərbaycanda iqtisadi inkişaf". Nəşr olunmamış magistr dissertasiyası. İstanbul: MU, Sosial Elmlər İnstitutu.
13. Zeynal, A. (2011). "Avropanın Enerji Təhlükəsizliyi və Azərbaycan". 1 News.
14. (http://www.1news.com.tr/yazarlar/20110512124405143.html).

Göndərilib: 23.02.2023 Qəbul edilib: 05.04.2023

QƏDİM DİYAR Beynəlxalq onlayn elmi jurnal. 2023 / Cild: 5 Sayı: 4 / 121-128 ISSN: 2706-6185
ANCIENT LAND International online scientific journal. 2023 / Volume: 5 Issue: 4 / 121-128 e-ISSN: 2709-4197

DOI: https://doi.org/10.36719/2706-6185/22/121-128

**Əli Nəsirli**
Azərbaycan Texniki Universiteti
magistrant
ali.nesirli.99@gmail.com

# BANKLARIN TAKSİT KARTLARI ÜZRƏ STATİSTİK VƏ ANALİTİK ANALİZİ, TAKSİT KART MÜŞTƏRİLƏRİ HAQQINDA MƏLUMATLARIN MÜXTƏLİF MEYARLAR ÜZRƏ TƏHLİLİNİN APARILMASI

**Xülasə**

Taksit Kartları - plastik kartlar ilə hesablaşma zamanı ödənişi bərabər hissələrlə həyata keçirməyə imkan verən sistemin şərti adıdır. Azərbaycan bankları 2012-ci ildən etibarən taksit kartları sistemini tətbiq etməyə başlayıblar. Taksit kartları kredit kartlarının alt qrupuna aiddir. Bu kartları standart kredit kartlarından fərqli edən əsas xüsusiyyət məhsulların satış məbləği üzrə hissəli alış-veriş imkanının olmasıdır.

Təcrübələr göstərir ki, taksit kartlarının müştəri tərəfindən bəyənilməsinin əsas səbəbləri istədikləri məhsulları anında əldə edə bilmələri, hər hansı vəsaitə ehtiyacları olduqdada isə asanlıqla nağdlaşdırma əməliyyatları icra etmələri və s. nümunə kimi qeyd edə bilərik. Hazırda banklar tərəfindən təklif edilən taksit kartlar aşağıdakılardır:

- Birbank – Kapital Bank;
- Albalı Plus - Unibank;
- Worldcard - Yapıkredi Bank;
- Bolkart – Bank of Baku;
- Paykart - Bank Respublika;
- Smile Card - Express Bank;
- Maxi Card - NBC Bank;

***Açar sözlər:*** emitent, CSR, respondent, metodologiya, törəmə.

**Ali Nasirli**
Azerbaijan Technical University
master student
ali.nesirli.99@gmail.com

# Statistical and analytical analysis of banks' installment cards, analysis of information about installment card customers according to various criteria

**Abstract**

Installment Cards - is the conventional name of the system that allows you to pay in equal installments when settling with plastic cards. Azerbaijani banks have started using the system of installment cards since 2012.

Installment cards belong to the subgroup of credit cards. The main feature that makes these cards different from standard credit cards is the possibility of partial purchase of products based on the sales amount. Experience shows that the main reasons why installment cards are liked by customers are that they can get the products they want instantly, and when they need any funds, they can easily perform cashing operations, etc. we can mention as an example. Currently, installment cards offered by banks are:

- Birbank - Kapital Bank;
- Albali Plus - Unibank;
- Worldcard - Yapikredi Bank;
- Bolkart - Bank of Baku;

- Paykart - Bank Respublika;
- Smile Card - Express Bank;
- Maxi Card - NBC Bank;

***Keywords:*** issuer, CSR, respondent, methodology, derivative.

## Giriş

Taksit kartlarından aşağıdakı 3 növ əməliyyatları həyata keçirmək mümkündür:

- ATM vasitəsilə nağdlaşdırma;
- POS-ternminla vasitəsilə edilən birdəfəlik ödənişlər;
- Taksit (hissəli) əməliyyatları;

Qeyd: Taksit kartından digər karta köçürmə (card to card) ATM vasitəsilə nağdlaşdırma ilə eyni sayılır və əməliyyat üzrə nağlaşdırma zamanı tutulan komisiya müştəridən çıxılır (1).

İndi isə, müvafiq taksit kartlarından yuxarıda qeyd edilmiş əməliyyatlar həyata keçirildiyi zaman nə baş verdiyinə nəzər salaq.

ATM vasitəsilə nağdlaşdırma:

Taksit kartlardan adətən özlərinin alış-veriş funksiyalarını qabartdığı üçün nağdlaşma əməliyyatları zamanı demək olar ki, sərfəli deyil. Müqayisə üçün bildirmək istərdik ki, hazırda bazarda təklif edilən standart kredit kartlarının əksəriyyətində nağd əməliyyatlar zamanı müştəriyə güzəşt müddəti (grace period) təqdim edilsə də, bir çox taksit kartlarında qeyd edilən funksiya mövcud deyil. Taksit kartlarından nağdlaşdırma əməliyyatı edilən zaman, müştəri məhsulun tariflərinə uyğun olaraq nağdlaşdırma komissiyası ödəyir, həmçinin nağdlaşdırılan məbləğə kartın növündən asılı olaraq müvafiq illik faiz dərəcəsi ilə gündəlik əsasda faiz hesablanır. Taksit kartlardan ATM vasitəsilə nağdlaşma komissiyası 1% – 2% arası , illik faiz dərəcəsi isə 25%-30% arası dəyişir. Minimal ödəniş tələbinə gəldikdə isə, müştəridən növbəti ödəniş vaxtında nağdlaşdırılan vəsaitə hesablanmış faiz məbləği ilə yanaşı bəzi kartlarda əsas borcun da bir hissəsi ödəniş kimi tələb edilir (2).

POS-ternminla vasitəsilə edilən birdəfəlik ödənişlər:

Birədəfəlik ödənişlər dedikdə ticarət məntəqələrində və ya online şəkildə məhsul və xidmətlərin dəyərinin ödənilməsi başa düşülür. Paykart, Smile Card və Maxi Card istisna olmaqla digər bütün taksit kartlarında birdəfəlik ödənişlər üzrə güzəşt müddəti vardır. Yəni müştərilər aldıqları məhsul və ya xidmətin dəyərini növbəti ödəniş tarixininin son gününədək əlavə faiz ödəmədən banka geri qaytara bilərlər və qeyd etmək istərdik ki, bu müddət bir çox banklarda 60 günədək hesablanır. Taksit kartları üzrə ödəniş tarixləri bəzi istisnaları nəzərə almasaq əsasən hər ayın 1 – 10 tarix aralığında təyin edilir. Birdəfəlik ödənişlərdən ən geniş yayılanlara misal olaraq, market ödənişlərini, yanacaqdoldurma məntəqələrində aparılan ödənişlər və ya internet üzərindən mal və xidmətlərin satın alınmasını nümunə kimi göstərə bilərik (3).

Taksit (hissəli) əməliyyatları:

Bu əməliyyatlar taksit kart dövriyyəsinin böyük hissəsini təşkil etməklə yanaşı müştərilərin bu kartlara böyük maraq göstərməsinin əsas səbəbidir. Bankların əməkdaşlıq etdiyi satış nöqtələrində taksit kartlarla məhsulların dəyərinin hissə-hissə ödəmək mümkündür. Taksit ödənişləri də öz növbəsində 2 hissəyə ayrılır: faizli və faizsiz. Yəni bəzi ticarət məntəqələrində taksitli alış-veriş edən zaman məhsulun dəyərinin üzərinə taksit müddətindən asılı olaraq bank tərəfindən müəyyən faiz gəlinir, bəzilərində isə məhsul nağd satış qiyməti ilə faizsiz taksitə bölünür. Hazırda bankların əksəriyyəti müştəri məmnuniyyətini qorumaq üçün faizsiz taksit ödənişləri prinsipindən istifadə edir və taksit üzrə faizləri partnyorlardan tuturlar.

Faizli taksit geniş yayılan satış nöqtələrinə əsasən elektronika mağazalarını, faizsiz satış nöqtələrinə isə parfumeriya, geyim mağazalarını misal göstərə bilərik. Lakin bəzi faizli taksit olan partnyorlarda da banklar faizsiz taksitlə bağlı müxtəlif kampaniyalar keçirir. Müqayisə üçün bildirmək istərdik ki, Paykart və Birbank taksit kartları əməkdaşlıq etdiyi partnyorlar ilə yalnız faizsiz taksit layihəsi ilə çalışır.

Bolkart, Albalı Plus, Worldcard kartlarında isə hazırda həm faizli, həm də faizsiz taksit layihələri mövcuddur. Smile Card və Maxi Card kartları ilə isə hazırda yalnız faizli taksitlə alış-veriş etmək

mümkündür. Çünki bu kartların partnyorlar ilə əməkdaşlıqları yoxdur, taksitləşmə bank tərəfindən həyata keçirilir və bütün hallarda istifadə olunan vəsaitin üzərinə komissiya (6% və ya 12%) əlavə edilir. Faizsiz taksit ilə alış-verişin ən geniş yayıldığı ticarət məntəqələrinə Adore və Sabina parfumeriya mağazalar şəbəkəsini, FLO ayaqqabı mağazalarını, Mybrands şəbəkəsinə daxil olan geyim mağazalarını və s. nümunə kimi göstərə bilərik (4).

Nəzərinizə çatdırmaq istərdik ki, bankların gündəlik tələbat krediti və istehlak krediti adı ilə müştərilərə təqdim etdiyi kredit məbləğlərini əldə etmək, müştərilərə onlardan tutulan faiz baxımından taksit kartları ilə ATM-dən nağdlaşdırma və ya card to card etməkdən daha sərfəlidir. Yuxarıda qeyd etdiyimiz kimi taksit kartları ilə nağdlaşdırma əməliyyatı edən zaman müştəridən anında 1% - 2% nağdlaşdırma komissiyası tutulur və illik faiz dərəcəsi 25% - 30% olmaqla hesablanır.

Lakin gündəlik tələbat kreditlərində ölkə üzrə kredit faizi 14.13 faizdir. Gündəlik tələbat kreditləri haqqında qeyd etmişkən, banklarda 2023-cü ilin ilk ayı üzrə nağd pul kreditinin şərtləri haqqında məlumatları təqdim etmək istərdik (5).

| № | Bankın adı | Məbləğ AZN | Müddət | Faiz dərəcəsi | Komissiya |
|---|---|---|---|---|---|
| 1 | ABB | 35 000-dək | 60 ayadək | 11.9%-dən başlayaraq | 0% |
| 2 | Accessbank | 500 - 40 000 | 6 -48 ay | 13%-dən başlayaraq | 0-1% |
| 3 | AFB Bank | 300 - 30 000 | 3 - 48 ay | 13,99% | 0%-dən |
| 4 | Azərbaycan Sənaye Bankı | 500 - 20 000 | 36 ay | 15-21% | 1% |
| 5 | Azər-Türk bank | 300 - 30 000 | 3-48 ay | 12.5%-15% | 0% |
| 6 | Bank Avrasiya | 100 000-dək | 60 ay | 15%-dən başlayaraq | 1% |
| 7 | Bank of Baku | 30 000-dək | 3-59 ay | 12.5%-dən başlayaraq | 1%-dən |
| 8 | Bank BTB | 30 000-dək | 48 ayadək | 12.99%-dən başlayaraq | 0%-dən |
| 9 | Bank Respublika | 50 000-dək | 48 ayadək | 13%-dən başlayaraq | 1% |
| 10 | Bank VTB | 300 - 40 000 | 6-59 ay | 12.99%-dən başlayaraq | 0% |
| 11 | Expressbank | 50 000-dək | 60 ayadək | 12%-dən başlayaraq | 0%-dən |
| 12 | Xalqbank | 150 000-dək | 60 ayadək | 12-16% | 0.2% |
| 13 | Kapital Bank | 30 000-dək | 59 ayadək | 15%-dən başlayaraq | 0% |
| 14 | Naxçıvanbank | 35 000-dək | 48 ayadək | 17% | 1% |
| 15 | Yelo Bank | 300 - 50 000 | 6 - 48 ay | 13%-dən başlayaraq | 0 - 2% |
| 16 | Paşa Bank | - | 48 ayadək | 21-29% | 1% |
| 17 | Rabitəbank | 30 000-dək | 48 ayadək | 12%-dən başlayaraq | 0% |
| 18 | Turanbank | 500-dən başlayaraq | 48 ay | 12.5%-dən başlayaraq | 0-2% |
| 19 | Unibank | 300 - 30 000 | 60 ayadək | 16%-dən başlayaraq | 1-3-5% |
| 20 | Yapı Kredi Bank | 300-dən başlayaraq | 59 ayadək | 12%-dən başlayaraq | 1.65% |
| 21 | Ziraat Bank | 250 000-dək | 48 ayadək | 16%-dən başlayaraq | 1% |

Statistikaya nəzər salsaq 2022-ci ildə 24 bank xalis mənfəət və 1 bank isə zərər etmişdir. 2022-ci ildə banklar 914.5 mln. manat xalis mənfəət, 1 mlrd. 371.4 mln. manat məbləğində əməliyyat qazancı əldə etmişlər. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə bankların xalis və əməliyyat üzrə qazancları müvafiq olaraq 50% və 45% artıb.

Kommersiya banklarından ən böyük xalis qazanc (mənfəət) "Kapital Bank" ASC-yə məxsusdur. Ölkənin ən böyük xidmət şəbəkəsinə sahib olan bank hesabat ilində 308 mln. manatlıq xalis mənfəət əldə edib. İkinci sırada 254 mln. manatla ABB və üçüncü sırada isə 149 mln. manatla "PAŞA Bank" ASC – dır (6).

| № | Bank | Xalis mənfəət |
|---|---|---|
| 1 | Kapital Bank | 308,047,000 |
| 2 | ABB | 254,379,520 |
| 3 | Paşa Bank | 149,394,000 |
| 4 | Bank of Baku | 36,865,803 |
| 5 | Xalq Bank | 27,215,190 |
| 6 | Bank Respublika | 26,652,017 |

| | | |
|---|---|---|
| 7 | Access Bank | 15,037,000 |
| 8 | Naxçıvanbank | 13,053,920 |
| 9 | Expressbank | 12,400,000 |
| 10 | Bank VTB Azərbaycan | 11,904,000 |
| 11 | Rabitəbank | 11,181,030 |
| 12 | Azər Türk Bank | 11,020,000 |
| 13 | AFB Bank | 10,884,050 |
| 14 | Ziraat Bank Azərbaycan | 7,559,400 |
| 15 | Premium Bank | 5,446,000 |
| 16 | Azərbaycan Sənaye Bankı | 5,285,910 |
| 17 | Yelo Bank | 5,228,510 |
| 18 | Turan Bank | 1,924,000 |
| 19 | Bank Melli İran. Bakı filialı | 1,866,822 |
| 20 | Bank Avrasiya | 1,815,340 |
| 21 | Yapı Kredi Bank Azərbaycan | 1,153,360 |
| 22 | Unibank | 556,634 |
| 23 | Günay Bank | 490,370 |
| 24 | Muğan Bank | 56,650 |
| 25 | Bank BTB | -4,974,771 |

2022-ci ildə bankların maliyyə göstəriciləri aşağıdakı kimidir (7):

| | **Banklar** | **Məbləğ: aktivlər üzrə 4 rüb 2022 manatla** |
|---|---|---|
| | ABB | 14 038 886 300 |
| | AccessBank | 1 168 855 000 |
| | AFB Bank | 282 381 450 |
| | ASB | 110 059 440 |
| | Azər-Türk Bank | 965 157 000 |
| | Bank Avrasiya | 224 268 270 |
| | Bank BTB | 374 199 985 |
| | Bank of Baku | 701 231 562 |
| | Bank Respublika | 1 584 857 154 |
| 0 | Expressbank | 436 956 000 |
| 1 | Günay Bank | 281 317 820 |
| 2 | Kapital Bank | 7 822 164 000 |
| 3 | Melli İran Bankı Bakı filialı | 96 620 561 |
| 4 | MuğanBank | 799 338 200 |
| 5 | Naxçıvanbank | 346 462 800 |
| 6 | Pakistan Milli Bankı - Bakı filialı | 0 |
| 7 | Paşa Bank | 8 519 814 000 |

| | | |
|---|---|---|
| 8 | Premium Bank | 692 202 000 |
| 9 | Rabitəbank | 954 989 602 |
| 0 | TuranBank | 820 821 000 |
| 1 | Unibank | 1 440 643 837 |
| 2 | VTB Azərbaycan | 238 493 000 |
| 3 | Xalq Bank | 2 685 070 710 |
| 4 | Yapı Kredi Bank | 481 927 720 |
| 5 | Yelo Bank | 821 535 550 |
| 6 | Ziraat Bank Azərbaycan | 528 899 300 |

Bildiyiniz kimi taksit ödənişləri və o cümlədən birdəfəlik ödənişlər bankların partnyorları təmin etdiyi POS-terminallardan keçir. POS-terminal (ing. Point of Sale – satış nöqtəsi) – bank kartları ilə keçən ödənişləri qəbul edən cihazdır. Daha sadə desək, POS-terminal ödənişi nağdsız şəkildə icra etməyə imkan verir (buna ekvayrinq deyilir). Söhbət həm tam ölçülü kassa aparatlarından, həm də smartfon riderlərindən gedir. Bu cür terminallar ən çox hipermarketlərdə, kiçik ərzaq mağazalarında, eləcə də restoran və ya kafelərdə quraşdırılır. Ənənəvi kassadan fərqli olaraq, POS-terminallar satışların sayını izləyə, tranzaksiyalar üzrə bir sıra xidmətlərdən istifadə etmək və təhlil üçün əlavə məlumat toplaya bilirlər. Cihaz kassirlərin işini xeyli sürətləndirməklə yanaşı, onları növbələrdən və narazı müştərilərdən qoruyur (8).

POS-terminalların müasir modelləri müxtəlif ödəniş kartları (çip, maqnit zolaq, təmassız "PayPass" texnologiyası), NFC funksiyalı digər cihazları (smartfon, saat, üzük, stiker-kartı və s.) və Appple Pay - i dəstəkləyir.

Terminaldan əlavə, ödənişin keçməsi üçün satıcı əməliyyat məlumatlarını vergi orqanlarına mütləq ötürməlidir. Bu proses öz növbəsində fiskalizasiya adlanır. Bunun üçün terminallar hər bir əməliyyat haqqında məlumatı vergi orqanlarına ötürən kassa sistemləri ilə inteqrasiya olunmalıdır.

POS-terminalların işi haqqında bir sıra nüansları diqqətinizə çatdırmaq istərdik.

1. Ödəniş etmək üçün kart sahibi kartın növündən asılı olaraq onu ya terminalın içinə salır və kartın parametrləri bunu tələb edərsə, kassir sizdən PİN kodu daxil etməyinizi xahiş edir, ya da sadəcə yaxınlaşdırır. Məlumat üçün bildirmək istərdik ki, "Mərkəzi Bankın" tələbinə əsasən 99 manatdan yüksək ödnişlərdə POS-terminalda PİN kodu daxil etmə parametrləri mütləq əks olunmalıdır.

2. Aparat əməliyyatı haqqında ekvayrinq banka (terminalın qoşulduğu) və ödəniş sisteminə sorğu yönləndirir.

3. Cihaz alıcının hesabında pulun olub-olmadığını yoxlamaq üçün emitent banka (alıcının kartını buraxan kredit təşkilatına) sorğu yönləndirir və tələb olunan məbləği silmək üçün icazə istəyir.

4. Əgər ödəniş keçərsə, satıcı məhsulu, qəbzi və kartı alıcıya qaytarmalıdır. Əgər kartınızda kifayət qədər vəsait yoxdursa, bank əməliyyatı həyata keçirməkdən imtina edir və POS-terminalda 3 rəqəmdən ibarət xəta kodu əks olunur.

5. Çekin iki nüsxəsi çap olunur – biri kassada qalır, digəri müştəriyə verilməlidir. Alıcı həmçinin elektron çeki əldə etmək hüququna malikdir.

6. Ödəniş əməliyyat məlumatları prosessinq mərkəzinə göndərilir.

Qeyd edək ki, terminalın quraşdırılması həmişə sahibkarın öz istəyi ilə olmur – bəzi ölkələrin qanunvericiliyində POS-terminal almağa borclu olan biznes subyektlərinin kateqoriyası vardır. Bu kateqoriyaya illik dövriyyəsi müəyyən edilmiş həddi keçən bütün iri müəssisələr şamil edilir.

POS-terminalların növləri aşağıdakılardır:

- Mobil POS-terminal - daşına bilən POS-terminaldır, akkumulyator ilə işləyir. Bu cür terminalları pizza və ya başqa məhsul sifariş etdikdə kuryerlərin istifadə etdiyini görə bilərsiniz.
- Kassa POS-terminal (POS-terminal sistemi və ya stasionar sensorlu kassa) - kassirin iş yerində quraşdırılır. Bu cür terminallara istənilən böyük marketdə rast gələ bilərsiniz.
- Virtual POS-terminal – avadanlıqsız işləyən, avtomatik olaraq kartdan məbləğ çıxan terminaldır. Müştəri fərdi məlumatları daxil edir və veb-interfeys vasitəsilə əməliyyatı həyata keçirir. Bu informasiya bank və ya ödəniş xidməti tərəfindən yoxlanılır və kart hesabında kifayət qədər məbləğ olduqda əməliyyat uğurlu olur.

Ekvayrinq üçün nəzərdə tutulmuş adi POS-terminal onlayn-kassanı əvəz etmir, çünki o, fiskal çeklər vermir və tranzaksiya məlumatlarını vergi orqanlarına ötürmür (9).

POS-terminallar haqqında qeyd etmişkən bildirmək istərdik ki, Azərbaycanda mövcud olan POS-terminal növləri aşağıdakılardır:

a) Verifone X990




a) Verifone X680




a) PAX A920



a) Azsmart



Nəzərinizə çatdırmaq istərdim ki, taksit ödənişlərini və birdəfəlik ödənişləri həyata keçirmək üçün banklar partnyor mağazalarını eyni zamanda E-COM ID ilə təmin edirlər. Partnyorlarda öz növbəsində bankın onlara təqdim etdiyi identifikasiya nömrəsini və sertifikatları satış və s. məqsədləri üçün yaratdıqları sayt və tətbiqlərində istifadə edirlər. Təcrübələr sübut ediriki son 2 ildə Azərbaycanda və dünyada sayt üzərindən onlayn satışlar artmışdır. Buda öz növbəsində E-commerce ticarətinin inkişafına və ona olan tələbin artmasına səbəb olur.

Elektron ticarət nədir sualını aşağıdakı kimi cavablaya bilərik:

Hər hansı bir şirkət onlayn bir işə başlaya bilər, bununla birlikdə elektron ticarətdə uğurlu olmaq üçün istehlakçıların alış-veriş mərkəzlərində və ya mağazalarda onları tapmaqda çətinlik çəkdikləri bir məhsulu tapmaq yaxşıdır. Unutmaq olmaz ki, e-ticarət şirkətin saytına hədəf trafik gətirməyə və onun vasitəsilə müştəriləri cəlb etməyə kömək edən marketinq strategiyası tələb edir.

**Nəticə**

Məlumat üçün bildirmək istərdik ki, taksit kart bazarında Birbank kartları lider möqeyindədir. Belə ki, hazırda “Kapital Bank”-ın 400 000 –dən artıq taksit kart müştərisi mövcuddur və bankın ümumi taksit dövriyyəsi 300 milyon manatdan çoxdur. Azərbaycanda ümumi taksit dövriyyəsinin 366 milyon olduğunu nəzərə alsaq, Birbank taksit kartı ilə keçən dövriyyənin ümumi taksit bazarında payının 82% olduğunu müşahidə edə bilərik. Əlavə olaraq, Birbank kartları üzrə 2022-ci ilin sonu üçün ümumi olaraq dövriyyə (birdəfəlik və taksit ödənişləri) hədəfi 2 milyard manatdır və onlar bu rəqəmə çatıb.

Əlavə olaraq bildirmək istərdik ki, Azərbaycan banklarının TOP-10-luğuna yeni bank daxil edilib.

1 iyul 2021-ci il tarixində aktivlərinə görə ən böyük 10 bankların siyahısında yer alan “PremiumBank” 1 oktyabr tarixinə olan reytinqdən kənara çıxıb. Bankı siyahıdan “Turan Bank” ASC

uzaqlaşdırıb. Belə ki, cari ilin ikinci rübündə 602.95 mln. manat aktivə sahib olan "Turan Bank" üçüncü rübün sonuna 671.28 mln. manatlıq aktivlə ölkənin 10 ən böyük bankından birinə çevrilib.

Ən böyük banka görə ilin ikinci rübünün sonu 7-ci yerdə olan Azərbaycan Sənaye Bankı ASC üç ay sonra 8-ci yerə düşmüşdür. Onun yerinə aktivlərində böyük artım edən "Rabitəbank" ASC yüksəlmişdir.

| | Bankın adı | Həcmi |
|---|---|---|
| | ABB | 9,431,896,990 |
| | Paşa Bank | 6,068,042,000 |
| | Kapital Bank | 5,916,038,000 |
| | Xalq Bank | 2,221,242,120 |
| | Bank Respublika | 1,194,327,560 |
| | Unibank | 960,801,521 |
| | AccessBank | 944,895,000 |
| | Rabitəbank | 906,865,100 |
| | Azərbaycan Sənaye Bankı | 866,645,730 |
| | Turan Bank | 671,282,000 |

## Ədəbiyyat


1. https://az.wikipedia.org/wiki/Taksit_kart%C4%B1
2. https://banker.az/taksit-kartlar-nece-isleyir/
3. https://banker.az/az%C9%99rbaycanda-asagi-faizl%C9%99-nagd-pul-krediti-ver%C9%99n-banklar-siyahi/
4. https://banker.az/2022-ci-ild%C9%99-hansi-banklar-xalis-m%C9%99nf%C9%99%C9%99t-%C9%99ld%C9%99-edib-yenil%C9%99nir/
5. https://kredit.banker.az/ratings
6. https://banker.az/ensiklopedia/pos-terminal-n%C9%99dir/
7. https://www.actualidadecommerce.com/az/que-es-e-commerce/
8. https://www.kapitalbank.az/news/kapita-bank-ilsonu-gostericiler
9. https://banker.az/az%C9%99rbaycanin-10-%C9%99n-boyuk-banklarinin-reytinqi-d%C9%99yisdi-siyahi/


Göndərilib: 06.02.2023 Qəbul edilib: 12.04.2023

## İÇİNDƏKİLƏR

**Hacı Həsənov**
Güney Qafqaz əhalisinin milli-etnik tərkibi haqqında (1897-ci il Rusiya imperiya əhalisinin birinci ümumi siyahıya almasının materialları əsasında) ................................................6
**Arzu Babayeva**
Xarici dil dərslərində iqtisadi mətnlərlə işləməyin metodları ........................................................11
**Pərvin Qafarova**
Ümumtəhsil məktəb biologiyasının tədrisində şagirdlərə ekoloji bilik və bacarıqların aşılanması ............................................. ...............................................................16
**Səfurə Cəfərova**
Azərbaycan auditoriyasında ilkin mərhələdə ingilis dili tələffüz vərdişlərinin aşılanması yolları ..........................................................................................................22
**Nigar Babayeva**
**Xədicə Qayıbova**
İON rabitəsinin tədrisi zamanı STEAM təhsil metodunun tətbiqi .....................................................28
**Sevda Novruzəliyeva**
Kommunikasiya və gözəl əxlaq ..........................................................................................32
**Kamil Adıgözəlov**
Şimali Azərbaycanın Rusiya tərəfindən işğal dövründə aqrar münasibətlərin nizamlanması cəhdləri ..........................................................................................38
**Aynurə Qurbanova**
Söyləmlərin üst qatda semantik əlamətləri ..........................................................................46
**Kubra Quliyeva**
Ömər Faiq Nemanzadə yaradıcılığında ana dili məsələsi ...............................................................54
**Xatirə Məmmədova**
Beynəlxalq turizm konsepsiyası və onun növləri ..................................................................59
**Nicat Həsənov**
"Əmtəə nişanından istifadə edilməməsi nəticəsində ona dair hüququn xitam olunması əsasları və təcrübədə qarşılaşılan problemlər" .........................................................64
**Khazar Musayev**
Sustainable economic development and its challenges ...................................................................71
**Hajar Abdullayeva**
Using breaking news stories while teaching english for specific purposes to students of the school of political administration ...........................................................................76
**Bəkir İsmayılov**
İdmanda gender bərabərliyinin təmin olunmasında dünya atletikasının rolu ...................................81
**Fuad Əlizadə**
Beynəlxalq təcrübədə kriptovalyutaların hüquqi tənzimlənmə mexanizmi .....................................86
**İlkin Əliyev**
Strateji planın tətbiqi və qiymətləndirilməsi yolları ..........................................................91
**Jala Shahveranli**
The importance of national and regional development polices in the environmental sustainability ..................................................................................95
**İsa Əlili**
Azərbaycanda işsizliyin azaldılmasında dövlət siyasətinin rolu .....................................................100
**Elvin Şirinov**
Birləşmiş Millətlər Təşkilatının müasir siyasi proseslərdə rolu .....................................................105
**Aqşin Ağazadə**
Kommersiya banklarının aktivlərinin keyfiyyətinin qiymətləndirilməsi .......................................111

**Ayxan Alıbəyli**
Azərbaycan-Almaniya ticarət əməkdaşlığının əsaslandırılması ....................................................115
**Əli Nəsirli**
Bankların taksit kartları üzrə statistik və analitik analizi, taksit kart müştəriləri haqqında məlumatların müxtəlif meyarlar üzrə təhlilinin aparılması ................................121
**Aysel Abdullazade**
Cultural diplomacy ...................................................................................................129
**Elchin Aliyev**
Use of information technologies in the human resources system ................................................134
**Gunay Hajizade**
Feminism in the Novel of Jane Eyre ........................................................................140
**Günay Novruzova**
Azərbaycan folklorunun öyrənilməsində Heydər Əliyevin rolu ....................................................145
**Günay Süleymanova**
XIX-XX əsrlər ingilis ədəbiyyatında müstəmləkəçilik mövzusunun təşəkkülü ............................150
**Nurlan Arifzadə**
Kənd təsərrüfatı təyinatlı obyektlərdə nəmliyə nəzarət ...............................................................155
**Qəhrəman Rüstəmov**
İdman yarışlarında irqi ayrı-seçkilik probleminin hüquqi tənzimlənilməsinin analizi ....................159
**Səlcuq Yusifli**
Kommersiya sirrinin anlayışı və meyarları ..............................................................163
**Tacirə Abdullayeva**
Seçki standartları, beynəlxalq təcrübə və Azərbaycan modeli .....................................................170
**Tamerlan Hacıyev**
Heydər Əliyev Azərbaycanda konstitusion islahatların banisidir .................................................175
**Yusif Əhmədzadə**
Bankların taksit kartları üzrə statistik və analitik təhlili ...............................................................183
**Kamal Novruzov**
The role of administrative law regulation in civil society ............................................................187
**Məhəbbət Gözəlov**
**Hikmət Əsgərov**
**Mustafa Vətənxah**
İki vuruşlu və dörd vuruşlu mühərriklərin müqayisəli təhlili .......................................................192
**Kamal Novruzov**
Azərbaycan Respublikasında informasiya cəmiyyətinin yaradılmasının hüquqi əsasları ...............198
**Cavid Məmmədli**
Müasir dövlət qulluğu sistemində kadr texnologiyalarının tətbiqi ................................................203
**Aytac Cəfərova**
Daşıyıcının gəmini səfərə hazırlaması öhdəliyi ..........................................................................209

İmzalandı: 27.04.2023
Formatı: 60/84, 1/8
H/n həcmi: 27.5 ç.v.
Sifariş: 634

---

aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az

DOI: https://doi.org/10.36719/2706-6185/22/129-133

**Aysel Abdullazade**
Deloitte & Touche MMAC
aysel_abdullazade@hotmail.com

# CULTURAL DIPLOMACY

## Abstract

The main idea in this article is to explain the term "Cultural Diplomacy" and also the role of cultural relations in diplomacy.

Culture is like the core that we use and it is considered our point of support in interaction with the countries. Cultural relations are one of the main parts of Diplomacy, where we use the term "Cultural Diplomacy". "Cultural diplomacy" is a kind of diplomacy that will allow people, better to learn each other.

The propaganda maintenance of cultural diplomacy includes not only art projects, but also cultural features of citizen, and the display of that in a society. In such case that each person is the diplomat is not a pompous phrase. Cultural level of the citizen of each country, its relation to the country and the national pride, shown in a world community, are some kind of «magnifying glass» for perception of the given country by other people.

***Keywords:*** *"Cultural diplomacy", international relations, British Council, communication, political system, United States of America*

**Aysel Abdullazadə**
Deloitte & Touche MMAC
aysel_abdullazade@hotmail.com

## Mədəni diplomatiya

## Xülasə

Bu məqalənin əsas ideyası "Mədəni diplomatiya" terminini və həmçinin mədəni əlaqələrin diplomatiyada rolunu izah etməkdir.

In the nineteenth century when Charlotte Bronte wrote this novel, she expressed her feelings about woman's position. It is fact that family is the smallest unit of community. The woman's status has to try some filtering in family. Even in the home, woman can meet the "supremacy of man". The supremacy which practically makes a man has a power for the whole things in the home. Then, as an independent woman who feels really irritating with "the power of man", she tries to create some conflicts of this unequal situation. This is the sample of strong voice of Jane. What she desires is about a woman position. It is interesting that Jane certainly does not understand anything about gender manifestation, feminism, woman status or anything related to do it, she has never got a specific education about that. It means that she does not purposely do all rebellions about woman autonomy. She just imagines how nice it would be, if woman has an equal movement which is same with man does (4).

Jane Eyre is one of the greatest representatives of novels which show how women can move from a life of poverty and oppression to independence and victory. Charlotte Bronte herself suffered a lot in her life like Jane before becoming an accomplished writer. Also it is possible to see clearly the relations between the heroine and its author while reading a novel. Charlotte Bronte lived in the same environment under the same conditions as Jane live. That means, Charlotte Bronte reflects a part of her life, inner self, also, the society in which she lived in the work of Jane Eyre which mirrored the writer‘s life. That was an inspiration achieving the novel. Jane led a life of toleration for vary difficulties as a women. She suffered in all her life periods from her childhood in Gateshead Hall, through adolescence in Lowood School to maturity as a governess of Mr. Rochester's daughter, Adele, at Thornfield Hall. In the novel Jane Eyre, the gender inequality is quoted: *"Nobody knows how many rebellions, besides political rebellions, ferment in the masses of life which people earth. Women are supposed to be very calm generally: but women feel just as men feel. They need exercise for their faculties, and field for their efforts, as much as their brothers do. They suffer from too rigid restrain, too absolute a stagnation, precisely as men would suffer; and it is narrow-minded in their more privileged fellow-creatures to say that they ought to confine themselves to condemn them, or laugh at them, if they seek to do more or lean more than custom has pronounced necessary for their sex*" (Charlotte, 1847-1897: 12).

This quote is an excellent sample of Jane's longing for equality and independence. The oppression that happened in Jane's life is that she makes some uprisings. Started from the strong voices she created in her mind then moving to real actions of revolts.

However, through time Jane brings her emptiness with her, she tries to restore her life with her close friends, friendly teacher and others. All the disagreements mixed with one achievement, woman autonomy. She tries really hard to gain it. She wants to make her own decisions. Jane's rebellion against Mrs. Reed and John represents her feminist consciousness in getting honor from other people as a noble and respectable person. Jane stands up to her cruel aunt, Mrs. Reed,

as a little child, and she is Mr. Rochester‘s equal in conversation and struggled to retain self-respect as a teacher and governess. Jane says:

*“.. I can live alone, if self-respect and circumstances require me so to do. I need not sell my soul to buy bliss. I have an inward treasure born with me, which can keep me alive if all extraneous delights should be withheld, or offered only at a price I cannot afford to give”* (Charlotte, 1847-1897: 19)…

Jane is fearless, educated aware and knowing to moderate her emotions with self-control. Meeting with Mr. Rochester and fell in love with him expressed the feminism in Jane and her thoughts. Jane loves Mr. Rochester with all her pure heart and Mr. Rochester’s status and wealth make him inaccessible for Jane to approach, yet she never feels herself lower in status to Mr. Rochester though she is a poor family teacher. Jane believes that they are equal and should respect each other. In fact, it is her simplicity, majesty and sincerity that touch Mr. Rochester. Mr. Rochester feels from the deep of his heart that Jane is the spiritual partner he always looks for. When Jane is moved by his whole-heartedness, they fall in love deeply. But at the time of their wedding, Jane finds the secret that she is not Mr. Rochester's legal wife. Jane feels heartbreaking on this news. She lives dilemma whether to stay or to leave. She says to Rochester (6):

“.... I care for myself. The more solitary, the more friendless, the more unsustained I am, the more I will respect myself. I will keep the law given by God, sanctioned by man. I will hold to the principles received by men when I was sane, and not mad as I am now, laws and principles are not for the times when there is no temptation, they are for such moments as this when body and soul rise in mutiny against their rigor, stringent are they, inviolate they shall be” (Charlotte, 1847-1897: 27).

In the novel *Jane Eyre,* Charlotte Bronte portrayed a strong, free and independent woman. Jane fought alone in a world full of with problems and known by social inequality from place to place looking for freedom and sovereignty. Jane took decision and was able to express herself as well as to build herself up with enough mental maturity and confidence to face life. Jane stays true to herself during her quest for personality and sovereignty. The frightening night in the Red Room causes her come to life and having experienced true fear. Now Jane is afraid to rise for herself against the male-dominated society. Miss Temple is another important figure in Jane’s life quest. Owing to the fact that Miss Temple teaches her to suppress her anger. Through the death of Jane’s best friend, Helen, and Bertha, Jane is released from the man ideal of woman sovereignty, the angel in the house. Jane’s quest for identity and sovereignty went on at Marsh End. Jane found her good relatives at Marsh and defeated the oppressions by the bad relatives at Gateshead Hall. Jane found safety and defeated the anger suppressed in her absent-minded. Jane controlled her feeling with discernment based on her self-respect and had a strong personality. Although all the conditions she lived, Jane achieved to overcome her troubles and success happiness by marriage with the wealthy man who she loves and any girl dreams about and Jane became independent financially (7).

Jane’s status as the heroine of the novel, sometimes has a brilliantly imagination of her status. The women status as a second sex makes men to be a significant role. It is a normal thing if men are successful both in public sphere and domestic sphere. For example, working outside a house and also taking care of children. According to the novel of Charlotte Bronte, the image of women stands behind the men with the social class variations among them. It clearly shows that women mostly doing a household job rather than being a financial resources in a family. Even though Jane Eyre in an anomaly in this matter, she tries her best to make her own economic status by working as a governess which in the nineteenth century, the profession of governess itself could raising Jane’s status in society. It cannot be disclaimed that Jane still trusts men’s character (8).

## Conclusion

“Feminism in the novel of *Jane Eyre*” article presents the difficulties which women lived, their place and role in society of nineteenth century. It has been analyzed different female characters in the novel from the different aspects of womanhood which was a concept of the nineteenth-century Victorian society regarding women’s behavior, appearance, and manners. According to these

features, development of gender equality has always been in the focus of attention. The main goal of article is to show the perception of gender inequality in Victorian era, how conventions and mores of society affected women and made them obeyed people of society and to analyze the novel of Charlotte Bronte taking into account the aspects mentioned above.

## References

1. Kabir, Muhammad, H. (2010). Northern women development. [Nigeria] OCLC 890820657
2. Mansour, F. (1998). Analisis gender dan transformasi sosial. Yogyakarta: Insist Press.
3. Alison, P. (1991). "Women who taught: Perspectives on the history of women and teaching". University of Toronto. Press: Printed in Canada.
4. https://www.wishesquotes.com/women/famous-quotes-about-women
5. Charlotte, B. (1847-1897). “Jane Eyre”. London: Service, Paton. Kindle.
6. https://www.womensweb.in/2016/06/11-inspiring-gender-equality-quotes-will-leave-thinking/
7. http://www.hierarchystructure.com/victorian-england-social-hierarchy/
8. http://dictionary.cambridge.org/ dictionary/english/feminism

Received: 06.01.2023 Accepted: 21.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/145-149

**Günay Novruzova**
Naxçıvan şəhər
Ə.Ağayev adına 8 nömrəli tam orta məktəb
gunaynovruzova78@gmail.com

# AZƏRBAYCAN FOLKLORUNUN ÖYRƏNİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**Xülasə**

Məqalə Azərbaycan siyasətinin, dövlətçiliyinin əsasını qoymuş Ulu Öndər Heydər Əliyevin şifahi xalq ədəbiyyatının öyrənilməsində rolunun təhlilinə həsr edilmişdir. Burada Heydər Əliyevin xalq yaradıcılığının qorunması, təbliği işinin təşkilində və ənənəvi mədəniyyətin bərpasında, xalq yaradıcılığının tədqiqi və folklorşünaslığın İnstitut səviyyəsinə qədər inkişafında rolundan bəhs edilir. Bu məqaləyə qədər Heydər Əliyevin ənənəvi mədəniyyətlə bağlı fəaliyyəti, Ulu Öndərin irsi ənənəvi mədəniyyət və onun tərkib hissəsi olan folklorla əlaqədə geniş və sistemli şəkildə öyrənilmişdir. Bu məqalə həmin tədqiqatların davamıdır.

***Açar sözlər:*** *Ulu Öndər Heydər Əliyev, şifahi xalq ədəbiyyatı, ənənəvi mədəniyyət, "Kitabi-Dədə Qorqud", aşıq ədəbiyyatı*

**Gunay Novruzova**
Nakhchivan city secondary school
№ 8 named after A.Aghayev
gunaynovruzova78@gmail.com

## The role of Haydar Aliyev in learning Azerbaijani folklore

**Abstract**

The article is devoted to the analysis of the role of the great leader Haydar Aliyev, who laid the foundations of the politics and statehood of Azerbaijan, in the study of oral folk literature. It discusses the role of Haydar Aliyev in organizing the protection and popularization of folk art and the restoration of traditional culture, the study of folk art and the development of folklore to the level of the Institute. Prior to this article, Haydar Aliyev's activities related to traditional culture, the legacy of the Great Leader, were widely and systematically studied in connection with traditional culture and folklore making it up. This article is a continuation of these studies.

***Keywords:*** *Great leader Haydar Aliyev, oral folk literature, traditional culture, "Kitabi-Dada Gorgud", Ashuk literature*

## Giriş

Hər bir xalqın və bu sırada azərbaycanlıların mənəvi dəyərlərindən ən əsası şifahi xalq ədəbiyyatı nümunələridir. Məlumdur ki, dil, din, ədəbiyyat və başqa bu kimi humanitar sahələrlə yanaşı, cəmiyyətin mənəvi institutlarını birləşdirən sahələrdən biri də xalq yaradıcılığı irsidir. Xalq yaradıcılığı xalqın ən dərin tarixi yaddaşı olduğu üçün onu bütün kənar təsirlərdən təcrid edir. Bu anlamda şifahi xalq ədəbiyyatı mənəviyyatı xalq mənəviyyatının özüdür, onun tamı, bütövüdür. Bu dəyərlərin qorunması və öyrənilməsi həmişə aktual olmasına baxmayaraq, Azərbaycanın şifahi xalq ədəbiyyatı nümunələri uzun müddət Çar Rusiyası dönəmində (1828-1918) sərt senzura, Sovet dövründə (1920-1990) isə bundan bir qədər fərqli şəkildə olan ideoloji yasaqlar onun lazım olduğu səviyyədə öyrənilməsinə mane olmuşdur. 1937-ci il repressiyaları zahirən sərbəst görünən sovet elminin tarixində də qaranlıq dövr açmış və onun dəhşətli xofu 1970-ci illərə qədər davam etmiş, folklor irsinin öyrənilməsi, xüsusilə onun ideya və məzmun səviyyəsində əks olunan mənəvi məsələlərin milli zəmində araşdırılması işində böyük fasilə və boşluqlar yaratmışdır. Məhz bu dövürdə Azərbaycan filologiyası məhv edildi. Ə.Abid, S.Mümtaz, H.Zeynallı, V.Xuluflu,

H.Əlizadə və başqalarının şəxsində ciddi tədqiqatçılar nəsli məhv edildi, elmdə ənənə və varislik rabitəsi qırıldı. H.Araslı, Ə.Tahirov, O.Qurbanov, H.Qasımov, İ.İbrahimov, M.Təhmasib, N.Seyidov, Ə.Axundov və b. Azərbaycan sovet folklorşünaslığının yeni dövrünü başladılar. Müxtəlif şifahi xalq ədəbiyyatı nümunələri yenidən toplanıb nəşr edildi. Bu dövr folklorşünaslığı partiyaya və Sovet dövlətinə sadiqliyi milli-mənəvi dəyərlər daha arxa plana keçirir, şifahi xalq ədəbiyyatı mətnləri "dinsizləşdirilirdi".

1970-ci illərdə Ulu Öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəlişi Azərbaycanda bütün sahələrdə olduğu kimi folklorşünaslıqda da yeni mərhələ başlanmasına səbəb oldu. Kifayət qədər mürəkkəb siyasi dövürdə işə başlayan Heydər Əliyev möhkəm iradəsi və təşəbbüskarlığı ilə milli-mənəvi dəyərlərin öyrənilməsini günün əsas məsələsinə çevirir, onun tədqiqi və təbliği işini ən yüksək səviyyədə təşkil etməyi bacarır. Onun siyasi istedadı milli-mənəvi irsin öyrənilməsinə təkan vurur, şifahi xalq ədəbiyyatı gənc nəslin tərbiyəsi, "sovet insanının mənəviyyatının saflığı", "mədəni irsin qorunması" və s. adlar verilərək, ideoloji zərbələri zəiflətməyə nail olur.

Ümummilli Öndərlə başlanan mənəvi quruculuq dövrü Azərbaycanda humanitar sahənin, o cümlədən folklorşünaslığın inkişafında xüsusi mərhələyə çevrilir. Uzun dövr ərzində dövlətçilik ənənələrimizdə fasilə yarandığından, folklor işi dövlət dəstəyindən məhrum olmuşdu. Heydər Əliyevin siyasi, iqtisadi, mədəni quruculuqla yanaşı, mənəvi quruculuğa da çox böyük önəm verməsi folkloru dövlət siyasətinin bir xəttinə çevirdi. Bu səbəbdən Ulu Öndərin hakimiyyət illəri Azərbaycan folklorşünaslığının tarixində təşəkkül dövrüdür.

Məhz bu dövrdə Azərbaycan folklorunun geniş şəkildə toplanması, çapı, tədqiqi və təbliği işi çox genişlənir. Şifahi xalq ədəbiyyatı nümunələri kütləvi informasiya vasitələrində nəşr olunmağa başlandı, şifahi xalq ədəbiyyatı abidələrinin və böyük sənətkarların yubileyləri ən yüksək səviyyədə qeyd olundu, bu sahədə xidmətləri olan alimlərin işi və əməyi qiymətləndirildi.

Azərbaycan şifahi xalq ədəbiyyatının qorunması və tədqiqi dövlət siyasətinin bir xəttinə çevrilməsi Ümummilli öndər Heydər Əliyevin yaratdığı İnstitutunda gerçəkləşdirilən ilk təşəbbüsdür. Mənəvi həyatımızda böyük rolu olan bu hadisənin təsvirinə və təhlilinə də böyük zərurət vardır. Bunun milli-mənəvi inkişafımızın perspektivi üçün də əhəmiyyəti böyük idi.

Azərbaycanın müasir tarixində misilsiz xidmətləri olan ümummilli lider Heydər Əliyevin fəaliyyəti xalqımızın ictimai-mədəni həyatının bütün sahələrini əhatə edir. Bu möhtəşəm fəaliyyət Azərbaycan milli humanitar düşüncəsinin tükənməz qaynağı olmuş və elmi dövriyyədə təhlil edilmiş, milli ideologiyanın strateji əsaslarının hazırlanmasında geniş şəkildə və müəyyənləşdirici istiqamətlər kimi istifadə edilmişdir. Heydər Əliyev fenomeni Azərbaycan elminin qabaqcıl nümayəndələri R.Mehdiyev, A.Mehdiyev, M.Kərimov, A.Əlizadə, A.Həşimov, A.Axundov, B.Nəbiyev, Y.Qarayev, A.Nəbiyev, K.Talıbzadə, T.Bünyadov, V.Məmmədəliyev, T.Hacıyev, İ.Həbibbəyli, R.Hüseynov, T.Kərimli, H.İsmayılov, M.Cəfərli, M.Qasımlı, T.Novruzov, Y.İsmayılova, R.Qafarlı, M. Kazımoğlu, K.Əliyev, C.Qasımov, S.Qəniyev, A.Xəlil və b. tərəfindən öyrənilməyə başlanmış və bu sahədə ciddi addımlar atılmışdır (Paşazadə, 2018: 7). Bu sahə bizim milli ideoloji sistemimizin əsaslarını özündə ehtiva etməkdədir.

Heydər Əliyevin mənəvi quruculuq siyasətində xalq yaradıcılığı prioritet sahələrdən birini təşkil edir. Şifahi xalq ədəbiyyatı nümunələrinin qorunması, bərpa olunması, şifahi xalq ədəbiyyatı nümunələrinin nəşri, xalq mərasimlərinin, milli bayramların rəsmi olaraq qeyd olunması, abidələrin və el sənətkarlarının yubileylərinin keçirilməsi, xalq tamaşaları, oyunlar, yarışlar və s. tətbiqi, təbliği və tədqiqinin dövlət səviyyəsində həyata keçirilməsi Heydər Əliyevin mənəvi quruculuq siyasətinin əsas təmayülü kimi diqqət mərkəzində olmuşdur.

Mənəvi quruculuq bütün cəmiyyətlərin həyatında çox mühüm hadisədir. Ümummilli lider Heydər Əliyev bunun xalq üçün dəyərini hər kəsdən artıq bilirdi və həmişə də xüsusi diqqət mərkəzində saxlayırdı. Mənəvi quruculuq politologiyada "hakimiyyət və xalq", folklorşünaslıqda isə "rəhbər və xalq" münasibətlərini özündə birləşdirir. Bunlardan birincisi politoloji tədqiqat mövzusu kimi xalq yaradıcılığı nümunələri üzərində işlənə bilər. Çünki şifah xalq ədəbiyyatında sabit və ictimai xarakter daşıyan milli-mədəni dəyərlər gerçəkləşir. Bu mənada xalq düşüncəsində və davranışında, sosial psixologiyada sabitləşmiş münasibətlərin öyrənilməsi dövlətçilik üçün az əhəmiyyət daşımır. Şifahi xalq ədəbiyyatı nümunələrində "rəhbər və xalq" modeli isə düşüncə və

davranışın idealizə olunmuş və xalq yaradıcılığında cilalanaraq sənət keyfiyyəti qazanmış formasıdır. Mənəvi quruculuq istiqaməti Heydər Əliyev siyasətinin ana xəttini təşkil edirdi.

O, siyasətinin əsas tezisini sadə və aydın formada təqdim edirdi: "Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz" (Əliyev, 1998-2008: 127).

AMEA Folklor İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru Muxtar İmanov yazır: "Azərbaycan müstəqillik qazanandan sonra Heydər Əliyev azərbaycançılığı milli dövlətimizin əsas ideologiyası elan etmişdir. Dünya azərbaycanlılarının I qurultayının təşəbbüskarı olan H.Əliyev həmin qurultaydakı məşhur nitqində (10 noyabr 2001-ci il) azərbaycançılığın əsas prinsiplərini bəyan etmiş və bu ideyanı bütün dünya azərbaycanlılarını birləşdirən başlıca ideya kimi səciyyələndirmişdir. H.Əliyev milli ideologiyanın milli dövlətçilik ənənələri və tarixi keçmişimizlə bağlı olmasını mühüm bir şərt kimi irəli sürmüşdür: "Milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adətənənələri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır" (İmanov, 2013: 14-15).

Milli-mənəvi dəyərlərin qorunması işində tarixi addımlar atmış Heydər Əliyevin tarixi fəaliyyətindən biri də "Kitabi Dədə Qorqud" dastanı ilə bağlı olmuşdur. Heydər Əliyevin "Kitabi Dədə Qorqud" eposuna baxışlarında əsas yeri tutan cəhətlər tarixi faktlara yüksək xəlqilik, millilik, azərbaycançılıq, dövlətçilik, milli məfkurə mövqeyindən yanaşmasıdır. O, tarixi dastanımıza xalqımızın milli keçmişini müəyyənləşdirən, qəhrəmanlıq tariximizə şahidlik edən dəyərli ədəbi, milli, tarixi fakt kimi yanaşmışdır. Müstəqillik dövrümüzün yaratdığı imkanlardan xalqın ədəbi tarixi, milli tarixi üçün yararlanaraq, dünya dövlətlərinə bildirmişdir ki, "Kitabi Dədə Qorqud" eposu Azərbaycan xalqının dünya mədəniyyəti tarixində çox qədim yerə malik olmasını sübut edir. "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin ümumdünya mədəniyyəti salnaməsi kimi YUNESKO səviyyəsində Azərbaycanda keçirilməsi, türk dünyasının folklorşünaslarının, türkoloqlarının, dövlət və hökumət başçılarının bu yubileydə iştirakı böyük ədəbi-siyasi hadisə oldu. Yubiley tədbirlərinin milli, siyasi, xəlqi əhəmiyyəti haqqında Ulu öndər Heydər Əliyev deyirdi: "Bu yubiley bizim üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan bir tarixi hadisədir. Bu, bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu, bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır".

Ümummilli liderimiz Heydər Əliyev 20 aprel 1997-ci il tarixdə "Kitabi Dədə Qorqud" dastanının dünya səviyyəsində 1300 illik yubileyinin keçirilməsi haqqında fərman imzaladı. Fərmanda deyilirdi: "Kitabi Dədə Qorqud" dastanının fövqəladə əhəmiyyəti ondan ibarətdir ki, o, bizim tariximizin 1300 illik dövrünü həm əks etdirərək oğuz-türk mənşəyimizi və zəngin tariximizi sübut edir. Ulu xalqımızın yeddinci əsr abidəsi olan "Kitabi Dədə Qorqud" dastanı YUNESKO-nun Ümumdünya qeyri-maddi mədəni İrs siyahısına daxil edilmişdir. "Kitabi Dədə Qorqud" milli mədəniyyətimizin iftixarı olmaqla bərabər, qədim türk bədii təfəkkürünün ən qiymətli incilərindən biridir (Qasımov, 2010: 4).

"Kitabi-Dədə Qorqud"un 1300 illik yubiley tədbirləri bizim milli ənənələrimizə, milli tarixi köklərimizə, milli mədəniyyətimizə, milli elmimizə, xalqımızın milli mənlik şüuruna sonsuz ehtiramımızdan irəli gələn hadisə idi, xüsusilə də eposun Azərbaycan-oğuz türklərinə mənsubluğunu hamının – türkdilli və digər xalqların qarşısında bir daha təsdiq etdirmək idi. "Kitabi Dədə Qorqud" Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, Azərbaycan xalqının tarixinin, etnik təfəkkürünün güzgüsüdür.

AMEA-nın müxbir üzvü T.Hacıyev deyirdi: "Mən vaxtilə bir müqayisə işlətmişdim: bir zamanlar Nizami Gəncəvi ətrafındakı mübahisəni SSRİ dövlətinin başçısı həll etmişdi. İndi Azərbaycan Respublikasının dövlət rəhbəri öz fərmanıyla Dədə Qorqudu Azərbaycan vətəndaşı elədi. Bu, bir şirin yuxunun dürüst çıxması idi. Yuxunun reallaşması dövlət müstəqilliyinin bəhrəsidir. (Yazılı ədəbiyyatımız altı əsr tarixin dərinliyinə getdi" (Hacıyev, 2003: 8-9).

Heydər Əliyevə görə, epos Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğu hazırki vaxtda insanları, xalqları sülhə, barışa dəvət edir. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana

edilən təcavüz nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunması, işğal ərazilərindən bir milyondan çox həmvətənimizin yerindən-yurdundan qovulmasını, didərgin edilməsinə baxmayaraq, xalqımız kitabda əksini tapan yurd andına sadiq qalaraq yenə dünyaya öz sülhsevərlik siyasətini nümayiş etdirdiyini, Dədə Qorqud yolu ilə, sülh yolu ilə getdiyini və bütün türkdilli dövlətlərdə sülhün, əmin-amanlığın bərqərar olmasını istədiyini bəyan edib. "Kitabi Dədə Qorqud" özündə böyük elmi, mədəni, mənəvi fikirlər cəmləşdirən abidədir.

Türk dövlətlərinin birliyi ideyasını müdafiə edən Heydər Əliyev bu ideyanın mənəvi əsaslarını möhkəmləndirmək yollarını düşünürdü: "Türkdilli Dövlətlər Birliyinin nə qədər gərəkli olmasını və onun işinin nə qədər səmərəli olmasını biz hamımız bu gün, "Kitabi Dədə Qorqud" dastanının 1300 illik yubileyi ilə əlaqədar keçirilən təntənəli mərasimdə hiss etdik. Türkdilli xalqların milli oyanışı, dirçəlişi, dövlət müstəqilliyini əldə etməsi, öz tarixi köklərini dərindən öyrənməsi, dərk etməsi məhz belə gözəl nəticələr veribdir. Onun da ən parlaq nümunəsi "Kitabi Dədə Qorqud" dastanının yubileyi hamımızın bir yerdə, o cümlədən müxtəlif ölkələrdən Azərbaycana gəlmiş qonaqlarla bir yerdə təntənəli qeyd etməyimizdir". Heydər Əliyev yubiley mərasiminə də birliyin bir təntənəsi kimi baxırdı və bu birliyin ortaq mənəvi dəyərlər üzərində inkişafı üçün öz səylərini əsirgəmirdi. Ulu öndər yenə də abidə ilə bağlı məsələnin mənəvi aspektlərini aydınlaşdırır. Xüsusilə də abidənin milli qürur qaynaqlarını gücləndirməsinə böyük əhəmiyyət verirdi: "Biz fəxr edirik ki, "Kitabi Dədə Qorqud" kimi böyük tarixi abidəmiz var. Biz fəxr edirik ki, Dədə Qorqud övladlarıyıq. Biz fəxr edirik ki, Dədə Qorqud elində yaşayırıq. Biz fəxr edirik ki, "Kitabi Dədə Qorqud" bütün türkdilli dövlətlərə mənsub olaraq, eyni zamanda və birinci növbədə Azərbaycan xalqına mənsubdur. Fəxr edirik ki, biz "Kitabi Dədə Qorqud"un sahibiyik, onu yaşadacağıq və gələcək nəsillərə daha da böyük töhfələrlə verəcəyik" (Ədəbiyyat qəzeti, 2000). Mənəvi dəyərlərin qorunması üçün bütün imkanları səfərbər edən dövlət başçısı Azərbaycan və ümumiyyətlə, türklər haqqında formalaşan qeyri-etik və elmilikdən kənar qənaətləri alt-üst edən çoxsaylı tədbirlər həyata keçirmişdir. Onun səyi və prinsipial mövqeyi nəticəsində dünya anlamağa başlamışdır ki, "Dədə Qorqud", "Manas", "Koroğlu" kimi eposlar düzüb-qoşan xalq ancaq haqqa tapınar, şərə meyl göstərməz (Qafarlı, 2003: 56-57).

Heydər Əliyevin xalq yaradıcılığı, xalq təfəkkürünün qorunması ilə bağlı bütün fəaliyyətində qazandığı uğurların səbəbi elmi əsaslara söykənən tədbirlərə önəm verməsi idi. Ona görə də alimə, elm xadiminə, ziyalı təfəkkürünün formalaşmasında xidmətləri olan insanlara, onların geniş yaradıcılıq araşdırmaları üçün şərait yaradılmasına çalışıb və buna nail ola bilmişdir.

Elmi inkişafla bağlı çıxışlarının birində demişdir: "Hər bir alim qiymətlidir. Hər bir elm xadiminin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin arasında xüsusi yer tutur".

Min illərin tarixi-mənəvi yaddaşını daşıyan zəngin irsimizə, xüsusilə, folklorumuza diqqət və qayğı Azərbaycanda Heydər Əliyevin siyasi və vətəndaş rəhbərliyi ilə öz ənənələrinə qayıdış prosesinin həqiqi inkişafı pilləli şəkildə irəliləyirdi. Saz-söz yaradıcılığını təbliğ edən qurumlar - "Azərbaycan Aşıqlar Birliyi", Aşıq Pəri Məclisi", "İrs", "Atəşgah", "Gülüstan" kimi xalq kollektivləri yarandı, folklorun kütləvi təbliği, folklor festivalları, saz bayramları, televiziya və radioda "Bulaq", "Ozan" proqramları geniş təbliğat vasitəsinə çevrildi. "Bu bir tərəfdən onun Qərbi Azərbaycanın saz-söz yurduna dədə-baba bağlılığından, digər tərəfdən də özünün aşıq yaradıcılığına böyük məhəbbətindən irəli gəlirdi. Mütəxəssislərin fikrincə, o, həmişə folklorun aşıq yaradıcılığı ilə bağlı şəxsiyyətlərinə, onların ifalarına maraqla yanaşıb. Şəxsi sevgi və maraq böyük siyasətdə yeni proqramlaşdırılmış fəaliyyətin əsası idi. Ona görə siyasi rəhbərliyinin istiqamətlərində aşıqlar, onların yaradıcılığındakı imkanlar və problemlər, bu işə kompleks təbliğat və təşviqat vasitələrini cəlb etmək kimi məsələlər özünü daha qabarıq göstərməyə başlamışdır" (Sayılov, 2008: 228).

Heydər Əliyev aşıq sənətinin milli-mənəvi dəyərlərimiz içərisindəki dəyərini dərindən bildiyindən, bu sahəyə də xüsusi diqqət ayırırdı. 1971-ci ildə Aşıq Ələsgərin 150 illik yubileyi məhz onun təşəbbüsü ilə ən yüksək səviyyədə keçirildi. Bu, Heydər Əliyevin bu sənətə olan münasibətinin ifadəsi və ona göstərdiyi qayğının bir nümunəsi idi. Xalqın mədəni irsinə, mənəvi

dəyərlərinə böyük qayğı göstərən Heydər Əliyevin diqqətindən ustad sənətkar Aşıq Alı da kənarda qalmadı. Dahi sənətkarın anadan olmasının 180 illiyi 1981-ci ildə Azərbaycan rəhbərinin fərmanı ilə Aşıq Alının yubileyi keçirildi.

## Nəticə

Bu gün Azərbaycan şifahi xalq yaradıcılığına Ulu öndərin dövlət qayğısı siyasətinin bir uğurlu nəticəsi də açıq-aşkar özünü göstərməkdədir. Bu da qadın aşıq yaradıcılığının bərpası və inkişaf etdirilməsidir. Qadın aşıq poeziyasının təbliği, bu işin hərtərəfli, zəngin fəaliyyətinin davamı idi. İndi qadın aşıq yaradıcılığının həm məzmunu, həm də forma rəngarəngliyi də artmışdır.

Heydər Əliyevin xalq yaradıcılığı nümunələrinə önəm verməsinin bir böyük tərəfi də bu nümunələrdən milli mənəvi quruculuğa, beynəlxalq birliyə, ümumtürk dünyasında Azərbaycanın və xalqımızın mühüm liderlik yolunu tutmasına, başqalarına nümunə ola bilməsinə və bu yolda türk xalqlarının ortaq fəaliyyətinə nail olmasına xidmət etməsidir. Bununla da o, şifahi xalq ədəbiyyatının böyük siyasətdə aparıcı vasitəyə çevrilməsinə, yeni dünya məfkurəsində qoruyuculuq missiyasına yeni, müstəqil dövlətlərin birbaşa vasitəsinə çevrilməsinə şərait yaratmışdır.

## Ədəbiyyat

1. Paşazadə, T. (2018). Heydər Əliyev və Azərbaycan xalq yaradıcılığı. F.f.e.d. Avtoreferat. Bakı, 31 s.
2. Əliyev, H. (1998-2008). Müdrik fikirlər. I kitab: Dövlətçilik, müstəqillik və demokratiya haqqında: iyun, oktyabr. Bakı: Çaşıoğlu, 399 s.
3. İmanov, M. (2013). Elmimizin ideya mənbəyinə çevrilən irs. Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı: Nurlan, s.14-15.
4. Qasımov, M. (2010). H.Əliyev və Azərbaycan folkloru. “Ozan dünyası” dərgisi, № 2, 4 s.
5. Hacıyev, T. (2003). “DQK-1300” – tarixi dövlət tədbiri. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Bakı: Səda, s.8-9
6. Ədəbiyyat qəzeti. (2000). 14 aprel.
7. Qafarlı, R. (2003). Heydər Əliyev və qədim türk mifoloji-folklor irsi. Heydər Əliyev və milli mənəvi dəyərlərimiz. Bakı: Səda, s.56-57
8. Sayılov, Q. (2008). Heydər Əliyev və aşıq yaradıcılığı. Heydər Əliyev və folklor. Bakı, 228 s.

Göndərilib: 30.01.2023 Qəbul edilib: 04.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/150-154

**Günay Süleymanova**
Azərbaycan Dillər Universiteti
gunayshakir83@gmail.com

# XIX-XX ƏSRLƏR İNGİLİS ƏDƏBİYYATINDA MÜSTƏMLƏKƏÇİLİK MÖVZUSUNUN TƏŞƏKKÜLÜ

## Xülasə

Müstəmləkəçilikdən bəhs edən ədəbiyyat geniş və rəngarəngdir və müstəmləkə probleminin dəyişən xarakterini əks etdirir. Əksər hallarda o, bəzi müstəmləkəçilərin və ya müstəmləkəçi qruplarının tədqiqlərindən ibarətdir, lakin müstəmləkəçiliyin ümumi aspektləri ilə məşğul olan əhəmiyyətli ədəbiyyat toplusu da yaradılmışdır. Dövlətlərin müstəmləkəçilik siyasətlərində qarşıya qoyulan məqsədləri, bu məqsədlərə nail olunan uğurları, istifadə edilən inzibati və digər mexanizmlər baxımından müqayisə etmək üçün bir sıra araşdırmalar aparılmışdır. Spektrin hər iki ucunda müstəmləkələrin əldə edilməsinin arxasında yatan motivlər və müstəmləkəsizliyin indiki dalğasına aparan qüvvələrin qiymətləndirilməsi araşdırma üçün çətin mənzərələr açır. Müstəmləkəçiliyin tədqiqində müntəzəm olaraq təkrarlanan mövzular arasında bunlar var: birbaşa və dolayı idarəetmənin nisbi dəyərləri, mərkəzləşdirmə və qeyri-mərkəzləşdirmə, müxtəlif iqtisadi siyasət növləri, ağ məskunlaşmanın məqbulluğu və təsiri, işçi qüvvəsinin cəlb edilməsinə kömək etmək üçün müxtəlif növ təzyiqlər, təhsil sisteminin əhatə dairəsi və xarakteri.

***Açar sözlər:*** *ingilis ədəbiyyatı, müstəmləkəçilik ədəbiyyatı, müstəmləkə yazıçısı, transkulturasiya, imperializm, milliyət, millətçilik, milli kimlik, mədəniyyət, irqi ayrıseçkilik*

**Gunay Suleymanova**
Azerbaijan University of Languages
gunayshakir83@gmail.com

# The development of the colonialism theme in English literature of the 19th and 20th centuries

## Abstract

The literature dealing with colonialism is wide-ranging and diverse and reflects the changing nature of the colonial problem. For the most part it consists of studies of particular dependencies or groups of dependencies, but a substantial body of literature dealing with general aspects of colonialism has also been built up. Several studies have undertaken to compare the colonial policies of the powers in terms of the goals that have been set, the success with which these goals have been reached, and the administrative and other machineries that have been employed. At both ends of the spectrum the motives lying behind the acquisition of dependencies and the evaluation of the forces leading to the present surge of decolonization open challenging vistas to inquiry. Among the themes that have recurred regularly in the examination of colonialism are the relative values of direct and indirect rule, centralization and decentralization, varying types of economic policy, the acceptability and effects of white settlement, pressures of different kinds to aid in recruiting a labor force, and the scope and nature of the educational system.

***Keywords:*** *english literature, colonial literature, colonial writer, transculturation, imperialism, nationality, nationalism, national identity, culture, racial discrimination*

## Giriş

Bir çox ədəbi dövrlərin sərhədləri kimi, müstəmləkəçiliyin də sərhədlərini çəkmək çətindir. Bir siyasət və ya təcrübə olaraq müstəmləkəçiliyin tarixi əsrlərə gedib çıxır və müstəmləkəçiliyin hekayəsi hələ də bitməyib. Beləliklə, bir neçə əsrin ədəbiyyatı müstəmləkəçiliklə bağlı məsələləri yerli xalqlarla və yad landşaftlarla görüşlərin təsvirlərində əks etdirir. On doqquzuncu əsrin

sonlarında müstəmləkəçilik fəaliyyəti sürət qazandıqca, bu fəaliyyətin əks olunması - Avropanın qüdrətinin təntənəsi və ya insan ayağı dəyməyən ərazilərin işğal təhdidi kimi - intensivləşdi. Beləliklə, müstəmləkəçiliyin ədəbi hərəkatı üçün kobud sərhədlər 1875-ci ildə, tarixçilər I Dünya Müharibəsinin zəifləyən imperiyaları vasitəsilə və İkinci Dünya Müharibəsinin başlanğıcına qədər, təxminən 1939-cu ilə qədər "Yeni İmperializm"in başlanğıcını qeyd etdikdə başladı.Bu eyni zamanda Birinci Dünya Müharibəsindən sonra, ilk növbədə, sürətlə sona çatmaqda olan bir dövrün nostaljisini əks etdirir.

Müstəmləkəçilik, ilk növbədə, Britaniya ədəbiyyatının xüsusiyyətidir, nəzərə alsaq ki, ingilislər imperiya dövründə hökmranlıq edirdilər; hətta başqa millətlərdən olan müstəmləkə yazıçıları tez-tez ingilis dilində və ya ingilis tarixinə uyğun yazırdılar. Müstəmləkəçilik ədəbiyyatı imperializmin əxlaqı, bəşəriyyətin təbiəti və Avropa sivilizasiyasının davamlı canlılığı fonunda güclü qeyri-müəyyənlik hissi ilə xarakterizə olunur. Ola bilsin ki, əsas müstəmləkə tənqidi məqalə Cozef Konradın"Qaranlığın Ürəyi"dir ("Heart of Darkness"), lakin Olive Schreiner-in "Afrika Torpağının Hekayəsi" ("Story of an African Farm") və E. M. Forster-in "Hindistana Dəhliz" ("A Passage to India") kimi əsərlər eyni şəkildə müstəmləkəçiliyin paradokslarını araşdırır. Müstəmləkə ədəbiyyatı da Rudyard Kipling-in detektiv trilleri "Kim"də və ya H. Rider Haggardın macəra nağıllarında təsvir olunduğu kimi yüksək macəra, romantika və həyəcanla doludur. İsak Dinesenin xatirələri, o cümlədən Out of Africa, müstəmləkə mənzərəsinin vəhşiliyini və macəraçı müstəmləkəçilərin qəhrəmanlığını eyni şəkildə romantikləşdirir.

İmperializmin məqsəd və nəticələrinə diqqət hər zaman müstəmləkəçi ədəbiyyatın təkrarlanan mövzusu olub. Siyasi termin olaraq, imperializm öz siyasi və iqtisadi üstünlüyü üçün məskunlaşmış və ya məskunlaşmamış müstəmləkələr əldə edərək ölkədən kənarda siyasi hökmranlığı ehtiva edir. Avropalılar əsrlər boyu imperialist fəaliyyətdə iştirak etsələr də, XIX əsrin sonlarında İngiltərə, Fransa, Belçika və Almaniya da daxil olmaqla imperiya gücləri öz müstəmləkələrini artırmaq üçün şiddətlə rəqabət aparmağa başladılar, nəticədə yüksək aqressivlik və əvvəllər müstəqil olmuş ərazilərə daha çox müdaxilə ilə nəticələndi. İqtisadi motivlərlə yanaşı, imperializm, Avropanın "üstün" ağ irqinin digər qitələrdə yaşayan "az inkişaf etmiş" rəngli xalqlara sivilizasiya gətirməli olduğuna dair geniş yayılmış, özünü doğrultmuş inamdan qaynaqlanırdı. Müstəmləkəçi ədəbiyyat hətta ən rəğbətli avropalıların da ikili münasibətinə uyğun olaraq, çox vaxt eyni zamanda bu inamı həm təsdiq edir, həm də tənqid edir. Məsələn, Dinesenin "Afrikadan kənarda" əsəri irqçi əsər kimi qınansa da, afrikalıların müsbət təsvirinə görə təriflənir. Bu cür ziddiyyətli mütaliələr mövcud ola bilər, çünki kitab, müstəmləkəçiliyin bir çox digər əsərləri kimi, hər iki fikri ehtiva edir (Horton, Susan, 1995).

Müstəmləkəçilik milli sərhədləri yenidən müəyyənləşdirdi. Britaniya İmperiyası böyüdükcə, o, öz sərhədlərini yer kürəsinin daha böyük bir hissəsi üzərində çəkməyə başladı və ən böyük halda dünyanın dörddə birinə nəzarət etdi. Bu nəzarət ingilislərin qürur mənbəyi olsa da, Britaniyanın milli kimliyinə də təhlükə idi: hindular, afrikalılar və Qərbi və Şərqi Hindistanın sakinləri Britaniyaya tabe idilərsə, onlar da Britaniyalı idilər?! Ama əgər belə deyilsə, Britaniyanın milli kimliyini kim təşkil edirdi?! Müstəmləkə müəllifləri bəzən Mansfildin qısa bədii hekayələrində və ya Forsterin "Hindistana keçid" əsərində olduğu kimi ingilis müstəmləkəçilərinin Britaniya adət-ənənələrindən asılılığını təsvir edirlər. Kiplinq kimi digərləri də, müstəmləkəçilərlə müstəmləkəçi ölkələr arasındakı aradan qaldırıla bilməyən fərqi göstərmək üçün yerliləri və onların adətlərini ekzotik təsvir etməkdə məharətli idilər. Bu mövzuya "Kim", "Lord Cim" və "Qaranlığın Ürəyi" kimi əsərlərdə də rast gəlinir (Pauline, 1985).

Kişi və qadın ideyaları da müstəmləkəçi ədəbiyyatının əsasını təşkil edir. Müstəmləkəçilik aktları "Qaranlığın Ürəyi" və "O" kimi fərqli əsərlərdə ağ bənizli kişinin qadınlaşmış qaranlıq torpaqlara səyahətlərini təsvir edir. Müstəmləkəçinin kişi, müstəmləkənin qadın kimi təsvir edilməsi ikisi arasında əsas fərq yaradır və sonuncunun mənimsənilməsi və sahiblənməsi ehtiva olunur. Bununla belə, ağdərili qadın müəlliflər üçün müstəmləkəçilik inkişaf etmiş ölkələrdə, xüsusən də Viktoriya dövründəki Britaniyada geridə qalan qadınlara əlçatmaz bir azadlıq təklif edirdi. Dinesen tez-tez Afrikada yaşamağın ona verdiyi azadlığı şərh edirdi. Subay qadınlar missioner kimi müşayiətsiz səyahət edə bilərdilər və bir çox qadınlar missionerlik işi vasitəsilə qadınların təhsilini

artırmaq fürsətindən istifadə edirdilər. Missionerin qızı Şrayner “Afrika fermasının hekayəsi”ndə bu məsələlərdən bəzilərindən bəhs edir. O, yerli qadınlarla rəftarı pisləyərək, bütün qadınların insan hüquqlarına sahib olduğunu və kişilərlə eyni üstünlüklərə layiq olduğunu iddia edirdi (Barker, Hulme, Iversen, Loxley, Methuen, 1986: 148-72).

Avropa ekspansionizminin (genişlənməsinin) tarixi ən azı XV əsrə qədər gedib çıxır. Avropa kəşfiyyatının çoxu ticarətlə, xüsusən çay, ədviyyat, ipək və Avropada asanlıqla əldə olunmayan digər mallarla bağlı idi. İngiltərə və Hindistan arasında uzunmüddətli əlaqələr buna yaxşı bir nümunədir: Uzun müddətdir düşmən münasibətdə olan Hollandiya ilə rəqabətdə ingilislər 1600-cü ildə Hindistanla ticarətə başladılar və tezliklə Şərqi Hindistan Şirkətini (EIC) yaratdılar. XVII əsr boyunca EIC Hindistanda ərazi əldə etməklə öz mövcudluğunu gücləndirdi və XVIII əsrdə mərkəzləşdirilmiş hökuməti olmayan hindlilərin az mütəşəkkil müqaviməti ilə İngiltərə EIC vasitəsilə Hindistanın çox hissəsinə nəzarət etdi. İngilislərin gücü və ərazisi artdıqca hindlilərin hüquqları azaldı; XVIII əsrin sonunda hindlilərin yüksək dövlət vəzifələrində işləməsinə icazə verilmədi və ingilislər hindistanlıların maaşlarını kəsdilər. 1857-ci il üsyanı ilə pik həddinə çatan hindlilərin narazılığı Kraliça Viktoriyaya İngiltərə hökumətinin Hindistandakı ticarət maraqlarını qorumaq üçün Hindistandakı hökmranlığından əl çəkmə ehtiyacını nümayiş etdirdi. O, 1859-cu ildə özünü "Hindistanın vitse-prezidenti" adlandırdı. Bu, qismən İngiltərənin Hindistan üçün narahatlığını çatdırmaq məqsədi daşıyan ictimai əlaqələr hərəkəti idi, baxmayaraq ki, rəsmi və qeyri-rəsmi irqi təcrid aktlarının əhatə dairəsi genişlənirdi. Afrikanın hökmranlığı 1882-ci ildə Misirin tam sahibliyindən Cənubi Afrika (Boer) Müharibəsində (1899-1902) hərbi qələbəyə və 1910-cu ildə Cənubi Afrika İttifaqının yaradılmasına qədər cənuba doğru irəlilədiyi üçün XIX əsrin ortalarından sonlarına qədər başlamadı (James, 1996: 409).

İngiltərə o dövrdə dominant müstəmləkə gücü olsa da, bir sıra digər ölkələr aqressiv şəkildə öz torpaqlarına əlavə ərazilər əldə etməyə çalışırdılar, bu da bəzən yerli xalqlara qarşı tətbiq edilən gücdən əlavə, Avropa xalqları arasında şiddətli qarşıdurmaya səbəb olurdu. İspaniya, Fransa və Rusiya uzun müddət müstəmləkəçi olmuşlar və Almaniya, Yaponiya, Belçika, İtaliya və ABŞ daxil olmaqla Yeni İmperializm ölkələri də öz iqtisadi və hərbi maraqlarını qorumaq üçün müstəmləkələrə can atırdılar. Artan müstəmləkəçilərin sayı və məhdud ərazilər, xüsusən də yeni müstəmləkəçilər arasında aşırı acgözlüyə səbəb oldu. 1875-1914-cü illər arasında müstəmləkəçiliyin sürəti XIX əsrin qalan hissəsindən üç dəfə çox idi. Həmin dövrdə Cənubi Afrika (Boer) Müharibəsi (Hollandiya Afrikanerləri ilə), Çin-Yapon Müharibəsi, İspan-Amerika Müharibəsi və Rus-Yapon müharibəsi də daxil olmaqla, müstəmləkəçi güclər arasında qarşıdurmaların çoxalması müşahidə edilirdi. Afrikadakı torpaq yarışı Avropa qüvvələri arasında bir sıra qarşıdurmalara səbəb oldu; Fransa və İngiltərə Konqo, Efiopiya və Sudan ərazilərinə nəzarət etmək üçün az qala müharibə edəcəkdilər. Bu cür münaqişələr bəzən diplomatik vasitələrlə həll olunurdu, çünki rəqabət aparan müstəmləkə dövlətləri nəzarət üçün sövdələşir və mübahisəli ərazilər üçün yeni sərhədlər müəyyənləşdirirdilər. Nəticədə, xüsusən də Afrika qitəsində milli sərhədlər coğrafiya, etnik qruplar və ya iqtisadi əlaqələrdən asılı olmayaraq çəkilmişdi. Beləliklə, müstəmləkəçi dövlətlər geri çəkildikdən sonra belə, Afrikanın yerli xalqları müstəmləkəçilik sövdələşməsinin nəticələri ilə mübarizədə qaldılar.

On doqquzuncu əsr ədəbiyyatının bir neçə əsərində müstəmləkəçilik altında təsnif oluna bilməsələrdə müstəmləkəçiliyə şamil edilir. Müstəmləkəçilik və post-müstəmləkəçilik alimləri tərəfindən tez-tez xatırlanan nümunələrə Ceyn Ostenin “Mansfild Parkı” (1814) və Şarlotta Brontenin “Ceyn Eyre” (1847) əsərləri daxildir. Bu romanlarda müstəmləkə mövzuları arxa plana keçir, baxmayaraq ki, bəzi tənqidçilər müstəmləkə ünsürlərinin marjinal təbiətinin özünün imperializm əxlaqının göstəricisi olduğunu irəli sürərək, digər xalqların istismarının ingilis qəbilələrinin imtiyazını nə dərəcədə dəstəklədiyini gizlədirdilər. Məsələn, “Mansfild Parkı”nda Bertram ailəsi öz sərvətini qismən Antiquadakı plantasiyaları və qullarının işi ilə əldə edir, baxmayaraq ki, Bertramların əksəriyyəti heç vaxt bu müstəmləkəyə ayaq basmayıb. Bir çox oxucu cənab Tomas Bertramın personajında Austenin Britaniya plantasiyalarının sahibkarlarının mühafizəkar müdafiəsini görürdü. “Jane Eyre”de Rochester'in ilk arvadı West Indies'dən olan ağ kreol(afro avropalı) Bertha, dəli olduqdan sonra çardaqda kilidlənərək bir sirr kimi saxlanılır.

Brontenin romanında Bertha gecə üç cinayət törətməsinə baxmayaraq bunlardan yalnız birində müşahidə olunaraq romanda yalnız bir dəfə görünür, oda son çılğın hərəkəti Roçesterin ailəsinin evini yandırması olur; lakin, "Mansfield Parkı"nda olduğu kimi, "Jane Eyre"-də müstəmləkəçiliyin olması belə sözlərdən daha yüksək eşidilirdi. Əslində, Bertanın həbsi bir neçə yeni kitaba ilham verdi, o cümlədən Sandra Gilbert və Susan Qubarın feminist tənqidinin mərkəzi əsəri, "Çardaqdakı dəli" (1979, 2000-ci ildə yenidən nəşr olundu) və "Ceyn Eyr"dən əvvəl Berta və Roçesterin "Qərbi Hindistan" hekayəsini izah edən Jean Rhysinin postkolonial romanı "Geniş Sarqasso dənizi" (1966) (Gilbert, Sandra, Gubar, 2000).

XX əsrin ikinci yarısında müstəmləkəçilik ədəbiyyatının məcmusu ilə bağlı ardıcıl bir araşdırma meydana çıxdı. Bu işin öndəri Susanna Howe-nin 1949-cu ildə müstəmləkə şəraitində bir çox ədəbiyyatı nəzərdən keçirən "İmperiya romanları" adlı tədqiqatı idi. 1960-cı illərin sonu və 1970-ci illərin əvvəllərindən tənqidçilər imperializmin əxlaqı və müstəmləkəçilərin müqaviməti haqqında suallar qaldırmağa başladılar. Alimlər imperializmi təkcə siyasət kimi deyil, həm də mifologiya, imperialist hərəkətləri dəstəkləyən simvollar, rəvayətlər və inanclar sistemi kimi müzakirə etməyə başladılar. Lakin 1978-ci ildə Edvard Səidin dönüş nöqtəsi olan tədqiqat əsəri "Şərqşünaslıq" nəşr olunana qədər, müstəmləkəçilik təcrübələrini əsaslandıran və qanuniləşdirən bir müstəmləkəçilik nəzəriyyəsi mövcud idi. Şərqşünaslıq mədəni təcrübə kimi Qərbin Şərqdəki hökmranlığına haqq qazandıran inanclar şəbəkəsini biologiya, mədəniyyət, irq və din haqqında "şərqli" olanı ehtiva edir. Müstəmləkəçiliklə bağlı mətnlərin geniş miqyasını təsvir etmək üçün "müstəmləkəçi diskurs" ifadəsinin ümumi istifadəsinə əslində Səid başlamışdır. Səidin əsas tədqiqatlarından biri də "Culture and Imperialism" (1993) əsəridir. James Scannell, Style jurnalı üçün 1996-cı ildə yazdığı essedə Kipling, Conrad və Graham Greene kimi Britaniya müstəmləkəçi yazıçılarının imperializmi dəstəklədiklərini və Britaniya imperiya ekspansiyasının digər xalqların imperiya səylərindən daha qanuni olması ilə bağlı əsaslandırmalarını həssaslıqla seçdiklərini iddia edir (Edward, 1993: 19-31; Orientalism, Pantheon books, 1978; James, 1996: 409).

## Nəticə

İrqi fərq həmişə müstəmləkəçilik ədəbiyyatının öyrənilməsində mərkəzi amil olsa da, feminist alimlər genderin təhliletmədə çatışmayan bir termin olduğunu təkid edirdilər. Gayatri Çakravorti Spivak geniş sitat gətirdiyi "Üç Qadın Mətni və İmperializmin Tənqidi" (1985) adlı essesində Ceyn Eyr və Meri Şellinin Frankenşteyn kimi mətnlərdə müstəmləkəçi diskursa qarşı aşkar feminizmə işarə edirdi. Bu arqumentdən irəli gələn tədqiqatlara Laura Donaldsonun "Dekolonizasiya edən Feminizmlər: İrq, Gender və İmperatorluq" (1992) və Cenni Şarpın "İmperatorluq Alleqoriyaları: Müstəmləkə Mətnindəki Qadın Fiqurları" (1993) daxildir, hansı ki daha sonralar feminizm və kolonializm arasında mürəkkəb əlaqəni araşdırır. Sharpe-nin müşahidə etdiyi kimi, bir çox on doqquzuncu əsr feministləri öz məqsədlərinə nail olmaq üçün irqi fərqlilik ideologiyasından istifadə edirdilər. Robert Yanq 1995-ci ildə yazdığı "Colonial Desire: Hybridity in Theory, Culture, and Race" kitabında müstəmləkəçiliyin lüğətinə müstəmləkə arzusu terminini əlavə etdi (Jenny, 1993; Gayatri Chakravorty, 1985: 243-61; Robert, Desire, 1995: 181-82).

## Ədəbiyyat

1. Horton, Susan, R. (1995). Difficult women, artful lives: Olive Schreiner and Isak Dinesen, in and out of Africa. Johns Hopkins University Press.
2. Pauline, K. (1985). "A Passage to India: Unloos'd Dreams", in the New Yorker, january 14.
3. Barker, F., Hulme, P., Iversen, M., Loxley, D., Methuen. (1986). "The other question: Difference, discrimination, and the discourse of colonialism". In literature, politics and theory, p.148-72.
4. James, S. (1996). "The Method is unsound: The aesthetic dissonance of colonial justification in Kipling, Conrad, and Greene", in Style, Vol. 30, fall, 409 p.
5. Gilbert, Sandra, Gubar, S. (2000). Madwoman in the attic: The woman Writer and the Nineteenth-Century literary imagination. Yale University Press.
6. Edward, S. (1993). Culture and imperialism, Alfred A.Knopf, p.19-31.

7. Orientalism. (1978). Pantheon books.
8. Jenny, S. (1993). Allegories of empire: The figure of woman in the colonial text. University of Minnesota Press.
9. Gayatri Chakravorty, S. (1985). "Three Women's Texts and a Critique of Imperialism", in Critical Inquiry. Vol. 12, Autumn, p.243-61.
10. Robert, Y., Desire, C. (1995). Hybridity in theory, culture, and race. Routledge, p.181-82.

Göndərilib: 01.03.2023 Qəbul edilib: 13.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/155-158

**Nurlan Arifzadə**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
nurlanarifzade@gmail.com

# KƏND TƏSƏRRÜFATI TƏYİNATLI OBYEKTLƏRDƏ NƏMLİYƏ NƏZARƏT

## Xülasə

Kənd təsərrüfatı üçün nəzərdə tutulmuş obyektlərdə bir çox parametrin qiymətinin tənzimlənməsi tələb olunur. Bu parametrlərdən xüsusi əhəmiyyətə malik olanlara başda havanın rütubət və temperaturu daxil olmaqla düşən işığın miqdarı, torpağın nəmliyini və bu kimi digər parametrləri qeyd edə bilərik. Rütubətin tənzimlənməsi obyektdə yetişdirilən bitkilərin böyüməsi və məhsul əldə olunma müddətinin tezləşməsinə səbəb olur ki, bu da iqtisadi baxımdan olduqca əhəmiyyətlidir. Müasir texnologiyanın inkişafı və onun kənd təsərrüfatına tətbiqi nəzarətin yeni üsul və vasitələrinin yaradılmasına və onların optimal şəkildə istifadəsinə şərait yaradır. Bu məqalədə rütubətin tənzimlənmə üsulları, müqayisəli təhlilinə və onların faydalı xüsusiyyətlərinə diqqət yetirilmişdir.

***Açar sözlər:*** *istixana, rütubət, nəzarət sistemləri, havalandırma sistemləri, suvarma sistemləri*

**Nurlan Arifzade**
Azerbaijan State University of Economics
master student
nurlanarifzade@gmail.com

## Moisture control in agricultural facilities

## Abstract

In objects intended for agriculture, the price adjustment of many parameters is required. Of these parameters, we can mention the amount of falling light, soil moisture, and other such parameters, including the humidity and temperature of the air, which are of special importance. Humidity regulation accelerates the growth and harvest time of plants grown in the facility, which is very important from an economic point of view. The development of modern technology and its application to agriculture creates conditions for the creation of new methods and means of control and their optimal use. This article focuses on humidity control methods, comparative analysis and their useful features.

***Keywords:*** *greenhouse, humidity, control systems, ventilation systems, irrigation systems*

## Giriş

İstixanada rütubət istixana daxilində havada olan nəm və ya su buxarının miqdarını ifadə edir. Rütubət istixanada bitkilərin böyüməsinə və sağlamlığına təsir edən vacib ekoloji amildir. Bitkilər transpirasiya edir, yəni yarpaqlarındakı kiçik məsamələr vasitəsilə su buxarını havaya buraxırlar. İstixanada rütubət səviyyəsi transpirasiya sürətinin tənzimlənməsində həlledici rol oynayır. Rütubət səviyyəsi çox aşağı olarsa, bitkilər çox nəm itirə bilər, bu da solğunluğa, böyümənin geriləməsinə və məhsuldarlığın azalmasına səbəb olur. Digər tərəfdən, rütubət səviyyəsi çox yüksək olarsa, bitkilər nəm buraxmaqda çətinlik çəkə bilər ki, bu da kif böyüməsinə, xəstəliyə və keyfiyyətin aşağı düşməsinə səbəb ola bilər. İstixanada düzgün rütubət səviyyəsini saxlamaq bitkilərin optimal inkişafı və sağlamlığı üçün vacibdir. Ümumiyyətlə, əksər istixana bitkiləri üçün ideal rütubət səviyyəsi 50% ilə 70% arasında olur (Riahi, Vergura, Mezghani, Mami, 2020). Bununla belə, bəzi bitkilər xüsusi ehtiyaclarından asılı olaraq daha yüksək və ya aşağı rütubət səviyyəsinə ehtiyac duya bilər. İstixana yetişdiriciləri istixanadakı rütubət səviyyəsini tənzimləmək və bitkiləri üçün optimal böyümə mühiti yaratmaq üçün tez-tez suvarma və ventilyasiya sistemləri tətbiq olunur. Ağıllı

istixanada rütubətə nəzarət bitkilər üçün optimal böyümə mühitinin yaradılmasının vacib komponentidir. Ağıllı istixanada rütubətə nəzarətin vacib olmasının əsas səbəblərindən bəziləri bunlardır:

Bitki böyüməsi və sağlamlığı: Ağıllı istixanalar rütubət səviyyəsini avtomatik izləmək və tənzimləmək üçün qabaqcıl sensorlara və nəzarət sistemlərinə əsaslanır. Düzgün rütubət səviyyəsini qorumaq bitkilərin sağlam böyüməsini və inkişafını təşviq etmək üçün vacibdir.

Dəqiq zamanlı idarəetmə: Ağıllı istixanalar hər bir bitki növü üçün böyümə şəraitini optimallaşdırmaq üçün məlumat analitikasından və maşın öyrənmə alqoritmlərindən istifadə edir (Maraveas, Piromalis, Arvanitis, Bartzanas, Loukatos, 2022: 198). Rütubət səviyyəsini real vaxt rejimində izləmək və tənzimləməklə, yetişdiricilər hər bir bitkinin optimal inkişaf üçün ideal miqdarda nəm almasını təmin edə bilərlər.

Enerjinin səmərəli istifadəsi: Rütubətə nəzarət ağıllı istixananın istiləşməsi və soyudulması ilə bağlı enerji xərclərini azaldır. Düzgün rütubət səviyyəsini saxlamaqla, yetişdiricilər əhəmiyyətli miqdarda enerji istehlak edə bilən kondisioner sistemlərinə ehtiyacı azalda bilərlər. Istixanada enerji səmərəliliyi ağıllı istixana sisteminin bitkilər üçün optimal böyümə şəraitini qoruyarkən enerjidən səmərəli istifadə etmək qabiliyyətinə aiddir. Kənd təsərrüfatı üçün nəzərdə tutlan obyektlərin sistemləri işıqlandırma, isitmə, soyutma və suvarma sistemləri üçün əhəmiyyətli miqdarda enerji tələb edən bitkilər üçün optimal böyümə mühitini təmin etmək üçün nəzərdə tutulmuşdur. Bu cür obyektlərdə enerji səmərəliliyini artırmaq üçün istehsalçılar enerji istehlakını minimuma endirmək və ətraf mühitə təsirini azaltmaq üçün müxtəlif strategiyalardan istifadə edirlər. Bu strategiyalara enerjiyə qənaət edən işıqlandırma sistemlərinin, ağıllı isitmə və soyutma sistemlərinin, izolyasiyanın, bərpa olunan enerji mənbələrinin, məlumat analitikasının və avtomatlaşdırılmasının istifadəsi daxil ola bilər (Agale, Gaikwad, 2017). Bu strategiyalardan istifadə etməklə, yetişdiricilər enerji istifadəsini optimallaşdıra və enerji tullantılarını azalda, eyni zamanda bitki inkişafı üçün lazımi ekoloji şəraiti təmin edə bilərlər. Bu, nəinki enerji xərclərini azaldır, həm də enerji istehsalı ilə bağlı istixana qazı emissiyalarını minimuma endirməyə kömək edir.

**Rütubətə nəzarətin üsulları**. Ağıllı istixanada rütubət səviyyəsinə nəzarət sensorlar, idarəetmə sistemləri və avadanlıqların birləşməsini tələb edir. Ağıllı istixanada rütubət səviyyəsinə nəzarət etməyin əsas yollarından biri ventilyasiya sisteminin qurulmasıdır. Havalandırma dəlikləri və pəncərələri açaraq, yetişdiricilər artıq nəmin çıxmasına imkan verə, rütubət səviyyəsini azalda bilərlər. Əksinə, rütubət səviyyəsi çox aşağı olduqda, yetişdiricilər istixanada nəm saxlamaq üçün havalandırma dəliklərini və pəncərələri bağlayırlar (Reka, Chezian, Chandra, 2019: 227-235). Havalandırma, istixana mühitində temperaturun, rütubətin və havanın keyfiyyətinin tənzimlənməsində həlledici rol oynadığı üçün ağıllı istixana dizaynının vacib aspektidir. Ağıllı istixanalarda ventilyasiya üçün bəzi əsas mülahizələr aşağıdakılardır:

**Təbii ventilyasiya**. Ağıllı istixanalar təmiz havanın istixanada dolaşmasına imkan vermək üçün havalandırma dəlikləri, pəncərələr və qapılar kimi təbii havalandırma sistemlərindən istifadə edir. Təbii havalandırma temperatur və rütubət səviyyəsini tənzimləməyə kömək edir, həmçinin zərərli qazların və patogenlərin yığılmasının qarşısını alır (Serikul, Nakpong, Nakjuatong, 2018: 1-6). Təbii ventilyasiya istixana dizaynında konveksiya və külək kimi təbii proseslər vasitəsilə istixanadan keçən hava axınına əsaslanan bir növ havalandırma sistemidir. Təbii havalandırma istixanada təmiz havanın dövranını təmin etmək üçün ventilyasiya və pəncərələrə əsaslanır. Effektiv hava mübadiləsini təşviq edərək təbii hava axını yaratmaq üçün bu açılışlar istixananın əks tərəflərində yerləşdirilir (Sultan, Miyazaki, 2017: 97-117). Təbii ventilyasiya isti havanın qalxması və sərin havanın batması meylinə aid olan termal üzmə prinsipinə əsaslanır. Havalandırma və pəncərələri strateji olaraq müxtəlif hündürlüklərdə yerləşdirməklə, yetişdiricilər səmərəli hava mübadiləsini və temperaturun tənzimlənməsini təşviq edən təbii hava axını yarada bilərlər. Təbii ventilyasiya, üstünlük təşkil edən küləklərdən faydalanmaq üçün strateji olaraq yerləşdirilmiş ventilyasiya və pəncərələrdən istifadə edən küləklə idarə olunan havalandırma sistemləri ilə də gücləndirilə bilər (Johanson, Vasaly, Springer, 2017: 421-424). Bu tip ventilyasiya xüsusilə külək sürəti yüksək olan bölgələrdə təsirli ola bilər və mexaniki havalandırma sistemlərinə ehtiyacı aradan qaldıraraq enerji istehlakını azaltmağa kömək edir (Valente, Neto, 2017: 158-163).



**Şəkil 1. Təbii havalandırma**

Bütövlükdə təbii ventilyasiya istixana dizaynının mühüm aspektidir, çünki o, səmərəli hava mübadiləsini, temperaturun tənzimlənməsini və bitkilərin sağlam böyüməsini təşviq edir.

**Suvarma Sistemi.** Suvarma sistemi suyun bitkilərə nəzarətli və səmərəli şəkildə çatdırılması üsuludur. Suvarma sistemləri istixana mühitində rütubət səviyyəsini tənzimləməyə kömək etdiyi üçün ağıllı istixana dizaynının mühüm komponentidir (Vij, Vijendra, Jain, Bajaj, Bassi, Sharma, 2020: 1250-1257). Bu sistemlər, optimal rütubət səviyyəsini saxlamaq üçün bitkilərin lazımi miqdarda su almasını təmin edərək, müəyyən fasilələrlə və müəyyən miqdarda suyu çatdırmaq üçün proqramlaşdırılır. Avtomatlaşdırılmış suvarma sistemləri suyun bitkilərə lazımi vaxtda və lazımi miqdarda çatdırılması üçün sensorlar, idarəetmə sistemləri və su ötürmə mexanizmlərindən istifadə edən bir növ suvarma sistemidir. Onlar adətən kənd təsərrüfatında, abadlıq işlərində və bitkilərin müntəzəm suvarılmasını tələb edən digər tətbiqlərdə istifadə olunur (Kumar, Adiraju, Pasupuleti, Nandan, 2021: 849-856). Avtomatlaşdırılmış suvarma sistemlərinə adətən aşağıdakı komponentlər daxildir:

- Sensorlar: Sensorlar torpağın nəmliyi, temperaturu və rütubəti kimi ətraf mühit şəraitini izləmək üçün istifadə olunur. Onlar bitkilərin su ehtiyacları haqqında real vaxt məlumatları təqdim edə və suvarma cədvəllərini avtomatlaşdırmağa kömək edir (Karimanzira, Rauschenbach, 2019: 126-137).
- Nəzarət sistemləri: Nəzarət sistemləri sensor məlumatlarını emal etmək və bitkilərə nə vaxt və nə qədər suyun çatdırılması barədə qərar qəbul etmək üçün istifadə olunur. Onlar bitkilərin su ehtiyaclarına, hava şəraitinə və digər amillərə əsasən suvarma dərəcələrini tənzimləmək üçün proqramlaşdırıla bilər (Palmstierna, 2017: 101).
- Su ötürmə mexanizmləri: Suyun bitkilərə çatdırılması üçün çiləyicilər, damcı emitentləri və missterlər kimi su ötürmə mexanizmlərindən istifadə olunur. Onlar müəyyən vaxtlarda və ya sensor məlumatlarına əsaslanaraq yandırılıb-söndürülməsi üçün avtomatlaşdırılır (Srivastava, Kumar, 2020: 126-137).

Avtomatlaşdırılmış suvarma sistemləri əl ilə suvarma üsulları ilə müqayisədə bir sıra üstünlüklər təklif edir, o cümlədən:

- Suya qənaət: Sensorlar və idarəetmə sistemlərindən istifadə etməklə, avtomatlaşdırılmış suvarma sistemləri su israfını azaltmağa və bitkilərin optimal inkişaf və sağlamlıq üçün lazımi miqdarda su almasını təmin etməyə kömək edə bilər (Doshi, Patel, Kumar Bharti, 2019: 746-751).
- Vaxta qənaət: Avtomatlaşdırılmış suvarma sistemləri əl ilə suvarma ehtiyacını aradan qaldıraraq vaxta və əməyə qənaət olunur.
- Təkmilləşdirilmiş bitki sağlamlığı: Bitkiləri lazımi miqdarda su ilə vaxtında təmin etməklə, avtomatlaşdırılmış suvarma sistemləri bitki sağlamlığını və məhsuldarlığını yaxşılaşdırmağa kömək edə bilər (Akbar, 2020: 258).

## Nəticə

Kənd təsərrüfatı sahəsində fəaliyyət üçün nəzərdə tutulmuş obyektlərdə havanın və torpağın nəmliyinin müəyyənləşdirilməsi və nəzarət olunması xüsusi əhəmiyyət kəsb edir. İqtisadi səmərəliliyin artırılması və məhsul əldə olunmasının sürətləndirilməsi istixana daxilində nəmlik parametrinin dəqiq və real vaxt rejimində idarə olunmasından birbaşa asılıdır. Avtomatlaşdırılmış suvarma və ventilyasiya sistemlərinin tətbiqi və optimallaşdırılması istixanalarda intellektual idarəetmənin yaradılmasının əsas istiqamətlərindən biridir. Məqalədə bu üsulların xüsusiyyətləri, onların tətbiqinin müsbət tərəfləri qeyd olunmuşdur.

## Ədəbiyyat

1. Riahi, J., Vergura, S., Mezghani, D., Mami, A. (2020). Intelligent control of the microclimate of an agricultural greenhouse powered by a supporting PV system. Appl. Sci., 10, 1350 p.
2. Maraveas, C., Piromalis, D., Arvanitis, K., Bartzanas, T., Loukatos, D. (2022). Applications of IoT for optimized greenhouse envi-ronment and resources management. Comput. Electron. Agric, 198 p.
3. Agale, R., Gaikwad, D. (2017). Automated Irrigation and Crop Security System in Agriculture Using Internet of Things. In Pro-ceedings of the 2017 International Conference on Computing, Communication, Control and Automation (ICCUBEA). Pune. India, August, p.17-18.
4. Reka, S., Chezian, B., Chandra, S. (2019). A Novel Approach of IoT-Based Smart Greenhouse Farming System. In Green Buildings and Sustainable Engineering; Springer: Singapore, p.227-235.
5. Serikul, P., Nakpong, N., Nakjuatong, N. (2018). “Smart Farm Monitoring via the Blynk IoT Platform: Case Study: Humidity Monitoring and Data Recording”. In 2018 16th International Conference on ICT and Knowledge Engineering (ICT KE), Nov, p.1-6,
6. Sultan, M., Miyazaki, T. (2017). Energy-Efficient Air-Conditioning Systems forNonhuman Applications. In: Ekren O, editor. Refrigeration. InTechOpen, p.97-117.
7. Johanson, M., Vasaly, M., Springer, B. (2017). “The Complete Guide to DIY GREENHOUSES”. Updated 2nd Edition, USA, 999 p.
8. Valente, F., Neto, A. (2017). Intelligent steel inventory tracking with IoT/RFID. In Proceedings of the 2017 IEEE International Con-ference on RFID Technology, Application (RFID-TA), Warsaw, Poland, 20-22 September, p.158-163.
9. Vij, S., Vijendra, A., Jain, S., Bajaj, A., Bassi, Sharma, A. (2020). “IoT and Machine Learning Approaches for Automation of Farm Irrigation System”. Procedia Computer Science. Jan, vol. 167, p.1250-1257.
10. Kumar, D., Adiraju, R., Pasupuleti, S., Nandan, D. (2021). A Review of Smart Greenhouse Farming by Using Sensor Network Technology, p.849-856.
11. Karimanzira, D., Rauschenbach, T. (2019). “Enhancing aquaponics management with IoT-based Predictive Analytics for efficient information utilization,” Information Processing in Agriculture. Sep, vol. 6, no. 3, p.375-385.
12. Palmstierna, I. (2017). “Das grobe Gewachshausbuch”. Deutschland, 101 p.
13. Srivastava, M., Kumar, R. (2020). “An IoT Based Weather Monitoring System Using Node MCU and Fuzzy Logic”. In Second International Conference on Computer Networks and Communication Technologies, Cham, p.126-137.
14. Doshi, J., Patel, T., Kumar Bharti, S. (2019). “Smart Farming using IoT, a solution for optimally monitoring farming conditions”. Procedia Computer Science, vol. 160, p.746-751, Jan.
15. Akbar, M. (2020). “IoT for Development of Smart Dairy Farming”. Journal of Food Quality, Mar. 23.

Göndərilib: 04.02.2023 Qəbul edilib: 29.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/159-162

**Qəhrəman Rüstəmov**
Bakı Dövlət Universiteti
magistrant
qehremanr@list.ru

# İDMAN YARIŞLARINDA İRQİ AYRI-SEÇKİLİK PROBLEMİNİN HÜQUQİ TƏNZİMLƏNİLMƏSİNİN ANALİZİ

## Xülasə

Müasir dövrümüzədək gəlib çatan irqçilik probleləri idman sferasından da yan keçməmişdir. İdmanın ruhuna zidd olan irqçilik onun insanları birləşdirmə funksiyasına birbaşa zərər vurmaqdadır. Bu sahədə mövcud irqçilik problemləri hələ də öz aktuallığını saxlamaqdadır. İdman kifayət qədər mürəkkəb bir sistemdir və bu sistemi təşkil edən ünsürlərin hər birinin hüquqi tənzimlənməyə ehtiyacı vardır. Baxmayaraq ki, istər beynəlxaq konvensiyalarda, istərsə də yerli normativ aktlarda irqçiliyin qarşısının alınması ilə bağlı normativ baza mövcuddur, lakin hal-hazırda irqi ayrı-seçkiliyin qarşısı alına bilməmişdir.

***Açar sözlər:*** *idmanda irqi ayrı-seçkilik, idman hüququ, idman yarışları, rasizim, irqçilik, hüquqi mübarizə*

**Gahraman Rustamov**
Baku State University
master student
qehremanr@list.ru

## The legal problem of racial discrimination in sports competitions analysis of regulation

## Abstract

The problems of racism that have reached our modern times have not bypassed the sports sphere. Racism, which is against the spirit of sport, directly harms its unifying function. The problems of racism in this area are still relevant. Sports is a rather complex system, and each of the elements that make up this system needs legal regulation. Although there is a normative framework for the prevention of racism, both in international conventions and in local normative acts, racial discrimination has not been prevented at present.

***Keywords:*** *racial discrimination in sports, sports law, sports competitions, racism, racism, legal battle*

## Giriş

Dilindən,dinindən,cinsindən, milliyətindən, irqindən aslı olmayaraq idman cəmiyyəti təşkil edən insaları daim bir araya gətirən sosial bir vasitə olmuşdur. Məhz idmanın bu istiqaməti onun irqçiliyə qarşı bir mübarizə formasına çevrilməsinə şərait yaradır. İdmanın hər hansı forması ilə məşğul olmağa insanlar arasında heç bir fərq qoyulmaması, istənilən şəxsin idmanla məşğul ola bilməsi bu sahədə irqçiliyin baş tutmasına zəmin yaradır. Bu səbədən də irqçilik hallarının baş verdiyi sahələrdən biri də məhz idman sahəsidir. İdmanın köməyi ilə insanlar arasında rəqabətin sağlam formada aparılması, cəmiyyətdə mövcud azlıqların idmanın köməyi ilə cəmiyyətə inteqrasiya ola bilməsi kimi hədəflərə çatmaq mümkündür .Başqa sözlə, idmanın köməyi ilə irqçilik, ayrı-seçkilik və təcridetmə ilə mübarizə aparmaq, insanlar arasında qarşılıqlı hörməti təşviq etmək üçün ideal platforma ola biləcəyi düşünülür (European Union Agency for Fundamental Rights, 2010). Racism, Ethnic Discrimination, and Exclusion of Migrants and Minorities in Sport: A Comparative Overview of the Situation in the European Union)

Hüququn istənilən sahəsində yaranmış münasibətlərin tənzimlənilməsi zamanı müxtəlif çətinliklər və problemlər ortaya çıxır. Müasir dövrdə idman hüququnun insan hüquqları aspektindən

ən problemli hissəsi məhz idmanda irqi ayrı-seçkiliklə bağlı yaranmış problemlərdir. İdman sahəsində mövcud irqçilik problemlərinin həlli üsullarını aşağıdakı kimi təsnifləşdirmək mümkündür:

1. Yerli və beynəlxalq idman federasiyalarında irqçiliyə qarşı hüquqi mübarizə
2. İdman Arbitraj Məhkəməsinin nümunəsinəd idmanda irqçiliyə qarşı hüquqi mübarizə

İdmanda irqçiliyə qarşı hüquqi mübarizəninin aparılması üçün ilkin olaraq həm dövlətdaxili qanunverciliyə və beynəlxalq konvensiyaların realizəsi məsələsinə nəzər salmaq lazımdır. Azərbaycan Respublikasının Konstitusiyasına nəzər salınana zaman idmanın bir insan hüququ kimi konstitusiyada əks olunmadığı ilə qarşılaşacayıq. Lakin müxtəlif elmi araşdırmaları və konvensiyaları nəzərdən keçirən zaman idmanın mədəniyyətin bir sahəsi olması ilə bağlı fikirlər və müddəalar rast gəlinir. Həmin bu fikirlərdən yola çıxaraq, Konstitusiyamızın "Mədəniyyət hüququ" adlanan 40-cı maddəsinin idman sahəsinə də aidliyi barədə fikir irəli sürmək mümkündür. Qeyd olunan maddənin birinci hissəsi hər kəsin mədəni həyatda iştirak etmək hüququ təsbit olunmuşdur (AR Konstitusiyasının 40-cı maddəsi).

İdmanın populyar qolu olan futbolda insan hüquqlarının pozulması halları daha çox araşdırılmışdır. Dünyanın hər yerindən insanları səfərbər edən futbolun inkişafı üçün çoxlu araşdırmalar aparılır. Nəticədə, milli və beynəlxalq idman təşkilatları öz təşkilatlarının yurisdiksiyası altında olan hər kəsin hüquqlarını qorumağa borcludur. Bu hüququların qorunmasında rəhbər normativ bazanı FİFA və UEFA-nın normativ bazası, BMT-nin İnsan Hüquqları üzrə Rəhbər Prinsipləri, insan hüquqları baxımından beynəlxalq standart olaraq qəbul edilmiş digər normativ aktlar və beynəxalq konvesiyalar təşkil edir.

İdmanda yaranmış mübahisələrin araşdırılması bir neçə orqan tərəfindən aparılır. Əgər yaranmış mübahisə lokal xarakterli mübahisədirsə, yerli federasiyalarda, əgər mübahisənin predmeti beynəxalq xarakterli idisə bu səfər beynəlxalq federasiyalarda öz həllini tapır.

İdman sahəsində pozulan əsas insan hüquqlarından biri də irqçilik problemidir. Bu problemin ilkin olaraq yerli federasiyalarda hansı üsulla həll edildiyinə nəzər salamaq lazımdır. Azərbaycan Respublikasında idmanın müxtəlif qollarını aktiv səviyyədə fəaliyyət göstərir. Həmin bu idman sahələrinin yerli səviyyədə tənzimlənməsi məhz yerli federasiyaların üzərinə düşür.

İdman sahələri içərisində idmançıların ən çox irqçi davranışlara məruz qaldığı sahələrdən biri də futbol sahəsidir. Azərbaycan Respublikasında futbol sahəsi 3 aprel 1992-ci il tarixində yaradılan Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) tərəfindən tənzimlənir.

AFFA-nın təşkilati hüquqi forması assosiyativ xarakterli qeyri-hökumət təşkilatıdır. Özünün fəaliyyətini nizamnamə əsasında təşkil edir.

Futbol sahəsində yaranmış lokal xarakterli mühabisələr AFFA-nın daxilində hüquq tətbiqedici orqanlarında həll edilir. AFFA-nın hüquq tətbiq edici orqanları birbaşa olaraq AFFA Nizamnaməsinin 23-cü maddəsinin "D" bəndində öz əksini tapmışdır (AFFA Nizamnaməsinin 23-cü maddəsi).

Yuxarıda qeyd olunan maddədə nəzərdə tutulan intizam tədbirlərindən bəziləri futbol yarışlarında baş verən irqçi davranışların cəzası olaraq tətbiq edilir. AFFA-nın İntizam Komitəsi "İntizam Məcəlləsi"-də qeyd olunan normaların pozulması məsələlərini həll edən bir qurumdur. Həmin məcəllədə də idman yarışlarında baş verən irqçi hərəkətlərin sanksiyaları qeyd olunmuşdur. Yerli səviyyədə irqçiliyə qarşı mübarizənin gücləndirilməsi və gələcəkdə bu tip irqçi hərəkərlərin qarşısının alınmasında normatiz bazanın mövcudluğu zərurəti vardır. Yuxarıda qeyd olunan AFFA-nın İntizam Məcəlləsi bu sahədə atılmış mütərəqqi addımlardan biridir. AFFA İntizam Məcəlləsinin 42-ci maddəsi məhz müasir dövrümüzdə idmanda qarşılaşdığımız irqçi hərəkətlərə qarşı mübarizəyə həsr olundumuşdur (AFFA İntizam Məcəlləsinin 42-ci maddəsi).

Maddənin sanksiya hissələrinə nəzər salınan zaman görünür ki, irqçi hərəkətlər edən istər oyunçular, istərs tamaşaçılar, istərsə də klublar sərt sanksiyalara məruz qalır və onlar barəsində cərimə cəzası tətbiq edilir. Hər bir komandanın oyun ruhunun artırılması onun tamaşaçı kütləsindən asılıdır. Əgər tamaşaçı tərəfindən irqçi davranışlar edilərsə stadionun həmin hissənin qismən və tam bağlanması bir başa olaraq həmin komandanın oyun ruhuna təsir edə və onun oyun nəticəsinin kifayət qədər aşağı düşməsi ilə nəticələnə bilər. Əlbəttə ki, bu azarkeşin istəyəcəyi son şeydir.

İdmanda irqçiliyilə qarşı mübarizəni həyata keçirən digər bir orqan isə beynəxalq federasiyalardır. Ümumiyyətlə idman sahəsində kifayət qədər beynəlxalq federasiyalar mövcuddur. Bunlara misal olaraq UEFA və FİFA-nı göstərmək olar. Hər iki federasiya idmanda irqçiliyin qarşısının alınması istiqamətində kifayət qədər normativ bazaya malikdirlər. İlkin olaraq idmanda irqçiliyə qarşı mübarizənin UEFA formasına nəzər yetirək. UEFA-nın İntizam Reqlamenti UEFA Nəzarət, Etika və İntizam Komitəsinin qəbul etdiyi qərarların əsasını təşkil edir. İrqçilik və ayrı-seçkiliyin qeyd edilməsi bu Əsasnamənin 14-cü maddəsində tənzimlənir. Müvafiq olaraq, bir şəxs və ya qrup rənginə, irqinə, dininə, etnik mənşəyinə, cinsinə və ya cinsi oriyentasiyasına görə və ya hər hansı səbəbdən təhqir olunarsa, bu əməl cəzalandırılır (5).

UEFA Nəzarət, Etika və İntizam Şurası tərəfindən qəbul edilən qərarların əksəriyyətində irqçilik və ayrı-seçkiliklə bağlı pankartlar və ya şüarlar FC Zenit St-dən bəri hüquqi müzakirə mövzusuna çevrilmişdir. UEFA bu müzakirələrin nəticəsi olaraq ekstremist və ayrı-seçkilik ideologiyalarına istinad edilməsinə icazə verilməyəcəyini bildirmişdir.

FİFA qaydalarına görə, üzv ölkələrin idman təşkilatları futbolda irqçiliklə bağlı aktları qəti olaraq pisləməli, ən təsirli şəkildə mübarizə aparmalı və irqçi davranışları cəzalandırmalıdır. FİFA-nın irqçilik və ayrı-seçkilik aktları ilə bağlı qaydaları FİFA İntizam Məcəlləsinin "Ayrı-seçkilik" adlı 13-cü maddəsində yer alır. Bu maddəyə əsasən dilinə,dininə, dərisinin rənginə, cinsinə, cinsi oriyentasiyasına və ya hər hansı digər səbəblərə görə ayrı-seçkilik qadağan edilmişdir (6).

Aşkar edilmiş irqçi hərəkətlər cəzasız qalmamalı və qarşılığında sanksiya tətbiq edilməlidir. Bu sanksiyalar FİFA-nın İntizam Məcəlləsində açıq şəkildə göstərilib. FİFA İntizam Məcəlləsinə uyğun olaraq, azarkeşlər irqçi hərəkətə yol verdikdə, onların mənsub olduqları kluba əməlin miqyasından asılı olaraq xəbərdarlıq edilir və ya tamaşaçısız oynamaq cəzası verilir. Hərəkətin miqyasının ciddi olduğu və ya təkrarlanan irqçi hərəkətlərə görə klubu oyun nəticələrinin ləğv olunması, xal silmə cəzası, aşağı liqa cəzası və ya liqadan xaric etmə kimi ağır sanksiyalarla gözləyə bilər. Bundan əlavə, irqçi hərəkətlərdə əli olduğu aşkarlanan azarkeşlər azı iki il idman tədbirlərini izləməkdən uzaqlaşdırıla bilər. Əlavə olaraq qeyd etmək lazımdır ki, üzv idman təşkilatı və ya klubu da azarkeşlərin törətdiyi irqçi hərəkətlərə görə cərimə cəzası gözləyə bilər.

Beynəlxalq İdman Arbitraj Məhkəməsi (CAS) 1984-cü ildə BOK tərəfindən yaradılmış Beynəlxalq İdman Arbitraj Məhkəməsi (CAS) beynəlxalq səviyyədə idman sahəsində arbitraj vəzifəsini öz üzərinə götürən ən effektiv qurumdur. Məhkəmə arbitraj qərarlarının tələb etdiyi bütün meyarlara, xüsusilə müstəqillik və qərəzsizliyə malikdir. Bu səbəbdən CAS-ın qərarları istənilən məhkəmə orqanının qərarı kimi məcburidir və tərəflər üçün sanksiya səlahiyyətinə malikdir.

Arbitraj öz yurisdiksiyasını və legitimliyini tərəflərin könüllü arbitraj razılaşmasına əsaslanır (Hong-lin, 2008: 265). Bu, tərəflər üçün çox vacibdir. Təbiidir ki, heç bir tərəf yaranmış mübahisənin həllində digər tərəfin məhkəmə sisteminə etibarə etməyəcəkdir. Bu hissədə arbitraj tərəflərə ədalətli və qərəzsiz və qarşı tərəfin “daxili məhkəmənin üstünlüyü” nə malik olmayan bir məhkəmə sistemi kimi çıxış edəcəkdir (Margaret, 2017: 1).

İdmanda irqçilik və ayrı-seçkilik çox vaxt ifadə azadlığı məsələsini gündəmə gətirir. Sanksiyalara məruz qalan şəxslır iddia edirlər ki, bu cür hallar AİHK-nın 10-cu maddəsi ilə təmin edilən ifadə azadlığı çərçivəsində qorunmalıdır. Bununla belə, tətbiq olunacaq sanksiya ilə pozuntunun dərəcəsi arasında mütənasibliyin olması lazım olduğunu vurğulayan CAS, qərarlarından birində İrin Deleanu adlı idmançıya azadlıq hüququnun hüdudlarını aşdığına görə verilən cəzanın düzgünlüyünü vurğulamış, lakin sonradan onun ictimaiyyət qarşısında üzr istəməsini nəzərə alaraq verilmiş cəzanı minimum həddə salmışdır (Arbitration CAS 2012/A/3041 Irina Deleanu v, 2013).

## Nəticə

Yuxarıda qeyd etdiyim hüquqi əhəmiyyətli analizdən belə bir nəticəyə gəlmək olar ki, aşağıda qeyd olunan hallar idman subtektləri tərəfindən nəzərə alındığı halda idman sahəsində irqçilik hallarının qarşısını almaq mümkün olacaqdır:

İdman meydançasında baş verən irqçilik hallarında şəxsin əməlində birbaşa olaraq məqsəd və motivə nəzər salınmalı, hüquq mühafizə sisteminin bütün səviyyələrində iştirak edən şəxslərə

məqsədyönlü təlim keçmək, irqçi hərəkətlərin qurbanlarını şikayətlərlə çıxış etməyə təşviq etmək və bu şikayətlərə baxılmasına nəzarət etmək üçün tədbirlər görmək, irqçilik və irqi ayrı-seçkilik ilə bağlı şikayətlərin verilməsində irqi ayrı-seçkiliyin qurbanlarına kömək etmək üçün səlahiyyətli müstəqil anti-diskriminasiya orqanının yaratmaq və səmərəli fəaliyyətini təmin etmək, idmanda bütün səviyyələrdə irqçilik əleyhinə geniş miqyaslı maarifləndirmə kampaniyalarını təşkil etmək və bütün müvafiq aktyorları cəlb edilməlidir.

## Ədəbiyyat


1. European Union Agency for Fundamental Rights. (2010). Racism, ethnic discrimination and exclusion of migrants and minorities in sport: A comparative overview of the situation in the European Union).
2. AR Konstitusiyasının 40-cı maddəsi.
3. AFFA Nizamnaməsi 23-cü maddəsi.
4. AFFA İntizam Məcəlləsinin 42-ci maddəsi.
5. UEFA İntizam Qaydasının "İrqçilik və digər ayrı-seçkilik davranışları" adlı 14-cü maddəsi.
6. FİFA “İntizam Məcəlləsi" 10-cu maddəsi.
7. Hong-lin, YU. (2008). “A theoretical overview of the foundations of international commercial arbitration”. Contemporary Asia Arbitration Journal, c: 1, s: 2, 265 p.
8. Margaret, L. (2017). MOSES, The principles and practice of internatioal commercial arbitration. Cambridge: Cambridge Universitiy Press, 1 p.
9. Arbitration CAS 2012/A/3041 Irina Deleanu v. (2013). Federation Internationale de Gymnastique (FIG), award of 12 June.
(http://jurisprudence.tascas.org/Shared%20Documents/3041.pdf)


Göndərilib: 20.02.2023 Qəbul edilib: 15.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/163-169

**Səlcuq Yusifli**
Bakı Dövlət Universiteti
magistrant
yselcuq@gmail.com

# KOMMERSİYA SİRRİNİN ANLAYIŞI VƏ MEYARLARI

**Xülasə**

Hər keçən gün daha da elektronlaşan bir dövrdə kommersiya sirri sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər üçün xüsusi əhəmiyyətə malikdir. Lakin buna baxmayaraq istər beynəlxalq təcrübədə, istərsə də yerli təcrübədə kommersiya sirrinin meyarları birbaşa hüquqi aktlarda ətraflı tənzimlənmir. Belə olduğu təqdirdə isə kommersiya sirrinin meyarları üzrə hüquqi tənzimləmədə mövcud məhkəmə təcrübəsi vacib rol oynayır. Bu məsələ üzrə Azərbaycan Respublikasında isə vahid məhkəmə təcrübəsinin və bu qəbildən olan işlər üzrə əlçatan məhkəmə qərarlarının olmaması kommersiya sirrinin meyarları üzrə qanunvericiliyin müddəalarının tətbiqi zamanı bəzi sualların yaranmasına səbəb olur.

Hazırkı məqalədə kommersiya sirrinin meyarları üzrə Azərbaycan Respublikası qanunvericiliyinin tələbləri xarici dilli mənbələr və xarici məhkəmə qərarları əsasında nəzərdən keçirilir. Bununla hazırkı məqalə çərçivəsində kommersiya sirrinin hər bir meyarını təşkil edən şərtlər ayrı-ayrılıqda təhlil edilir və xarici dilli mənbələrdə olan yanaşmaların Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğu nəzərdən keçirilir.

***Açar sözlər:*** *kommersiya sirri, kommersiya sirrinin rejimi, kommersiya dəyəri, məxfilik, açıq məlumat*

**Seljuk Yusifli**
Baku State University
master student
yselcuq@gmail.com

## Definition and criteria of trade secret

**Abstract**

Commercial secrecy has a special significance for individuals involved in business activity in an era that is becoming more and more electronic with each passing day. However, the criteria of trade secrets, whether in international practice or local practice, are not directly regulated in detail in legal acts. In this case, however, the existing judicial experience plays an essential role in the legal regulation of the criteria of trade secrets. In the Republic of Azerbaijan, however, the lack of uniform judicial practice and accessible judicial decisions on cases of this kind leads to some questions during the application of the provisions of the legislation on the criteria of trade secrets.

The present article reviews the requirements of the legislation of the Republic of Azerbaijan on the criteria of trade secrets on the basis of foreign-language sources and foreign court decisions. The conditions under each of the criteria of trade secrets within the present article are analysed separately and the approaches in foreign-language sources are reviewed per the legislation of the Republic of Azerbaijan.

***Keywords:*** *trade secret, regime of trade secret, commercial value, confidentiality, open data*

## Giriş

Kommersiya sirri dedikdə resept, düstur, biznes layihəsi, müştəri məlumatları, qiymət siyahısı, marketinq planları, maliyyə proqnozları və potensial hədəflərin siyahısı kimi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər üçün xüsusi əhəmiyyətə malik olan məlumatlar başa düşülür (Bouchoux, 2012: 469). Azərbaycan Respublikasının məhkəmə təcrübəsində nadir hallarda rast gəlinən hüquq

sahəsi olmasına baxmayaraq kommersiya sirri hüququ onun ilkin inkişafında xüsusi yerə malik olan ABŞ-da (Bouchoux, 2012: 470) şirkətlər kommersiya sirri hüququna innovasiyanı və biznes sirlərini qorumaq üçün tez-tez müraciət edirlər (Varadarajan, 2017: 15-16).

Qeyd etmək lazımdır ki, 1995-ci ilə kimi kommersiya sirlərini tənzimləyən və geniş tətbiq dairəsinə malik beynəlxalq sənəd mövcud olmamışdır. 1995-ci ildə isə kommersiya sirlərinin beynəlxalq səviyyədə təhlükəsizliyini təmin etmək məqsədilə ABŞ və İsveçrənin birgə səyləri hesabına kommersiya sirlərini tənzimləmək məqsədilə Əqli Mülkiyyət Hüquqlarının Ticarətlə Əlaqəli Aspektlərinə dair Sazişə ("TRİPS Sazişi") "açıqlanmamış məlumatların qorunması" başlığı altında yer alan 39-cu maddə daxil edilmişdir (Dutfield, 2008: 130).

Azərbaycan Respublikasında kommersiya sirri ilə əlaqədar yaranan münasibətlər 04 dekabr 2001-ci il tarixli, 224-IIQ nömrəli "Kommersiya sirri haqqında" qanun ("Qanun") ilə tənzimlənir. Azərbaycan Respublikasının qanunvericiliyi çərçivəsində kommersiya sirri anlayışının tam dairəsini müəyyən etmək üçün Qanuna nəzər saldıqda Qanunun 3-cü maddəsində əks olunan kommersiya sirrinin meyarlarının xüsusi əhəmiyyətə malik olduğunu qeyd etmək vacibdir. Bu isə ona görədir ki, Qanun məlumatın kommersiya sirrinə aid edilməsi üçün onun kommersiya sirrinin meyarlarına uyğun olmasını tələb edir. TRİPS Sazişinə və digər ölkələrin hüquqi aktlarına nəzər saldıqda kommersiya sirrinin meyarları barədə şərtlərin beynəlxalq təcrübədə də mövcud olduğunu qeyd edə bilərik.

Belə ki, həm TRİPS Sazişinin 39.2-ci bəndinə, həm də Qanunun 3-cü maddəsinə əsasən kommersiya sirri hesab edilmək üçün məlumat kommersiya sirrinin üç meyarına uyğun olmalıdır. Mahiyyət etibarı ilə TRİPS Sazişində qeyd edilən meyarlar Avropa İttifaqının "Açıqlanmayan nou-hau və biznes məlumatlarının (kommersiya sirri) qanunsuz əldə edilmə, istifadə və açıqlanmaya qarşı qorunması üzrə" Avropa Parlamenti və Şurasının 8 iyun 2016-cı il tarixli, 2016/943 nömrəli direktivinin ("Direktiv") 2-ci maddəsinin 1-ci bəndində və Amerika Birləşmiş Ştatlarında geniş tətbiq dairəsinə malik "Kommersiya sirri üzrə vahid akt"ın ("UTSA") 1 (4)-cü bəndində də öz əksini tapmışdır.

Bütün bu hüquqi sənədlərdə qeyd edilən meyarlar mahiyyətcə bir-birinə yaxın mənanı ifadə etsələr belə onların mətnləri bir-birindən nisbətən fərqlidir. Bu səbəblə Qanunda qeyd edilən meyarların nəzərdən keçirən zaman digər beynəlxalq və xarici qanunvericilik aktlarını, habelə məhkəmə qərarlarını Qanunla müqayisəli şəkildə təhlil edilməsi məqsədəuyğundur.

Beləliklə, Qanunun 3-cü maddəsinə əsasən məlumatın kommersiya sirrinə aid edilməsinin meyarları aşağıdakılardır:

- Kommersiya dəyərinə malik olması;
- Məlumatın məxfiliyinin qorunması məqsədilə sahibi tərəfindən hüquqi, təşkilati, texniki və digər tədbirlərin həyata keçirilməsi;
- Bu məlumatların sərbəst əldə olunmasının qanuni əsaslarla məhdudlaşdırılması.

Amerika Birləşmiş Ştatlarının məhkəmə təcrübəsinə əsasən istənilən məlumat kommersiya sirri hesab oluna bilər, o şərtlə ki, həmin məlumat üzrə faktlar məlumatı kommersiya sirri hesab etməyə kifayət etsin (4). Kommersiya sirri hesab edilməsi mümkün olmayan məlumatların sıralandığı Qanunun 4-cü bəndində qeyd edilən məlumatlar istisna olmaqla kommersiya sirri hesab olunan məlumatların tam dairəsini müəyyən etmək üçün bu yanaşmanı Azərbaycan Respublikasında da tətbiq etməyi mümkün hesab edirik.

***Kommersiya dəyəri***. Əgər məlumatın sahibi və ya sahibi ilə eyni fəaliyyət sahəsi ilə məşğul olan biznes rəqibləri üçün məlumatın dəyəri azdırsa, həmin məlumatın kommersiya sirrinə aid edilmə ehtimalının da az olduğu iddia edilir (Bouchoux, 2012: 472). Qanunun 3.0.1-ci yarımbəndində məlumatın müəyyən məbləğdə kommersiya dəyərinə malik olduğunu təsdiqləyən bəzi hallar qeyd edilmişdir. Bu hallara məlumatın "*başqa şəxslərə məlum olmadığına görə fəaliyyət sahəsində üstünlük qazanmaq və mənfəət əldə etmək baxımından*" əhəmiyyətli olması, "*digər şəxslərə bütövlükdə, yaxud hissələrlə satıla, bağışlanıla, müqavilə əsasında, yaxud varislik qaydasında verilə*" bilməsi və sairə daxildir.

Qanunun qeyd edilən yarımbəndini nəzərə alaraq qeyd edilməlidir ki, məlumatın kommersiya dəyərini həmin məlumatın sahibkarlıq fəaliyyətində qazandırdığı üstünlük və mənfəətlə müəyyən

etmək olar. Amerika Birləşmiş Ştatlarının məhkəmə təcrübəsini və digər xarici dillərdə olan ədəbiyyatı nəzərə alaraq qeyd etmək mümkündür ki, kommersiya dəyəri həm faktiki, həm də potensial mənfəət əsasında müəyyən edilə bilər (Quinto, Singer, 2009: 10). Bu isə o deməkdir ki, hal-hazırda sahibkarlıq fəaliyyətində istifadə edilməyən və ya uğursuz olmuş təcrübələrin nəticələri kimi digər mənfi məlumatlar da kommersiya dəyərinə malik ola bilər (International Chamber of Commerce, 2019: 11). Eyni zamanda potensial kommersiya dəyəri ilə bağlı bəzi mənbələr qeyd edir ki, istifadə edilməyən məlumatlar hər zaman kommersiya dəyərinə malik olur və belə hallarda məlumatın kommersiya dəyəri onun istifadə edilməməsi nəticəsində məlumat sahibinin rəqibləri qarşısında əldə etdiyi üstünlük əsasında müəyyən edilir (Hrdy, Lemley, 2021: 31).

Bu halın Azərbaycan Respublikasının qanunvericiliyində də mövcud olduğu Qanunun 3.0.1-ci yarımbəndinin mətnindən aydın olur. Belə ki, "mənfəət əldə etmək baxımından əhəmiyyətlidir" ifadəsi onu göstərir ki, məlumat hal-hazırda mənfəət əldə etmək üçün istifadə olunmasa belə, bu potensiala malik olması kifayətdir. Başqa sözlə, kommersiya dəyərinə malik olan məlumatın sahibi həmin məlumat vasitəsilə hal-hazırda deyil, gələcəkdə də mənfəət əldə edə bilər. Bu isə o deməkdir ki, mənfəətin konkret məbləği, əldə ediləcəyi tarix və ümumiyyətlə mənfəət əldə edilib-edilməyəcəyi konkret olaraq bilinməsə belə gələcəkdə mənfəət əldə etmək ehtimalının mövcudluğu məlumatın mənfəət əldə etmək baxımından əhəmiyyətli olduğunu və kommersiya dəyərinə malik ola biləcəyini göstərir.

Beləliklə, Qanunda "*mənfəət əldə etmək baxımından əhəmiyyətlidir*" ifadəsinin istifadəsi onu deməyə əsas verir ki, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən kommersiya dəyəri istər faktiki, istərsə də potensial mənfəət formasında müəyyən edilsin. Lakin onu da qeyd etməyə dəyər ki, potensial mənfəəti müəyyən etmək faktiki mənfəəti müəyyən etməkdən daha çətindir (Quinto, Singer, 2009: 11) və məlumatın aid olduğu fəaliyyət sahəsi üzrə ehtimallar və şərti sübutlar əsasında araşdırma tələb edir (Hrdy, Lemley, 2021: 32).

Mənfəət məsələsi ilə yanaşı Qanunun 3.0.1-ci yarımbəndində məlumatın "*satıla, bağışlanıla, müqavilə əsasında, yaxud varislik qaydasında verilə*" bilməsinə istinad edilmiş və bu halların da kommersiya dəyərinin müəyyən edilməsi zamanı istifadə edilə biləcəyinə işarə edilmişdir. Lakin nəzərə almaq lazımdır ki, məlumatın satılması, bağışlanması və ya başqa yollarla digər şəxslərə ötürülməsi birbaşa onun kommersiya dəyərinə malik olduğunu hesab etmək düzgün olmaz. Belə ki, satılan və ya əldə edilməsi üçün külli miqdarda xərc çəkilən məlumat sonda sahibinə rəqibləri qarşısında üstünlük qazandırmaya da bilər (Quinto, Singer, 2009: 13). Əgər məlumat heç bir üstünlük qazandırmırsa və ya gündəlik sahibkarlıq fəaliyyətindən nisbətən daha çox mənfəət əldə etməyə imkan vermirsə, həmin məlumatın kommersiya dəyərinə malik olması sual altındadır. Bunun əksinə, məlumatın aid olduğu işgüzar münasibətlər zamanı mütəmadi olaraq ötürülməsi və ya bu ötürülmənin həmin münasibətlərin tərəflərinin kommersiya maraqlarına uyğun olması faktı həmin məlumatın kommersiya dəyərinə malik olduğunu əks etdirir. Başqa sözlə, birbaşa məlumatın ötürülməsi onun kommersiya dəyərinə malik olduğunu sübut etmir və kommersiya dəyərinə malik olmaq üçün mövcud işgüzar münasibətlər çərçivəsində digər şəxslərin bu məlumatları əldə etmək üçün ödəniş etmək niyyətinin olması kommersiya dəyərini təsdiq edir (Hrdy, Lemley, 2021: 35).

Onu da qeyd etmək lazımdır ki, Qanunun 3.0.1-ci yarımbəndində "*və sairə*" ifadəsinin işlədilməsi məlumatın kommersiya dəyərinə malik olmasını müəyyən etmək üçün həmin yarımbənddə qeyd edilməyən digər faktlardan da istifadə edilməsinə şərait yaradır. Belə əlavə faktlara nümunə olaraq qeyd etmək mümkündür ki, məlumat sahibinin həmin məlumatı əldə etmək üçün sərf etdiyi vaxt, fiziki və əqli zəhməti, habelə çəkdiyi maddi xərcləri məlumatın kommersiya dəyərinə malik olduğunun göstəricisi olaraq qəbul edilə bilər (Bouchoux, 2012: 472).

Yuxarıda qeyd edilənlərə əlavə olaraq bir sıra xarici mənbələrə əsasən məlumatın əldə olunması üçün çəkilən xərclər (Quinto, Singer, 2019: 103) habelə kommersiya sirri üzrə yaranmış hüquqi mübahisələr zamanı çəkilən xərclər (Meitinger, Burri, 2014: 3) həmin məlumatın kommersiya dəyərinə malik olmasının göstəricisi hesab oluna bilər. Lakin bu zaman nəzərə almaq lazımdır ki, əgər məlumat hal-hazırda kommersiya dəyərinə malik deyilsə, keçmişdə onun əldə olunması üçün çəkilmiş xərclər onun kommersiya sirri hesab edilməsi üçün kifayət etməyəcək (Hrdy, Lemley, 2021: 33). Eyni qaydada istənilən məlumat mühafizə edilə bilər və əgər məlumat rəqibləri

qarşısında məlumatın sahibinə üstünlük qazandırmır və mənfəət əldə etmək üçün əhəmiyyətli deyilsə, həmin məlumatın mühafizə edilməsi onun kommersiya sirri hesab edilməsi üçün kifayət deyil (Quinto, Singer, 2009: 10).

Beləliklə, Qanuna əsasən kommersiya dəyərini müəyyən etmək üçün bir neçə hal nəzərə alına bilər. Yuxarıda da qeyd edildiyi kimi məlumatın kommersiya dəyərini sübut edən hallar üzrə müxtəlif yanaşmalar mövcud olsa belə hesab edirik ki, kommersiya dəyərini müəyyənləşdirən zaman məlumatın sahibinə rəqibləri qarşısında qazandırdığı üstünlük və mənfəət əldə etmək ehtimalı əsas götürülməlidir. Bu zaman məlumatın kommersiya dəyəri faktiki və ya potensial olaraq müəyyən edilə bilər. Məlumatın potensial kommersiya dəyərinə malik olduğunu birbaşa müəyyən etmək mümkün olmadığı təqdirdə isə yuxarıda qeyd edilən digər hallar nəzərə alına bilər.

***Məxfiliyin qorunması***. Məlumatın kommersiya sirrinə aid edilməsinin ikinci meyarı "*məlumatın məxfiliyinin qorunması məqsədilə sahibi tərəfindən hüquqi, təşkilati, texniki və digər tədbirlərin həyata keçirilməsi"*dir.

Yuxarıda qeyd edilən xarici və ya beynəlxalq qanunvericilik aktları sahibi tərəfindən məlumatın məxfiliyinin qorunması məqsədilə təmin edilməli tədbirləri təsvir edərkən "*ağlabatan*" sözündən istifadə edirlər (International Chamber of Commerce, 2019: 11). Qanunda isə bu söz "*hüquqi, təşkilatı, texniki və digər tədbirlər*" sözləri əvəz edilmişdir. Hər iki halda da məxfiliyin qorunması məqsədilə icra edilməli tədbirlərin növü və miqyası konkret olaraq müəyyənləşdirilmir.

Belə ki, məlumatın məxfiliyinin qorunması məqsədilə icra olunan tədbirlərin ağlabatan olub-olmamasını müəyyənləşdirmək üçün konkret bir göstərici və ya üsul mövcud deyil (Quinto, Singer, 2009: 32). Bu səbəblə, Amerika Birləşmiş Ştatları və Avropa İttifaqında icra olunan tədbirlərin ağlabatanlığı məhkəmə və ya andlılar tərəfindən hər bir məlumatın özünə məxsus riskləri nəzərə alınmaqla müəyyən edilir (International Chamber of Commerce, 2019: 12). Mövcud xarici məhkəmə təcrübəsi göstərir ki, ağlabatan tədbirlər adı altında ekstrimal və əsassız olaraq xərcli tədbirlərin icra olunması zəruri deyil (9). Əsas etibarı ilə isə məxfiliyin qorunması məqsədilə icra olunan tədbirlərin ağlabatan olmasını müəyyənləşdirmək üçün məlumat sahibinin sahibkarlıq fəaliyyətinin həcmi və mahiyyəti, icra oluna biləcək əlavə tədbirlər və icra edilə biləcək əlavə tədbirlərin təhlükəni aradan qaldırmaq ehtimalı nəzərdən keçirilməlidir (Quinto, Singer, 2009: 16).

Bütün bunlar isə onu deməyə əsas verir ki, məxfiliyin qorunması məqsədilə görülə biləcək tədbirlərin ağlabatan olub-olmaması ayrı-ayrılıqda hər bir işin hallarına əsasən faktlardan asılıdır (Varadarajan, 2018: 14). Həmçinin qeyd edilməlidir ki, tədbirin ağlabatanlığı birbaşa hər bir işin faktlarından asılı olduğu üçün bir çox hallarda ağlabatan həddə məlumatların qorunmasını təmin edən tədbirlər digər hallarda ağlabatan hesab olunmaya bilirlər. Belə ki, eyni xarici məhkəmə bir işdə məxfi məlumatların səmadan şəklinin çəkilməklə əldə edilməsini kommersiya sirrinin qeyri-qanuni üsulla əldə edilməsi hesab etmişdir (9). Digər işdə isə məlumat sahibinin məxfi olduğunu iddia etdiyi müəssisəsinin yüksəkdən asanlıqla görünməsinin qarşısını almadığına görə məlumat sahibinin ağlabatan həddə məlumatlarını qorumadığını qeyd etmişdir (11).

Bir digər nümunə isə Kaliforniya Apellyasiya Məhkəməsinin 2007-ci il tarixli qərarı nümunə gətirilə bilər (12). Belə ki, həmin işdə cavabdeh iddia etmişdir ki, iddiaçı məlumatlarını qorumaq məqsədilə müvafiq məxfilik müqavilələrini imzalatdırmadığı, məlumatları məxfi olması barədə şifrlə işarələmədiyi, məlumatları təhlükəsiz yerdə saxlamadığı və digər şəxslərin həmin məlumatları nəzərdən keçirməsinin qarşısını almadığı üçün sözügedən məlumat kommersiya sirri adı altında mühafizə oluna bilməz. Məhkəmə isə qeyd etmişdir ki, "...yazılı məxfilik müqavilələri və şifrlər mütləq tələblər deyil" və iddiaçı "...məlumatlarını məxfi saxlamaq niyyətində olmuş və bu məqsədə çatmaq üçün addımlar atmışdır". Beləliklə, bir çox hallarda məlumatların qorunması üçün standart təcrübə olan tədbirlər belə icra edilməmiş olsa, məhkəmə məlumat sahibinin məlumatları qorumaq niyyətini nəzərə alaraq məlumatların mahiyyətinə münasibətdə icra olunan tədbirlərin ağlabatan həddə olduğunu bildirmişdir.

Məlumatın məxfiliyinin qorunması məqsədilə icra olunmalı tədbirlər barədə Azərbaycan Respublikasının qanunvericiliyinə qayıtdıqda isə qeyd edilməlidir ki, Qanunda açıq şəkildə qeyd edilmədiyi üçün mübahisə yarandığı zaman icra olunan təhlükəsizlik tədbirlərinin qeyd edilən ikinci meyarın tələblərini qane edib-etmədiyini müəyyənləşdirmək məhkəmələrin üzərinə düşür. Lakin

hazırkı vəziyyətdə vahid məhkəmə təcrübəsi mövcud və ya əlçatan olmadığı üçün bu məsələ ilə əlaqədar konkret olaraq həmin təcrübəni nəzərdən keçirmək mümkün olmamışdır.

Kommersiya sirləri ilə əlaqədar mövcud Azərbaycan dilli mənbələrdən birində məxfiliyin qorunması barədə tədbirlərin kommersiya sirrinin rejimini müəyyən etdiyi və həmin rejimin təmin edilməsinin iki şərtinin mövcud olduğu qeyd edilmişdir (Əliyev, 2019: 201). Bunlardan biri əsas şərt adlandırılır və məlumatın sahibi ilə digər şəxslər arasında kommersiya sirrini yaymamaq öhdəliklərini təsdiq edən müqavilənin bağlanmasından ibarətdir (Əliyev, 2019: 201). İkinci şərt isə əlavə şərtlər adlandırılır və məlumatın sahibi ilə digər şəxslərin müəyyən etdiyi digər tədbirləri əhatə edir (Əliyev, 2019: 201).

Kommersiya sirrinin məxfiliyinin qorunmasına dair tədbirləri bu formada iki hissəyə bölən zaman doğrudur ki, məxfilik müqavilələri xüsusi əhəmiyyətə malikdir və məlumat sahibinin məxfiliyini qoruduğunu sübut etmək üçün vacibdir (Varadarajan, 2018: 14). Lakin, kommersiya sirrinin qorunması üçün icra olunmalı tədbirlərin əsas və əlavə olmaqla iyerarxiyasının müəyyən edilməsi istər Qanunun, istərsə də yuxarıda qeyd edilən digər xarici hüquqi aktların tələblərinin mahiyyətinə uyğun gəlmir. Yuxarıda qeyd edilən xarici mənbələrdən də aydın göründüyü kimi məlumatı qorumaq üçün heç bir tədbir bir digərindən vacib deyil və hansı tədbirin zəruri olması yalnız birbaşa məlumatın özündən asılıdır. Əlavə olaraq qeyd etmək lazımdır ki, Qanunun 3.0.2-ci yarımbəndinin mətnində hüquqi, təşkilatı, texniki və digər tədbirlər arasında hər hansı fərq qoyulmamış, habelə tədbirlərin bütünlükdə, ya da yalnız birinin (bir neçəsinin) icra edilməsinin kifayət edib-etməyəcəyi qeyd edilməmişdir. Bu isə onu göstərir ki, yalnız əlavə adı altında təsnifləşdirilən tədbirlərin icrası belə ikinci meyarın tələblərini ödəməyə kifayət edir. Belə olduğu təqdirdə isə bu tədbirlərin iyerarxiyasını formalaşdırmaq və onları əsas və əlavə olaraq təsnifləşdirmək məqsədəuyğun səslənmir.

Beləliklə, məlumatın kommersiya sirrinə aid edilməsinin ikinci meyarı məlumatın qorunması məqsədilə hüquqi, təşkilati, texniki və digər tədbirlərin icra edilməsindən ibarətdir. Azərbaycan Respublikasının qanunvericiliyi ilə yuxarıda qeyd edilən digər xarici qanunvericilik aktları arasında fərq olmasına baxmayaraq faktiki olaraq kommersiya sirrinin ikinci meyarı üzrə bütün bu aktların tələbləri eyni çərçivədə tətbiq edilir. Məlumatın kommersiya sirrinin ikinci meyarına uyğun olub-olmadığı birbaşa məlumatın sahibinin məlumatı qorumaq niyyətinin olması, bu niyyətinə uyğun olaraq gördüyü tədbirlər, sözügedən məlumatın mahiyyəti, həmin məlumatla əlaqədar mövcud risklər və məlumat sahibinin gördüyü tədbirlərin bu risklərə uyğun olub-olmaması əsasında müəyyən edilməlidir.

***Məlumatın sərbəst əldə oluna bilməməsi***. Məlumatın kommersiya sirrinə aid edilməsinin üçüncü və sonuncu meyarı Qanunun 3.0.3-cü yarımbəndinə əsasən "*məlumatların sərbəst əldə olunmasının qanuni əsaslarla*" məhdudlaşdırılmasından ibarətdir. Bu meyarın mətni də digər meyarlar kimi xarici və beynəlxalq qanunvericilik aktlarında Qanundan fərqlidir. TRİPS Sazişinin 39-cu maddəsinin 2(a) bəndində və Direktivin 2-ci maddəsinin 1(a) bəndində bu meyarı təsvir etmək məqsədilə qeyd edilmişdir ki, məlumat "*bütövlükdə və ya komponentlərinin konfiqurasiyası və birliyi adətən qeyd edilən məlumat növü ilə məşğul olan dairələr daxilindəki şəxslərə ümumiyyətlə məlum olmayacaq və ya asanlıqla əldə edilə bilməyəcək formada məxfidir.*"

TRİPS Sazişi və Direktivin yuxarıda qeyd edilən bəndlərinə əsasən kommersiya sirrinə aid edilmənin üçüncü meyarı tələb edir ki, məlumat müəyyən şərtlər çərçivəsində məxfi olsun və asanlıqla əldə edilə bilməsin. Xüsusi olaraq qeyd edilməlidir ki, burada məlumat "məxfi olmalıdır" deyildikdə həmin məlumatın aid olduğu sahədə çalışan mütəxəsislərə münasibətdə onun məxfi olması nəzərdə tutulur (Meitinger, Burri, 2014: 2). Başqa sözlə, məlumat əhalinin böyük bir hissəsinə münasibətdə məxfidirsə, lakin həmin məlumatın aid olduğu sahədə fəaliyyət göstərən mütəxəssislərin bu məlumatdan xəbəri varsa, həmin məlumat məxfi hesab edilə bilməz (Meitinger, Burri, 2014: 2).

Kommersiya sirri məxfi olmaqla yanaşı həm də asanlıqla əldə edilə bilən məlumat olmamalıdır. Bir sıra mənbələrə görə asanlıqla əldə edilə bilməyən məlumat deyildikdə əldə edilməsi və ya surətinin çıxarılması üçün xüsusi vaxt, əziyyət və ya xərc tələb edən məlumat başa düşülür (Quinto, 2009: 16). Nümunə olaraq Amerika Birləşmiş Ştatları məhkəməsinin qərarına əsasən qeyd edilə

bilər ki, məhkəmə tərəflərdən birinin pizza hazırlamaq üçün istifadə etdiyi reseptlərin original olmadıqlarını və "inkar olunmaz şəkildə açıq-aşkar" olduqlarını əsas gətirərək həmin reseptlərin kommersiya sirri hesab edilmədiklərini qeyd etmişdir (Bouchoux, 2012: 389).

Onu da nəzərə almaq lazımdır ki, məlumatın biznes məqsədləri üçün müqavilə əsasında işçilərə açıqlanması və ya lisenziya ilə ötürülməsi həmin məlumatın məxfiliyinə xələl gətirmir (International Chamber of Commerce, 2019: 7). Lakin belə hallarda kommersiya sirrinin ikinci meyarı da nəzərə alınmalı və kommersiya sirrinin qorunması üçün məxfilik müqavilələri də daxil olmaqla aktiv tədbirlər həyata keçirilməlidir (Varadarajan, 2017: 15-16).

Kommersiya sirrinə aid edilmənin Qanunda olan mətninə qayıtdıqda isə yenidən qeyd etmək lazımdır ki, bu mətn istər Amerika Birləşmiş Ştatlarının, istərsə də Avropa İttifaqının həmin meyarla əlaqədar qanunvericiliyində əks olunan mətndən fərqlidir. Qanunun üçüncü meyarla əlaqədar 3.0.3-cü bəndinin mətninə nəzər yetirdikdə "məhdudlaşdırmaq" ifadəsinin xüsusi yer tutduğu aydın görünür. Eyni ifadəni "kommersiya sirrinin rejimi"nə anlayış verən Qanunun 2.0.6-cı bəndində də görmək mümkündür.

Yuxarıda da qeyd edildiyi kimi kommersiya sirrinin rejimi kommersiya sirrinin sahibi və ya konfidenti tərəfindən onun əldə edilməsinin məhdudlaşdırılması məqsədi ilə icra olunan tədbirlərin cəmidir. Belə olduğu təqdirdə isə sual yaranır ki, kommersiya sirrinin sahibinin kommersiya sirrinin rejimini formalaşdıracaq və məlumatın məxfiliyini təmin edəcək tədbirləri icra etməsi üçüncü meyarın tələblərini ödəyirmi? Bu sualı kommersiya sirrinin digər meyarları ilə birgə nəzərdən keçirdikdə cavabın mənfi olduğu nəticəsinə gəlmək mümkündür. Belə ki, kommersiya sirrinin məxfiliyinin qorunması, kommersiya sirrinin rejiminin formalaşdırılması və bununla da onu əldə edə biləcək şəxslərin dairəsinin məhdudlaşdırılması ikinci meyarın tələbidir və üçüncü meyarla qarışdırılmamalıdır.

Yuxarıda qeyd edilən xarici və beynəlxalq qanunvericilik aktlarına nəzər yetirdikdə üçüncü meyarın məlumatın hamı tərəfindən sərbəst və asanlıqla əldə oluna bilməyən məlumat olması nəzərdə tutulur. Azərbaycan Respublikasının 03 aprel 1998-ci il tarixli, 460-IQ nömrəli "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanununda isə açıq və konfidensial informasiya ifadələrinə daha geniş anlayış verilmişdir. Belə ki, həmin qanuna əsasən açıq informasiya dedikdə "*əldə olunması, işlənməsi, verilməsi və ya istifadəsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə məhdudlaşdırılmayan və ümumi istifadə üçün təyin olunmuş*" informasiya başa düşülür.

Üçüncü meyarın tələbini daha yaxşı təsvir etmək üçün kommersiya sirrinin ikinci meyarı ilə üçüncü meyarın nümunə əsasında izahını vermək məqsədəuyğun olardı. Belə ki, işıqforun rəngləri demək olar ki, cəmiyyətin bütün fərdlərinə məlumdur, lakin istənilən şəxs özünü bu məlumatın sahibi hesab edib onu qorumaq üçün tədbirlər görə bilər. Ehtimal var ki, işıqforun rəngləri barədə məlumatın məxfiliyini qorumaq üçün icra olunan tədbirlər kommersiya sirrinin ikinci meyarının tələbini ödəsin. Çünki yuxarıda da qeyd edildiyi kimi ikinci meyarın mövcudluğu birbaşa məlumatdan və məlumat sahibinin hərəkətlərindən asılıdır. Üçüncü meyarın mövcudluğu isə birbaşa kənar şəxslərdən və onların bu məlumatı əldə etmək imkanlarından asılıdır. Bu isə o deməkdir ki, ikinci meyar mövcud olsa belə işıqforun rəngləri barədə məlumat digər hər kəsə məlum olduğu və bununla da üçüncü meyarın tələbini ödəmədiyi üçün kommersiya sirri hesab edilmir.

Beləliklə, qanunvericilik təcrübəsinin düzgün olmaması nəticəsində Qanunda kommersiya sirrinin üçüncü meyarı tam da düzgün ifadə olunmasa belə digər xarici və beynəlxalq qanunvericilik aktları ilə birgə şərh edildikdə aydın olur ki, üçüncü meyar məlumatın kənar şəxslərə məlum olmamasını və ya kənar şəxslərin asanlıqla əldə edə biləcəyi məlumat olmamasını tələb edir. Başqa sözlə "açıq məlumat" olmamasını tələb edir. İkinci meyarla paralel şərh edildikdə isə qeyd etmək mümkündür ki, ikinci meyar məlumatın sahibinin onun kənar şəxslər arasında yayılmaqdan qorunmasını tələb edirsə də, üçüncü meyar kənar şəxslərin bu məlumata malik olmamalarını tələb edir.

## Nəticə

Beləliklə, kommersiya sirrinin meyarları üzrə Azərbaycan Respublikasının qanunvericiliyi ilə yuxarıda qeyd edilən xarici hüquqi aktlar arasında bir sıra fərqlər olmasına baxmayaraq mahiyyət etibarı ilə eyni hüquqi münasibətlərə tətbiq edildikləri üçün xarici hüquqi aktları Azərbaycan Respublikasının bu məsələyə dair qanunvericiliyini nəzərdən keçirən zaman istifadə etmək mümkündür. Hər bir halda isə ilkin olaraq qeyd edilməlidirk ki, Qanunun 4-cü maddəsində qadağan edilmədiyi və kommersiya sirrinin üç meyarına uyğun olduğu müddətcə istənilən məlumat kommersiya sirri hesab edilə bilər.

Kommersiya sirrinin ilk meyarı çərçivəsində məlumatın faktiki və ya potensial kommersiya dəyərinə malik olması tələb olunur. Kommersiya dəyəri dedikdə isə məlumatın sahibinə rəqibləri qarşısında üstünlük və ya digər yollarla mənfəət əldə etmək imkanı nəzərdə tutulur. Məlumatın kommersiya dəyərini müəyyən etmək üçün məlumatın sahibinə rəqibləri qarşısında qazandırdığı üstünlük və mənfəət əldə etmək ehtimalı, məlumatı əldə etmək niyyətində olan şəxslərin mövcudluğu, məlumatın əldə olunması üçün çəkilən, habelə məlumatın mühafizə olunması məqsədilə çəkilən xərclər nəzərə alına bilər.

İkinci meyar çərçivəsində məlumat sahibinin onun məxfiliyini ağlabatan həddə qoruması tələb olunur. Bu müstəvidə ağlabatan hədd ifadəsinin məzmunu tam müəyyən olunmasa belə məlumat sahibinin niyyəti, məlumatın dəyəri, habelə həmin dəyərə uyğun olaraq məlumat sahibinin gördüyü tədbirlərin məlumatın məxfiliyi üzrə yaranmış risklərin qarşısını ala bilməsi imkanı əsas götürülür.

Üçüncü meyar çərçivəsində isə məlumatın kənar şəxslərə aydın olmaması və kənar şəxslərin asanlıqla əldə edə biləcəyi məlumat olmaması tələb edilir. Azərbaycan Respublikasının qanunvericiliyində fərqli formada qeyd edilməsinə baxmayaraq mahiyyət etibarı ilə bu meyar məlumatın qanunvericilikdə nəzərdə tutulan açıq məlumat kateqoriyasına aid edilməməsini tələb edir.

## Ədəbiyyat

1. Bouchoux, D. (2012). Intellectual property: The law of trademarks. Copyrights, patents and trade secrets. Delmar cengage learning, 720 p.
2. Varadarajan, D. (2017). Trade secret precautions, possession, and notice. San Fransisko: Hastings Law Review, 40 p.
3. Dutfield, G., Suthersanen, U. (2008). Global intellectual property law. Northampton: Edward Elgar Publishing Limited, 380 p.
4. https://casetext.com/case/microstrategy
5. Quinto, D., Singer, S. (2009). Trade secrets law. Oxford: Oxford University Press, Inc., 492 p.
6. International Chamber of Commerce (ICC). (2019). Protecting trade secrets – Recent EU and US Reforms. Paris: ICC, 42 p.
7. Hrdy, C., Lemley, M. (2021). Abandoning trade secrets. Stanford: Stanford law review, 66 p.
8. Meitinger, I., Burri, M. (2014). The protection of undisclosed information: Commentary of article 39 TRIPS. Haaqa: Kluwer Law International, 6 p.
9. https://casetext.com/case/ei-dupont-denemours-co-vchristopher?__cf_chl_tk=foN8zKE0qfhfkpcdKagwPo_bFInT840sC5GshjoIiao-1683356502-0-gaNycGzNDmU
10. Varadarajan, D. (2018). The trade secret – Contract interface. Iowa city: Iowa Law Review, 49 p.
11. https://casetext.com/case/dow-chemical-co-v-united-states
12. https://casetext.com/case/aaa-blueprint-digital-reprographics-v-ibarra
13. Əliyev, Ə., Rzayeva, G., İbrahimova, A., Məhərrəmov, B., Məmmədzalı, Ş. (2019). İnformasiya hüququ. Dərslik. Bakı: Nurlar, 448 s.

Göndərilib: 08.02.2023 Qəbul edilib: 16.04.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/170-174

**Tacirə Abdullayeva**
Bakı Dövlət Universiteti
doktorant
tacire.mehreliyeva@mail.ru

# SEÇKİ STANDARTLARI, BEYNƏLXALQ TƏCRÜBƏ VƏ AZƏRBAYCAN MODELİ

**Xülasə**

Müəllif araşdırmasında beynəlxalq seçki standartlarını, seçki sistemini və Azərbaycanda seçki siyasətini araşdırmışdır. Araşdırmada qeyd olunmuşdur ki, Azərbaycanda demokratik seçki ənənələrinin formalaşması dövlət müstəqilliyinin bərpasından sonra əldə edilən böyük tarixi nailiyyətlərdən biridir. 1995-ci ildə ümumxalq səsverməsi-referendum yolu ilə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyası ölkədə demokratik standartlara cavab verən azad, ədalətli, obyektiv seçkilərin keçirilməsi üçün əsas prioritetləri müəyyənləşdirmiş, prosesin fundamental hüquqi bazası formalaşdırılmışdır.

Ölkə rəhbərliyinin siyasi iradəsi ilə 1997-ci ildən müasir standartlara cavab verən seçki qanunvericiliyinin formalaşdırılması məqsədilə ATƏT-in Demokratik Təsisatlar Bürosu (DTİHB) ilə qurulmuş fəal işbirliyinin müsbət nəticələri bu nöqteyi-nəzərdən diqqəti xüsusilə çəkir. Azərbaycan 2001-ci ilin yanvarında Avropa Şurasına (AŞ) tamhüquqlu üzv qəbul edildikdən sonra bu sahədə ölkəmizin əməkdaşlıq hüdudları daha da genişlənmişdir. Seçki qanunvericiliyinin təkmilləşdirilməsi işində AŞ Venesiya Komissiyası da yüksək fəallıq göstərmişdir.

Seçki Məcəlləsi daim təkmilləşməyə ehtiyacı olan qanunvericilik aktıdır. Bu mənada məcəllə qəbul ediləndən sonra ona müəyyən əlavələrin və dəyişikliklərin edilməsi dövrün tələbi olmaqla yanaşı, respublikada ümumi prinsiplər baxımından dünyada qəbul edilmiş modelə uyğun seçkilərin keçirilməsinin daim diqqət mərkəzində olmasından xəbər verir. 2010-cu ilin iyununda respublikamızda seçki praktikasının daha da təkmilləşdirilməsi, beynəlxalq standartlara uyğunlaşdırma və qabaqcıl dünya təcrübəsinin tətbiq olunması üçün Seçki Məcəlləsinə bir sıra əlavələr və dəyişikliklər edilmişdir.

***Açar sözlər:*** *seçki, majoritar, qarışıq, proporsional, seçki məcəlləsi*

**Tajira Abdullayeva**
Baku State University
Ph.D student
tacire.mehreliyeva@mail.ru

## Election standards, international experience and the Azerbaijani model

**Abstract**

In his research, the author investigated the international election standards, the election system and the election policy in Azerbaijan. The study noted that the formation of democratic election traditions in Azerbaijan is one of the great historical achievements achieved after the restoration of state independence. The Constitution of the Republic of Azerbaijan, adopted in 1995 through a national vote-referendum, defined the main priorities for holding free, fair and objective elections in the country that meet democratic standards, and the fundamental legal basis of the process was formed.

From this point of view, the positive results of the active cooperation established with the Democratic Institutions Bureau of the OSCE (ODIHR) in 1997, with the political will of the country's leadership, in order to formulate electoral legislation that meets modern standards, are particularly noteworthy. After Azerbaijan became a full member of the Council of Europe (CoE) in January 2001, the limits of our country's cooperation in this field have expanded even more. The

CE Venice Commission has also been highly active in improving the electoral legislation. The Election Code is a legislative act that needs constant improvement. In this sense, after the adoption of the code, making certain additions and changes to it is not only a requirement of the time, but it also indicates that holding elections in accordance with the model accepted in the world in terms of general principles is always in the center of attention in the republic. In June 2010, a number of additions and changes were made to the Election Code in order to further improve the election practice in our republic, to adapt it to international standards and to apply advanced world practice.

***Keywords:*** *election, majoritarian, mixed, proportional, electoral code*

## Giriş

Beynəlxalq seçki standartlarının əsas mənbələri insan hüquqlarına dair müxtəlif beynəlxalq, regional və BMT bəyannamələri, konvensiyaları, eyni zamanda digər müvafiq hüquqi sənədlərdir. Bu sənədlərin ən mühümünə aşağıdakılar daxildir:

- 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsi;
- 1966-cı il Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt;
- İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi üzrə 1950-ci il Avropa Konvensiyası;
- Avropada Təhlükəsizlik və Əməkdaşlıq Konfransının (CSGE) İnsan Ölçüsü Konfransının Kopenhagen Görüşünün 1990-cı il Sənədi;
- 1948-ci il Amerika İnsan Hüquqları və Vəzifələri Bəyannaməsi;
- 1969-cu il Amerika İnsan Hüquqları Konvensiyası;
- İnsan və xalqların hquqlarına dair 1981-ci il Afrika Xartiyası.

“Seçki sisteminin seçimi seçilmiş təsisatlar, seçkilərin tezliyi və seçki vahidlərinin təşkili baxımından demokratik seçkilərin beynəlxalq standartlara cavab verməsini təmin etməlidir. Seçki sisteminin seçilməsi cəmiyyətin siyasi təfriqələrinin seçki qanunvericilik bazası tərəfindən düzgün şəkildə həllini təmin etməlidir ki, sosial qruplar arasında əsas ziddiyyətlər və fikir ayrılıqları siyasi təmsilçilik sistemi vasitəsilə uyğunlaşdırıla bilsin. Bu, siyasi inklüzivliyi və təmsilçiliyi təmin etmək üçündür. Beləliklə, seçki sisteminin seçiminə ən yaxşı şəkildə konkret məqsədlər kontekstində vətəndaşın səs vermək və seçkilərdə iştirak etmək hüququnun rəsmi konstitusiya və ya qanunla tanınması demokratik dövlətlər üçün ümumidir və substrativ, həm də etimadı artıran rol oynayır” (1).

Seçkilər XVII əsrdən etibarən müasir təmsilçi demokratiyanın fəaliyyət göstərdiyi adi mexanizm olmuşdur. Müasir təmsilçi demokratiyalarda nümayəndənin seçilməsi üçün bir vasitə kimi seçkilərdən istifadə olunur.

“Seçki dövlət hakimiyyəti nümayəndələrinin, həmçinin ictimai təşkilatların rəhbər orqanlarının seçilməsi üsuludur. Seçkilər qanunda nəzərdə tutulan seçki reqlamentinə uyğun olaraq gizli və açıq keçirilir.

Müasir demokratiyanın bərqərar olmasının təsirli mexanizmləri sırasında seçkilər həlledici rol oynayır. Xalq hakimiyyətinin həyata keçirilməsinin təmin edilməsi seçkilər nəticəsində meydana çıxır. Seçkilər hakimiyyətin xalq etimadının və müdafiəsinin ən təsirli, sınanmış vasitəsidir. Bu mühüm vasitə cəmiyyəti ədalətsizlikdən və diktatura təhlükəsindən qoruyur” (2).

Dünya təcrübəsində seçki sisteminin iki əsas tipi-majoritar və proporsinal seçki sistemləri mövcuddur. Bunlardan başqa bir sıra ölkələrdə hər iki sistemin ayrı-ayrı ünsürlərini özündə əks etdirən qarışıq seçki sistemi adlanan forma da tətbiq edilir.

Majoritar sözü fransız dilindən tərcümədə “çoxluq” deməkdir. Majoritar seçki sistemində kim çoxluğun səsini qazanarsa, o da seçilir. Bu sistem çox geniş yayılmışdır. Bu seçki sisteminə uyğun olaraq, deputatlığa namizəd seçkilərdə fərdi qaydada iştirak etməlidir və o, seçkili orqana seçilmək üçün seçki dairəsi üzrə digər namizədlərə nisbətdə daha çox səs toplamalıdır. Səs çoxluğunun sayından asılı olaraq majoritar seçki sisteminin iki növü müəyyən edilir: mütləq səs çoxluqlu majoritar seçki sistemi və nisbi səs çoxluqlu majoritar seçki sistemi.

Mütləq səs çoxluqlu majoritar seçki sistemi seçki dairəsi üzrə seçicilərin səslərinin yarıdan çoxunun, yəni 50%+1 səsin toplanmasını tələb edir. Sistemin əhəmiyyəti ondan ibarətdir ki, deputat Məclisdə seçicilərin yarıdan çoxunun iradəsini təmsil etmək imkanına malik olacaqdır.

Namizədlərdən heç biri tələb olunan səs çoxluğunu (50%+1) toplamadıqda, bir qayda olaraq, daha çox səs toplamış iki namizədin iştirakı ilə səsvermənin ikinci mərhələsi keçirilir. Səsvermənin ikinci mərhələsində daha çox səs toplayan namizəd parlamentə deputat seçilir. Səsvermənin bu mərhələsində nisbi səs çoxluqlu majoritar seçki sisteminin şərtləri tətbiq edilir.

Nisbi səs çoxluqlu majoritar seçki sisteminə uyğun olaraq ölkə ərazisi parlamentə seçilən deputatların sayına bərabər birmandatlı seçki dairəsinə bölünür. Hər bir seçki dairəsindən yalnız bir deputat seçilə bilər. Səsvermə bir mərhələdə keçirilir. Namizədlər sırasında daha çox səs toplayan parlamentə deputat seçilir. Belə seçki sistemi müəyyən mənada seçicilərin iradəsinin təhrif olunmasına səbəb olur.

Proporsional seçki sistemində səslər ayrı-ayrı şəxslərə deyil, partiyalara verilir. Bu sistem ilk dəfə olaraq 1889-cu ildə Belçikada tətbiq edilib.

“Majoritar və Proporsional sistemlərin həm müsbət, həm də mənfi tərəfləri vardır. Məsələn, majoritar sistemlərdə millət vəkili ilə onu seçən icma arasında münasibət daha yaxın olur. Lakin bu sistemdə ərazi üzrə yalnız bir namizəd qalib gəldiyindən, ölkə miqyasında kiçik partiyaların fəaliyyəti məhdudlaşır. Bu isə getdikcə partiyaların sayının azalmasına gətirib çıxarır.

Proporsional sistem isə öz növbəsində çoxlu sayda partiyaların yaranmasına və çoxlu sayda fikirlərin səslənməsinə təkan verir. Lakin bu sistemdə, partiyalar fəaliyyətləri zamanı diqqəti ayrı-ayrı icmalara yox, bütövlükdə ölkəyə yönəldirlər. Buna görə də seçici öz problemini bir millət vəkilinə yox, bütöv partiyaya ünvanlamalı olur.

Bu müsbət və mənfi məqamları nəzərə alaraq, bir çox ölkə, seçkiləri qarışıq sistemlə keçirir. Belə sistemlərdə seçicilərə həm majoritar, həm də proporsional səs vermək üçün şərait yaradılır” (3).

Seçki hüququ vətəndaşların siyasi sistemə təsirini hiss etməyə imkan verən ən əsas hüquqdur. Seçki hüququnu vətəndaşların siyasi hüquqları içərisində miniumum kimi də nəzərdən keçirmək olar. Siyasətlə maraqlanmayan və siyasi həyatda iştirak etməyən vətəndaşlar ömrü boyu azı bir dəfə seçki hüququndan istifadə etməklə siyasi sistemin formalaşmasında iştirak edirlər.

“...Azərbaycan Respublikası Konstitusiyasının seçki hüququna həsr edilmiş 56-cı maddəsində referendumun adının çəkilməsi onu bildirir ki, referendumda iştirak da seçki hüququna aiddir. Seçki hüququ digər hüquqlardan fərqli olaraq, qanunvericilikdə ən çox dəqiqliklə nizamlanan, cilalanan və zaman-zaman təkmilləşdirilən hüquq hesab oluna bilər. Seçki senzləri və s. vasitəsilə həmin hüququn bu dərəcədə dəqiqliklə nizamlanması onun təyinatından irəli gəlir.

Seçki hüququ birbaşa dövlətin orqanlarını legitimləşdirən mexanizmin məğzini təşkil edir. Elə buna görə də seçki hüququ və onun prinsipləri konstitusiya səviyyəsində təsbit edilir. Seçki hüququna təxmini olsa da, belə anlayış vermək olar: seçki hüququ vətəndaşların ayrı-ayrı şəxslərə elə münasibət bildirməsidir ki, sonradan bu münasibət müvafiq hüquqi nəticələr və vəzifələr yaradır. Bu hüquqi nəticə isə dövlət orqanının formalaşdırılması, şəxsin vəzifəyə seçilməsi şəklində təzahür edir” (Əsgərov, 2011: 200).

Azərbaycanda son illər ərzində əhəmiyyətli nəticələr əldə edilib, vətəndaşların seçki hüququnun təmin olunması və ümumiyyətlə insan hüquq və azadlıqlarının qorunması sahəsində çoxsaylı dövlət proqramları uğurla həyata keçirilib.

“Seçki sisteminin təkmilləşdirilməsində seçki komissiyalarının maddi-texniki təminatı və iş şəraitinin yaxşılaşdırılması mühüm əhəmiyyət kəsb edir. 2006-cı ildən etibarən Mərkəzi Seçki Komissiyası seçkilərin (referendumun) keçirilməsi ilə bağlı hazırlığın və ehtiyacların öyrənilməsi məqsədilə geniş monitorinqlər həyata keçirib.

Bu monitorinqlər nəticəsində aşağı seçki komissiyalarında kargüzarlıq işinin təşkili vəziyyəti, informasiya texnologiyalarından istifadə səviyyəsi, mövcud iş şəraiti və s. bu kimi məsələlər nəzərdən keçirilərək ehtiyac meyarları müəyyən edildi və zəruri tədbirlər görüldü. Artıq xeyli müddətdir ki, ölkə rəhbərliyinin göstərişi ilə MSK da daxil olmaqla, respublikada 125 dairə seçki komissiyasının hamısı üçün iş şəraitinin yaxşılaşdırılması ilə bağlı bütün lazımi addımlar atılıb, yüzdən artıq dairə seçki komissiyası üçün yüksək syandartlara cavab verən yeni inzibati binalar tikilib istifadəyə verilib, digər dairə seçki komissiyalarının yerləşdiyi binalar isə müasir tələblərə cavab verən şəkildə əsaslı təmir edilib. Seçkilərin (referendumun) yüksək səviyyədə hazırlanıb

keçirilməsi üçün dairə seçki komissiyalarının maddi-texniki bazası daha da təkmilləşdirilib, onlar yeni informasiya texnologiyaları proqramları və avadanlıqları da daxil olmaqla, zəruri ofis ləvazimatları ilə tam təchiz olunublar" (5: 9).

Azərbaycanda seçkilər hər zaman demokratik prinsiplərə uyğun keçirilir. Ümumiyyətlə, dünyada sekçilərin demokratik prinsiplərə uyğun keçirilməsi əhəmiyyətlidir və Azərbaycan bu prinsipləri daim prioritet seçir. Bu baxımdan Azərbaycanda şəffaf, ədalətli və tam dəqiq seçki keçirmək ənənəsinin formalaşdığını deyə bilərik.

"Azərbaycan Respublikasında dövlət başçısı-Azərbaycan Respublikası Prezidenti, ali qanunverici orqan-Azərbaycan Respublikası Milli Məclisi və yerli idarə orqanı-bələdiyyələr, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir.

Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarət olub, bütün deputatlar majoritar seçki sistemi ilə seçilir. 2002-ci ildəki Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklər haqqında əlavə və dəyişikliklər edilməsinə dair referendumdan əvvəl, 100 deputat majoritar seçki sistemi ilə, 25 deputat isə proporsional seçki sistemi ilə seçilib.

Milli Məclis seçkilərində siyasi partiyalar və müstəqil deputatlar mandat qazanmaq üçün yarışır.

Azərbaycan Respublikası Prezidenti, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 7 il müddətinə seçilir və prezidentin seçilmə sayına məhdudiyyət yoxdur. 2009-cu ildəki Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklər haqqında əlavə və dəyişikliklər edilməsinə dair referendumdan əvvəl, bir şəxs iki dəfədən artıq prezident seçilə bilməzdi" (6).

Demokratik ölkələrin seçki təcrübəsi göstərir ki, hər bir seçkinin uğurunu təmin edən şərtlər sırasında siyasi iradə və ictimai-siyasi sabitlik amilləri ilə yanaşı, təkmil seçki qanunvericiliyinin də olması olduqca vacibdir.

Ümumxalq səs verməsi yolu ilə 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizdə demokratik standartlara cavab verən azad, ədalətli, obyektiv seçkilərin keçirilməsi üçün əsas prioritetləri müəyyənləşdirmişdir. Əsas Qanunda təsbit olunmuş müddəalara istinadən Azərbaycanda seçkilərin hüquqi bazası formalaşdırılmışdır.

"Azərbaycanda seçki qanunvericiliyinin unifikasiyası məqsədilə 2003-cü ilin mayında Azərbaycan Respublikasının Seçki Məcəlləsinin qəbulu bu əməkdaşlığın uğurlu bəhrəsidir. Sənədin hazırlanması ilə bağlı ilk növbədə Avropa Şurasının Venesiya Komissiyası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu və Beynəlxalq Seçki sistemləri üzrə Fondla (İFES) sıx əməkdaşlıq münasibətləri qurulmuşdur. 2002-ci ilin ortalarından etibarən bu təşkilatlarla aparılan məsləhətləşmələrdən, alınan müsbət rəylərdən sonra Seçki Məcəlləsi Milli Məclisin müzakirəsinə təqdim edilmişdir.

2002-ci ilin dekabrında Azərbaycan hökumətinin nümayəndələri, müxalifət nümayəndələri, beynəlxalq təşkilatların və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə ATƏT tərəfindən təşkil olunmuş "dəyirmi masa"larda Seçki Məcəlləsinin layihəsi ətrafında müzakirələr aparılmış, televiziya vasitəsilə yayımlanan bu tədbirlər nəticəsində ictimaiyyət Seçki Məcəlləsinin layihəsi ilə bağlı məlumatlar əldə etmişdir. Bütün təkmilləşdirmələrdən sonra Seçki Məcəlləsi 2003-cü ilin mayında Milli Məclisdə qəbul edilmiş və Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə qüvvəyə minmişdir" (7).

Seçkilərin ədalətli və demokratik keçirilməsi demokratik idarəçiliyin zəruri şərtidir, çünki bu cür seçkilər vasitəsilə xalq qanunun tələb etdiyi əsaslarla öz iradəsini azad ifadə edir, onun adından və maraqları naminə idarə etmək kimi qanuni hüququn kimə aid olduğunu müəyyənləşdirir.

Digər insan hüquqları və əsas azadlıqları irq, dəri, cins, dil, din, siyasi və digər fikirlər, milli və ya sosial mənşə, mülkiyyət, məhsəb və digər statuslara görə ayrı-seçkilik qoyulmadan və heç bir əsassız məhdudiyyətlər olmadan həyata keçirilməsə, seçkilərin ədalətli və demokratik keçirilməsinə nail olmaq mümkün deyil.

Qanunun hökmünə əməl olunmadan digər insan hüquqları və geniş mənada desək, demokratiya kimi, seçkilərin də keçirilməsinə nail olmaq olmaz. Buna görə də, seçkilərin ədalətli və demokratik

keçirilməsi həm beynəlxalq təşkilatların, həm də dövlət təsisatlarının, siyasi rəqabət iştirakçılarının, vətəndaşlar və onların vətəndaş cəmiyyətlərinin maraq dairəsinə çevrilib.

“...müşahidəçilik iki səviyyəlidir-yerli və xarici (yaxud beynəlxalq). ATƏT-in 1990-cı il tarixli Kopenhagen sənədinin 8, 10 və 12-ci bəndlərində seçki keçirən dövlətlərdə beynəlxalq və yerli müşahidəçiliyin təminatı ATƏT regionunda seçkinin nəticələrinin tanınması üçün əsas amillərdən biri kimi qeyd olunur. Qeyd edilir ki, seçkidə demokratikliyin, bərabərliyin, ədalətliliyin təmin olunması kimi, seçki prosesinin azad və təzyiqlər olmadan izlənməsi-müşahidə edilməsinin təmin olunması da mühüm əhəmiyyət kəsb edir. Dövlətlər seçkinin nəticələrinin legitimliyini təmin etmək üçün müşahidəçilərin sərbəst fəaliyyətinə şərait yaratmalıdır. Müşahidəçilər isə öz növbəsində fəaliyyətlərini seçki prosesinə müdaxilə etmədən qurmalıdırlar” (8).

## Nəticə

Seçki hüququna əsasən vətəndaşlar dövlət orqanlarına nümayəndə seçmək və dövlət orqanlarına seçilmək hüququndan istifadə edir. Seçki hüququ aktiv və passiv seçki hüquqları ilə səciyyələnir.

Aktiv seçki hüququna əsasən vətəndaşlar seçkili dövlət orqanlarının üzvlərini seçir və yaxud onların geri çağırılmasında iştirak etmək hüququ qazanırlar. Passiv seçki hüququna əsasən isə vətəndaşlar keçirilən seçkidə dövlət orqanlarına seçilmək hüququ qazanırlar.

Xalqın iradəsinin bilavasitə və ən yüksək ifadəsi dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına azad, demokratik seçkilərin keçirilməsi, habelə dövlət həyatının ən mühüm məsələlərinə dair öz rəyini referendum yolu ilə bildirməsidir. Seçkilər və referendum demək olar ki, bütün dünyada vətəndaşların cəmiyyətin ictimai həyatında və dövlət işlərində iştirakının ən kütləvi formasıdır.

## Ədəbiyyat

1. https://www.idea.int>sites>files>publications
2. https://az.wikipedia.az>wiki
3. https://akinchi.org>seçki-sistemleri
4. Əsgərov, Z. (2011). Konstitusiya hüququ. Bakı, 200 s.
5. https://iacis.az>2017106>kitab-mdb-az
6. https://az.wikipedia.org>wiki>Azərbaycanda_seçkilər
7. https://new.milli.az>politics
8. https://afn.az>xeber>19836-seçkilerin-beynelxalq.

Göndərilib: 18.01.2023 Qəbul edilib: 30.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/175-182

**Tamerlan Hacıyev**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
tamerlan.haciyev.2000@mail.ru

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA KONSTİTUSİON İSLAHATLARIN BANİSİDİR

## Xülasə

Tarix boyu hər bir dövlətin konkret siyasi şəraitdə milli müstəqilliyə qovuşmasında lider amili mühüm rol oynamışdır. Belə situasiyalarda qətiyyətlə önə çıxan, məsuliyyəti üzərinə götürməkdən çəkinməyən böyük şəxsiyyətlər xalqlarının daim arzusunda olduğu azadlıq, müstəqillik, milli dövlətçilik kimi ali ideallarının gerçəkləşməsində müstəsna rol oynayırlar. Bu həqiqət bu il dövlət müstəqilliyinin bərpasının 31-ci ildönümünü qeyd etməyə hazırlaşan Azərbaycan Respublikasının yaxın tarixi keçmişinə nəzərən bir daha təsdiqini tapır.

XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan ümummilli lider Heydər Əliyev də xarizmatik lider kimi xalqımızın taleyində misilsiz rol oynamaqla yanaşı, onu tarixən can atdığı həqiqi müstəqillik idealına qovuşduraraq mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür.

***Açar sözlər:*** *Ümummilli lider, Heydər Əliyev, islahatlar, Azərbaycan Respublikasının Konstitusiyası, konstitusion islahatlar, konstitusiya hüququ*

**Tamerlan Hajiyev**
The Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
master student
tamerlan.haciyev.2000@mail.ru

## Haydar Aliyev is the founder of constitutional reforms in Azerbaijan

## Abstract

Throughout history, the leading factor has played an important role in achieving national independence in specific political conditions of each state. Great personalities who firmly stand out in such situations and are not afraid to take responsibility play an exceptional role in the realization of the highest ideals of their people, such as freedom, independence, national statehood, which they always dream of.

This fact is confirmed by the recent history of the Republic of Azerbaijan, which is preparing to celebrate the 31st anniversary of the restoration of State independence this year.

National leader Haydar Aliyev, a phenomenal person in the history of Azerbaijan of the XX century, not only played an unprecedented role in the fate of our people as a charismatic leader, but put forward a new concept of statehood on the basis of a progressive historical tradition, bringing him to the ideal of true independence, which he historically aspired to.

***Keywords:*** *National leader, Haydar Aliyev, reforms, Constitution of the Republic of Azerbaijan, constitutional reforms, constitutional law*

## Giriş

Bu gün siyasi baxışlarından asılı olmayaraq böyük əksəriyyət etiraf edir ki, Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsində və bu istiqamətdə cərəyan edən proseslərin önündə getdiyini birmənalı olaraq təsdiqləyən faktlar kifayət qədərdir. Respublikada geniş vüsət almış milli azadlıq hərəkatı ilə eyni dövrdə xalqda milli heysiyyatı, özünüdərki daha da gücləndirən,

milli dövlət rəmzlərinə hörmət aşılayan genişmiqyaslı addımlar da məhz ulu öndər Heydər Əliyevin keçmiş Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına rəhbərlik etdiyi dövrdə atılmışdır.

Xatırlatmaq istərdim ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi xalqımızın müstəqilliyə gedən yolunda konstitusion müstəvidə ilk həlledici addımları atmışdır. Ali Məclisin 1990-cı il noyabrın 17-də keçirilmiş birinci sessiyasında Azərbaycanın milli dövlət dirçəlişi prosesinin həyata keçirilməsi məsələsi geniş müzakirə olunmuş, keçmiş Naxçıvan MSSR-in adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikası adlandırılmasına qərar verilmişdir. Həmin sessiyada, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin rəmzi olan üçrəngli dövlət bayrağının bərpası, onun Naxçıvan Muxtar Respublikasının dövlət bağrağı kimi qəbulu barədə qərar verilmiş, eyni zamanda yeni gerb və himnin hazırlanması üçün müsabiqə elan olunmuşdur (1).

Bu və digər qərarlar Naxçıvan Muxtar Respublikasının keçmiş SSRİ-nin yurisdiksiyasından çıxarılmasına xidmət etmişdir. Məsələn, 1991-ci il martın 17-də Azərbaycanda keçirilən və keçmiş SSRİ-nin saxlanılmasına münasibəti öyrənən referendumun Naxçıvanda boykot edilməsi ulu öndərin müstəqillik ideallarına nə qədər bağlı şəxsiyyət olduğunu təsdiqləyir.

Məlumdur ki, 1991-ci il avqustun 30-da keçmiş Azərbaycan SSR Ali Soveti Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında» bəyanat qəbul etmişdir. Bəyanatda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin BMT-nin nizamnaməsində, digər beynəlxalq hüquqi paktlarda və konvensiyalarda təsbit edilmiş prinsiplərə müvafiq surətdə tanınması üçün dünya dövlətlərinə çağırış da yer almışdı. Ali Sovetin 30 avqust tarixli iclasında bəyanatla yanaşı, «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında» Konstitusiya Aktı layihəsinin iki həftə müddətində hazırlanması barədə qərar qəbul edilsə də, respublika rəhbərliyi bu prosesi iki aya yaxın ləngitmişdi.

1991-ci il oktyabrın 18-də tanınmış dövlət xadimi Heydər Əliyevin də imzaladığı «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı» ilə Azərbaycanın istiqlaliyyəti bütün dünyaya bəyan edilmişdir. Bu məsələ 1991-ci il dekabrın 29-da ümumxalq referendumuna çıxarılmış və əhalinin 95 faizi səsvermədə iştirak edərək respublikanın suverenliyinə və istiqlaliyyətinə səs vermişdir.

Haşiyə olaraq bildirim ki, Respublikada konstitusiya yaradıcılığının əsası sovet hakimiyyəti illərində qoyulmuş, Azərbaycan SSR-də dörd Konstitusiya qəbul edilmişdir. Azərbaycan SSR-in 1921, 1925, 1937, 1978-ci il konstitusiyaları oxşar ideya və prinsiplərin varisliyini qoruyub saxlamaqla, daha çox ideoloji xarakter daşımış, hakim siyasi rejimi və bu rejimin kontekstində hüquq qaydalarını və dövlət orqanlarını müəyyən etmişdir.

1995-ci ilədək qüvvədə olmuş Konstitusiya Aktı isə respublikamızı rəsmi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin varisi və müstəqil respublika elan etmişdir. Yeni Konstitusiyanın hazırlanması üçün hüquqi bazis, başlanğıc sayılan bu Akt respublikanın müstəqil dövlətçiliyinin hüquqi əsaslarını möhkəmləndirmiş, dövlətin siyasi və iqtisadi quruluşunun meyarlarını müəyyən etmişdir.

Sənədin preamblua hissəsində qeyd olunur ki, "Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq və "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsini rəhbər tutaraq bu Konstitusiya Aktını qəbul edir və müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsaslarını təsis edir" (2).

Konstitusiya Aktında müəyyən çatışmazlıqlar, boşluqlar olsa da, sənəd ilk növbədə hüquqi varisliyi, bununla bağlı yaranan və yaranacaq mülkiyyət məsələlərini həll edirdi. Sənəddə Azərbaycan ərazisində yerləşən daşınmaz əmlakın Azərbaycana məxsus olması, daşınar mülkiyyətin isə yalnız müvafiq sazişlər əsasında başqa dövlətə verilməsi, keçmiş SSRİ qanunvericiliyinin hansı hədlərdə, ölkə ərazisində hüquqi qüvvəyə malik olması barədə məsələlər əksini tapmışdır. Bütun bunlar nəzəriyyədən daha çox, praktiki məsələlər idi. Lakin sənəddə mülkiyyət hüquqları və sahibkarlıqla bağlı məsələlərə çox az yer verilmişdi.

Azərbaycanda hüquqi dövlət və demokratik cəmiyyətin qurulması məqsədi də Konstitusiya Aktında dəqiq əksini tapmışdı. Sənədin 3-cü maddəsində vurğulanır ki, "SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilənin Azərbaycana aid hissəsi imzalandığı andan etibarsızdır. Keçmiş SSR İttifaqının tərkibinə daxil olmuş suveren dövlətlər ilə qarşılıqlı münasibətlərin ortaya çıxan bütün məsələləri müqavilələr və sazişlər arasında nizama salınmalıdır".

4-cü maddədə isə qeyd olunur ki, "Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyası bu Konstitusiya Aktının müddəalarına zidd gəlməyən yerlərində qüvvədə qalır…Azərbaycan Respublikasının müvafiq qanunları qəbul edilənədək SSRİ qanunları Azərbaycan Respublikasının ərazisində hüquqi qüvvəsini saxlayır; həmin qanunların siyahısını Azərbaycan Respublikasının parlamenti müəyyən edir".

Konstitusiya Aktının 9-cu maddəsində göstərilir ki,"Öz idarəetmə formasını seçmək, başqa xalqlarla öz münasibətlərini müəyyənləşdirmək, siyasi, iqtisadi və mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək Azərbaycan xalqının ayrılmaz hüququdur".

Sözügedən sənədin 10-cu maddəsi də demokratikliyi ilə seçilir. Qeyd olunur ki, "Azərbaycan Respublikasında suveren hakimiyyət Azərbaycan xalqına məxsusdur. Azərbaycan xalqının hər hansı hissəsi, hər hansı bir şəxs suveren hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz".

Konstitusiya Aktının 12-ci maddəsində nəzərdə tutulur ki, "Azərbaycan xalqı müstəqil, dünyəvi, demokratik, unitar dövlət yaradır, bu dövlətin suveren hakimiyyəti daxili məsələlərdə ancaq hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan xalqının azad surətdə razılıq verdiyi müqavilələrdən və sazişlərdən irəli gələn müddəalarla məhdudlaşdırılır".

Sənədin 13-cü maddəsində ilk dəfə olaraq Azərbaycan Respublikasında dövlət hakimiyyətinin hakimiyyətlərin bölgüsü prinsipi əsasında qurulması təsbit edilmişdir. Burada vurğulanırdı ki, qanunvericilik hakimiyyəti Azərbaycan Respublikasının parlamenti tərəfindən həyata keçirilir. Ali icra hakimiyyəti Azərbaycan dövlətinin başçısı olan Azərbaycan Respublikası Prezdentinə məxsusdur. Məhkəmə hakimiyyəti müstəqil məhkəmələr tərəfindən və ali instansiyada - hər birinin öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi Azərbaycan Respublikasının o zamankı Ali Arbitraj Məhkəməsi tərəfindən həyata keçirilir.

Konstitusiya Aktında ölkədə insan hüquq və azadlıqlarının təminatına geniş imkanlar açan son dərəcə demokratik maddələr də yer almışdı. Məsələn, 19-cu maddədə qeyd olunurdu ki, "Azərbaycan Respublikasının bütün vətəndaşları qanun qarşısında bərabərdirlər. Azərbaycan Respublikası İnsan Hüquqlarının Ümumi Bəyannaməsinə, Helsinki müşavirəsinin Yekun aktına və hamılıqla qəbul edilmiş başqa beynəlxalq hüquq sənədlərinə qoşularaq, onlarda nəzərdə tutulan bütün hüquq və azadlıqlara vətəndaşların cinsindən, irqindən və milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən, siyasi əqidəsindən və başqa hallardan asılı olmayaraq əməl edilməsini, bu hüquq və azadlıqların maneəsiz həyata keçirilməsini təmin edir. Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqları qanunda nəzərdə tutulmuş xüsusi hallardan başqa, hər hansı formada məhdudlaşdırıla bilməz".

Nəhayət, sənədin 32-ci maddəsində nəzərdə tutulmuşdur ki, "Bu Konstitusiya Aktı Azərbaycan Respublikasının yeni Konstitusiyasının hazırlanması üçün əsasdır".

Göründüyü kimi, yeni yaranmış dövlətimiz özünü Azərbaycan Xalq Cümhuriyyətinin davamçısı elan etməklə bərabər, siyasi və iqtisadi münasibətlərin fundamental prinsiplərini – bütün təbii sərvətlərin xalqa mənsub olmasını, mülkiyyətin bütün formalarının bərabərliyini, vətəndaşların seçki hüququnun, çoxpartiyalı sisteminin təminatnı, insan hüquq və azadlıqlarının ümumi prinsiplərini rəsmən elan etmişdir.

Müstəqilliyimizin ilk illərində bir sıra obyektiv və subyektiv səbəblər üzündən Azərbaycanda bu sahədə, demək olar ki, əsaslı irəliləyiş baş verməmişdir. 90-cı illərin əvvəllərində ölkədə yaşanan siyasi kataklizmlər, vətəndaş qarşıdurması, siyasi xaos və özbaşınalıq, iqtisadi tənəzzül, eyni zamanda, yeni cəmiyyətin tələblərinə uyğun qanunların olmaması kimi neqativ amillər öz mənfi təsirini göstərmişdir. Respublikamızın demokrtik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti

quruculuğu istiqamətində qazandığı böyük nailiyyətlər isə məhz ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmış möhkəm təmələ əsaslanır.

1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ölkədə qanunçuluğun və hüquq qaydalarının bərpası istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi geniş vüsət almışdır. Ümummilli lider bununla bağlı demişdir: "Biz Azərbaycanda demokratik respublika quraraq, sivilizasiyalararası cəmiyyət uğrunda mübarizə apararaq, ümumi dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Güman edirəm ki, Azərbaycan xalqının bu barədə həm tarixi, həm müasir potensialı olduqca böyükdür. Bunların hamısından istifadə olunarsa, Azərbaycan həm tam müstəqil dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik, hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir cəmiyyət olacaq" (3).

Tarixi sənədlər göstərir ki, məhz Heydər Əliyevin rəhbərliyi ilə ölkədə hüquqi dövlət quruculuğu istiqamətində kompleks, ardıcıl, məqsədyönlü və konkret strategiyaya əsaslanan islahatların həyata keçirilməsinə start verilmişdir. Hələ 9 oktyabr 1993-cü ildə ulu öndərin təşəbbüsü ilə qəbul olunmuş "Azərbaycan Respublikasının Konstitusiyasına (Əsas Qanununa) dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, bu sənəd 1995-ci il noyabrın 27-dək qüvvədə olmuşdur (4). Qanunda konstitusiyanın İqtisadi sistem adlanan ikinci fəslində, Sosial inkişaf və mədəniyyət adlanan üçüncü fəslində, Xarici siyasət fəaliyyəti və Vətənin müdafiəsi adlanan dördüncü fəslində ciddi dəyişikliklər edilmiş, Azərbaycan Respublikasının vətəndaşlığı adlanan beşinci fəslində isə SSRİ, sovet, sosializm quruculuğu sözləri tamamilə çıxarılmışdır (5).

Yeni Konstitusiyanın hazırlanması üçün hələ 1991-ci il fevralın 9-da keçmiş Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 74 nəfərdən ibarət komissiya yaradılsa da, bu istiqamətdə faktiki olaraq uzun müddət iş görülməmişdi. 1993-1994-cü illərdə ölkədə ictimai-siyasi vəziyyətin gərginləşməsi, bir sıra təxribatlar, dövlət çevrilişi cəhdləri Konstitusiyanın qəbulu istiqamətində konkret addımlar atmağa imkan verməmişdi.

1994-1995-ci illərdə dövlətçiliyə qarşı yönəlmiş cinayətkar qəsdlərin qarşısı alındıqdan sonra 1995-ci ilin may ayının 2-də Milli Məclisin iclasında ümummilli lider Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan 34 nəfərlik Dövlət Komissiyası təşkil edilmişdir (6). Görkəmli alimlərin, hüquqşünasların, mütəxəssislərin və rəhbər işçilərin daxil edildiyi bu komissiya 1995-ci il iyulun 5-də ilk iclasını keçirmişdir. Komissiyanın iclasında geniş nitq söyləyən ümummilli lider Heydər Əliyev bir sıra dəyərli tövsiyə və məsləhətlərini vermişdir.

Ümumilikdə, 1995-ci ilin iyul ayından noyabr ayınadək Dövlət Komissiyasının 8 iclası keçirilmiş, ulu öndər ölkə Konstitusiyasının demokratik, şəffaf, mükəmməl şəkildə hazırlanması ilə bağlı dəyərli tövsiyə və tapşırıqlarını vermişdir. Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsində dövlət dili haqqında maddənin geniş müzakirəsi məqsədilə 31 oktyabr 1995-ci il tarixdə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətində ulu öndərin iştirakı ilə aparılan müzakirələr də əhəmiyyətli olmuşdur.

Xatırladım ki, hələ 1992-ci ilin dekabrında Milli Məclisdə dövlət dili haqqında qanun müzakirə olunmuş və türk dilinin dövlət dili olması barədə qərar qəbul edilmişdi. Qərarın qəbul edildiyi iclasda 50 deputatdan cəmi 39-u iştirak etmiş, yalnız 26 deputat dilimizin «türk dili» adlandırılmasına səs vermişdi. 7 nəfər əleyhinə olmuş, 6 deputat bitərəf qalmışdı. Ümummilli lider Heydər Əliyev sonralar bu məsələyə toxunarkən demişdir ki, «Bu böyüklükdə tarixi bir qərar Azərbaycan xalqının iradəsi nəzərə alınmadan 26 nəfər tərəfindən qəbul olunubdur. Burada da böyük bir səhv buraxılıbdır... Volyuntarizm və özbaşınalıqla belə bir qanunun qəbul olunduğu hesab edilmişdir» (7).

Azərbaycan Respublikası Konstitusiyasının qəbulu ərəfəsində ictimaiyyətin müxtəlif təbəqələrinin, dilçi alim və ziyalıların iştirakı ilə keçirilən genişmiqyaslı müzakirələr, diskussiyalar, nəhayət, yekdil qəraın qəbulu ilə nəticələnmişdir: xalqımız referendum yolu ilə öz prinsipial mövqeyini nümayiş etdirərək, Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi təsbit edilməsinə səs vermişdir. Ümumilikdə, 1995-ci il noyabrın 12-də ümumxalq referendumu yolu ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının preambulasında dövlət müstəqilliyini,

süverenliyini və ərazi bütövlüyünü qorumaq, bu ali sənəd çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsini ifadə edən, insan hüquq və azadlıqlarını təmin edən hüquqi, dünyəvi dövlət qurmaq və digər bu kimi ülvi niyyətlər bəyan edilmişdir.

Ölkə konstitusiyası demokratiya və azad bazar iqtisadiyyatı yolunu seçmiş Azərbaycanda siyasi sistemin modernləşdirilməsinə, vətəndaşların hüquq və vəzifələrinin sərhədlərinin dəqiq şəkildə müəyyənləşdirilməsinə, hakimiyyət bölgüsü prinsipinin tam şəkildə bərqərar olmasına imkan yaratmışdır. Əsas Qanun hakimiyyətin müxtəlif qolları arasında imtiyaz və səlahiyyətlərin üfüqi-şaquli müstəvidə bölgüsünü müəyyən edərək hansı orqanların (qanunverici, icraedici və məhkəmə) bunu necə həyata keçirəcəyini dəqiq təsbit etmişdir.

Konstitusiya ölkədə sağlam siyasi mühitin formalaşmasına imkan verən, vətəndaşların cəmiyyətin siyasi həyatında və dövlətin idarə olunmasında iştirakını nəzərdə tutan siyasi müxtəliflik və plüralizm kimi mühüm prinsipləri təsbit etmişdir (8). Konstitusiya eyni zamanda ölkədə sağlam siyasi mühitin formalaşmasına imkan verən, vətəndaşların, cəmiyyətin siyasi həyatında və dövlətin idarə olunmasında iştirakını nəzərdə tutan siyasi müxtəliflik və plüralizm kimi mühüm prinsipləri təsbit etmişdir.

Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında həmçinin, BMT-nin 1948-ci il 10 dekabr tarixli Ümümdünya İnsan Hüquqları Bəyannaməsində və digər beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquq və azadlıqları tam və əhatəli şəkildə təsbit olunmuşdur. Konstitusiyanın birinci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

Konstitusiyanın 4-cü maddəsində vurğulanır ki, xalqın seçdiyi səlahiyyətli nümayəndələrdən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur (9).

6-cı maddədə göstərilir ki, Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Həmin maddənin 2-ci bəndində hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayət kimi xarakterizə olunmuşdur.

Konstitusiyanın 7-ci maddəsinin (Azərbaycan dövləti) bəndində isə birmənalı şəkildə göstərilir ki, "Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır". Azərbaycanın müharibə vəziyyətində olmasını, Ermənistanın etnik separatizm və ərazi ilhaqı, regionda ikinci erməni dövləti yaratmaq cəhdlərini nəzərə alarn ulu öndər bunların qarşısının qətiyyətlə alınacağına verilən sərt mesaj olaraq unitar dövlət prinsipinin Azərbaycan Respublikası Konstitusuyasında təsbit olunmasını təmin etmişdir.

Məlumat üçün bildirək ki, unitar dövlət - vahid, ayrılmaz dövlət olub ərazisinin hər hansı siyasi müstəqilliyə malik olmayan inzibati ərazi vahidlərinə bölünməsi ilə xarakterizə edilir. Unitar dövlət (latın dilində «unus» - «vahid», «tək» deməkdir) – sadə, bəsit, vahid dövlətdir ki, onun təkibi bir qayda olaraq inzibati ərazi vahidlərindən (vilayət, mahal, rayon, departament və s.) ibarətdir. Unitar dövlətə aşağıdakı xüsusiyyətlər xasdır: ölkənin bütün ərazisində qüvvədə olan vahid konstitusiya; yüksək dövlət hakimiyyəti orqanlarının vahid sistemi; ölkənin bütün ərazisinə şamil edilən yuridiksiyası; vahid hüquqi sistem; bələdiyyə orqanlarının ümumdövlət hakimiyyət orqanlarına tabe edilməsi.

Konstitusiyamızın hüquqi mənbəyini təşkil edən beynəlxalq hüquqi aktlar sırasında BMT-nin 1948-ci il 10 dekabr tarixli «İnsan Hüquqları haqqında Ümumi Bəyannamə»sini, 1966-cı il tarixli «Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Pakt»ı, 1966-cı il tarixli «İqtisadi, Sosial və Mədəni Hüquqlara dair Beynəlxalq Pakt»ı və digər sənədləri xüsusi vurğulamaq lazımdır.

Dövlət qurumu növündən və mövcud vakansiyalardan asılı olmayaraq, seçim prosesi diqqətlə planlaşdırılmalı və onun həyata keçirilməsi üçün hazırlanmalıdır. Seçim prosesi təşkilata ən yaxşı namizədləri təqdim etməlidir. Əgər rəqabətli seçimdən danışırıqsa, onda seçim prosesi elə qurulub ki, onun hər bir mərhələsi bir "ələk" funksiyasını yerinə yetirir. Müəyyən meyarlara görə müsabiqənin digər iştirakçılarından aşağı olan namizədləri ardıcıl olaraq yoxlayır. Namizədlərin mürəkkəb və vaxt aparan seçim prosedurlarına yaxınlaşmasından əvvəl ərizəçilər arasında yalnız bütün formal xüsusiyyətlərinə görə tələblərə tam cavab verən namizədlərin qalması vacibdir.

İş təhlili kadr seçiminə inteqrasiya olunmuş yanaşmanın əsasını təşkil edir. İş təhlili aşağıdakılara imkan verir:

- iş təsvirlərini hazırlamaq;
- vəzifəyə olan tələbləri müəyyən etmək;
- seçim prosesində istifadə olunan meyarları müəyyənləşdirmək (Rzayev, 2016: 97).

Vəzifə təsvirləri bu vəzifəni tutan işçinin yerinə yetirəcəyi işin əsas məzmununu müəyyənləşdirir. İş tələbləri bu işi uğurla yerinə yetirmək üçün insanın hansı keyfiyyətlərə malik

olması lazım olduğunu göstərir: təcrübə, texniki bilik və bacarıqlar, fiziki xüsusiyyətlər, sağlamlıq və xarici görünüş, motivasiya, intellektual qabiliyyətlər, formal xüsusiyyətlər, şəxsi və işgüzar keyfiyyətlər və s. Aydındır ki, bütün xüsusiyyətlər üçün ideal və ya tamamilə uyğun namizəd tapmaq olduqca çətin və hətta qeyri-mümkün ola bilər. Buna görə də, iş tələbləri real olmalı və müəyyən dərəcədə çevikliyə imkan verməlidir (Geylan, 2016: 78).

Vəzifəyə qoyulan tələblər namizədlik üçün ehtiyatda olan namizədlə müsahibə planının hazırlanması üçün əsas ola bilər. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün seçim prosesi aydın qaydalara uyğun aparılmalıdır. Seçim prosesi kifayət qədər yaxşı rəsmiləşdirilməli və müvafiq qaydalar, təlimatlar, şablonlar və s. ilə dəstəklənməlidir. Seçim prosedurları yaxşı qurulmalı, seçim heyəti yüksək ixtisaslı və təcrübəli olmalıdır. Təcrübədə seçim prosesinin məzmunu, ayrı-ayrı mərhələlərin mövcudluğu və ya olmaması, habelə onların ardıcıllığı təşkilatın fəaliyyətinin xarakterindən, vakant vəzifənin xüsusiyyətlərindən, kadr xidmətinin imkanlarından və s. asılıdır. Effektiv seçim üçün namizədlərin üstünlükləri ilə bağlı qərarın veriləcəyi meyarların müəyyən edilməsi böyük əhəmiyyət kəsb edir. Seçim meyarları müəyyən edilərkən aşağıdakı tələblər yerinə yetirilməlidir: meyarların etibarlılığı, tamlığı, zəruriliyi və kafiliyi (10).

Seçim meyarlarını müəyyən etmək üçün bir neçə əsas üsul var:

1. Tibbi və psixoloji metodlar akkumulyatorundan istifadə etməklə (ilkin seçim olmadan) bu ixtisas üzrə işləmək üçün bütün müraciət edənlər arasında sorğunun aparılması. Bir neçə aydan sonra yeni işçilərin fəaliyyətinin müqayisəli təhlili əsasında uğurlu və uğursuz işçiləri fərqləndirən göstəricilər müəyyən edilir. Bu göstəricilər peşəkar uğuru proqnozlaşdıra bilən meyarların yaradılması üçün əsas götürülür. Sonradan bu meyarlar müvafiq vəzifələrə seçim prosesində istifadə olunur.

2. Müəyyən ixtisas üzrə işçilər arasında uğurlu və uğursuz qrupun (məsələn, müəyyən edilmiş məhsul normasını yerinə yetirən və onun öhdəsindən gəlməyənlər) bölgüsü. Tibbi və psixoloji müayinə müqayisə edilən qruplar arasında əhəmiyyətli fərqlərin olduğu göstəriciləri təyin etməyə imkan verir. Bu göstəricilər daha sonra seçim meyarları kimi çıxış edir.

3. Vəzifə təlimatlarının və vəzifəyə tələblərin təhlili bu vəzifədə uğurlu işləmək üçün zəruri olan mühüm meyar göstəricilərini müəyyən etməyə imkan verir (Reyhan, 2017: 115).

İşçilərə namizədlərin axtarışı həm təşkilatın daxili resursları, həm də xarici mənbələr hesabına həyata keçirilə bilər. Buna uyğun olaraq xarici və daxili seçimdə istifadə olunan üsullar da fərqlənir. Seçim prosesinə yalnız müvafiq qaydalar və təlimatlarla müəyyən edilmiş formal tələblərlə məhdudlaşan prosedur. Buna üsullar məcmusu kimi baxmaq olmaz. Bu münasibətlər işçinin və təşkilatın qarşılıqlı gözləntiləri və qarşılıqlı öhdəlikləri kimi müəyyən edilə bilən müqaviləyə əsaslanır.

Adətən, namizədləri seçərkən namizədlərin hərtərəfli qiymətləndirilməsinə yönəlmiş bir sıra müxtəlif üsullardan istifadə olunur. Kompleks seçim sisteminə aşağıdakı üsullar daxil ola bilər:

- ilkin seçim (CV-də və standart formada olan namizəd haqqında məlumatın və ilkin müsahibənin nəticələrinin təhlili);
- namizəd haqqında məlumat toplamaq (başqa şəxslərdən);
- şəxsi anketlər;
- testlər: zəka, xüsusi qabiliyyətlər, maraqlar və s.;
- qrup seçim üsulları;
- ekspert qiymətləndirmələri;
- problemin həlli;
- müsahibə (Hüseynova, 2013: 255).

Seçimdə müxtəlif metodlar kompleksindən istifadə etmək zərurəti ondan irəli gəlir ki, təklif olunan metodların heç biri ayrıca hərtərəfli məlumat vermir. Yalnız bir metoddan istifadə etməklə əldə edilən nəticələri digər metodlardan istifadə etməklə toplanmış məlumatlarla tamamlayır. Seçilmiş namizədlər müəyyən edilmiş seçim meyarlarına mümkün qədər cavab verəcək və təşkilata tam uyğun olacaqdır.

Ümumi mənada kadr texnologiyaları dövlət xidmətinin əsas vəzifələrinin yerinə yetirilməsini təmin edən kadrların kəmiyyət və keyfiyyət xüsusiyyətlərinin idarə edilməsi vasitəsidir. Məzmununa görə, dövlət qulluğu sistemində kadr texnologiyaları bir insanı qiymətləndirməyə imkan verən ardıcıl həyata keçirilən tədbirlər toplusudur: onun keyfiyyətini, imkanlarını, potensialını qiymətləndirmək, bir vəzifənin və bu vəzifəyə namizədin ixtisasını qiymətləndirmək. Həmçinin, dövlət qulluğu sistemində kadr texnologiyaları təşkilat üçün tələb olunan şəraiti yaratmağa və ya kadr siyasətinin həyata keçirilməsi üçün şəraiti dəyişməyə imkan verir. Hazırda dövlət aparatında kadrların səmərəliliyinin azaldılması tendensiyası müşahidə olunur. Buna görə də standart kadr texnologiyaları ilə yanaşı, dövlət xidmətinin artırılmasına yönəlmiş yeni metodların tətbiqinə ehtiyac artır.

## Nəticə

Dövlət qulluğunda kadr işinin təşkili sisteminin və kadr siyasətinin mövcud sisteminin təhlili belə qənaətə gəlməyə imkan verir ki, bütün dövlət qulluğu sisteminin iş keyfiyyətini artırmaqla yanaşı, yeni kadr texnologiyalarının tətbiqi zəruridir. Ən vacib üç sahədə yeni metodlar tətbiq etmək lazımdır. Birincisi əmək haqqıdır. Bu istiqamətdə təkcə dövlət xidmətlərinin idarəetmə aparatı üçün deyil, həm də xidmətlərin qalan işçiləri üçün, o cümlədən bu sistemin icraçılara tətbiqi üçün effektivlik meyarını hazırlamaq lazımdır. İkinci istiqamət dövlət aparatının modernləşdirilməsi və texniki innovasiyasıdır. Dövlət qulluğunda əmək bazarında rəqabətədavamlı olmaq və nəticədə uğurlu rəhbər olmaq üçün dövlət qulluğunun əsas fondlarını daim müasirləşdirmək lazımdır. Bu sahədə görülən işlər dövlət orqanlarında kadr dəyişikliyini azaldacaqdır. Üçüncü istiqamət dövlət işçilərinin ictimai fəallığının artırılması istiqamətində görülən işlərdir.

Beləliklə, innovativ kadr texnologiyaları dövlət qulluğunda ənənəvi kadr texnologiyaları ilə birlikdə dövlət aparatının kadr hazırlığının keyfiyyətini yüksəldə, habelə dövlət orqanlarının fəaliyyətini artıra bilər. Kadr texnologiyalarının müsbət tendensiyası üçün onların geniş tətbiqi və icraya nəzarətin artırılması mütləqdir.

## Ədəbiyyat


1. Məlikova, M. (2012). Dövlət və hüquq nəzəriyyəsi. Bakı: “Maarif”, 532 s.
2. Zotov, V. (2015). Territorial Administration. Moscow: Vostok, 619 p.
3. Yanq, R., Azadov, E. (2015). Dövlət idarəetməsində islahatlar: nailiyyətlər, problemlər, perspektivlər. Bakı: “Şərq-Qərb”, 348 s.
4. Yanq, R., Gilmor, A., Quliyeva, G. (2005). Azərbaycanda kadrların idarə edilməsinə müasir yanaşma – insan inkişafı. Bakı: “Ozan” nəşriyyatı, 448 s.
5. Nassazi, A. (2018). Effects of training on employee performance. Evidence from Uganda, Business Economics and Tourism, 412 p.
6. Nur, Y. (2016). İnsan kaynaklarının önemi. İstanbul, 451 s.
7. İlhami, F. (2018). İnsan kaynakları yönetimi. İstanbul: “Bas yayın evi”, 378 s.
8. Rzayev, Ə. (2015). Dövlət qulluğu: Nəzəriyyə və praktika. Bakı: “Mütərcim”, 435 s.
9. Geylan, R. (2016). Human Resources Management. Istanbul: “Minister publishing house”, 346 p.
10. “Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası” haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2021-ci il 6 aprel tarixli 89 nömrəli Qərarı. Bakı, 36 s.
11. Reyhan, U. (2017). İnsan kaynakları. Ankara, 445 s.
12. Hüseynova, N. (2013). Dövlət qulluğu və kadr siyasəti. Bakı: “Adiloğlu”, 255 s.


Göndərilib: 21.01.2023 Qəbul edilib: 25.03.2023

DOI: https://doi.org/10.36719/2706-6185/22/209-215

**Aytac Cəfərova**
Bakı Dövlət Universiteti
doktorant
aytac199031@gmail.com

# DAŞIYICININ GƏMİNİ SƏFƏRƏ HAZIRLAMASI ÖHDƏLİYİ

**Xülasə**

Məqalə gəmi ilə yük daşıyıcının gəmini səfərə hazırlaması öhdəliyi daxili qanunvericilik normaları ilə beynəlxalq müqavilə normalarının müqayisəli təhlilinə həsr edilib. Xüsusi olaraq qeyd edilir ki, həm Haaqa (m.3.1), həm də Rotterdam qaydalarında (m.17.5) yükün səfərə hazırlanması anı xüsusi olaraq tənzimlənir. Lakin AR TGM-in qeyd etdiyimiz maddəsində bu an nəzərdə tutulmayıb. Beynəlxalq qaydalardan fərqli olaraq daxili qanunvericilikdə "gəminin reysə (səfərə) hazırlıq anı"nın reqlamentləşdirilməməsini iki istiqamətdə izah etmək olar. Ya boşluq kimi, ya da daşıyıcıya daha geniş fəaliyyət azadlığı tanımaq. Lakin sonuncu halın beynəlxalq qaydalara uyğun olmaması baxımdan qəbul edilməsi mümkün deyil. AR müvafiq beynəlxalq qaydalara qoşulmasa belə həmin qaydalar artıq ümumtanınmış standart qismində qəbul edilməkdədir. Buna görə də qanunvericiliyin həmin qaydalara uyğunlaşdırılması vacibdir. Rotterdam qaydalarında (m.17.5) yükün itirilməsinə, zərərə uğramasına və gecikdirilməsinə görə sübutetmə məsələsi daha ardıcıl verilmişdir. Daha sonra qeyd edilir ki, AR TGM-in 93.2 maddəsi sübutetmə yükü ilə bağlı qeyri-müəyyən redaksiyaya malik olduğu üçün Rotterdam qaydalarına (m.17.5) uyğunlaşdırılmalıdır.

***Açar sözlər:*** *Beynəlxalq hüquq, Hamburq qaydaları, Rotterdam qaydaları, hüquq, qanunvericilik, beynəlxalq daşıma, yüklərin dənizlə daşınması, konvensiya normaları*

**Aytaj Jafarova**
Baku State University
Ph.D student
aytac199031@gmail.com

## Obligation of the carrier to prepare the ship for the voyage

**Abstract**

The article is devoted to the comparative analysis of the domestic legal norms and the international treaty norms of the obligation of the ship and the cargo carrier to prepare the ship for the voyage. It is specially noted that both the Hague (m.3.1) and Rotterdam rules (m.17.5) specifically regulate the moment of preparing the cargo for the trip. However, this moment is not provided for in the mentioned article of AR TGM. In contrast to the international rules, the non-regulation of the "moment of preparing the ship for the flight (trip)" in the domestic legislation can be explained in two directions. Either as a loophole or to give the carrier greater freedom of action. However, the last case cannot be accepted from the point of view of non-compliance with international rules. Even if AR does not join the relevant international rules, those rules are already accepted as a generally recognized standard. Therefore, it is important to adapt the legislation to those rules. In the Rotterdam Rules (art. 17.5) the issue of proof for loss, damage and delay of cargo is more consistent. It is further noted that Article 93.2 of the AR TGM has an ambiguous wording regarding the burden of proof, so it should be adapted to the Rotterdam rules (art. 17.5).

***Keywords:*** *International law, Hamburg Rules, Rotterdam Rules, law, legislation, International Carriage, Carriage of Goods by Sea, conventions norms*

## Giriş

Gəminin səfərə hazırlanması və ya onun daşımaya yararlı vəziyyətə gətirilməsi daşıma prosesinin çox mühüm öhdəliyə əsaslı və məsuliyyət yaradan həlqəsidir (Admiralty and Maritime law, 2008: 18-23). Daşıyıcının gəmini səfərə hazırlama öhdəliyi:

1) gəminin texniki baxımdan yararlılığının təmin edilməsini;
2) gəminin şəxsi heyətlə komplektləşdirilməsini;
3) gəminin ərzaq təchizatını;
4) gəminin fiziki baxımdan yükün qəbuluna, yerləşdirilməsinə, saxlanılmasına və daşınmasına hazırlığını ehtiva edir. Daşıyıcının əsas öhdəliklərindən biri kimi gəminin səfərə hazırlanması AR TGM-in 93-cü maddəsi ilə tənzimlənir (2). Daşıyıcının gəmini səfərə hazırlaması ilə bağlı öhdəliyi AR TGM-ə (m.93.1), Haaqa-Visbi qaydalarına (m.4) və Rotterdam qaydalarına (m.17.5) görə imperativ xarakterlidir. Həm beynəlxalq qaydalarda, həm də daxili qanunvericilikdə gəminin səfərə hazırlanması zamanı daşıyıcı "zəruri qayğıkeşlik" göstərməlidir. Lakin zəruri qayğıkeşlik meyarı hər dəfə vəziyyətdən asılı olaraq müəyyən edilməlidir (Kumalagova, 2010: 12). Rotterdam qaydalarında (m.14) olduğu kimi Haaqa qaydalarında (m.3.1) gəminin reysə (səfərə) hazırlanması üzrə konkret öhdəliklər təsbit edilib. Qeyd edilir ki, daşıyıcı *səfərə qədər, səfərin başlanğıcında və səfər müddətində* (belə fərqləndirmə AR TGM-də təsbit edilməyib-müəll.):

a) gəmini səfərə hazırlamaq və bu vəziyyətdə saxlamaq;
b) bütün səfər müddətində gəmini təchiz və təmin etmək və gəmini zəruri heyətlə komplektləşdirmək; və
c) anbarları və gəmidə digər yerlərin yüklərin daşınması üçün nəzərdə tutulan digər yerləri, həmçinin istənilən konteynerləri yükün lazımi qəbulunu, daşınmasını və saxlanmasını təmin edən vəziyyətə və təhlükəsizliyə gətirmək üçün zəruri qayğıkeşlik göstərmək üzrə öhdəlik daşıyır.

Gəminin səfərə hazırlığı və ya gəminin beynəlxalq yükdaşıma prosesində yararlılığı standartı beynəlxalq qaydaların ifadə etdiyimiz məcmusundan formalaşır. Rotterdam qaydalarının 14-cü maddəsinin "a" bəndində ifadə edilən "gəminin səfərə hazırlıq" vəziyyəti dar mənada təsbit edilib. Bu bəndə görə gəminin yalnız texniki hazırlığı ehtiva edilib. Burada ilk öncə AR TGM-də də olduğu kimi texniki hazırlıq tələbi təsbit edilib. Gəminin texniki yararlılığı (seaworthinees) və yükü qəbul etmək kapasitəsi (cargoworthyness) onun texniki baxımdan üzgüçülüyə hazırlığını göstərir (Gautreaux v. Scurlock Marine, İNC(1997)) (Admiralty and Maritime Law, 2008: 266-267). Gəminin texniki yararlılığı onun dayanıqlığını, korpusunun su keçirilməzliyini, hərəkətverici sisteminin saz vəziyyətdə olması, yanacaq və ballast sisteminin səmərəli, istismara yararlı olmasını (Adamastos Shipping Co v. Anglo-Saxson Petroleum (1959) (Wilson John, F. (2010: 211-212) və s. nəzərdə tutur. Seaworthinees (texniki yararlılıq) dənizlə yük daşımaçılığında pelativ termin kimi qəbul edilir (Neubros Corp. v. Northwestern Nat. ins. Co. (E.D.N.Y. 1972) (Admiralty and Maritime Law, 2008: 144). Gəminin texniki yararlığı beynəlxalq müqavilələrdən Dənizdə insan həyatının mühafizəsi haqqında beynəlxalq Konvensiyada (1974) və onun 1978-ci il Protokolunda (SOLAS), Gəmilərdən dənizlərin çirkləndirilməsinin qarşısının alınması üzrə beynəlxalq Konvensiya (1973) və onun Marpol (1978) Protokolunda və d. aktlarda təsbit edilib (Kalpin, 2009: 41).

Gəminin üzgüçülüyə texniki yararlığı həm daxili təhlükəsizlik qurumları, həm də beynəlxalq orqanlar tərəfindən yoxlanılmaqdadır. AR TGM-in 64-cü maddəsinə görə gəminin üzgüçülüyə yararlı olmasını, gəminin yüklənməsinə, təchizatına, gəmi heyətinin komplektləşdirilməsinə dair tələblərin, gəmidə insan həyatına və ya sağlamlığına təhlükənin və d. məsələlərin yoxlanılmasına nəzarəti dəniz limanı kapitanı həyata keçirir. Hüquqi tələb standartlar isə beynəlxalq normalarla müəyyən edilir. Gəminin üzgüçülüyə texniki yararlığı beynəlxalq müqavilə tələblərinə uyğun olmalıdır. AR TGM-in 16-cı maddəsinin 1-ci hissəsində deyilir ki: gəmi yalnız dənizdə üzmək təhlükəsizliyinin və ticarət gəmiçiliyi sahəsində Azərbaycan Respublikasının *beynəlxalq müqavilələrinin* (kurs-müəll.) tələblərinə cavab verdikdə səfərə buraxıla bilər (2). Həmin maddənin 2-ci hissəsində təsnifat cəmiyyətlərinin texniki nəzarəti həyata keçirmək səlahiyyətinə istinad edilir.

Göründüyü kimi bu məsələnin həllində AR qanunvericiliyi beynəlxalq müqavilə normalarının prioritetini qəbul edib.

Gəminin üzgüçülüyə, həmçinin yükdaşıma prosesinə hazırlığı zamanı gəminin texniki vasitələrlə təchizat məsələsi mühüm əhəmiyyət kəsb edir. Belə texniki vasitələrə naviqasiya cihazlarından tutmuş yükləmə prosesi üçün vacib olan kran, tal və d. vasitələrlə bərabər zəncir, kəndir, kəmərlər və digər bağlama vasitələri aiddir. Naviqasiya vasitələri kimi xəritə və üzgüçülük üçün zəruri olan digər sənədlər, təlimatlar təmin edilməlidir. Gəmi həm reys (səfər), həm də limanda dayandığı müddət üçün bütün zəruri ehtiyat yanacaq, içməli su, ərzaq və d. məhsullarla təmin edilməlidir. Gəmi sahibi hər dəfə yeni limana daxil olarkən bu təchizatı təmin etmək öhdəliyi daşıyır.

Haaqa qaydalarının 3.1"c" maddəsi bilavasitə gəminin yükü qəbul etmək, yerləşdirilməsi, daşınması və saxlanılması məsələsinə həsr edilib. Anbarların və d. yerlərin yük üçün məqbul vəziyyətdə olması daşıyıcının xüsusi diqqət yetirməli olduğu məsələlərdəndir. Bunların havalandırma sistemlərinin olması və onların işlək vəziyyəti, su keçirməz, germetik qapaqların olması, sanitar, fitosanitar vəziyyətin təmini yükün tam saxlanması baxımından olduqca vacibdir. Dəniz Arbitraj Komissiyası (Moskva) ərzağın yük üçün nəzərdə tutulan havalandırma sisteminin işə salınmasının mümkün olmaması səbəbindən korlandığını bildirmiş, lakin daşıyıcı qayğıkeş davranış göstərdiyi üçün məsuliyyətdən azad edilmişdir (Morskoye pravo i praktika, 1995-1999: 23). Digər halda Dəniz Arbitraj Komissiyası cavabdehin nümayəndəsinin arqumentlərini qəbul etməmiş və qeyd etmişdir ki, ərzağın korlanması səbəbi gəminin havalandırma sistemi ilə təchiz edilməməsidir (Borinov, 1988: 13).

Yükləmə prosesi başlarkən əvvəlki yükün zərərli elementləri yük yerindən təmizlənməlidir (Kalpin, 2009: 43). Bu praktika məhkəmə qərarları ilə də təsdiq edilmişdir. Dəniz Arbitraj Komissiyası özünün Alanportun Baltik dəniz gəmiçiliyinə qarşı (1973) iddiası üzrə qərarında daşıyıcının qismən məsuliyyətli olduğunu bildirmiş, lakin daşınan ərzağın həşəratlarla yoluxmasını qəbul etməmişdir. Belə ki, yükləmədən öncə gəmi Dövlət Karantin Müfəttişliyi tərəfindən yoxlanılmışdır. Dəniz Arbitraj Komissiyası da Dövlət Karantin Müfəttişliyinin daşmaya zəmanət verməsinə istinad etmişdir (Borinov, 1988: 20).

Gəminin səfərə hazırlığının xüsusi aspektlərindən biri də onun peşəkar heyətlə təmin edilməsidir. Eyni zamanda gəmi heyətinin gəminin texniki, naviqasiya xüsusiyyətləri ilə tanış edilməsi vacibdir. İngilis məhkəməsi "Makedoniya 1962" işində müəyyən etmişdir ki, gəminin yanacaq və ballast sistemi ilə davranan birinci və ikinci mexanik komptentli olmadıqları üçün gəmi qəzaya uğrayıb. Gəmi sahibi gəminin spesifik xüsusiyyətləri ilə bağlı heyəti məlumatlandırmalıdır (The Makedonia. Lloyds law Reports, 1962). Bu məsələ Gautreaux v. Scurlock Marine, İNC (1997)) işində də əsas problem kimi qeyd edilmişdir. Gəmi sahibi gəminin spesifik xüsusiyyətləri ilə bağlı heyəti, xüsusən də gəmi kapitanını zəruri qaydada məlumatlandırmamış, nəticədə vinçin kəmərinin qırılması ilə kapitan gözündən yaralanmış və bu da yükün çatdırılmasının gecikdirilməsinə səbəb olmuşdur (Admiralty and Maritime Law, 2008: 266-267).

Peşəkar hazırlıq, gəmi heyətinin hazırlıq səviyyəsi ilə bərabər heyətin mənəvi-əxlaqi keyfiyyətləri də mühüm əhəmiyyət kəsb edir. Xüsusən də, alkoqolizmdən asılı olan gəmi heyətinin üzvlərinin səhlənkarlığı ilə dəymiş zərərin meydana gəlməsi məhkəmə qərarları ilə dəfələrlə təsdiqlənmişdir. İngilis məhkəməsi "Mur Pann və d. qarşı" qərarında da gəmi kapitanının və d. ekipaj üzvlərinin spirtli içki asılılığında olduqları qənaətini ifadə etmişdir. Bununla da daşıyıcı gəmi heyətini formalaşdırarkən zəruri qayğıkeşlik göstərməmişdir. Ona görə də heyətin hər hansı bir üzvünün bu və ya digər asılılıqda olmamasının müəyyən edilməsi mühüm problemlərdəndir. Hər bir dövlətdə ticarət gəmiçiliyinə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti qurumları fəaliyyət göstərir. Azərbaycan Respublikasında da ticarət gəmiçiliyinə dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanı həyata keçirir (AR TGM, m.5). Gəmi heyəti üzvlərinin komplektləşdirilməsi üzrə tədbirlərin hazırlanması və onların uyğulanmasına nəzarət qanunvericiliklə (AR TGM, m.5) Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının

səlahiyyətinə aiddir. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr 1462 saylı Fərmanı ilə təsdiq edilmiş Dövlət Dəniz və Liman Agentliyinin Nizamnaməsinə görə (1):

-"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa 3 nömrəli əlavə – "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 5 – 7-ci maddələrində nəzərdə tutulmuş icazələri, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hallarda ixrac nəzarətinə düşən mallara (işlərə, xidmətlərə, əqli fəaliyyətin nəticələrinə) ixracına, təkrar ixracına, idxalına, təkrar idxalına və tranzitinə icazə vermək, onların dublikatlarını və əlavələrini vermək, həmin icazələri yenidən rəsmiləşdirmək, dayandırmaq, bərpa və ya ləğv etmək, icazə şərtlərinə riayət olunmasına nəzarəti həyata keçirmək; (m.3.1.4.);

−Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq gəmi sənədlərini, ixtisas şəhadətnamələrini (diplomları), xüsusi hazırlıq şəhadətnamələrini, habelə onların təsdiqnamələrini, dənizçinin şəxsiyyət sənədlərini və dənizçinin qeyd kitabçalarını vermək və onları yoxlamaq (m.3.1.29.);

Yüklə bağlı yarana biləcək zərərin istisna edilməsi üçün gəminin, yükün gəmiyə gətirilməsindən öncə səfərə hazırlanması tələb edilir. Həm Haaqa (m.3.1), həm də Rotterdam qaydalarında (m.17.5) yükün səfərə hazırlanması anı xüsusi olaraq tənzimlənir. Lakin AR TGM-in qeyd etdiyimiz maddəsində bu an nəzərdə tutulmayıb. Beynəlxalq qaydalardan fərqli olaraq daxili qanunvericilikdə "gəminin reysə (səfərə) hazırlıq anı"nın reqlamentləşdirilməməsini iki istiqamətdə izah etmək olar. Ya boşluq kimi, ya da daşıyıcıya daha geniş fəaliyyət azadlığı tanımaq. Lakin sonuncu halın beynəlxalq qaydalara uyğun olmaması baxımdan qəbul edilməsi mümkün deyil. AR müvafiq beynəlxalq qaydalara qoşulmasa belə həmin qaydalar artıq ümumtanınmış standart qismində qəbul edilməkdədir. Buna görə də qanunvericiliyin həmin qaydalara uyğunlaşdırılması vacibdir.

Gəminin səfərə hazırlıq anı "reys (səfər)" anlayışı ilə bağlıdır. "Reys" anlayışı gəminin açıq dənizə çıxmaq üçün hərəkətə başlamasıdır. Yəni bu ana kimi gəminin texniki, təchizat, heyətlə komplektləşdirmə, yükün qəbuluna, yerləşdirilməsinə və daşınmasına yararlılığı tamamlanmalıdır. Bu tamamlanma prosesi gəminin dəniz limanından çıxmasına icazənin verilməsi ilə bitmiş sayılır (AR TGM, m.64) (19). Gəminin səfərə başlamasından sonra görünməsi mümkün olan (məsələn, yükün yumşaq örtüklə qapadılmaması, anbarların qapaqlarının açıq qalması və s. kimi) çatışmazlıqlar (defektlər) gizli çatışmazlıqlardan fərqləndirilməlidir (The Diest of English case law, 1898: 47). Görünməsi mümkün olan defektlərin gətirdiyi zərərə görə məsuliyyət gizli defektlərin vurduğu zərərin məsuliyyət rejimindən fərqlidir. Birinci halda məsuliyyət təqsirə əsaslıdır, əsasən səhlənkarlıq formasında meydana gəlir, ikinci halda məsuliyyəti istisna edəcək sübutetmə tələb olunur. Sübutetmə öhdəliyi daşıyıcının üzərinə düşür. Gizli defektlər üçün (məsələn, gəminin korpusunda gözlə görünməyən çatların yaranması, gəminin mühərrikində və d. qurğularında nasazlıq üçün) xarakterik əlamət ondan ibarətdir ki, onlar daşıyıcının "zəruri qayğıkeşlik" göstərməsinə rəğmən müəyyən edilməyib. "Zəruri qayğıkeşlik" Haaqa qaydalarında (m.3.1), Rotterdam qaydalarında (m.14) təsbit edilib və TGM-in 93-cü maddəsi də məhz gizli defekt ola bilməsi səbəbindən daşıyıcı üçün obyektiv və ya mütləq məsuliyyət müəyyən etmir. Belə ki, həmin maddənin 2-ci hissəsində deyilir ki, gəminin səfərə yararsız vəziyyətinin, lazımi qayğı göstərilməsinə baxmayaraq zahirən görünməyən qüsurlardan irəli gəldiyi sübut olunarsa, daşıyıcı gəminin səfərə yararsız vəziyyətinə görə məsuliyyət daşımır (2).

Başqa sözlə, daşıyıcının məsuliyyəti konkret vəziyyətdən asılıdır. "Zəruri qayğıkeşlik" göstəribsə, lakin gizli defektlərə görə yükə vurulan zərər nəticəsində gəmi reysə hazır olmayıbsa (Rotterdam qaydaları, m.17.5(b)) da daşıyıcının məsuliyyəti istisna ediləcək. Rotterdam qaydalarına (m.17.5(b)) görə daşıyıcı 14-cü maddəyə (a) gəminin üzgüçülüyə yararlı vəziyyətinin təmini; b) ...heyətlə komplektləşdirmə...; c) yük yerlərinin, anbarların və d. hissələrin təchizatı...) AR TGM, m.93.1 (texniki yararlılığın təmin edilməsi; ...heyətlə komplektləşdirmə; ... yük yerlərinin, anbarların və d. yerlərin lazımi vəziyyətə gətirilməsi) uyğun olaraq zəruri qayğıkeşlik göstərmək öhdəliyini təmin etdiyini (ii); və ya itkinin, zərərin və ya gecikdirmənin bu maddənin 5-ci bəndinin

a yarımbəndində göstərilən (3-cü bənddəki) istisna kataloqu ilə bağlı olmayan hadisə və ya vəziyyətdən meydana gəlmədiyini sübut edə bilmədikdə məsuliyyət daşıyır (i).

AR TGM-in müvafiq (93.2) maddəsinə görə daşıyıcının məsuliyyəti gəminin reysə hazır olmamasına səbəb olan defektlərin müəyyən edilməsi və onların aradan qaldıra bilməsindən asılıdır. Burada əsas məsələ “ağlabatan zəruri qayğıkeşlik” meyarının standartını müəyyən etməkdir. Yalnız AR qanunvericiliyində deyil, əksəriyyət dövlətlərin (məsələn, Almaniyanın, Fransanın, Rusiyanın və d.) qanunvericiliyində bu terminə istinad edilir. Lakin qanunvericilikdə deyil, məhkəmə praktikasında və doktrinada “zəruri qayğıkeşlik” termininə aydınlıq gətirilir. Məsələn, ABŞ məhkəmə presedentinə görə (“Hamildok” (1950) işində də olduğu kimi) “zəruri qayğıkeşlik (due diligence) bütün mümkün imkanların deyil, ağlabatan hər şeyin edilməsidir” (Lloyds Maritime and Commercial law, 775).

Gəminin reysə hazır olmasında ağlabatan qayğıkeşlik göstərmək daşıyıcı tərəfindən hazırlığa tam təminat mənası kəsb etmir. Gizli defektlərin istisna edilməməsi və ya onların mövcudluğu ağlabatan qayğıkeşliyin sərhədini formalaşdırır. Öncə də ifadə etdiyimiz kimi “zəruri qayğıkeşlik” və ya “ağlabatan qayğıkeşlik” (Scrutfon, 1974, 77) bu sahədə “yaxşı praktika” ilə bağlıdır (Maritime law in 2017: a review of developments in case law, 2018: 216).

Gizli defektlər xüsusi vasitələrlə və mütəxəssislər tərəfindən müəyyən edilə bilən hallardır (Carver, Collinvaux, 1982: 1356). Daşıyıcının “ağlabatan qayğıkeşlik” göstərməklə gəminin reysə hazırlanması gəminin “tam qarantiyalı” olması anlamına gəlmir. Lakin daşıyıcı daşıma fəaliyyəti üzrə mütləq öhdəlik daşıya bilər. Daşıyıcının mütləq öhdəliyi o deməkdir ki, o sadəcə olaraq gəmini səfərə hazırlamır, bunun üçün bütün tədbirləri görməlidir. Başqa sözlə daşıyıcının fəaliyyəti gəminin hazır olması üzrə konkret nəticəyə çatmalıdır. Xüsusən də, ümumi hüquq sistemli ölkələrdə əgər daşıma çarter əsaslıdırsa öhdəlikdən istisna yoxdur, gəminin bütün çatışmazlıqlarına, o cümlədən öncədən görülməsi mümkün olmayan çatışmazlıqlara görə daşıyıcı tam təminat məsuliyyəti daşıyır. Gəminin daşıyıcının tam təminat və ya mütləq məsuliyyətində olmasını istisna edən qaydalar da mövcuddur. Məsələn, “paramount clause” əsasında mütləq təminat məsuliyyəti istisna edilə bilər. “Paramount clause” Haaqa və Haaqa-Visbi qaydalarında təsbit edilib (Fionna). Daşıyıcının gəmini üzgüçülüyə yararlı vəziyyətə gətirmək üzrə (seaworthiness) mütləq məsuliyyətdən “ağlabatan qayğıkeşlik” halı kimi qiymətləndirilən qeyd-şərtə istinad etməsi mümkünlüyü məhkəmə qərarlarında (məsələn, Australian Oil Refining Ltd. v. R.W.Miller & Co.Pty. Ltd. (1968); Adamastos Shipping v. Anglo-Saxon Petroleum (The Saxon) Star (1958) (Stow, 2014) və d.) təsbit edilib. “Paramount clause” bir növ daşıyıcını hüquqlu edir. Daşıma müqaviləsinə qeyd-şərt etməklə daşıyıcı ön görülməsi mümkün olmayan gizli defektlərə görə özünü məsuliyyətdən azad etmiş olur. “Paramount clause”nin tətbiqi Haaqa qaydalarının (m.3.1) kontrakt üzrə imperativ normalarının tətbiqini mümkün edir. Ağlabatan qayğıkeş statusunu əldə etməklə Seaworthiness standartı üzrə daşıyıcı mütləq məsuliyyətdən azad olur. Tam təminatı istisna edən qeyd-şərt konkret və anlaşılan olmalıdır (16).

Daşıyıcı tərəfindən gəminin səfərə hazır olmamasının nəticələri ayrı-ayrı hüquq sistemlərində fərqli qiymətləndirilir. Eyni zamanda gəminin yararsız vəziyyətdə olmasının səfər (reys) başladıqdan sonra və ya öncə müəyyən edilməsi də fərqli nəticələr yaradır. Əgər yararsızlıq (negligence) gəminin reysə çıxmasından öncə müəyyən edilibsə kontinental hüquq sistemli dövlətlərdə yük sahibi daşıma müqaviləsini ləğv edib, zərərin ödənilməsi üzrə tələb hüququ irəli sürə bilər. Əksər ölkələrin qanunvericiliyində gəminin yararsızlığı əsasında daşıma müqaviləsindən imtinanın birbaşa təsbit edilməməsi müşahidə edilməməkdədir. Yalnız dolayısı yolla (məsələn, Almaniya, Fransa, Polşa və s. dövlətlərin qanunvericiliyində) “gəminin səfərə hazır olmaması”, “yükün yüklənmə limanına verilməməsi” kimi dəyərləndirilir (Kalpin, 2009: 49). Belə bir hal Azərbaycan Respublikası qanunvericiliyi üçün də xarakterikdir. Bu məsələ ilə bağlı AR TGM-in 121-ci maddəsinə “icrası mümkün olmayan dənizlə yük daşınması müqaviləsinə xitam verilməsi”nə diqqət çəkmək yerinə düşər. Həmin maddənin 1.2-ci hissəsinə görə “gəmi dəniz üzgüçülüyünə yararsız hesab edildikdə yükdaşıma müqaviləsinə xitam verilir”. Lakin burada bir istisna var. AR TGM-in 121.1 maddəsində deyilir ki, dənizlə yük daşınması müqaviləsi bağlandıqdan sonra və

gəmi yükvurma limanından çıxana kimi *tərəflərdən asılı olmayan* (kurs – müəll.) ...hallarda müqaviləyə digər tərəfə müqavilənin xitamı ilə əlaqədar vurulan zərərin əvəzini ödəmək öhdəliyi olmadan xitam verilir (12). Bu halda daşıyıcının məsuliyyəti problemi yaranmır. Daşıyıcının məsuliyyətsizliyi və ya ağlabatan qayğıkeşlik göstərmədən öhdəliyi pozması nəticəsində vurulan zərərə görə müqavilənin xitamı AR TGM-in 95 (yükvurma limanı və yeri) və 96-cı (gəminin verilməsi) maddələrində təsbit edilib. Qeyd etdiyimiz ölkələrdə olduğu kimi AR qanunvericiliyində də "gəminin səfərə hazır olmaması" "çarterdə nəzərdə tutulmuş vaxtda gəmi verilmədikdə" kimi təsbit edilib. AR TGM 96.1-ci maddəsində deyilir ki, çarterdə nəzərdə tutulmuş vaxtda gəmi verilmədikdə, fraxtedənin dənizlə yük daşınması müqaviləsindən imtina etmək və vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır (Stow, 2014).

Bir qayda olaraq çarterdə konosament üzrə qeyd-şərtlər təsbit edildiyindən həmin daşıma müqavilələrinin konosament şərtli müqavilə üçün də keçərli sayılmalıdır (Çarterin və konosamentin qarşılıqlı əlaqəsi – m.91) (19). Ümumi hüquq sistemində olan dövlətlərdə problem əsasən məhkəmə praktikası və doktrina əsasında tənzimlənir. Yük göndərən müvafiq müqavilədən o zaman imtina edir ki, gəminin səfərə hazırlığının gözlənilməməsi müqavilənin kommersiya məqsədinə təsir etmiş olsun. Məsələn, səfərin gecikdirilməsi halı gəminin səfər hazırlığına verilmiş təminatın pozulması ilə əlaqəlidirsə dəymiş zərər daşıyıcı tərəfindən ödənilməlidir. Gəminin səfərə hazır olmaması sonradan, gəmi açıq dənizə çıxandan sonra müəyyən edildikdə də ingilis məhkəmə praktikası örnək xüsusiyyətlər formalaşdırıb (Shmitgoff, 1993: 295-315). Bu qaydalara uyğun olaraq daşıma zamanı müəyyən edilən yararsızlıq müqavilənin (çarterin) fəaliyyətini dayandırmır. İmkan verir ki, daşıyıcıdan gəminin reysə hazır olmamasından dəyən zərər ödənilsin. Müqavilə ləğv olunmadığı üçün gəminin yararsızlığı və ya səfərə hazır olmaması səbəbindən deyil, daşıyıcı burada başqa hadisədən yaranan zərərə görə məsuliyyətini istisna edəcək müqavilə şərtlərinə istinad etmək hüququ əldə edir (Kalpin, 2009: 40-50). Yəni daşıyıcı məsuliyyətini istisna edəcək qeyd edilən vəziyyəti, halları sübut etmək öhdəliyi daşıyır.

Gəminin reysə hazır olmaması nəticəsində dəyən zərər qeyd edildiyi kimi yükün çatdırılmasının gecikdirilməsi, zədələnməsi və itirilməsi halları ilə bağlı ola bilər. Bu hallarda məsuliyyəti istisna edəcək vəziyyətlərin dairəsini müəyyən etmək üçün beynəlxalq qaydaların ümumi konsepsiyasından çıxış edilməlidir.

İfadə edilən Rotterdam qaydaları (m.17.5) AR TGM-in müvafiq 93-cü maddəsinə münasibətdə qarşılıqlı hüquq və vəzifələri, xüsusilə sübutetmə yükü ilə bağlı məsələləri daha sistemli formada tənzimləyir. İtki, korlanma və çatdırılmanın gecikdirilməsi ilə bağlı zərər üzrə sübutetmə vəzifəsi daşıyıcının əks tərəfinin üzərinə qoyulmuşdur. Rotterdam qaydalarının 17.5-ci maddəsində deyilir ki, əgər:

a) iddiaçı (burada yükgöndərən, yükalan və ya onlarla əlaqəli şəxslər – kurs müəll.) sübut edərsə ki, itirilmə, zərər və ya gecikdirilməyə səbəb və ya ehtimal səbəb və ya onun təşviqi:

i) gəminin yararsızlığı;

ii) zəruri təchizat və ya təminatla, heyətlə komplektləşdirmənin olmaması; və ya

iii) o fakt ki yükün daşınması üçün daşıyıcı tərəfindən təqdim edilən istənilən konteyner, anbarlar və ya gəminin digər hissələri yükün qəbulu, daşınması və saxlanılması üçün təhlükəsiz və ya olması tələb edilən vəziyyətdə olmamışdır...halı qeyd edilir.

## Nəticə

Yalnız bundan sonra həmin maddənin b yarımbəndindəki kimi daşıyıcı itki, zərər və ya gecikdirmənin bu maddənin 5-ci bəndinin (a) yarımbəndində göstərilən hadisələrlə və ya şəraitlərdən hər hansı biri ilə əlaqəli olmadığını; və o 14-cü (*gəminin reysinə münasibətdə tətbiq edilməli konkret öhdəliklər* – kurs müəll.) maddəyə uyğun olaraq zəruri qayğıkeşlik üzrə öhdəliyini yerinə yetirdiyini sübut edə bilmədikdə, yükün itirilməsinə, zərərə uğramasına və gecikdirilməsinə görə məsuliyyət daşıyır (The Rotterdam Rules, 2010: 15-16). Göründüyü kimi Rotterdam qaydalarında (m.17.5) yükün itirilməsinə, zərərə uğramasına və gecikdirilməsinə görə sübutetmə

məsələsi daha ardıcıl verilmişdir. AR TGM-in 93.2 maddəsi sübutetmə yükü ilə bağlı qeyri-müəyyən redaksiyaya malik olduğu üçün Rotterdam qaydalarına (m.17.5) uyğunlaşdırılmalıdır.

## Ədəbiyyat


1. Admiralty and Maritime law. (2008). Robert Force, A.N. Yiannopoulos Martin Davies. Volume 2. Washington.: D.C. Beard Books, 475 p.
2. www.e-qanun.az
3. Kumalagova, T. (2010). Otvetstvennost' perevozchika za ne sokhrannost' gruza po dogovoru mezhdunarodnoy morskoy perevozki gruza. Avtoreferat dissertatsii na soiskaniye uchenoy stepeni kandidata yuridicheskikh nauk. M., 23 s.
4. Wilson John, F. (2010). Carriage of goods by sea.7-th edition. Printed in Great Britain by Clays Ltd, 559 p.
5. Admiralty and Maritime Law. (2008). Practitioners Edition, Volume 1, By Robert Force, A.N. Yiannopoulos and Martin Davies. Washington.: D.C.Beard. Books, 518 p.
6. Kalpin, A. (2009). Morekhodnoye sostoyaniye sudna po dogovoru morskoy perevozki gruza. Zhurnal "Pravo. Zhurnal Vysshey shkoly ekonomiki", M., № 4, s.40-50
7. Morskoye pravo i praktika. (1995-1999). Delo MAK, №69, 23 s.
8. Borinov, I. (1988). Kommentariy sudebnoy i arbitrazhnoy praktiki po morskim delam. M.: Transport, 240 s.
9. The Makedonia. Lloyds law Reports. (1962). Rep.316 https://www.i-law.com.
10. The Diest of English case law. (1898). Vol. XIII. by J.Mers, 410 p.
11. Lloyds Maritime and Commercial law. Lloyds law Reports, 775 p.
12. Scrutfon, T. (1974). Charter parties and Bills of lading. L., 77 p.
13. Maritime law in 2017: a review of developments in case law. (2018). By J.Hjalmarsson. Lloyds law Reports, 216 p. https://maritimeintelegence.informa.com.
14. Carver, T., Collinvaux, R. (1982). Carver's Carriage by Sea. British Shipping laws. British Shipping law library. Vols.1-2, 2.Publisher. Thirteenth edition Stevens. L., 1356 p.
15. Fionna, G. The importance of Paramount Clauses. Ince, Co London. www.gard.no
16. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə. www.ardda.gov.az.images.fermanlar.
17. Stow, A. (2014). Web alert: the importance of a clause paramount. 22 December. www.standard-club.com.
18. Shmitgoff, K. (1993). Konosamentnyye perevozki. Eksport: pravo i praktika mezhdunarodnoy torgovli: Per. s angl. M: Yurid. lit., 511 s.
19. The Rotterdam Rules. (2010). The UN Convention on Contract For the International Carriage of Goods Wholly of Partly by Sea. By. M.F.Sturley, T.Fujita, G.Vander Ziel. Sweet, Maxwell, p.15-16


Göndərilib: 24.02.2023 Qəbul edilib: 17.04.2023

# İÇİNDƏKİLƏR

**Hacı Həsənov**
Güney Qafqaz əhalisinin milli-etnik tərkibi haqqında (1897-ci il Rusiya imperiya əhalisinin birinci ümumi siyahıya almasının materialları əsasında) ................................................6
**Arzu Babayeva**
Xarici dil dərslərində iqtisadi mətnlərlə işləməyin metodları ........................................................11
**Pərvin Qafarova**
Ümumtəhsil məktəb biologiyasının tədrisində şagirdlərə ekoloji bilik və bacarıqların aşılanması .............................................. ...............................................................16
**Səfurə Cəfərova**
Azərbaycan auditoriyasında ilkin mərhələdə ingilis dili tələffüz vərdişlərinin aşılanması yolları ..........................................................................................................22
**Nigar Babayeva**
**Xədicə Qayıbova**
İON rabitəsinin tədrisi zamanı STEAM təhsil metodunun tətbiqi .....................................................28
**Sevda Novruzəliyeva**
Kommunikasiya və gözəl əxlaq ..........................................................................................32
**Kamil Adıgözəlov**
Şimali Azərbaycanın Rusiya tərəfindən işğal dövründə aqrar münasibətlərin nizamlanması cəhdləri ...................................................................................................38
**Aynurə Qurbanova**
Söyləmlərin üst qatda semantik əlamətləri .............................................................................46
**Kubra Quliyeva**
Ömər Faiq Nemanzadə yaradıcılığında ana dili məsələsi ...............................................................54
**Xatirə Məmmədova**
Beynəlxalq turizm konsepsiyası və onun növləri ..............................................................................59
**Nicat Həsənov**
"Əmtəə nişanından istifadə edilməməsi nəticəsində ona dair hüququn xitam olunması əsasları və təcrübədə qarşılaşılan problemlər" .........................................................64
**Khazar Musayev**
Sustainable economic development and its challenges ...................................................................71
**Hajar Abdullayeva**
Using breaking news stories while teaching english for specific purposes to students of the school of political administration ..................................................................................76
**Bəkir İsmayılov**
İdmanda gender bərabərliyinin təmin olunmasında dünya atletikasının rolu ....................................81
**Fuad Əlizadə**
Beynəlxalq təcrübədə kriptovalyutaların hüquqi tənzimlənmə mexanizmi .....................................86
**İlkin Əliyev**
Strateji planın tətbiqi və qiymətləndirilməsi yolları ..........................................................................91
**Jala Shahveranli**
The importance of national and regional development polices in the environmental sustainability ..........................................................................................95
**İsa Əlili**
Azərbaycanda işsizliyin azaldılmasında dövlət siyasətinin rolu .....................................................100
**Elvin Şirinov**
Birləşmiş Millətlər Təşkilatının müasir siyasi proseslərdə rolu .....................................................105
**Aqşin Ağazadə**
Kommersiya banklarının aktivlərinin keyfiyyətinin qiymətləndirilməsi .......................................111

**Ayxan Alıbəyli**
Azərbaycan-Almaniya ticarət əməkdaşlığının əsaslandırılması ....................................................115
**Əli Nəsirli**
Bankların taksit kartları üzrə statistik və analitik analizi, taksit kart müştəriləri haqqında məlumatların müxtəlif meyarlar üzrə təhlilinin aparılması ................................121
**Aysel Abdullazade**
Cultural diplomacy .........................................................................................................129
**Elchin Aliyev**
Use of information technologies in the human resources system .................................................134
**Gunay Hajizade**
Feminism in the Novel of Jane Eyre ..........................................................................140
**Günay Novruzova**
Azərbaycan folklorunun öyrənilməsində Heydər Əliyevin rolu ...................................................145
**Günay Süleymanova**
XIX-XX əsrlər ingilis ədəbiyyatında müstəmləkəçilik mövzusunun təşəkkülü .............................150
**Nurlan Arifzadə**
Kənd təsərrüfatı təyinatlı obyektlərdə nəmliyə nəzarət ...............................................................155
**Qəhrəman Rüstəmov**
İdman yarışlarında irqi ayrı-seçkilik probleminin hüquqi tənzimlənilməsinin analizi ....................159
**Səlcuq Yusifli**
Kommersiya sirrinin anlayışı və meyarları .........................................................................163
**Tacirə Abdullayeva**
Seçki standartları, beynəlxalq təcrübə və Azərbaycan modeli .....................................................170
**Tamerlan Hacıyev**
Heydər Əliyev Azərbaycanda konstitusion islahatların banisidir .................................................175
**Yusif Əhmədzadə**
Bankların taksit kartları üzrə statistik və analitik təhlili ...............................................................183
**Kamal Novruzov**
The role of administrative law regulation in civil society ............................................................187
**Məhəbbət Gözəlov**
**Hikmət Əsgərov**
**Mustafa Vətənxah**
İki vuruşlu və dörd vuruşlu mühərriklərin müqayisəli təhlili ........................................................192
**Kamal Novruzov**
Azərbaycan Respublikasında informasiya cəmiyyətinin yaradılmasının hüquqi əsasları ...............198
**Cavid Məmmədli**
Müasir dövlət qulluğu sistemində kadr texnologiyalarının tətbiqi .................................................203
**Aytac Cəfərova**
Daşıyıcının gəmini səfərə hazırlaması öhdəliyi ..........................................................................209

İmzalandı: 27.04.2023
Formatı: 60/84, 1/8
H/n həcmi: 27.5 ç.v.
Sifariş: 634

aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az